**KAMRAN ƏLİYEV**

# ROMANTİZMİN POETİKASI
## Əsərləri, 10 clddə
## II cild

**"Elm və təhsil"**
**Bakı – 2018**

**Elmi redaktor:** **Teymur KƏRİMLİ**
*AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın həqiqi üzvü*

**Tərtib edən:** **Fidan QASIMOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Nəşrə məsul:** **Gülnar OSMANOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Kamran Əliyev. Romantizmin poetikası (Əsərləri, 10 cilddə, II cild). Bakı, "Elm və təhsil", 2018, 312 səh.**

Kitabda romantik qəhrəman konsepsiyası, qəhrəmanın fövqəltəbiəti və tənhalığı, zaman və məkan daxilindəki hərəkəti, təbiət və mifoloji obrazların simvolik xarakteri, Qərb və Şərq, Yaxın və Uzaq, Həyat və Ölüm kimi poetik qarşıdurmalar Azərbaycan romantizminin poetikasını müəyyənləşdirən əsas problemlər kimi təhlil edilir.

ISBN 978-9952-8176-3-8

**© K.Əliyev, 2018.**

## NƏZƏRİYYƏ YÜKLÜ FOLKLORŞÜNAS

CERN-dəki məşhur Adron kollayderində materiyanı parçalayıb yoxa çıxarmaq uğrunda milyardlar xərclənsə də, hələ ki, maddənin itməməsi qanununu ləğv etməyiblər və yan-yörəmizdə baş verən bir hadisə bunu bir daha təsdiq etdi. Maddi varlıq olduğundan, eyni sözü insan haqqında da demək olar.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu uzun illər boyu yetişdirib ərsəyə gətirdiyi böyük bir alimini “itirdi”; ancaq həmin alimi AMEA Folklor İnstitutu qazandı. Bu – bizim gəncliyimizin kumirlərindən biri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Respublikanın Əməkdar elm xadimi, professor Kamran İmran oğlu Əliyev idi.

Kamranla yaşıd olsaq da, ucaboylu olduğundanmı, yoxsa nəyə görəsə həmişə bizi bir boy qabaqlayırdı. Universitetin Filologiya fakültəsinə də, Ədəbiyyat İnstitutunun aspiranturasına da bizdən öncə girmiş, 27 yaşında namizədlik, 37 yaşında doktorluq dissertasiyası müdafiə etmişdi. Hələ tələbə vaxtından ciddiliyi, məsuliyyəti, ağsaqqallığı ilə seçilirdi. İctimai işlərdə də kifayət qədər fəal idi, yoldaşlarının qayğısına qalan idi.

“İdi” niyə deyirəm mən? Elə indi də elədir. Yaşının bu müdrik çağında, məhsuldar elmi yaradıcılığının günü-gündən çiçəkləndiyi, bar-bəhər verdiyi bir zamanda elə həmin həlim, dostcanlı, vətənsevər bir şəxsiyyət olaraq qalır.

Professor Abbas Zamanov, akademik Məmməd Cəfər, akademik İsa Həbibbəyli kimi böyük alimlərin məktəbindən çıxmış Kamran müəllimin bu gün öz elmi məktəbi formalaşıb, ardıcılları, tələbələri onun orijinal elmi tədqiqatlarından, yazıb-yaratmaq yanğısından öyrənir, elmdə onu bir örnək kimi qəbul edirlər.

Sanballı bir məqaləsində unudulmaz müəllimimiz professor Mir Cəlal Paşayev haqqında dediyi “mətnin mahiyyətinə varmaq”

elmi prinsipini Kamran Əliyevin öz elmi yaradıcılığına da uğurla aid etmək olar. Fərqi yoxdur – istər klassiklərdən, istər müasirlərdən, istərsə də folklordan yazsın; mətnin üzdə görünən xüsusiyyətlərinə deyil, mahiyyətinə nüfuz etmək, çoxları üçün "görünməz" olan cəhətləri, cizgiləri üzə çıxarmaq, akademik üslubda təqdim etmək professor Kamran Əliyevin evristik təfəkkürünün, tədqiqatçılıq istedadının üstün cəhətlərindəndir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi "Leyli və Məcnun" poemasının xatiməsində deyir ki, "bu gözəl gəlini" on dörd aya bəzəyib meydana çıxardım. Əgər gündəlik qayğılar imkan versəydi, bu işi 14 günə başa çatdırardım...

Dedim ki, AMEA-nın müxbir üzvü, professor Kamran Əliyev kifayət qədər məhsuldar alimdir. Ancaq keçid dövrünün keşməkeşləri, dahi Nizami demişkən, dolanacaq qayğıları olmasaydı, yəqin ki, indikindən ikiqat artıq əsər meydana qoyardı.

Neynək, buna da şükür! Elə əlimizdə olan əsərləri də onun müasir ədəbiyyatşünaslıq və folklorşünaslıq elmimizin böyük nümayəndələri, mükəmməl nəzəri təfəkkürlü alimlər arasında öz layiqli yerini tutmağa haqq verir.

Dostumuz, qələm yoldaşımız, çiyindaşımız Kamran Əliyevin 65 illik yubileyini ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, humanitar elmimizin inkişafı naminə məhsuldar yaradıcılığında yeni-yeni uğurlar diləyirəm!

Qoy bütün ağrı-acıların keçmişdə qalsın, əziz dost!

**Teymur KƏRİMLİ**
*AMEA Humanitar Elmlər*
*Bölməsinin akademik-katibi,*
*AMEA-nın həqiqi üzvü*

# GİRİŞ

Azərbaycan ədəbiyyatı tarixində XX əsrin əvvəlləri yeni ictimai-siyasi hadisələrin zəminində formalaşan ayrıca bir ədəbi mərhələ və dövrdür. Bu illərdə mətbuat görünməmiş vüsət aldı, ədəbi mübahisələr və ədəbi mübarizələr qızğın və kəskin səciyyə qazandı, teatr və ədəbi-mədəni cəmiyyətlər ən populyar mədəni mərkəzlərə çevrildi. Qədim bir tarixə malik olan Azərbaycan ədəbiyyatında realizm ilə romantizmin yanaşı inkişafı ədəbi hərəkatın özünə yeni keyfiyyət gətirdi. Ən başlıcası, XX əsr Azərbaycan romantikləri Məhəmməd Hadi (1879-1920), Hüseyn Cavid (1882-1941), Abbas Səhhət (1874-1918), Abdulla Şaiq (1881-1959), Abdulla bəy Divanbəyoğlu (1883-1936), Abdulla Sur (1882-1912), Səid Səlmasi (1887-1909) öz yaradıcılıqları ilə realist ədəbiyyatın izlədiyi məqsəd və ideallara səs verdilər. Onların bədii əsərlərində oyanmış yox, məhz oyanmaqda olan cəmiyyətin problemləri və bu cəmiyyətdə yaşayan insanların istək və arzuları əks etdirilirdi.

XX əsrin son onilliklərində XX əsrin ilk onilliklərində təşəkkül tapıb formalaşmış Azərbaycan romantizminin öyrənilməsi geniş və sistemli xarakter daşımışdır. İstər rus, istərsə də dünya romantiklərinin yaradıcılığının tədqiqində, romantizmə baxışda buraxılmış metodoloji qüsurlar aradan qaldırılmış, romantiklərin əsərləri mənsub olduqları xalqın ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi təhlil və təqdir edilmiş, eyni zamanda yeni problemlərin qoyuluşuna ciddi imkanlar açılmışdır.

Bu tədqiqat dövrünün ən mühüm göstəricilərindən birisi, şübhəsiz, bədii yaradıcılığın poetika problemlərinin öyrənilməsidir. Məsələnin həmin mövqedən qoyuluşu ayrı-ayrı əsərlər,

ayrı-ayrı yazıçılar, nəhayət, ayrı-ayrı ədəbi cərəyanlar və bədii metodlar haqqında yeni fikir və mülahizələr söyləməyə geniş imkanlar açır. O sıradan romantiklərin yaradıcılığının və eyni zamanda, romantizmin özünün poetika problemlərini araşdırmaq səmərəli elmi addım hesab olunmalıdır. Rus ədəbiyyatşünaslığının təcrübəsi bu fikri tamamilə təsdiq edir (Манн, 1977).

Hər hansı ədəbi cərəyanın poetikasını bir tədqiqatla araşdırıb başa çatdırmaq mümkün deyildir. Ona görə də görkəmli ədəbiyyatşünas Y.V.Mann rus romantizminin poetika sistemində romantik konflikt problemini şərh etməyə üstünlük vermişdir. Biz isə bu monoqrafiyada XX əsr Azərbaycan romantizminin obrazlar şəbəkəsinin tədqiqini əsas diqqət mərkəzinə çəkmişik.

Digər tərəfdən mövcud tədqiqat romantiklərin yaradıcılığının inkişaf xüsusiyyətlərini, onların bir sənətkar kimi həm fərdi, həm də ümumi keyfiyyətlərini, ayrı-ayrı yazıçıların bədii yaradıcılıq sirlərini, bütövlükdə Azərbaycan romantizminin özünəməxsusluqlarını aşkara çıxarmağa, romantik inikas üsulunun spesifikasını, ayrı-ayrı çalarlarını, tələblərini və prinsiplərini aydınlaşdırmağa, Azərbaycan romantizminin ədəbiyyat tariximizdəki yerini və mövqeyini müəyyənləşdirməyə imkan yaradır. Bütün bunlar nəticə etibarilə mövzunun aktuallığı haqqında aydın qənaət yaratmış olur.

Bir də poetika probleminin təhlili o halda daha obyektiv görünür ki, tədqiqatçı bədii kəşfləri ilə seçilən yazıçıların yaradıcılığına müraciət etmiş olur. Bu prosesin özündə belə, poetika yazıçının bədii kəşflərinin sirrini açır və elan edir.

Monoqrafiyada XX əsr Azərbaycan yazıçı-romantikləri M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu, A.Sur və S.Səlmasinin əsərlərinə istinad edilmişdir. Sonuncu iki sənətkarın əsərləri XX əsrin əvvəllərinə aid mətbuat səhifələrindən götürülmüş və təhlilə cəlb edilmişdir. Bu romantiklərin yaradıcılığı ilə təmsil olunan Azərbaycan romantizminin obrazlar sistemini

tədqiq etmək, onun ideya axtarışlarının qabaqcıl, mütərəqqi mahiyyətini açıb göstərməklə bu romantizmin poetika problemlərini araşdırmaq monoqrafiyada qarşıya qoyulan əsas məqsəddir.

Burada bir mübahisəsiz həqiqəti də qeyd etmək lazımdır ki, adətən, yazıçı qayəsi onun yaratdığı surətlər vasitəsi ilə ifadə olunur. Başqa sözlə, bədii əsərin məna və məzmunu orada əks etdirilən surətlərin iş və əməlləri ilə, ideyaları və idealları ilə bilavasitə əlaqədardır. Tamamilə doğrudur: "Bədii obraz haqqında deyilən bütün fikirlər, incəsənət haqqında olan fikirlər deməkdir" (Гаранов, 1970: 11).

Ümumiyyətlə, bədii obrazın poetika kateqoriyası kimi öyrənilməsi vacib ədəbiyyatşünaslıq vəzifələrindən biridir (Гей, 1982: 68).

Yaxud bir ədəbi məktəb və ya ədəbi cərəyana mənsub olan sənətkarları vahid yaradıcılıq kredosu ətrafında birləşdirən başlıca amil də bilavasitə qələmə alınmış surətlərlə bağlıdır. Şübhəsiz, obrazlar sistemi geniş və əhatəli olduğu üçün bu mülahizə yalnız insan surətləri ətrafında məhdudlaşmır. Yəni elə hallar ola bilər ki, təbiətin və cəmiyyətin müəyyən vahidləri də obrazlaşıb yazıçı ideyasının ifadəçisi səviyyəsinə qalxa bilər.

Bütün bunların həlli üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– Romantik qəhrəman konsepsiyasının məzmununu şərh etmək.

– Nəsrin, lirikanın və dramaturgiyanın qəhrəmanlarının mövqe və xarakterlərinin izahını vermək.

– Təbiət obrazlarını və mifoloji obrazları səciyyələndirmək.

– Bədii qarşıdurma təşkil edən obrazları müəyyənləşdirmək.

–XX əsr Azərbaycan romantizminin özünəməxsus cəhətlərini, romantiklərin bədii yaradıcılıqları ilə onların ədəbi-nəzəri görüşlərinin vəhdətini meydana çıxarmaq.

Bir məsələyə də aydınlıq gətirək ki, XX əsr Azərbaycan romantizminin, bir ədəbi cərəyan kimi onun səciyyəvi xüsusiyyətlərinin, ayrı-ayrı romantiklərin yaradıcılıq sirlərinin öyrənilməsi ilk mərhələdə bilavasitə romantiklərin özlərinin adı ilə bağlıdır. M.Hadinin, H.Cavidin, A.Səhhətin, A.Şaiqin müxtəlif vaxtlarda yazılmış məqalələrində romantiklər ya həmkarlarının yaradıcılığını, ya da öz sənət mövqelərini müdafiə etmişlər (Hadi, "İqbal" qəzeti, 3 avqust 1914; Hadi, "Azərbaycan" qəzeti, 18 noyabr, 1918; Cavid, "İqbal" qəzeti, 16, 17 may 1912; Cavid, "İqbal" qəzeti, 17 mart 1913; Cavid, "İqbal" qəzeti, 12 may, 1913; Səhhət, "Həyat" qəzeti, 23 fevral 1905; Səhhət, 1912: 4-6; Şaiq, "Maarif və mədəniyyət" jurnalı, 1925, № 2: 39-46 və s.). Romantizmin yarandığı dövrdə bu romantizmin tədqiqatçısı olmaq səlahiyyəti də onlara məxsus olmuşdur.

Bir tənqidçi kimi romantiklərə münasibətdə Seyid Hüseynin yazdığı "Açıq tənqid" adlı məqalə xüsusilə səciyyəvidir (Hüseyn, "Azərbaycan" qəzeti, 17 avqust, 1919). Əsasən, realizmin və realist yazıçıların tədqiqatçısı olan S.Hüseyn həmin məqalədə romantiklərin sənət mövqeyini düzgün müəyyənləşdirir: "Romantik mühərrirləri heç bir qanuna tabe olmaq istəməzlər. Onların şəxsi zövqləri onlar üçün bir qanundur. Onlar, romantiklər, öz düşüncə və mühakimələrində sərbəstdirlər".

XX əsrin 20-ci və 30-cu illərinin əvvəllərində tənqid və ədəbiyyatşünaslıq fikri romantizmə, əsasən, H.Cavidin əsərləri vasitəsilə münasibət ifadə edirdi. Şübhəsiz, bu dövrün bütün tənqidçiləri H.Cavid yaradıcılığına eyni mövqedən yanaşmırdılar. Digər tərəfdən 20-ci illər üçün səciyyəvi olan vulqar sosioloji fikir romantik sənətkarın bədii irsinin, ayrı-ayrı əsərlərinin təhlilində təhriflərə də gətirib çıxarırdı. Dramaturq ya bir çox tarixi şəxsiyyətlərdən yazmasına, guya onları idealizə etməsinə görə, ya bəzi əsərlərinin mövzusunu Yaxın Şərq, Avropa ölkələrindən aldığı üçün tənqid olunurdu. Hər iki cəhətə görə H.Cavidi tənqid

edənlər, şübhəsiz, yanılırdılar (Xəlil İbrahim, “’Kommunist” qəzeti, 1-2 dekabr 1921; C.C. “Zəhmət” qəzeti, 5 iyun 1922; Quliyev, “Maarif və mədəniyyət” jurnalı, 1926, № 10-11; Quliyev, “Kommunist” qəzeti, 7 dekabr, 1926; Nazim, “Maarif və mədəniyyət” jurnalı, 1926, № 9 və s.).

Hər hansı yeni dövrün, yeni epoxanın təşəkkülə başlamış ədəbi hərəkatı üçün tarixdən bəhs edən və həm də sənətkarlıq cəhətdən qüvvətli olan əsərlər maneə ola bilməz, hətta onları zərərli adlandırmaq da düzgün deyildir. Yəni “yeni” adlandırılan ədəbi proses üçün klassika etalonuna uyğun gələn yaradıcılıq nümunəsi barrikada deyildir.

H.Cavid inqilabdan əvvəl çap olunmuş kitablarından birinə “Keçmiş günlərdən” adını vermişdir. Keçmiş günlər yaşanılan günlər olmaq baxımından H.Cavid üçün tarixi yaddaşdı, həm də uzaq gələcəklə müqayisə edilə bilən, bu gələcəyin əsası olan bir yaddaşdır. Tənqid, dramaturqun tarixi əsərlərinin məhz bu cəhətini görmürdü. “Topal Teymur” pyesinin qəhrəmanının ideallaşdırıldığını zorla sübut etmək istəyən tənqidçilər sənətkarın qan axıtmaq, yürüş etmək əleyhinə olduğunu sezmirdilər.

Digər tərəfdən H.Cavidi “Uzaq mühitlərdən” yazmasına görə ittiham etmək də doğru deyildir. Çünki mövzuları yaxın və uzaq məkanlardan götürmək, obrazları yaxın və uzaq adamların taleyi ilə bağlamaq dünya romantizminin səciyyəvi keyfiyyətlərindəndir. Başqa sözlə, böyük ingilis romantiki Bayron “Şərq poemaları”, romantik Puşkin “Cənub poemaları” ilə məşhurlaşmışdır.

Hənəfi Zeynallının bu dövrdə H.Cavidin əsərləri haqqında yazdığı məqalələr xüsusi maraq doğurur. Onun “Şeyda” və “Maral” pyeslərindən bəhs açan yazıları qısa mülahizələr olmaqla bərabər, müəyyən qədər bəsit səciyyə daşıyır. Tənqidçinin “Peyğəmbər” və “Şeyx Sənan” faciələrinin təhlili isə geniş, elmi, obyektiv qiymətləri ilə seçilir. Doğrudur, həmin məqalələr də vulqar

sosiologizmin təsirlərindən xali deyildir. Amma bir cəhət vardır ki, H.Zeynallı H.Cavid romantizminin prinsiplərini, sənətkarın romantik dramaturgiya sahəsindəki nailiyyətlərini sezmiş və onları dövrünün oxucularına aydın və səlis dildə çatdırmışdır. Hətta tənqidçinin ittihamları da elə məhz duyulmuş, dərin müşahidə nəticəsində müəyyənləşdirilmiş bu romantizmlə, romantik inikas üsulu ilə bağlıdır. O, "Peyğəmbər"dən bəhs edərkən yazır: "Cavid kütlədən qaçır, onun içərisinə girib dərdlərini araşdıra bilməyir, onun hissləri ilə yaşamayır, ona görə də uzaqlığı hər şeydən artıq sevir... Həmin bu uzaqlığı sevən Cavid romantikdir. O, həyatın zəhərli neştərini görmək, onu duymaq istəməyir, o, müvəqqəti də olsa aldanmaq istəyir və aldandığını da anlayır" (Zeynallı, 1983: 70-71).

Tamamilə aydın və dəqiq görünür ki, H.Zeynallı dramaturqun romantizmini görür və təsdiq edir, bu əsərlərin yeni dövrün mübarizələrinə hansı məqamlarda uyğun gəldiyini tapa bilməyəndə isə tənqid etmək fikrinə düşür və səhvə yol verir. Ümumilikdə götürdükdə H.Zeynallının H.Cavid haqqında mülahizələri öz dövrü üçün qiymətli olmaqla bərabər bir sıra tezislərinə görə müasir dövrdə də öz əhəmiyyətini saxlamaqdadır.

Akademik M.C.Cəfərovun Məhəmməd Hadinin yaradıcılığından bəhs edən "Səni kim unudar?" məqaləsi (Cəfər, "Ədəbiyyat" qəzeti, 28 oktyabr, 1942) istisna olunmaqla, XX əsr Azərbaycan romantizminin geniş və hərtərəfli tədqiqi müharibə illərindən sonrakı dövrü əhatə edir. Bu dövrdə romantizmin öyrənilməsi üç istiqamətdə aparılır: 1) Azərbaycan romantizmi bütövlükdə - ədəbi məktəb və ədəbi cərəyan kimi araşdırılır; 2) Ayrı-ayrı romantiklər haqqında dissertasiyalar və monoqrafik tədqiqatlar yazılır; 3) Dövrün ədəbi həyatına, ayrı-ayrı janrların spesifik cəhətlərinin təhlilinə həsr edilmiş kitablarda romantiklərin əsərlərindən bəhs olunur.

Professor M.C.Paşayevin "Ədəbi məktəblər (1905-1917)"

mövzusunda yazdığı doktorluq dissertasiyasında XX əsr Azərbaycan romantizminə ilk sistemli baxış meydana çıxır (Paşayev, 1946). Tədqiqatçı realizm və realistlərlə yanaşı romantizmi və romantikləri də tədqiqata cəlb edir, iki ədəbi cərəyanın yanaşı fəaliyyətinin məna və mahiyyətini elmi prinsiplərlə şərh edir. Ayrıca qeyd etmək olar ki, M.C.Paşayev Azərbaycan ədəbiyyatşünaslıq tarixində romantizm ədəbi cərəyanını bütöv şəkildə tədqiqata cəlb edən ilk tədqiqatçıdır.

XX əsr Azərbaycan romantizminin daha geniş, daha ətraflı və sistemli öyrənilməsi akademik M.C.Cəfərovun adı ilə bağlıdır. Onun "Azərbaycan ədəbiyyatında romantizm" kitabı həmçinin bu problemin tədqiqində yeni mərhələnin başlanğıcı oldu (Cəfər, 1953). Ədəbiyyatşünas alim romantizmi yaradıcılıq metodu, ədəbi cərəyan və üslub kimi tədqiq edir, romantizmin nəzəri-estetik prinsiplərini, tematikasını, janrlarını, obrazlarını araşdırır, romantizmin ideya xüsusiyyətlərinin şərhini verir.

Akademik Kamal Talıbzadənin "XX əsr Azərbaycan tənqidi" monoqrafiyasında isə romantiklərin ədəbi-elmi mülahizələri dövrün tənqidi fikrinin tərkib hissəsi kimi təqdim olunur (Talıbzadə, 1966). Romantiklərin yazıçılara və bədii əsərlərə baxışları ilə realistlərin ədəbi mövqeləri arasındakı yaxınlıqlar və əlaqələr geniş təhlilini tapır.

Sonralar isə XX əsr Azərbaycan romantizminin müxtəlif problemlərinə həsr olunmuş dissertasiyalar və monoqrafiyalar yazılır (Rəfiq Zəka Xəndan, 1966; Alışanov, 1984; Həbibov, 1984; Əliyev, 1985; Osmanlı, 1985).

Müharibədən sonrakı mərhələdə ayrı-ayrı romantiklər barədə tədqiqatların aparılması Ə.Mirəhmədovun və K.Talıbzadənin adı ilə bağlıdır. Ə.Mirəhmədovun M.Hadi (Mirəhmədov, 1947), K.Talıbzadənin A.Səhhət (Talıbzadə, 1949) yaradıcılığına həsr olunmuş dissertasiyaları romantik sənətə baxışın mühüm elmi nailiyyətlərindəndir. Akademik M.Cəfərin "Hüseyn Cavid"

monoqrafiyasında (Cəfər, 1966) və A.Şaiqdən, A.Divanbəyoğlu-dan bəhs edən bir sıra əsərlərdə (Mirəhmədov, 1956; İsmayılov, 1962; Məmmədov, 1983; Bəktaşi, 1984) romantizm məsələləri araşdırılmışdır.

Bu dövrün səciyyəvi cəhətlərindən biri də budur ki, Hüseyn Cavidin ayrı-ayrı əsərləri, yaradıcılığının problemləri barədə dissertasiyalar və monoqrafiyalar yazılmışdır (İbadoğlu, 1969; Əlioğlu, 1975; Əkbərov 1977; Караев, 1982; Məmmədov, 1983; İsmayılov, 1983; Əfəndiyev, 1985).

XX əsr Azərbaycan romantiklərinin yaradıcılığından ədəbiyyatşünaslığın bir çox problemlərinə həsr olunmuş tədqiqatlarda da bəhs olunmuşdur (Sultanlı, 1964; Qarayev, 1965; Nəbiyev, 1984 və s.). Müxtəlif aspektlərdə və müxtəlif səviyyələrdə olan bu tədqiqatlar ədəbiyyatşünaslığımızın inkişaf meyilləri və yolları ilə bilavasitə bağlı idi. Həmçinin romantizmə baxışın mövqeyi və miqyası, elmi-nəzəri prinsipləri, sağlam məfkurəvi istiqamətləri dəyişildikcə, romantiklərin yaradıcılığının doğru və düzgün təhlili də təmin olunmuşdur.

Poetika məsələlərinə gəlincə isə ümumittifaq ədəbiyyatşünaslığında bu sahə ilə bağlı tədqiqatlar, monoqrafiyalar mühüm yer tutur (Фридлендер, 1971; Мелетинский, 1975; Манн, 1978; Манн, 1976; Лихачев, 1979; Бахтин, 1979; Поэтика литературы фолкьлора, 1980 və s.) və milli ədəbi fikirdə də bu tipli axtarışların nümunələri vardır. Amma bizdə poetika ünvanlı tədqiqatlar yalnız realizmə və orta əsrlər ədəbiyyatının problemlərinə, klassik romantizm məsələlərinə həsr edilmişdir (Гаджиев, 1972; Abdullayev, 1983; Əhmədov, 1982; Ağayev, 1985).

XX əsr Azərbaycan romantizminin poetika problemlərinin araşdırılmasına yönələn maraq müxtəlif dövrlərə aid olmaqla bərabər, əsasən, ayrı-ayrı romantiklərin yaradıcılığının problemlərindən danışılarkən meydana çıxmış, lakin məqsədli və sistemli səciyyə daşımamışdır. Ədəbiyyatşünaslardan M.Cəfər, K.Ta-

lıbzadə, Ə.Mirəhmədovun tədqiqatlarında bunun izlərini görmək çətin deyildir. Akademik M.Cəfər “Azərbaycan ədəbiyyatında romantizm” monoqrafiyasında romantizmin obrazlar sistemindən danışarkən romantiklərin əsərlərinin poetikasına dair qiymətli mülahizələr irəli sürmüşdür. O, məsələnin bir mühüm tərəfini nəzərdə tutaraq, yazır: “Romantizmin, xüsusən romantik şeirin orijinallığı, üslub xüsusiyyətləri bir də onun obrazlarında, sözün geniş mənasında bədii təsvir vasitələrində idi. Klassik şeir obrazlarından, təşbehlərindən romantiklər də istifadə edirlər. Lakin bu obrazlar, təşbehlər bunlarda tamamilə yeni məzmun kəsb edir, yeni fikirləri, ideyaları ifadə edirdi” (Cəfər, II c., 1974: 68). Bu, romantizmin spesifik cəhətlərini meydana çıxarmağın yolu və istiqaməti idi.

Abbas Səhhətin “Əsərləri”nə müqəddiməsində akademik K.Talıbzadə yazır: “Azadlıq mövzusu Səhhətin obrazlar sistemini də, ayrı-ayrı sözlərin, ifadələrin rəmzi, məcazi mənalarını da təyin edir. Romantik şairin tez-tez işlətdiyi bir çox sözlərdən - dərya, dəniz, səhra, üfüq, ümman, ildırım, şimşək, vulkan, bulud, fırtına, qiyamət, işıq, şölə və s. azadlıq mövzusunun bu və ya digər mənasını, hissəsini ifadə etmək üçün istifadə olunurdu. Hətta şairin dilsiz göylərə, uzaq ulduzlara, sehrli mələklərə, xəyali cənnətlərə müraciəti də azadlıq mövzusu ilə əlaqədar idi, onun romantik xəyalını gələcəklə, yaranacaq yeni bir dünya ilə bağlayan məfhumlar idi” (Səhhət, I c., 1975: 11).

Bu mülahizə romantik Səhhətin yaradıcılığının poetikası ilə bağlı məsələdir. Tədqiqatçı dolayısı ilə olsa belə romantizmə xas olan simvolikanın mahiyyətindən bəhs açır və öz elmi nəticələrini ümumiləşdirir.

Həmçinin alimin nümunə gətirdiyi məfhumlar sadəcə olaraq, romantik şeirdə işlənən terminlər deyildir. Onlar A.Səhhət yaradıcılığında şeirdən-şeirə keçərək müəyyən bir sistem almış və romantik şairin əsərlərinin səciyyəvi əlaməti kimi meydana

çıxmışdır.

H.Cavid yaradıcılığının poetika məsələlərinin tədqiqində Y.Qarayevin “Hüseyn Cavid” kitabı (Qarayev, 1982) mühüm addımlardan biridir. Y.Qarayev “Peyğəmbər”, “Afət”, “Uçurum”, “Şeyx Sənan”, “İblis” və sair romantik faciələri yanaşı qoyanda həmin əsərlərin yalnız mövzu və ideyalarına söykənmir. Belə olsaydı, mövzuların dövr və zaman, ərazi və coğrafi sərhəd baxımından bir-birindən uzaqlığı onları eyni xətt üzrə düzməyə mane olan mühüm səbəblərdən birinə çevrilərdi. Bunları nəzərə alan Y.Qarayev həmin əsərlərin poetikasındakı oxşarlığı əsas götürür, başlıca çıxış nöqtəsi kimi romantik facia və bu faciənin bədii-estetik tələbləri ön plana çəkilir.

Y.Qarayevin tədqiqatında ayrıca götürülmüş bir obrazın poetika baxımından təhlili də maraq doğurur. Müəllif bu fikirlərini, əsasən, “Şeyx Sənan” faciəsinin qəhrəmanı - Şeyx Sənanın təhlili ilə əsaslandırır. Tamamilə doğrudur ki, “Şeyx Sənan özü pərdədən-pərdəyə dəyişilir, o, təzadlı psixoloji vəziyyətləri yaşayır” (Qarayev, 1982: 50). Təbii ki, bu dəyişmə romantik qəhrəmanın dəyişməsi, daha dəqiq desək, özünü bir romantik qəhrəman kimi təsdiq etmək naminə olan dinamikadır.

H.Cavid yaradıcılığının poetikası ilə bağlı bəzi məsələlərin aşkarlanmasında professor Mehdi Məmmədovun “Acı fəryadlar, şirin arzular” kitabı (Məmmədov, 1983) bu tədqiqat silsiləsində müəyyən əhəmiyyətə malikdir. Hər şeydən qabaq, müəllifin H.Cavidin 1920-1926-cı illər yaradıcılığı ilə bağlı aşağıdakı fikrini xatırlayaq:

“Nə üçün bu müddət “böhran dövrü”, bəzən də “tərəddüd illəri” adlanır?

Biz özümüz də vaxtilə bu rəy ilə razılaşmışıq və “Azərbaycan dramaturgiyasının estetik problemləri” kitabında buna haqq vermişik. Lakin bir sıra araşdırmalardan, axtarışlardan sonra qəti inamla etiraf edirik ki, bu illəri nə əlahiddə dövr kimi

ayırmağa, nə də Cavidin bu müddətdə tərəddüd və böhran keçirdiyini təsdiq eləməyə əsasımız yoxdur" (Məmmədov, 1983: 93-94). Tədqiqatçının bu səmimi etirafı, Cavidin yaradıcılığında "əlahiddə dövr" axtarmağın qüsurluluğu barədə elmi inamı dramaturqun əsərlərinin poetika xüsusiyyətlərinə olan ciddi baxışın nəticəsində yaranmışdır. Müəllifin Cavid dramaturgiyasındakı bədii detallarla bağlı marağını da əslində poetika vahidlərinə maraq kimi başa düşmək lazımdır.

Tədqiqatçı H.Cavidin "Peyğəmbər" əsərindən danışarkən yazır: "Pyesdə Mələklə yanaşı ikinci bir simvol-obraz da var ki, o, həmin bu faciəli ehtirası-nəfsi təmsil eləyir. O, hadisələrin inkişafında dönüş nöqtələrində dramatik mübarizələrə fəal müdaxilə eləyir və son dərəcə əhəmiyyətli təsir göstərir. O, real olanı, acı həqiqətləri açmaqda, şübhə və inkarçılıqda müəllifin İblis obrazına bənzəyir. Onun iştirakını və dramaturji rolunu nəzərə almasaq "Peyğəmbər" pyesi "panteizm fəlsəfəsinə dair" təlimat dərsinə çevrilir, yaxud vaxtı ötmüş disput kimi də qəbul oluna bilər. İblis kimi Skelet də bu əsərdə konflikt qüvvəsidir. O, məhəbbət, hürriyyət və tərəqqi ideyasının yolunda duran zor, hakimiyyət, təzyiq və irtica rəmzidir" (Məmmədov, 1983: 116).

Ümumiyyətlə, H.Cavid yaradıcılığının təhlilindəki keçmiş qüsur və səhvlər bir tərəfdən də dramaturqun əsərlərinin poetika sisteminin və poetik qanunauyğunluqlarının nəzərə alınmaması ilə bağlı idi. M.Məmmədov da öz yeni tədqiqatının bir çox tezislərini məhz bu elmi bazis üzərində qurmuşdur.

XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında poetika məsələlərinin öyrənilməsinə maraq ədəbiyyatşünas Əziz Mirəhmədovun "Məhəmməd Hadi" monoqrafiyasında (Mirəhmədov, 1985) da xüsusi yer tutur. Yeni monoqrafiyanın müxtəlif səhifələrində Hadi yaradıcılığının poetikası ilə əlaqədar, şeirlərinin bədii struktur problemləri ilə bağlı bir çox mülahizələr irəli sürülmüşdür.

Kitabdakı daha maraqlı məsələlərdən biri budur ki, tədqiqatçı monoqrafiyaya "Poetika məsələlərinə dair" ayrıca fəsil də daxil etmişdir (Mirəhmədov, 1985: 164-182). O yazır: "Sələflərinin qiymətli, əsrə uyğun ənənələrini davam etdirməyə çalışan şair (M.Hadi – K.Ə.) dövrünün irəli atdığı yeni ictimai məsələlərdən danışdığı zaman, yeni müasir ideyalar ifadə etdiyi zaman tamamilə yeni bədii formalara da ehtiyac duyurdu. Bu surətlə o, forma axtarışlarına başlayıb ənənəvi şeir formalarına, əruz vəzninə, məcazlar sisteminə, təsvir vasitələrinə öz istedadı dairəsində bir təzəlik gətirməyə cəhd edirdi" (Mirəhmədov, 1985: 165).

Beləliklə, müəllif M.Hadi yaradıcılığından danışarkən əsas diqqəti janrın poetikası üzərinə yönəldir. Bu da tamamilə təbiidir. Çünki bir tərəfdən romantik sənətkar məlum və məşhur janrlara öz dəsti-xəttini əlavə edir və "imza"sını atırdı. Digər tərəfdən də aydındır ki, M.Hadi Azərbaycanın bədii fikir tarixində yeni janrın yaradıcısı hesab olunurdu. Onun "Beşikdən məzara qədər bəşərin əhvalı", "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" kimi əsərləri yeni strukturlu romantik poemanın ilk nümunələri idi.

Sonra Ə.Mirəhmədov yazır: "Xitab, bədii nida, təkrir, daxili qafiyə, rədif, anafora, mübaliğə, litota və s. Hadinin çox istifadə etdiyi ifadə vasitələri və üsullarıdır. Onun xitabları çox müxtəlifdir. Lirikasının üsyankar ruhu, humanist mahiyyəti ilə əlaqədar olaraq, şairin ən çox müraciət etdiyi hədəflər - "zalım", "millət" və "bəşər"dir. Onun oxucuya, məşuqəyə, saqiyə, ulduzlara, qələmə, ayrı-ayrı tarixi və ədəbi simalara (Zərdabi, Sabir, Fikrət, Tolstoy və b.) nəhayət, öz-özünə müraciətlə yazılmış şeirləri də çoxdur" (Mirəhmədov, 1985: 168-169).

Bütün bunlar şairin əsərlərindən seçilib təqdim olunan faktlardır və Hadi yaradıcılığının səciyyəvi keyfiyyətlərini ehtiva edir. Bu xitablar M.Hadini romantik sənətkar kimi tanıdır və bəzi müraciətlər realist ədiblərə doğru yönəlsə belə romantik şairi realistlərdən fərqləndirməyə xidmət göstərir.

Göründüyü kimi, tədqiqatçılar birbaşa, yaxud dolayısı ilə poetikanın ciddi problem olmasından söz açırlar. Əslində isə XX əsr Azərbaycan romantizminin poetika problemlərini bütöv şəkildə araşdırmaq zərurəti ehtiyac kimi də qalır.

Monoqrafiyada məhz bu problemin sistemli elmi-nəzəri həlli əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

# I HİSSƏ
# ROMANTİK QƏHRƏMAN

## I FƏSİL
## NƏSRDƏ VƏ POEZİYADA ROMANTİK QƏHRƏMAN

Romantik qəhrəman probleminin ayrı-ayrı ədəbi növlər, yaxud janrlar ətrafında öyrənilməsi tamamilə təbii və qanunauyğundur. Çünki qəhrəmanların təsviri və təqdiminin özü bunu tələb edir. Yəni psixoloji duyğu və düşüncələri ilə görünən nəsr qəhrəmanları, dramatik hərəkətləri ilə seçilən və fərqlənən dramaturgiya qəhrəmanları, eyni zamada şeirin misraları içərisində boy atıb ucalan lirik qəhrəmanlar sənətkarlıq mövqelərinin də müxtəlifliyini şərtləndirmiş olurlar.

Monoqrafiyada əvvəlcə nəsrin, sonda lirikanın, daha sonra isə dramaturgiyanın romantik qəhrəmanlarını öyrənmək nəzərdə tutulmuşdur. Bu isə romantizm səciyyəli ayrı-ayrı ədəbi növlərin tarixən yaranma ardıcıllığından irəli gəlmişdir. Belə ki, XX əsrin lap başlanğıcında (1902-1903) A.Divanbəyoğlunun nəsr əsərləri meydana çıxmış, bir müddət sonra M.Hadinin, H.Cavidin, A.Səhhətin, A.Şaiqin, S.Səlmasinin şeirləri, həmçinin A.Surun həm şeirləri, həm də hekayələri, mənsur şeirləri və A.Şaiqin də nəsr əsərləri mətbuat səhifələrində görünmüş, H.Cavid dramaturgiyası isə onların yeni formada davamı olmuşdur.

### 1. ROMANTİK NƏSRİN QƏHRƏMANLARI

Azərbaycan romantik nəsri yeni dövrün ictimai problemləri ilə sıx bağlı şəkildə meydana gəlmişdi. Belə ki, A.Divanbəyoğlu "Əbdül və Şahzadə" povestində Şahzadənin acı taleyini, onun ömrünün son günlərini göstərərək yazır: *"Şərqdə şəfəq sökülərkən Şahzadə həyatı tərk etdi"* (Divanbəyoğlu, 1981: 121). Yazıçı

Şərqdə şəfəqin sökülməsi faktını təsadüfən işlətmir. Çünki yeni əsrin əvvəllərində ictimai-sosial proseslərin inkişaf vüsəti azadlıq uğrunda mübarizənin dayaqlarını da hazırlayır və keçmiş dövrün mühafizəkar əsaslarını sarsıdırdı. Bunu başqa mütərəqqi ziyalılar kimi diqqətlə görən A.Divanbəyoğlu məhz belə bir vaxtda – Şərqdə şəfəq söküldüyü dövrdə Şahzadənin ölməsini acı təəssüf hissi ilə yad edir.

Diqqəti cəlb edən bir cəhətdir ki, 1903-cu ildə başqa bir romantik sənətkar – Abdulla Sur A.Divanbəyoğlunun povestdə qaldırdığı həmin motivi bir növ əhya etmiş və özünün məşhur "Şərqdə şəfəq sökülərkən" mənsur şeirini yazmışdır (Sur, "Tərəqqi" qəzeti, 1909: 117). Burada A.Surun romantik qələminin bütün vüsəti öz aydınlığı ilə görünməkdədir: *"Demək ki, Şərq oyanır... Demək ki, Asiya oyanır. O zöhhaklar, şəddadlar bəsləyən Asiya oyanır... o fironların, isgəndərlərin, qeysərlərin cövlangahı olan Asiya oyanır...*

*O Farabilər, Firdovsilər, Nizamilər yetişdirən... Asiya oyanır... Demək ki, oğuzların... məzarı qiyam ediyor".*

Haqq və haqsızlığın, ədalət və ədalətsizliyin qarşı-qarşıya qoyulduğu bu əsərdə azadlıq hərəkatına rəğbət ideyası, ağlı-qaralı dünyanın dərki və demokratik duyum tərənnüm edilir.

Bəs Azərbaycan romantizminin ilk nümunələri olan nəsr əsərlərində romantik qəhrəmanların mövqeyi necə idi? Bu mənada "Əbdül və Şahzadə" povestindən belə bir məqamı xatırlamaq çox böyük əhəmiyyətə malikdir:

*"Əbdül şəhərdən kənara çıxıb dağa qalxdı. Oradan kirəmit damlı evləri olan şəhərə baxmağa başladı. Sola döndü, batan günəşin şəfəqlərindən qorunmaq üçün əlini gözünə tutdu və böyük Azərbaycan kəndinə göz qoymağa başladı. Evlər torpaqdan güclə seçilirdi, onlar qum təpəsinə bənzəyirdi, orada-burada, ağacların arasında yastı damları olan daşdan tikilmiş yoxsul evlər arabir gözə çarpırdı.*

*Əbdül dağdan enib, kəndə doğru yönəldi* (Divanbəyoğlu, 1981: 18).

Burada ən qiymətli cəhət əsərin qəhrəmanının haradan haraya doğru hərəkəti ilə bağlıdır. Maraqlıdır ki, yazıçı, Əbdülün həm dağa qalxmasını, həm də dağdan enməsini eyni vaxtda göstərir. Belə bir sxem cızmaq olar ki, Əbdül kənddən dağa çıxır və dağdan kəndə qayıdır. Ona görə buna sxem deyirik ki, burada romantik nəsr və onun qəhrəmanı üçün səciyyəvi olan cəhət vardır. Eyni zamanda, bu detallarla bağlı olaraq, təsvirin obyektiv, yaxud qeyri obyektiv, məqsədli, yaxud məqsədsiz olması barədəki qənaətlər ətrafında söhbət aparmaq lüzumsuz görünərdi. Məsələnin mahiyyəti ondadır ki, XX əsr Azərbaycan romantizminin ilk nümunələrindən olan "Əbdül və Şahzadə" povestində romantik qəhrəmanın xarakteri hələlik tam formalaşmamışdır. Bu qəhrəmanın yüksəlişə doğru – konkret mənada, məsələn, dağa, dağın zirvəsinə doğru hərəkəti (sonra Şeyx Sənanın simasında bunu aydın görəcəyik) sabitləşməmişdi. Ancaq belə bir başlanğıcın məhz romantik nəsrin nümunəsi içərisində olması faktının özü çox maraqlıdır. Çünki bütövlükdə XX əsr Azərbaycan romantizminin formalaşmasında nəsrin mühüm rola malik olması qənaəti də məhz bununla bağlıdır.

*Bu mənada həmin əsərdəki başqa bir mühüm məqamı da xatırlamaq zəruridir: "Ətrafa qatı qaranlıq çökürdü. Təravətli, sərin yel əsirdi. Atlar cilovları tərpədərək mehribanlıqla gedirdilər. Faytonçu mahnı oxumağa başladı. Zolaqlı dirəklər ötüb-keçirdi. Sağ tərəfdə qayalar ucalır, solda isə, dibində dəli çay çağlayan uçurum qaralırdı. Əbdül yenə də faytonun küncünə çəkilib hər şeyi unutdu"* (Divanbəyoğlu, 1981: 67).

Buradan da aydın görünür ki, fikir, düşüncə baxımından Əhməd iki qütb arasında qalmışdı. Bir tərəfdə qaya, digər tərəfdə uçurum (bir tərəfdə qalibiyyət, digər tərəfdə məğlubiyyət hissi), deməli, həm romantik, həm də realist obrazın keyfiyyət və ala-

mətlərini daşıyan qəhrəmanın çırpıntıları ön plana çəkilmişdir.

Daha geniş mənada yanaşsaq, Əbdül romantizm ilə realizm arasında tərəddüdlər keçirən bir yazıçının yaratdığı surətdir.

Bəs "Can yanğısı" romanında bu proses necə davam etmişdir?

Bu əsərdə də Əbdülün taleyində gördüyümüz bu ikili cəhət müəyyən qədər davamlılığını qoruyub saxlamışdır. Əhmədin qənaəti belədir: *"Səhradan dağlara, meşələrə gəlmişdim, indi də dağlardan və meşələrdən səhralara gedirəm"* (Divanbəyoğlu, 1981: 158). Lakin əsl həqiqət budur ki, "Can yanğısı"nda romantik plan daha güclüdür. İkili səciyyəyə malik olan Əbdül ("Əbdül və Şahzadə") bədii yaradıcılığın yeni məhsulu olan Əhmədin ("Can yanğısı") simasında tamamilə dəyişilmiş və romantik qəhrəman bütün vüsəti ilə görünməyə başlamışdır: *"Bir qədər də oturub yenə pəhlivan kimi döşümü gərib sağ tərəfimdə duran Çətin dağa və onun qiblə tərəfindən yapışan Quzu dağına və günbatandan gündoğana cərgələşən xırdaca dağlara tamaşa etməyi qəsd etdimsə, bacarmadım: aclıq möhkəm bədənimi tutub, halımı dəyişdirdi"* (Divanbəyoğlu, 1981: 152).

Tamamilə aydın görünür ki, ucalmaq eşqi - dağlara qalxmaq istəyi burada başlıca məqsəddir və bunun mümkün olmaması isə Əhmədin həqiqi vəziyyəti ilə əlaqədardır. Belə ki, ac-yalavac dolanmaq, köməksizlik, halsızlıq onu məhv etmək üzrədir. Daha mənalı cəhət odur ki, belə bir real vəziyyət Əhmədin vahid idealını pərdələyə bilmir.

Hətta maraqlıdır ki, yazıçının təsvirində və qəhrəmanın düşüncələrində yüksəlişin sonu ucu dağlardan da yuxarıdadır:

*"Dan üzü idi, hələ dan ulduzu batmayıb, ərşi-fələkdə öz dövrünü edirdi"*(Divanbəyoğlu, 1981: 151).

Yaxud:

*"- Ömrümə külüng çaldım, qırdım, gülüstanımı yıxıb yandırdım, külünü ərşə sovurdum"*(Divanbəyoğlu, 1981: 155)

*Və yaxud:*

*"Amma minacat səsi yerdən ərşə, gurultuya qarşı gedirdi"* (Divanbəyoğlu, 1981: 192)

Ərş-göylər qəhrəmanın təsadüfi ricətləri deyildir. Onu qəbul etmək və daxili hissləri onunla müqayisədə vermək romantik inikas üsulunun əyani nişanələrindən biri idi.

*Mühüm faktlardandır ki, Ruqiyyə də öz təsəllisini yüksəkliyin seyrində tapırdı: "Sabahdan axşama qədər qapımızda olan söyüd ağacının altında oturub qarlı dağlara baxırdı"* (Divanbəyoğlu, 1981: 152). *Yaxud təbiət ümid yerinə çevrilirdi: "Şəhərdən qıraq böyük bir ağaclıq meşə var idi. Bu da bizim evin pəncərəsindən görünürdü. Evimiz ucada idi. Bura Ruqiyyənin tamaşa yeri idi"* (Divanbəyoğlu, 1981: 186).

Yeri gəlmişkən, rus romantizminin maraqlı nümunələrindən olan "Qaçaq qardaşlar" poemasından (A.S.Puşkinin) bir məqamı xatırlayaq. Orada obrazlardan biri deyir:

*За нам и гнатся не поем ел и,*
*Мы бемегов доетич уелели*
*И в лее ушли...*

Rus romantizmində meşə romantik qəhrəmanlar üçün sığınacaq yeri olduğu halda, Azərbaycan romantik nəsrində qəhrəmanlar meşəni yalnız seyr edirlər və yaxud da qəhrəmanın taleyi meşənin içərisindən keçib gedir, ancaq meşədə qurtarmır. Belə bir səciyyəvi xüsusiyyət XX əsr Azərbaycan romantik dramaturgiyasının nümunələrində də müşahidə olunur.

Abdulla Şaiqin 1905-ci ildə yazdığı "İki müztərib, yaxud əzab və vicdan" romanında isə əsərin şair qəhrəmanı öz romantikliyini açıq elan edir:

*"Fikircə* ***romantizm*** *(Kursiv bizimdir – K.Ə.) məsləkini təqib etdiyi kimi, ləfz və mənaca dəxi demokratlıq tərəfdarıyam. Onun üçün də mənim əsərlərim ləfz, vəzn və qafiyə etibarı ilə zəngin ola bilməz. Mən ləfzi mənaya və qulağın ləzzətini ruha*

*fəda etmək tərəfdarıyam...” (1,540).*

Belə bir inkişaf prosesi keçirmiş və sonralar “İblisin hüzurunda” (A.Şaiq) adlı parlaq nümunə ilə daha bariz şəkildə meydana çıxmış Azərbaycan romantik nəsrinin qəhrəmanları hansı duyğularla yaşayırdılar və onların bədii əsərin strukturundakı mövqeyi necə idi?

A.Divanbəyoğlunun “Əbdül və Şahzadə” povesti yalnız romantik bədii fikrin deyil, eyni zamanda, XX əsrin əvvəllərində yaranan böyük həcmli nəsr əsərlərinin ilk nümunələrindən idi. Bu povest sadəcə olaraq yazıldığı dövrün və qəhrəmanların hərəkət etdiyi ərazinin hadisə və problemlərinin nümayişi deyildir. Ərazi və dövr yazıçının qələmi qarşısında poetik vasitəyə çevrilmiş və əsas diqqət bütövlükdə Şərqə doğru yönəlmişdir. Başqa sözlə, yazıçı təsvir etdiyi əhvalatların fonunda bütün Şərqin həyat və məişətini inikas obyektinə çevirmiş, burada yaşayan adamların taleyini ön plana çəkmişdir.

Povestin aparıcı xəttini müsəlman qadınının işi və güzəranı, arzu və istəkləri təşkil edir. Bu mənada əsərdə həm yazıçı, həm də obrazlar tərəfindən təkrar-təkrar işlədilən “qadın qəlbi” (Divanbəyoğlu, 1981: 15, 48, 50, 61) ifadəsi də təsadüfi səciyyə daşımır. Dövrün özündə qadın azadlığına doğru ucaldılan səslər, ana qucağının vətəndaş tərbiyəsi üçün mühüm şərtə və amilə çevrilməsi A.Divanbəyoğlunun “qadın qəlbi” barədəki söhbətlərində qüvvətli məna kəsb edirdi.

Yazıçı əsl həqiqəti nəzərə çarpdırmaq üçün yazırdı:

*“Bizim qadınlarımız necə cəsarətlidir! Biz isə bu cəsarəti onlardan alırıq. Rusiyada yaşayan müsəlman qadınlarının vəziyyəti, məsələn, Türkiyə və İrandakı müsəlman qadınlarının vəziyyətindən yaxşıdır. Burada heç olmasa qadınlar azad hava ilə nəfəs alırlar”* (Divanbəyoğlu, 1981: 21).

Bu fikirdə əsas məqsəd varlı və kasıb söhbəti deyil. Əslində yazıçı, qadınların vəziyyətini düşünəndə, onların təfəkkür açıq-

lığını, müstəqillik, bərabərlik hüquqlarını nəzərdə tutur. A.Divanbəyoğlu ayrı-ayrı qadınların həyata baxışlarındakı fərqi də açıqca göstərirdi.

Əbdül anası ilə gəzməyə çıxarkən anasının tanımadığı adamlardan necə gizlənmək istədiyinin açıqca şahidi olur. Ana isə öz inadında qətidir: *"Nazlı xanım oğlu ilə faytona minəndə çadraya büründü və örtüyü qaldırmağı əmr etdi"* (Divanbəyoğlu, 1981: 28). Bu vaxt Əbdülün anasına verdiyi sual bir adamın deyil, bütövlükdə zamanın öz acı sualı idi: *"Anastasiya İvanovna, başında şlyana, açıq faytonda şəhəri gəzir, yad gözlərdən qorxmur, ancaq sən örtüklü faytonda da bu çadrada getmək istəyirsən?"* (Divanbəyoğlu, 1981: 96).

*Qeys bəyin düşündüyü isə daha dəhşətlidir: "Qədim ərəblər bu qadınları gözəl tanıyırdılar. Allah kimi cəzalandırmaq istəyirsə, ona qız verir... Gərək indi də qızları diri-diri torpağa basdırmaq adəti olaydı. Mən birinci olaraq Şahzadəni basdırardım və heç hayıfım da gəlməzdi"* (Divanbəyoğlu, 1981: 125).

Bu faktlar müxtəlif əhvali-ruhiyyələrə və dünyagörüşlərə mənsub adamların yalnız qadına deyil, daha geniş mənada həyata, ictimai hadisələrə münasibətindəki fərqləri bütün aydınlığı ilə meydana çıxarır. Təsəvvür etmək çətin deyildir ki, mühafizəkar adət və ənənələrin dözümlü keşikçisi olan Qeys bəylə romantik duyğular və düşüncələrlə yaşayan gənc Əbdülün fikir, əqidə ayrılığı sosial gerçəkliyin və yeni şüurun özündən doğurdu. Daha böyük faciə onda idi ki, qadının azadlığı uğrunda mübarizədə qatı passivliyi məhz qadın-ana Nazlı xanım özü göstərirdi.

*Yazıçı qadın müstəqilliyini çox geniş mənada götürürdü. Onun belə bir qənaəti vardır ki, Avropanın irəliləməsinin də əsas səbəbi qadın azadlığı ilə bağlıdır. Hətta "Roma qadınlarının gözəlliyi, görkəmi, bədənlərinin incəliyi" səbəb olmuşdur ki, "burada ilk dahi rəssamlar yaranmışdır... orada isə, - o başı ilə Şərqə tərəf işarə etdi, - orada isə gözəllik əsirlikdədir, qaranlıq-*

*dadır. Orada gözəllik doğulur, lakin inkişaf etməyə imkan tapmamış, özünün işığını ətrafa yaymamış, yatmış ürəkləri, fantaziyaları, təsəvvürləri oyatmamış sönüb gedir"* (Divanbəyoğlu, 1981: 83).

Romantik M.Hadi də bu məsələdə A.Divanbəyoğlu ilə eyni mövqedə dayanırdı. M.Hadi "ana qucağı"nın maarifləndirmək, yüksək mədəniyyətə səsləmək funksiyasını mənalandırır, tərəqqinin əsl səbəblərindən birini burada axtarırdı.

"Əbdül və Şahzadə" povestindəki kişi surətləri ilə müqayisədə bir çox qadın surətləri daha artıq dərəcədə romantik təbiətə malikdirlər. Bu mənada istəkləri ilə cəsarəti arasında bir uyarlıq olan Nisənin qəlbindən bir an belə silinməyən ümid və inam onun romantik əhvali-ruhiyyəsini daha da cilalayır. Əsərin bir yerində Əbdül ona üz tutaraq deyir: *" – Nisə, bir saat bundan əvvəl sizin üzünüzdə ifadə olunan o ümid hanı? Həmin inam və ümidlə mübarizəyə atılın, siz qalib gələcəksiniz"* (Divanbəyoğlu, 1981: 60).

*Sultan da Nisəyə eyni mövqedən yanaşır: " – Yox, Nisə, qulaq as, sən sirli bir ümidin dili ilə inamla danışırsan, mən də indi sənə inandım ki, sən bu heyvanın (Mirzə Mehdi bəy nəzərdə tutulur – K.Ə.) qurbanı ola bilməzsən" . Ən maraqlısı budur ki, Nisə də məhz ümidə güvənir: " – Qardaş, mənim qəlbimdə nə isə bir ümid var"* (Divanbəyoğlu, 1981: 37).

Yalnız ümid və inamına sığınanlar o cür çətin, əzablı həyat şəraitinə dözə bilərdilər. Ümidin gücü idi ki, Nisəni ağır iztirablardan qurtardı, hətta atası Rüstəm bəy də dedi: "Sən quş kimi azadsan, öz səadətinə özün yol tap" (Divanbəyoğlu, 1981: 63). Amma Nigar və Şahzadənin daxilində Nisədə olan ümid və inamdan bir qətrə də əsər-əlamət yox idi. Hətta Nigar öz sevgilisi ilə gizli görüşür, bunun faş olacağından qorxurdu. Şahzadə isə atası qarşısında cəsarət göstərməkdən çəkinir və hər an öldürüləcəyini güman edirdi.

Nigar və Şahzadədəki bu ümidsizlik isə onların hər ikisini ölümə aparır. Amma təbiətindəki çılğınlığa görə romantik duyğu və düşüncə bu qızlardan daha çox Şahzadəyə məxsus idi. Belə bir cəhət bir az da onun sentimentallığına dəlalət edirdi. Yazıçı da "Fars poemalarından tərbiyə almış" Nigardan və Şahzadədən söhbət açarkən ikincinin xarakterini daha geniş təsvir edir: *"Şahzadə xüsusilə qarşısıalınmaz güclü məhəbbət və kədərli, şən sonluqla nəticələnən ehtiraslı səhnələr təsvir edilmiş nağıllara Nigardan daha çox aludə olurdu. O, nağılın qəhrəmanı öldükdə ağlayır, əsərin qəhrəmanı və qız hər hansı möcüzə nəticəsində öz səadətlərinə çatdıqda sevinir, şadlıq edir, bacısını, öz qulluqçusunu öpür və oyuncaq hədiyyə almış uşaq kimi atılıb-düşürdü.*

*Şahzadə özündə sevdalı cənub qadınlarına məxsus bir ehtiras tərbiyə etmişdi. O, xəyalpərvər idi, həmişə həssas, xeyirxah qəlbinin, sevdalı ürəyinin bütün duyğularına cavab verirdi"* (Divanbəyoğlu, 1981: 63).

"Əbdül və Şahzadə" povestində qabaqcıl düşüncə və azad fikir ətalət və geriliklə üz-üzə dayanmışdır. İrəliyə doğru hərəkət tənzim olunmaqdan çox, geriyə doğru çəkilirdi. İşıq, qaranlıqlar içərisində bəzən zəif görünür, bəzən də yox olurdu. Rüstəm bəyin mövqeyində işıq daha da güclənməyə başlayır. O, xarakteri və düşüncəsi ilə Qeys bəyin əksidir. Rüstəm bəy hətta arvadı Mina xanımdan da tamamilə ayrılır.

Mina xanım Nisənin Mirzə Mehdi bəyə ərə verilməsinə qarşı etiraz edən Əbdülə qətiyyətlə deyir: *"Əbdül, mən sənin nəyə işarə etdiyini bilirəm. Nisənin məsələsi həll olunub. Əgər Mirzə Mehdi bəy Nisənin cəlladı olsa da, Nisə onun arvadı olacaq"* (Divanbəyoğlu, 1981: 39). Buradan belə bir qənaət hasil olur ki, Mina xanım Mirzə Mehdi bəydən daha artıq dərəcədə amansızdır. Öz doğma övladının gələcəyini düşünməyən, saf və ülvi bir qızın könül azadlığına çalışmayan ana köhnə adət-ənənələrin əsiri olaraq qalır.

Rüstəm bəy isə əvvəlki mühafizəkar mövqeyini tamamilə dəyişir, övladının gözlərində "mərhəmətli ata, xilaskar ata" səviyyəsinə qalxır. O, Nisəyə üz tutub deyir: *"– Ağlama, mənim balam, səni onun əlinə verməərəm. Mən şəxsən onun haqqında deyilən sözlərin ədalətli olduğuna inandım... Sən quş kimi azadsan, öz səadətinə özün yol tap"* (Divanbəyoğlu, 1981: 63). Əsərdəki hadisələrin axarı belə bir vəziyyətə gətirib çıxarmışdır ki, Rüstəm bəy öz daxilində gizlətdiklərini söyləməliydi. Buna görə də onun *"Sən quş kimi azadsan, öz səadətinə özün yol tap"* sözlərini yalnız xeyir-dua, yəni istək və arzu kimi başa düşmək lazımdır. Belə bir arzunun canlı daşıyıcısı isə gənc Əbdül idi.

Əbdül Şərq ətalətinin mahiyyətini tam aydınlığı ilə dərk edən qabaqcıl düşüncəli bir şəxsdir. O, dövrün hadisələrini fikrindən keçirərək təhlil edir və müəyyən nəticələrə gəlir. Əsərin başlanğıcından belə bir cəhət aydınlaşır ki, Əbdülü daha çox "qadına münasibət məsələsi" düşündürür. Povestin sonrakı səhifələrindən aydın olur ki, Əbdülün bu məqsədi daha da böyüyür və ictimai ideal səviyyəsinə qalxır. Qadın problemi ailə və nigah məsələləri çərçivəsində deyil, ictimai-sosial məsələlər yüksəkliyində dayanır. Yeni əsrin lap ilk illərinin yetirməsi olan Əbdül başqa bir cəhəti də çox yaxşı bilir: *"Qoy bu kütlə hələ yatsın, - deyə cavan oğlan fikirləşdi. – Qoy o, ətrafda nə baş verdiyini nə görsün, nə də eşitsin. Qoy bu izdiham üçün insanlığın cəhd etdiyi inkişaf nöqtəsinə doğru yeni addım atmaq artıq hesab olunsun"* (Divanbəyoğlu, 1981: 55). Bu, romantik qəhrəmanlara məxsus böyük inam idi.

Bütün çətinliklərə baxmayaraq, Əbdül həyat meydanına atılır. Gedib-gəldiyi ailələrdə, görüşdüyü, oturub-durduğu adamlarda yeni fikirlər və yeni arzular oyatmağa çalışır. Bütün qüvvəsini sərf edir ki, adamlar azadlığın nə olduğunu başa düşüb, onun uğrunda mübarizəyə qoşulsunlar.

*Əbdülün gözləri qarşısında başqa bir həqiqət də bərq*

*vurur: "Yoxsulluq və ehtiyac içərisində olan bu adamlar gör nədə təsəlli tapırlar – Əbdül evə gedə-gedə belə düşünürdü... Onlar tənbəldirlər, işləmək istəmirlər, buna görə də yoxsuldurlar, indi isə deyirlər ki, onlar günahkar deyillər, allah günahkardır. Allah niyə versin? Sizin tənbəlliyinizə, səhlənkarlığınıza görəmi? Fərasətsiz, düşüncəsiz xalq, allah ancaq işləyən, zəhmət çəkənə verir, allah zəhməti sevir, o, insanı zəhmət üçün yaratmışdır"* (*Divanbəyoğlu, 1981:* 22).

Bu mülahizə Əbdülün ətalətə və geri qalmış düşüncəyə qarşı üsyan səsidir. Bunu, eyni zamanda, yazıçının ideyası da hesab etmək olar.

*Povestdəki başqa bir mətləb müstəqillik ideyası ilə bağlıdır. Şəxsiyyətin və daha geniş mənada xalqın, vətənin müstəqilliyi problemi XX əsr Azərbaycan romantikləri üçün çox səciyyəvi idi. Əsərin bir yerində Nisə deyir: "– Yox, yox, mənim azadlığımı və müstəqilliyimi əlimdən almağa kimin ixtiyarı var? Mən quş kimi azad və sərbəstəm, – deyə o, qürurla başını qaldırdı. – Mən öz haqqım üçün bütün dünyaya qarşı üsyan etməyə hazıram! – O, incidilmiş şah qızı görkəmi ilə səsləndi. – Mən insanam və özümün də insana məxsus hüquqlarım vardır. Lakin mən heç kəsə mənim həyatıma və ölümümə rəhbərlik etmək haqqı verməram!"* (*Divanbəyoğlu, 1981:* 36)

*Nisə başqa bir məqamda yenə deyir: "Sultanın həyatı mənim azadlığım və müstəqilliyimdir"* (Divanbəyoğlu, 1981: 55).

*Əbdül də Nigara məsləhətində tamamilə həmin fikri deyir: "– Nigar bacım, mən... and içirəm ki, heç kəsə bir söz... Mən, əksinə, sən bilirsən çox şadam ki, özün müstəqil mübarizə aparırsan..."* (Divanbəyoğlu, 1981: 81).

Müstəqillik idealı uğrunda vuruş və ona qarşı maneələri aradan qaldırmaq romantik qəhrəmanların amalı idi. Yazıçının idealı da aydındır: Müstəqillik olmadan heç nəyə nail olmaq mümkün deyildir. Bəs A.Divanbəyoğlunun "Can yanğısı" roma-

nında qəhrəmanın mövqeyi necədir?

Əsərdə əsas hadisələr Dərvişin – Əhmədin dili ilə söylənilir. Yazıçı elə bir bədii üsul seçir ki, Əhməd öz başına gələn hadisələri, əhvalatları nəql etməyə başlayır və müəyyən qədər də müsahibi ilə bölüşmək istəyir. Lakin oxucu fikri heç vaxt Əhmədin necə söyləməsinə doğru yönəlmir, əksinə, danışandan daha çox, Əhmədlə Ruqiyyə arasındakı münasibətlər diqqət mərkəzində dayanır.

Əhməd şəhərdə doğulmuş və orada böyümüşdür. Bir qrup adamın ona qarşı çevrilən düşmənçilik hərəkətləri onu öz doğma yerindən didərgin salır. Povestdəki əsas hadisələr də məhz o zaman öz təbii-bədii axarına düşür ki, Əhməd meşə içərisində yerləşən uzaq bir kənddə qonaq qalır və həmin evdə yaşayan Ruqiyyə ilə sevişməyə başlayır.

Əhmədlə Ruqiyyənin bir-birinə olan sevgi münasibətlərinin reallaşması Ruqiyyənin qoca ata və anasından razılıq almaq mərhələsindən keçir. Bu mərhələdə qızın valideynlərinin Əhmədə olan inamları əsas rol oynayır. Hətta gənc oğlan bir sıra sınaqlarda, o cümlədən tüfənglə hədəfə düz atəş açmaq sınağında da yoxlanılır. Nəhayət, Əhməd və Ruqiyyə ailə qurmaq səadətinə qovuşurlar.

Bundan sonra yazıçı başqa bir məsələnin ciddi həlli ilə məşğul olmağa başlayır. Bu da bilavasitə doğma yurd, vətən hissi ilə bağlıdır. Sonralar romantik şeirdə müşahidə edilən, sevgi duyğularının ictimai mətləblərin təhlilinə doğru istiqamətlənməsi prosesi də bu xəttin davamı kimi meydana çıxır.

*Əhməd düşüncələrini belə ifadə edir: "...vətənim yadıma düşübdür... çox da vətənim mənə zillət verdi, zəhmət çəkdirdi, axırda didərgin saldırdı, çöllərə buraxdı, qürbət qapısını üzərimə açıb məni qərib elədi. Nə etməli? Balası yolunda canını oda yaxsa "uf" deməz ana, acığı tutanda canı-ciyəri, ruhu olan, canından, cismindən hasil olan fərzəndini döyür, yenə sonra ağuşuna çə-*

*kir... Vətənim anamdır, incitdisə, indi ağuşunu açıb "gəl" deyir... Mən getməzdim, amma qan çəkirdi, qan aparırdı, ruh pərübal açmışdı, könül cuşə gəlmişdi, qəlbim "vətən-vətən" vururdu"* (Divanbəyoğlu, 1981: 171).

İndi Əhmədin daxilində iki məhəbbət-Ruqiyyəyə olan məhəbbət və vətən məhəbbəti çırpmır. Lakin o heç birindən keçmək istəmir, birini digərinə dəyişməyi bacarmır.

Əsərin bütün mahiyyəti belə bir mülahizəni təsdiq edir ki, Əhmədin daxilində Vətən və qadın sevgisi qarşılaşır, bir-birinə güzəştə getmir, nəhayət, duyğu və düşüncə fərdi səciyyədən çıxıb ümumi ideyaya çevrilir. Ruqiyyəni nə qədər ürəkdən sevsə belə Əhməd üçün Vətənin bir qarış torpağı daha qiymətlidir. Bu qəhrəmana görə ən böyük xoşbəxtlik Vətən və qadın sevgisinin bir məkan və bir zaman daxilindəki mövcudluğundadır. Onlar ayrı-ayrılıqda nə qədər müqəddəs olsalar belə, bir o qədər yarımçıqdırlar. Beləcə sehrli və ülvi düşüncələrin qoynunda nəfəs alan Əhməd – romantik qəhrəman öz istədiyinə nail olur və Ruqiyyəni də götürüb doğulduğu və böyüdüyü şəhərə gətirir. Burada isə başqa bir hiss meydana çıxır və kəskin təzad əmələ gəlir: *"Ruqiyyənin könlü vətənin döyürdü"*.

Yazıçı həm Əhmədin, həm də Ruqiyyənin şəxsində vətən duyğusunu, vətənə bağlılığı təsvir etmək istəmişdir. Doğrudur, bu bağlılıq ailə səadətinə mane olan təzad təşkil edir. Ancaq hər halda, hər iki obrazın müqəddəs vətən eşqi yazıçının idealı kimi səslənir. Hərgah povestdə Əhmədlə Ruqiyyə arasında nifaq düşür, onlar ayrılır və hətta Ruqiyyə məhv olsa belə, bu heç də gənc qızın öz yurduna dönmək istəməsi səbəbindən baş vermir. Həmin ayrılığın əsl mahiyyəti məhz Əhmədin qeyri-əxlaqi davranışı ilə bağlanır: o, öz saflığını, Ruqiyyəyə olan təmiz duyğularını itirir və başqa bir qadınla evlənməli olur.

Qoyulan problemin düzgün izahı üçün Əhmədin Ruqiyyəyə üz tutaraq söylədiyi aşağıdakı sözlər çox xarakterikdir: *"– Ru-*

*qiyyə, elə fikir etmə ki, başqa yerdə adamlar zülm-zillətdən qeyri özgə bir şey bilirlər... Siz burada allahın qoltuğunda, dağların başında hər kəs özünə şad kimi dolandığı halda, orada "varlılıq, yoxsulluq" bir-birinə dolaşaraq əhalinin bir hissəsini edib soltan, o biri hissəsini, qul, möhtac... bundan zülm törəyir. Bu səbəbə adam adamı canavara dönüb yeyir"* (Divanbəyoğlu, 1981: 161). Beləliklə, Divanbəyoğlu yaşayışdakı təzadları, daha doğrusu, əzab-əziyyətləri cəmiyyətdəki eybəcərliyin nəticəsi kimi təsvir edir. O göstərir ki, bir halda ki, cəmiyyətdə insan naminə ümumi ahəng, ümumi irəliləyiş yoxdursa, demək adamlar öz ömürlərindən narazı olmalıdır. Elə məhz bu eybəcərliyin, bu çirkinliyin nəticəsidir ki, insanların daxilindəki təmizlik, saflıq yavaş-yavaş aradan çıxır və mənəvi puçluq özünə meydan tapır. Buna görə də şəhərə gəlmiş Ruqiyyənin atası oradakı natəmizliyi, qeyri-əxlaqi davranış normalarını görüb, tezliklə geri qayıdır. Axı, Ruqiyyə Əhmədə təsadüfi deməmişdir ki, *"onu-bunu bilmirəm, sizin əhalidən bizim əhali təmiz görünür"* (Divanbəyoğlu, 1981: 172).

"Can yanğısı" povestində təsvir edilmiş qoca kişi və qadın obrazları da diqqətdən yayınmır. Yazıçının izlədiyi əsas ideyanın təsdiqi kimi həmin surətlər təmizlik və ülviliyin timsalıdırlar. Hər şeydən qabaq, onlar sözün həqiqi mənasında insandırlar. Bu keyfiyyət elə Əhmədin qarşılanmasında, onun qonaq kimi qəbul edilməsində özünü göstərmiş olur, hətta Ruqiyyənin bu qoca ata və anası Əhməddəki zəhmət eşqinə, mənəvi saflığa inanıb öz ciyərparalarını ona ərə verirlər. Onlar bu məsələyə adamların pis baxacağından da çəkinməyərək, müsbət rəydə olurlar. O yerdə ki, ata və ana Ruqiyyənin Əhmədlə şəhərə getməsinə etiraz edir, bu, bir tərəfdən öz övladlarını gözlərindən kənara qoymamaqla bağlıdırsa, digər tərəfdən (daha çox!) saflığın, təmizliyin, oradakı ülviyyətin itəcəyindən qorxmaqla əlaqədardır.

Yazıçı obrazlarını müxtəlif hadisələrin daxilindən keçirərək, onları həyatın sərt həqiqətləri ilə üzləşdirir. Vəziyyət elə bir

yerə gəlib çıxır ki, Ruqiyyə ilk növbədə Əhmədə və bütün eybəcər cəmiyyətə nifrət edir. Uç günlük toydan sonra Əhmədin evinə gəlmiş təzə “gəlin” Ruqiyyəyə qarşı amansız və dəhşətli mövqe tutur. Həmin arvad Ruqiyyəni “az qala iydən boğulduğu” toyuq damına qoymaq istəyir və nə qədər acınacaqlı olsa da, bu işə Əhməd də razılıq verir. Beləliklə, son anlarda Əhmədin Ruqiyyəyə bəslədiyi əvvəlki məhəbbət yox olur və təmizlik Ruqiyyənin şəxsində məhv olub gedir.

A.Divanbəyoğlu öz yazıçı məqsədini romantik boyaların gücü ilə təqdim edərək, dövrün eybəcərliklərini inkar mövqeyində dayanır.

“Can yanğısı” povestindəki hadisələr xatirə əsasında verildiyi halda, Azərbaycan romantik nəsrinin digər nümunəsi olan “İki müztərib, yaxud əzab və vicdan” romanı (Abdulla Şaiq) epistolyar formada qələmə alınmışdır. Yeri gəlmişkən qeyd edək ki, hər iki forma – hər iki bədii üsul romantizm ədəbiyyatı üçün çox səciyyəvidir və onlar Azərbaycan romantizminin üslub rəngarəngliyini xeyli zənginləşdirmişdir.

“Əzab və vicdan” romanında da, əsasən, iki surət yaradılmışdır. A.Şaiq Cavad və Sitarənin şəxsində iki sevən qəlbin çırpıntılarını göstərmiş, onların müxtəlif vaxtlarda və müxtəlif *vəziyyətlərdə keçirdikləri duyğuları təsvir etmişdir. Hər gün eyni küçədən gəlib-gedən Cavadı Sitarə öz pəncərələrindən görür və ona olan diqqəti daha da artır. Nəhayət, bu diqqət əsl sevgiyə çevrilir. Sitarə bu barədə rəfiqəsi Rəmziyyəyə öz məktubunda belə yazır: “İçimdə get-gedə bir qığılcım böyüyür, atəşin şərarələrdə məni yakır, soldurur. Artıq dayanammıram. Gecələrim gündüz, gündüzlərim gecə olmuşdur. Bilsəniz, o gördüyünüz saf çiçək kimi yanaqlarım nə qədər solmuş, nə qədər dəyişmiş, görsəniz mütləq tanımayacaqsınız. Sevda zəhərli bir ilan kimi boynuma sarılmış. Artıq qurtulamayacağam, zatən bunu mən hiss edirəm... Bilsəniz onu nə qədər sevirəm, günəşin ziyası qədər*” (Şaiq, 1966:

508-509).

*Cavad da Sitarədən xəbərsiz öz dostuna təxminən eyni hisslər barədə xəbər verir: "...dünən pəncərələrinin önündən keçərkən: "Aya bax, ulduza bax" türküsünü mənə oxudu. Biixtiyar üzünə baxdım, ah, nə qədər şairanə halları var: gözlərindən sevda damır, dodaqlarından güllər açır. Mən isəm, bərabər, öz halıma ağlayıb da onun sadəliyinə, çocuqluğuna gülürəm. Zavallı qız, mənim evli olduğumdan xəbəri yox. Gizli-gizli olaraq, bu atəşi-sevda məni də bihalət edir, əridir, soldurur" (*Şaiq, 1966: *513).*

İki gəncin daxilən yaşadığı bu iztirablar onları bir-birinə daha da yaxınlaşdırır. Cavadla Sitarə arasındakı sevgi o zaman qüvvətli şəkil alır ki, artıq həmin vaxtlar onlar bir-birindən ayrı yaşaya bilmirlər. Cavadın üç gün xəstələndiyi müddətdə keçirdiyi sarsıntılar bunun əyani sübutuna çevrilir. Sitarə də məhz həmin günlər Cavadı görmədiyi üçün bütün saatlarını narahatlıqlar içərisində yaşayır.

A.Şaiq onların duyğularını qələmə alarkən məhz mövzunun özünün tələb etdiyi romantik təsvir üsuluna xüsusi əhəmiyyət vermişdir. Həm Cavad, həm də Sitarə sevincli dəqiqələrində daha çılğın olur və daha artıq dərəcədə həyata bağlanırlar. Sitarənin Cavada təqdim etdiyi sevgi məktubu onların romantikləşmiş sevinc dünyalarına əsl başlanğıc olur. Lakin nə qədər acınacaqlı olsa da, bu sevinc uzun sürmür. Cavadın arvadı hadisədən xəbər tutandan sonra Sitarəgilə gedir və istəkləri tənəzzülə başlayır.

Yazıçı Cavadın gənc arvadını da xarakterik xüsusiyyətləri ilə təsvir etmişdir. O, öz ərinə qarşı diqqətsiz qadın deyildir. Cavad xəstələnərkən onun narahatlıqları öz həyat yoldaşına dərin məhəbbət bəsləyən bir qadının narahatlıqları kimi təsir bağışlayır. Hətta Cavadın yanında oturaraq, söylədiyi: "Cavad, neçə gündür ki, çox düşüncəli, çox dalğınsan, nəyindir, quzum? Gecələr belə uyuya bilmirsən", – sözləri də bunu təsdiq etməkdədir.

Elə məhz bu ülviliyin, bu səmimiyyətin nəticəsində Cavad iki hiss arasında çırpınır və xeyli düşünməyə məcbur olur. O, tərəddüd vəziyyətlərində iki yol arasında qalır: "Sitarəni seçməli, yoxsa əvvəlki qadın ilə yaşamalı?". Lakin diqqətli cəhət budur ki, Cavadın bu iki qadın arasında qalması onun iki mənəvi aləm arasında dayanmasını şərtləndirir, daha doğrusu, buraya gətirib çıxarır. Cavad dostuna göndərdiyi məktubda Sitarə və özü haqqında yazır: *"...Özümə daha yazığım gəlir. Zira o məndən daha məsud. O yalnız bir sevda vərəminin pəncəsində boğulursa, mən həm sevda, həm vicdan pəncəsində əzilməkdəyəm"* (Şaiq, 1966: 515). İkinci məktubunda da yenə eyni fikir üzərində dayanır: *"Hər iki tərəfim dəhşətli. Əgər bu tərəfə mail olursam, mühit, vicdan məni boğacaq və əgər bu tərəfi tutursam, atəşi-sevda məni yakacaq, ruhumu parçalayacaq olur"* (Şaiq, 1966: 518).

Bütün bunlar A.Şaiqin qəhrəmanı Cavadın qəlbində baş qaldıran və sönmək bilməyən iki hissin mübarizəsidir. Təbiidir ki, romantizm ədəbiyyatında belə daxili qarşılaşmalara tez-tez rast gəlmək olur. Bu cəhət həm romantik qəhrəmanların daxili gərginliklərinin, psixoloji əlamətlərinin obyektiv şəkildə açılışına kömək edir, həm də yazıçıların əsas məqsəd və qayələri ilə bağlı olan ideyalar aləmini səciyyələndirir. Romanda mənəvi kamilliyin iki mühüm göstəricisi – sevgi və vicdan qarşı-qarşıya dayanır və bu qarşılaşma isə qanunauyğun şəkildə Cavadın mürəkkəb aləmini xarakterizə edir.

Sitarə öz qərarından geri çəkilir və Cavadla əlaqəni kəsir. Beləliklə, sevda və vicdanı – əzab və vicdan əvəz edir. Sitarə öz kəndlərinə, Cavad da özü üçün doğma olan Məngilisə gedir.

Hər iki romanda romantizm ədəbiyyatı üçün səciyyəvi olan gözəllik və cazibədarlıq romantik qəhrəmanların daxili keyfiyyətlərini müəyyənləşdirir.

*Əhmədin təbiətə, təbiət hadisələrinə marağı ciddi məzmun daşıyır: "Gündüzlər meşələrdə, gecələr ağaclar başında və yaxud*

*qayalar qoynunda... göy ot döşəyim, qara daş yastığım, enli yarpaqlar yorğanım idi... Göy guruldayırdı, şimşək oynayırdı, maral hayqırırdı – səsimə səs verirdilər. Gündüz gün, gecə ay ilə ulduzlar həmdəmim idi”* (Divanbəyoğlu, 1981: 156).

*Ruqiyyə də təbiət qoynunda böyümüşdü və o da təbiətin füsunkarlığını xeyli dərəcədə sevirdi. Lakin əsərin sonlarında Ruqiyyənin atası tərəfindən çağırılması və bu gənc qızın təbiət barədə düşüncələri sadəcə vurğunluq deyildir. Ruqiyyəgil şəhərə köçəndən və şəhərdəki qəriblik, narahatlıq hiss edildikdən sonra atası ona deyir: “– Ruqiyyə, sən də darıxmayırsanmı? Ahu kimi seyr etdiyin otlaqlar, dırmaşdığın qayalar heç yadına düşməyirmi?” Yaxud Əhmədin söylədiyi bu parça da diqqətlidir: “Əlimdə qaçaq mal tutulmuşdu. Qurtarsam, Ruqiyyə ilə yaxşı rəftar etməyi özümə əhd etdim. Cərimə cəhətdən xilas oldum. Lap kefi kök evə gəldim. Ruqiyyə də açıldı. Meşəyə aparmağımı söz verdim. Ruqiyyə uşaq kimi danışıb gülməyə və gülüb danışmağa başladı. Bir az qaldı ki, sevindiyinldən durub oynasın”.*

Artıq bunlar onu sübut edir ki, Ruqiyyənin təbiətə münasibəti, təbiət qoynuna, hətta şəhərdəki meşəyə getmək arzusu onun azadlığa çıxmaq arzularını ifadə edir. Romantizmin estetikasında peyzaja, müəyyən mənada azadlıq ideallarının rəmzi kimi baxıldığını nəzərə alsaq, onda Ruqiyyənin təbiətə olan münasibətindəki məna və mahiyyət daha artıq dərəcə aydınlıq qazanır.

A.Şaiq qəhrəmanlarının tərcümeyi-halında da bu cəhət özünü göstərməkdədir. Ruqiyyə təbiət qoynuna getmək istəyirsə də, mümkün olmur, Sitarə isə öz dərdlərini unutmaq üçün şəhərdən uzaqlaşır, kəndlərinə gedir. Lakin buradakı təbiət Sitarənin ürəyini yumşalda bilmir, əksinə, onun çəkdiyi iztirablara uyğun şəkildə təsvir edilir. Bu barədə Sitarə öz məktubunda yazır.: “...Balkonumuz ağaclı və sulu bir dərəyə baxır və önündə gözəl bir çiçək bağçası var. Xatırlayıram o zaman mərhum pədərim bərhəyat idi. Yayı nə qədər çiçəklər əkmiş idi.

Bənövşə, yasəmən, mixək, qızıl güllərin ətri odaları bürüyürdü. Hər səhər yerimdən qalxarkən bir dəstə çiçəklər dərib, anama gətirərdim. Səhərdən axşamadək bağçada haman güllər, yaxud göbələklər qovlamaqla keçirirdim. İndisə babamın min zəhmətlə becərdiyi ağaclar, çiçəklər quruyub məhv olmuşdur. İnsan bağçaya baxdıqca ağlamağı gəlir. Ah, solmazmı, qurumazmı? Zatən mən də babamın ən ziyadə sevdiyi çiçəyi deyilmiyəm? Daima məni dizləri üzərinə alar, "canlı çiçəyim" deyə öpər, qucaqlardı. Ah, zavallı babam, bircə gözlərini aç da, canlı çiçək dediyin qıza bax. Necə solmuş, saralmış, artıq ayaqları məzara doğru titrəyir..." (Şaiq, 1966: 538).

Cavad isə Məngilisin yaşıllıqları qoynunda bir az sakitləşə bilir. Lakin o da kədərli olduğuna görə kədərli aləmdən yazacağına söz verir.

A.Şaiqin romanındakı peyzaj qəhrəmanların bilavasitə əhvali-ruhiyyələri ilə bağlıdır. Burada peyzaj romantik qəhrəmanların xarakterlərinin, keçirdikləri iztirabların əks-sədasına çevrilir.

Romantik nəsrdə müşahidə olunan digər xüsusiyyət İblis obrazı ilə bağlıdır. İblis ruhi bir qüvvə kimi həmişə romantizm ədəbiyyatında insanların ürəyinə girən Şərin rəmzi kimi çıxış etmişdir. O öz çirkin əməllərindən heç vaxt dönmür və dönmək də istəmir. Divanbəyoğlunun "Can yanğısı" povestində Ruqiyyə Əhməd ilə getmək arzusunda olduğunu bildirdikdə, atası Əh- məd haqqında deyir: *"Yox, yox, böylə olmaz idi. Bu, iblis özüdür. Ruqiyyə allahın yaxşı bəndəsidir, gəldi aldatdı... Yox, yox, bu hərif iblisdir, iblisdir, iblisdir"* (Divanbəyoğlu, 1981: 181).

Əhməd bunların müqabilində bəşər olduğunu bildirdikdə belə qoca onunla razılaşmır.

Yazıçı dolayısı ilə İblislə insan arasındakı təzadı göstərmiş və həmişə xeyirlə şərin yanaşı yaşadığına inamını ifadə etmişdir.

A.Şaiqin "İblisin hüzurunda" hekayəsində isə birbaşa İblis

obrazı yaradılmışdır. Hekayədə İblis öz oğulları ilə birgə verilir. Burada da iblis çirkin əməllərinin ənənəsinə sadiq qalan obraz kimi çıxış edir. İblis balaları da eyni məqsədlər üçün yaşayırlar: *"– Şah baba, biz ancaq insanları istədiyimiz kimi gördüyümüz zaman rahatlanırıq. Əsrlərdən bəri çəkdiyimiz min cür fitnə və fəsad nəticəsində insan oğlunu özümüzə əsir etməyə müvəffəq olduq"* (Şaiq, 1966: 60). İndi İblis "hökuməti" bir az rahat yaşaya bilər, çünki indi artıq insanların öz içlərində o qədər iblislər yetişmişdir ki, onlar lazım olan işi həyata keçirməyə kifayət qədər qabildirlər.

Hekayənin sonluğu isə İblisliyin mahiyyətinin açılmasında mühüm əhəmiyyətə malikdir.

*" – Oğlanlarım, artıq şübhəm qalmadı. Oğlum Xənnas sözünü çox gözəl isbat etdi – dedi: - insanlığın ən yaxşı sifətlərindən biri də verimdir. Biz həm də verim əli olan insanların qəlbini, vicdanını qaraltmaq və onları bu yoldan uzaqlaşdırmaq üçün çalışırıq. Kağız və mədən parçalarına tapınan və onu həmcinsindən sayan, qardaşlıq və insanlıq duyğularını məhv etmiş olan bu insançılıq üçün məəttəl olmağa dəyməz. Gedin, bir neçə il hər cür xidmətdən azadsınız"* (Şaiq, 1966: 62-63).

Romantik nəsrin səciyyəvi xüsusiyyətlərindən biri də bu idi ki, artıq romantizmin təklənən və tənhalığa can atan qəhrəmanlarının ilk dəstəsi burada meydana çıxırdı. Bu qəhrəmanlar yalnız fiziki mənada deyil, düşüncələri, duyğuları ilə də təklənirdilər, hətta bəzən cəmiyyətdən belə ayrılırdılar.

A.Şaiqin "İki müztərib, yaxud əzab və vicdan" romanında Sitarə elə ilk məktubundaca yazır:

*"Sevgili Rəmziyyəm!*

*Həştərxana vüsulunuzda yazdığınız məktuba ancaq cavab yaza bildim. Əfv ediniz, həmşirəciyim, sizin müfariqətiniz bilsəniz məni ruhən nə qədər mütəəssüf etmiş. Yeganə həmdərdim idin, indi isə yalqızam" (*Şaiq, 1966: *500).*

Belə bir oxşar cəhəti "Əbdül və Şahzadə" povestində də görmək çətin deyildir:

*"Əbdül Nigarın və Murad bəyin başına gələn bədbəxt və kədərli hadisənin təsirindən öz otağına keçə bilmirdi. O hətta öz valideynləri ilə görüşməkdən belə boyun qaçırır, onu əhatə edən qan və barıt qoxuyan adamlardan kənar olmağa çalışırdı. Bəli, belə dəqiqələrdə adamın yalnız olmağı elə rahat və xoşdur ki"* (Divanbəyoğlu, 1981: 155)

Romantik nəsr qəhrəmanlarının açıq-aydın görünən bu təkliyi bir tərəfdən mənəvi-psixoloji məsələdirsə, digər tərəfdən isə ictimai-sosial problemdir. Cəmiyyətin hadisələri daxilində özünə yer tapa bilməyən, yaxud gerçəkliyə xas olan eybəcərlik və çirkinliyi görən, ona qarşı mübarizədə hələ tam möhkəmlənməyən romantik qəhrəman cəmiyyətdən uzaqlaşmaq, bəzən də təbiətin qoynuna çəkilmək təşəbbüslərində öz təsəllisini tapır.

*Əhməd özünün haraya doğru hərəkət etdiyini aydınca deyir: "...dağlara qaçdım... Göy ot döşəyim, qara daş yastığım, enli yarpaqlar yorğanım idi..."* (Divanbəyoğlu, 1981: 160).

Belə bir təklənmə bir az keçdikdə müəyyən dərəcədə mübahisəli görünür. Çünki sonrasını Əhməd belə nəql edir: *"Axır kəlam, təklikdə davam edə bilməyib, "öldürsə də qoy məni öz həmcinsim öldürsün", – deyə meşəni tərk etdim*" (Divanbəyoğlu, 1981: 157).

Bəs bu, təkliyə qarşı deyilmi? Əlbəttə, yox! Çünki Əhmədin əsl təkliyi əsərin axırında – Ruqiyyənin ölümündən sonra meydana çıxır. Belə bir vaxtda Əhmədin ikiqat təkliyindən danışmaq lazım gəlir – bu, əbədi təklik idi.

*"Qoca kişi öz-özünə yuxuda sayıqlayan kimi deyirdi:*

*– Tək qaldıq, tək qaldıq. Qaldıq tək... Qəzadan imiş, qismət imiş, belə olacaqmış. Bilsəydim ki, bu tövr olacaqdır, Ruqiyyəyə bunu göstərərdimmi? Qarı, olmaya bu şeytandır, iblisdir!"* (Divanbəyoğlu, 1981: 181).

Burada başlıca nəticə ondan ibarətdir ki, romantik nəsrin qəhrəmanları XX əsr Azərbaycan romantizminin səciyyəvi xüsusiyyətlərini yaşadan ilk nümayəndələrdir. Onların daşıdığı keyfiyyətlər lirikanın və dramaturgiyanın qəhrəmanları tərəfindən davam və inkişaf etdirilmişdir.

## 2. LİRİK QƏHRƏMAN

Romantik şeirin nümunələri romantik nəsrdən sonra meydana çıxmış, lakin daha geniş vüsətlə inkişaf etmişdir. Belə bir faktı qeyd etmək kifayətdir ki, bütün romantiklər nəsr əsərləri yazmadıqları halda, A.Divanbəyoğludan başqa onların hamısı, əsasən, şair olmuşdur.

Gələcəkdə yaranacaq romantik şeirin necə olacağı haqqında ilk mülahizələri Abbas Səhhət irəli sürmüşdür. Onun "Həyat" qəzetində çap etdirdiyi "Təzə şeir necə olmalıdır?" məqaləsi ("Həyat" qəzeti, 23 fevral 1905, № 14) belə başlayır: "Mühərrir əfəndilərim! Ədəbiyyatımızın islahına dair məqalələr dərc etmək istəsəniz, əfkarı-acizanəmi qəzetinizin bir guşəsində səbt etməyinizi rica edirəm".

Burada **"ədəbiyyatımızın islahına dair"** kəlmələri çox ciddi və mənalı səslənir. A.Səhhətin bu aydın məqsədi arxasında köhnə şeirə qarşı böyük tələbkarlıq, poeziya üçün vacib olan sənətkar məsuliyyəti, bayağı beyt və misralardan, ideyasız cızma-qaralardan ayrılmaq inadı və nəhayət, yeni romantik ədəbiyyat uğrunda mübarizənin qığılcımları vardır.

Müəllif məqalədə "qəddi sərf ağacına oxşatmağa", "məhbubun üzünü bədr aya bənzətməyə", "qaşları yaya və kiprikləri oxa təşbih tutmağa" etiraz edir. İlk baxışda elə görünür ki, sənətkarın tənqidi fikri yalnız arxaik bənzətmələr əleyhinə yönəlmişdir. Əslində isə şairi daha çox düşündürən məna, ideya məsələsidir. Çünki köhnə təşbehlər sistemi daxilində XX əsrin

böyük mətləblərini ifadə etmək mümkün deyildi.

Maraqlı cəhətlərdən biri də bu idi ki, A.Səhhət həmin məqaləsinin axırında yeni romantik şeirin nümunəsini də vermişdir.

Bəs sonralar böyük bir ədəbi hərəkata çevrilən romantik şeirin lirik qəhrəmanını düşündürən hansı məsələlər idi? – "Amali-tərəqqi", "Amali-istiqbal", "El fəryadı", "Şərareyi-ruh", "Tərane-yi-vətənpərəstanə", "Təraneyi-əhraranə", "Amali-vicdan", "Dün axşamın ilhami-yetimanəsi", "Əməl", "Beşikdən məzarə qədər bəşərin əhvalı", "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" (M.Hadi); "Bir qızın son fəryadı yaxud zindan guşəsində bir səs", "Məyus bir qəlbin fəryadı", "Hali-əsəf iştimalımı təsvirdə bir ahi-məzlumanə", "İştə bir divanədən bir xatirə" (H.Cavid); "Nidayi-millət, yaxud amali-vətənpərvəranə", "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə" (A.Səhhət); fəryad edən "Bir quş", "Vərəmli həyat" və "Hamımız bir günəşin zərrəsiyik" nidası (A.Şaiq). Ən maraqlısı odur ki, bunlar həm romantik şeirin problemləri, həm də bu şeirlərə verilən adlar idi.

M.Hadinin lirik qəhrəmanı cəmiyyətin tərəqqisi naminə "Biz nə haldayıq?" sualını verir (Hadi, 1978: 9), hürriyyət naminə "El fəryadı" çəkir (Hadi, 1978: 26) millətin səadəti üçün "Məni mükəddər edən var könüldə bir əməlim" – deyir (Hadi, 1978: 43), "bir sürü ərbabi-vəhşətin" əlindən qurtarmaq üçün "dad istibdaddan!" harayına sığınır (Hadi, 1978: 65). H.Cavidin lirik qəhrəmanı "cəfadan, riyadan başqa bir şey" görmür (Cavid, 1968-1971, I cild: 78), hürriyyəti "dadlı bir xəyal" hesab edir (Cavid, 1968-1971., I cild: 111), A.Şaiqin qəhrəmanı bir quşun "cəfadan əfqanə gəlməsi" haqqında həqiqəti düşünür (Şaiq, 1968: 8).

Romantik şeirin düşünən və düşündürən bu qəhrəmanları ayrı-ayrı şairlərin poetik istedadının məhsulu olduqları halda, məslək və məqsədləri baxımından eyni cəbhədə birləşirlər. Onlar günün ictimai-sosial problemlərini poeziyasının vacib məsələsinə çevirirlər. Mövcud həyatın mənzərəsinə, gerçəkliyin eybəcərlik

və çirkinliklərinə qarşı biganə qala bilmirlər. Təsadüfi deyildir ki, romantizmin estetikasında ədəbiyyatın ictimai əhəmiyyəti və təsir gücü həmişə yüksək qiymətləndirilmişdir. İ.Neupokoyeva Şellidən danışarkən yazır: "inqilabi romantizmin əsas prinsiplərindən biri olan incəsənətin ictimai əhəmiyyətinə yüksək inam bütün traktatda ("Poeziyanın müdafiəsi" – K.Ə.) qırmızı xətt kimi keçir" (Неупокоева, 1959: 457).

A.Şaiqin aşağıdakı fikri bu mənada çox aydın və sərrast deyilmişdir: "Hər ədəbiyyat yeni həyati-ictimaiyyəyə yenidən təsir və nüfuz edir ki, bu dəxi ədəbiyyatın iki mühüm rol oynadığını göstərir" (Şaiq, 1977: 141). M.Hadi də "Ədəbiyyat müştaqlarına bir bəşarət" məqaləsində Tofiq Fikrətin "Sis" şeiri üzərində dayanaraq yazır: "Zülm və təcəddüd əleyhinə tovcih edilən xitabələrin ən ülvisi "Sis" məzuməsidir. Sənələrcə müddət hürriyyətpərvəranın ləbi-təzim və ehtiramında təcəssüm edən, bütün vicdanlara istibdad əleyhinə müdhiş bir kin aşılayan bu əmsalsız şeirlə Fikrət kəndi-kəndinin şərəfinə heykəl rəkz etmiş oldu" ("Səda" qəzeti, 13 iyul 1911, № 90.).

Şübhəsiz, T.Fikrətin həmin şeiri öz siyasi pafosu və platforması, üsyankarlığı və ittiham gücü ilə türk şeirinin ən gözəl nümunələrindən idi. M.Hadini də məhz həmin şeirdəki "istibdad əleyhinə müdhiş bir kin" doğuran ideya cəlb etmiş və bu ictimailik müəllif tərəfindən diqqət mərkəzinə çəkilmişdir.

Bir tərəfdən ictimai-sosial problemlərin bədii inikası, digər tərəfdən də estetik fikirdə ictimai mündəricənin roluna böyük əhəmiyyət vermək – bunlar bir-birini tamamlamaqla bərabər, romantizmin nəzəriyyəsi ilə təcrübəsi arasındakı əlaqə və vəhdəti də təsdiq edir. Bəs elə isə qabaqcıl ideyaların pafoslu və vüsətli nümayişinə çevrilən romantik şeirin lirik qəhrəmanı hansı mövqedə dayanır? Şeirin bədii strukturunda onun yeri haradadır?

Başlıca cəhət ondadır ki, hər hansı romantik şeirdə – istər burada ictimai problemlər, istərsə də mənəvi problemlər həll

edilsin – lirik qəhrəman hadisələrin, poetik inkişaf xəttinin fövqündə durur. Təbii ki, bu mənzərədə qəhrəmanın mövqe açılışı müxtəlif mərhələlərdən keçir. Lirik qəhrəmanın vahid obraz kimi yüksəlişi poetik struktur baxımından ya əvvəldə, ya ortada və yaxud da axırda nəzərə çarpır. Ən mühümü bununla təsdiq edilir ki, tez ya gec olsa da, belə bir yüksəliş, tribunluq baş verir.

Romantik şeirdə öz inikasını tapmış ictimai hadisələrlə lirik qəhrəmanın mənəviyyatı arasındakı əlaqəlilik də müəyyən növbələşmələrlə icra olunur. Burada üç cəhət xüsusilə qabarıq görünür: a) Lirik qəhrəman öz mənəvi aləmini təhlildən sonra ictimai hadisələrə nüfuz edir; b) Dövrün hadisələri təhlil olunduqdan sonra lirik qəhrəman bir fərd kimi meydana çıxır; v) Lirik qəhrəmanın həyata, sosial gerçəkliyə münasibəti öz taleyi haqqındakı düşüncələrində ifadə olunur.

H.Cavidin “Ey ruhi-pürsükun” şeiri romantik qəhrəmanın özü haqqında düşüncələri ilə başlayır (Cavid, 1968-1971, I cild: 104). Lirik qəhrəman mənliyini sarmış sakit, durğun, sükunətli ruha qarşıdır. Sevmək və ya sevilmək, eşq və ya vəfa, gülüş və yaxud fəğan – o, bütün bunlarla daxilən dəyişmək istəyir. Bədbinlik və nikbinlik - qoşa yaşayan bu iki hiss qəhrəmanın mənəvi dünyasında bir təbəddülatın da əsasına çevrilir.

Şeirin sonu isə ictimai həyatın mənzərəsi ilə yekunlaşır:

*Dünya nədir? O, iştə fərəhnakü münkəsir,*
*Bir aşiyani-zövqü səfa, bir xərabəzar...*

(Cavid, 1968-1971, I cild: 105).

Mənəviyyat barəsindəki düşüncələri dünya haqqındakı qənaət əvəz edir. Lirik qəhrəmanın daxili təbəddülat və sarsıntıları, bir-birinin əksi olan təzadlı duyğuları vahid dünyanın da iki mənzərəsi haqqındakı həqiqəti bəyan etmiş olur.

Romantik şairin “Hali-əsəf iştimalımı təsvirdə bir ahi-məzlumanə” şeiri də bu tiplidir:

*Hər kəs aləmdə bir bəlayə düçar*
*Olur, amma mənim kimi olamaz*
(Cavid, 1968-1971, I cild: 52).

Sonra isə mətləb genişlənir:

*Ey vətən! Səndə parlayanda ziya,*
*Büsbütün əhli-qərb cahilimiş.*
*Şimdi bulmuş vüqu əksi-qəza,*
*Əcəba bu nasıl təqafilmiş* (Cavid, 1968-1971, I cild: 54).

Bu şeirdəki lirik qəhrəmanın fikri inkişafını belə ifadə etmək olar: Yardan gileyi, həsrətdən ürəyin laxta-laxta qan olmasını, cahanı sevgilinin "dağınıq zülfünün kəsik telinə" dəyişməmək inadını vətən barədə düşüncələr, qəflətdən və istibdaddan qurtarmaq, yüksək mədəniyyətə nail olmaq arzuları əvəz edir. Başqa sözlə, fərdi, bir az da intim duyğular sosial problematikalı marağa çevrilir.

Səid Səlmasinin "Etmə israr" şeiri bu cəhətdən maraqlıdır. Şeirin birinci bəndində lirik qəhrəman - Aşiq deyir:

*Xatirati-şəbabi söyləyəməm.*
*Dilşikəstə bahari-ömrümü sən –*
*Görmə... Zira o ömri-möhnətdən –*
*Tökülür qəlbinə səmumi-ələm...*
*İstərəm bən açılmasın, qalsın –*
*O siyah pərdə taəbəd məstur*
("Füyuzat" jurnalı, 12 iyun 1907, № 19).

Qəhrəman gənclik xatirələrini söyləmək istəmir, keçmiş günlərini danışmaqdan imtina edir. Çünki onun qəlbi sınmış, ömrü möhnətlə keçmiş, taleyini ən ağır kədər bürümüşdür. Bildirir ki, o illəri xatırlasa, sevgilisinin qəlbi ələmlə dolar. Buna görə də həmin qara pərdənin həmişə örtülü qalmasını istəyir.

*Tündübadi-qəzaya uğradı həp,*
*Nə qoşad-e şükufəzare-həyat...*
*Ooof! Bin sədmeyi-sitəm, heyhat,*

*Bu xərabai-ömrə oldu səbəb...*
*Ah mazi!.. O səhneyi-məlum*
*Sana məchul qalsın, ey gözəlim!*

Qasırğa onun hələ açılmamış güllü, çiçəkli həyatını məhv eləmiş, minlərlə sədəmə və sitəm ömrünü xaraba qoymuşdur. Bu bənddə də yenə gözələ müraciətlə bildirilir ki, qoy o məlum səhnə məchul qalsın.

Şeirin ilk iki bəndindən belə anlaşıla bilər ki, indi xoş günlər, şən çağlar başlamışdır və gözəl sevgilinin qanını qaraltmamaq üçün kədər və ələmlə dolu keçmişi unutmaq lazımdır. Amma bir halda ki, şairin özü iztirab içində boğulanların həyatını görür, onda belə bir yanlış nəticə mümkün olarmı? Bu mənada əsl həqiqəti sonuncu bənd aydınlaşdırır:

*Etmə israr, ey mələksima!*
*Şimdi yoxdur diləkdə hüznü ələm?*
*Degiləm haqlı, etiraz etsəm,*
*Çünki məchuldur həyat sana.*
*Yəs... Umid...Naleyi-qahir,*
*Bir cidali-təhi... hiylət dinər.*

Az qala romantik şeirin lirik qəhrəmanının yaşadığı günlər haqqında xoş duyğuları canlandıran oxucu qəlbi daha ağır kədərə bürünür. Səid Səlmasinin yaratdığı bədii təzad – hüzn və ələmin, qəhr edən nalələrin, boş davaların, hiylələrin yenə nəfəs aldığı ictimai şəraiti bütün çılpaqlığı ilə açıb göstərir. Bütövlükdə isə intim məhəbbət duyğuları ictimai məzmunla əvəz edilir.

H.Cavidin "Hərb allahı qarşısında" şeirində bunların əksinə olaraq, əvvəlcə ümumi mətləb verilir, lirik qəhrəman axırda öz fikrini bildirir (Cavid, 1968-1971, I cild: 91-92). Bəzi hallarda isə ictimai həyatın təsviri ilə lirik qəhrəmanın özünün təqdimi növbələşir. "Dəniz tamaşası" (H.Cavid) bunun ən bariz nümunəsidir (Cavid, 1968-1971, I cild: 63-66).

M.Hadinin "Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar"

şeiri lirik qəhrəmanın özü haqqında düşüncələri ilə başlayır və “mən bir əsərəm”, “mən bir diriyəm” ifadələri bu başlanğıcı davam etdirir (Hadi,1978: 128-129).

Sonra isə:

*İmzasını qoymuş miləl övraqi-həyatə,*
*Yox millətimin xətti bu imzalar içində* (Hadi, 1978: 129) – *həqiqəti meydana çıxır.*

**Mən və dünya, mən və cahan, mən və vətən, mən və millət** – bütün bunlar romantik lirikanın təsadüfi xarakter daşıyan əhvali-ruhiyyəsi deyil. Bu cəhət romantik şeiri realist şeirdən fərqləndirən ən bariz əlamət və xüsusiyyətdir. Təbii ki, özü ilə dünya, xalq və vətən arasında bir əlaqə tapmaq, öz mənəviyyatının problemlərini ictimai ideallarla qovuşdurmaq və nəhayət, özünü bütün məsələlərdən yüksəkliyə qaldırmaq həqiqətləri romantik qəhrəmanın spesifik keyfiyyətləri idi.

Romantik lirikada qəhrəmanın özünü yüksəltməsi, ictimai gerçəkliyin hadisələrindən yuxarıda tutması M.Hadinin poeziyasında müşahidə edilən “MƏN” sözü ilə daha da təsdiq edilir. Yalnız “Zümzümati – təhəssürat” şeirində yox, başqa poetik nümunələrdə də bunu görmək çətin deyildir. Həmin şeirlərdən biri elə məhz beləcə də başlayır:

***Mən** bir kitab, hər vərəqim min kitabdır, Ayati-məhkəmati bütün inqilabdır* (Hadi, 1978: 114).

Yeri gəlmişkən qeyd edək ki, bu lirik qəhrəmanla A.Şaiqin “Sükutumdan şikayətçi bir qadına” şeirində:

*O sükutimdə oylə sözlər var,*
*Kəlməsindən beş-on kitab yazılar* (Şaiq, 1968: 39) – deyən və tənhalıqda qalan lirik qəhrəman tamamilə birləşir.

M.Hadinin bir neçə şeirinin də bəzi beytlərini xatırlamaq zəruridir:

***Mən** ol mərdi-süxəndanəm ki, sönməz məğzi-nəvvanm,*
*Mənim feyz aldığım aləm vərayi-xakidanımdır*

(Hadi, 1978: 53).

Şeir 1907-ci ildə yazılıb.

***Mən** ol avarə mürğəm zəxmdar olmuş pərü balım,*
*Düşər ağuşi-xakə zəxmli cismimlə amalım,*
*Neçin zülmət kəsilmiş fikri-millət misli iqbalım?*

(Hadi, 1978: 88).

Şeir 1908-ci ilin əvvəllərində yazılıb.

***Mən** bir əsərəm anlamadım kimdi müəssir,*
*Bir şeiri-bəliğəm bu müəmmalar içində* (Hadi,1978: 128).

Şeir 1908-ci ilin sonunda yazılıb.

***Mən** bir əzəli aşiqiyəm rəngi-baharın,*
*Rüxsari-bahar açmada əzhari-həyatı* (Hadi,1978: 231).

Şeir 1914-cü ildə yazılıb.

***Mən** bir günəşəm, yerdə əyandır ləməatım,*
*Şeirimdə parıldar duruyor çöhreyi-zatım* (Hadi,1978: 254).

Şeir 1914-cü ilin sonunda yazılıb.

Bütün bunlar da doğrudur ki, "mən" deyə danışan lirik qəhrəmanın (Mirəhmədov, 1985: 122) özünü qabartması heç bir mübahisəyə əsas vermir. Bu mənada şeirlərin yazılma tarixini təsadüfən xatırlatmadıq. Başlıcası odur ki, M.Hadinin lirik qəhrəmanında bu vəziyyət ötəri xarakter daşımamış, şeirdən şeirə, əsərdən-əsərə təbii şəkildə keçərək, ilbəil davam etmiş və sistemli hal almışdır.

Burada yüksəlmək mənasında bir inkişaf xətti vardır. Əvvəlcə, romantik qəhrəman özünü yazıçı, sənətkar kimi təqdim edir və nur saçan ağlının heç vaxt sönməyəcəyini bildirir. O, ifadə etdiyi proqramında da romantikdir.

"Mən bir əsərəm...", "Mən bir kitabam..." fikirləri meydana çıxanda, qəhrəmanın güvəncliyi ön plana keçir. Hətta bu məqamlarda qəhrəmanın özünü "şeiri-bəliğəm" adlandırması faktı romantizmdən başqa heç nəyə söhbət yeri qoymur. Daha ciddi aydınlıq üçün M.Hadinin məqalələrindən bir məqamı xatırlayaq: *"Dil nə qədər dadlı, nə qədər səlis və bəliğ"* (Kursiv

bizimdir – K.Ə.) olarsa, o qədər təsirli, o qədər hissiyyat bəxş olacağı süxənşünaslara pək rövşəndir" (Hadi, "Həyat" qəzeti, 20 yanvar, 1906, № 17). Deməli, romantizm estetikasında sənətkarları bəlağətli yazmağa çağırış sübut edir ki, özünü "bəlağətli şeir" adlandıran qəhrəman, şübhəsiz, romantik qəhrəmandır.

"Mən bir əzəli aşiqiyəm rəngi-baharın" – deyən və nikbinlik, ümid əhvali-ruhiyyəsini saxlayan qəhrəman da məhz romantizmin övladıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, bütün "mən"lər qəhrəmanın özünü yüksəkliyə qaldırması ilə bağlıdır. A.Səhəttin "Şair, Şeir pərisi və Şəhərli" əsərindəki Şairin Pəriyə uymasının mənası da elə bu deyildimi? Bəs elə isə M.Hadinin "Mən bir günəşəm" - deyən lirik qəhrəmanı da öz məsləkdaşlarına və daha artıq dərədə M.Hadiyə qoşulur və eyni zamanda, həm mənəvi cəhətdən, həm də fiziki baxımdan yüksəlir.

Çox maraqlı cəhətlərdən biri də bu idi ki, A.Səhhət romantik A.S.Puşkinin "Qafqaz" şeirinin tərcüməsində də lirik qəhrəmanın yüksəlmək eşqini sənətkarlıqla qoruyub saxlamışdır:

*Qafqaz altımdadır, ən müdhiş olan zirvədə mən,*
*Tutmuşam tək uçurum, qarlı dağ üstündə qərar.*
*Qaraquş uçmağa qalxarsa uzaq bir təpədən,*
*Nə qədər yüksək uçarsa, yenə dövrəmdə uçar*

(Səhhət, 1976: 131).

Romantik şeirdə lirik qəhrəmanın bu mövqeyi təsadüfi xarakter daşımır. Bəlkə, əksinə, qəhrəmanın daxilən özünü yüksək tutması, özünü ictimai hadisələrin içərisindən ayıraraq qabartması romantik əsərin spesifikasını müəyyənləşdirir. Realist lirikada obyektiv təsvirin vahidinə çevrilən lirik qəhrəmandan fərqli olaraq, romantik lirikada qəhrəman məhz subyektiv inikasın səbəbinə çevrilir. Elə realist şeirdə bir çox insan obrazlarının açıq təqdimi də onunla bağlıdır. Bu məqamda romantik A.Şaiqin "Əkinçi və xan" adlı realist şeirini xatırlamaq yerinə düşər:

*Gəldim boş əl ilə qapma, qovma, dəxiləm,*
*Yoxsul, üzü qarə, əməyi puç və səfiləm.*
*Qəlbi qırığam, boynu bükük, xəstə, əliləm.*

*Gəl eylə mənim dərdimə dərman, sənə qurban.*
*Haqsız, quru muzdurca bu heyvan sənə qurban*
(Şaiq, 1968: 53).

Şeirdə iki insan üz-üzə dayanmışdır və onları düşüncələrinə və həyata münasibətlərinə görə şərti olaraq realist insanlar adlandırmaq olar. Hətta bir az əvvələ gedib S.Ə.Şirvaninin "Xan və dehqan" şeirini yada salsaq, onda romantizm ədəbiyyatı nümunələrinin təkcə sərlövhəsində "və" ilə ayrılan və iki insan obrazı ilə təmsil olunan əsər tapmağın çox çətinliyi qarşısında qalarıq. XX əsr Azərbaycan romantiklərinin əsərləri içərisində ayırma funksiyasına malik olan "və", "yaxud", "və yaxud" ifadələrinin daxil olduğu başlıqlar da vardır. Amma necə? M.Hadidə "Bir aşiqi-hürriyyətin ehsasati-ruhiyyəsini təsvir və idarə edən bir lövhədir", "Əlvida, yaxud acı bir iqrar", "işıq və təzə aləm", "Qanlı sətirlər və qaileyi-həyat", "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah". Yaxud H.Caviddə: "Hərb və fəlakət", "Dün və bu gün", "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs". Və yaxud A.Səhhətdə: "Nidayi-millət, yaxud amali-vətənpərvəranə", "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə". Bunlar obrazlar yox, problemlərdir. "Yaxud" sözünün özü qrammatik baxımdan ayırır, ideya baxımdan isə birləşdirir və vahidləşdirir.

Bəs elə isə romantik şeirdə daha hansı obrazlar var? M.Hadinin romantik şeirlərini xatırlayaq: "Dilənçi" (Hadi, 1978: 178), "Bir işsizin qış düşüncələri" (Hadi, 1978: 195), "Aşiyani-viran" (Hadi, 1978: 202), "Bədbəxt kor çocuq" (Hadi, 1978: 314), "Kor soqqur" (Hadi, 1978: 326). H.Cavidin yaradıcılığından nümunələr: "Kiçik sərsəri" (Cavid, 1968-1971., I cild:

45), "Öksüz Ənvər" (Cavid, 1968-1971., I cild: 46), "Şeyx Sənan" (I,67), "Dəniz pərisi" (Cavid, 1968-1971., I cild: 115). A.Şaiqdə: "Bir quş" (Şaiq, 1968: 8-9), "Nişanlı qız" (Şaiq, 1968: 19), "Bir mələkə" (Şaiq, 1968: 35), "Bəxtsiz rəfiqəmə" (Şaiq, 1968: 49-50). Bu şeirlərin obrazları romantik şeirin obrazlarıdır. Təklikdə və kimsəsizlikdə qalan dilənçi, bir işsiz, kor çocuq, kor soqqur, sərsəri, Ənvər, Şeyx Sənan, nişanlı qız, bəxtsiz ömür yoldaşı-acılı və ağrılı talelər romantizmin narahatlıq obyektləridir. Mələk və pərini də mübahisəsiz olaraq romantiklərin maraq dairəsində görmək çətin deyildir.

Dilənçi şil ayağı ilə bazarı sürünür, əl açaraq adamlara yalvarır, istəyir ki, onu sevindirsinlər. Bir işsiz bir tikə çörək tapmaq da acizdir, uşaqlarını doyurmağa, pal-paltar almağa da imkanı yoxdur. Hətta sığınacaqdan da məhrumdur. Bu qəzəblə də M.Hadi yazır:

*Nə olurdu yaranmasa "adəm?"*
*Sonu yox boşluğun içində gəzər.*
*"Qəm" nədir anlamazdı "qəm"li "bəşər",*
*Pək "xoş" idi "qərargahi-ədəm"* (Hadi, 1978: 199).

Yeri gəlmişkən qeyd edək ki, bu şeirin epiqrafı ciddi əhəmiyyət daşıyır. "Ana dili gərəkdir" deyənlərə epiqrafı müəllifin yalnız ana dilində olan sözləri əsasında şeir yazmaq istəyinin həyata keçirilməsi naminədir. M.Hadi həmin şeirdə alınma sözləri dırnaqda vermişdir. Beləliklə, təmiz ana dilində yazmağa marağı olan romantik sənətkarın məhz bu şeirdə əzablar içində boğulan işsizin həyatını təsvir etməsi bu dildə danışanların faciəsini göstərmək mənasında simvolik səciyyə daşıyır.

Sərsəri toz-torpaq içərisində uyuyur, onun bir kimsəsi yoxdur. Yoldan keçənlərin ona ürəyi yanmır. Sərsərinin də dilənçi və bir işsiz kimi gecələməyə yeri yoxdur. Ənvər atasını itirmişdir və acı həyat keçirir.

Səciyyəvi cəhət budur ki, həmin şeirlərin lirik qəhrəmanı bu

şeirlərdəki obrazların əhvali-ruhiyyəsini yaşayır. O, narahatdır, düşüncəlidir, eyni zamanda qəzəbli və üsyankardır.

Romantik lirikanın poetikası üçün səciyyəvi olan **müraciət** və **xitab** da lirik qəhrəmanın daxili aləminin açılmasında xüsusi rola malikdir. Həmçinin bu cəhət romantik şeirin müasirlik çalarlarını, ictimai gücünü, məfkurəvi istiqamətini daha açıq və aydın şəkildə təzahür etdirir.

İlk növbədə diqqəti cəlb edən vətən və millətə müraciətdir. Romantik qəhrəman sanki vətən və millətlə üz-üzə dayanıb, onunla həsbi-hal edir:

*Ey vətən! Ey pəriyi-vicdanım!*
*Kəsmə bizdən nigahi-şəfqətini,*
*Eylə ilqa dilə məhəbbətini,*
*Səni sevmək deyilmi imanım?* (Hadi, 1978: 45).

Bu şeirdə vətənə olan sevgi ifadə edilir. Vətənlə onun sadiq övladı olan vətəndaş arasındakı sıx əlaqə burada aparıcı qayəyə çevrilmişdir. Lakin başqa bir ciddi mətləb də göz qabağındadır:
*Ey atəşi-cəhalətə büryan olan vətən!*
*Pirayeyi-ülumdən üryan olan vətən!*
*Ey dideyi-təhəssürü giryan olan vətən!*
*Baxdıqca əhlinə ürəyi qan olan vətən!*
*Ey kövsəri-maarifə ətşan olan vətən!* (Hadi, 1978: 94).

“Ah, kimsəsiz vətən” şeirində romantik müraciətin başlıca qayəsini kimsəsizlikdən doğan ağrının inikası təşkil edir. H.Cavid də vətən taleyini düşünən lirik qəhrəmanın müraciət formasına üstünlük vermişdir:

*E vətən! Ey könül pərəstarı!*
*Var ümidim, qüsura baxmayasan,*
*Bizə tərcih edib də əğyarı Buraxıb nari-hicra yaxmayasan*
(Cavid, 1968-1971., I cild: 53).

Bu şeir də romantik poeziyanın vətənpərvərlik ruhunu yaxşı ifadə edir. Vətənin özü ilə danışıq, əslində vətən övladını müba-

rizəyə səsləməklə, onu mühafizəkar qüvvələrə qarşı amansız olmağa çağırışla nəticələnir. A.Şaiqin qəhrəmanı isə Vətənin dərd və kədərdən qurtarmasını istəyir:

*Ey çeşmimin önündə mücəssəm, vətən, vətən!*
*Qəlbim kimi aləmlərə həmdəm, vətən, vətən!*

(Şaiq, 1968: 7).

Romantik şeirin bu vətəndaşlıq keyfiyyətlərini insanlara doğru ünvanlanmış müraciətlər də yaşadır. "Vətən övladı!" nidası M.Hadi şeirlərində mühüm bədii-estetik məzmun daşıyır. İnsanın qüdrətinə olan tükənməz inam davam və inkişaf etdirilir:

*Bəşər! Ey canlı bir hikmət, böyük qüdrətlərin vardır,*
*Böyük əqlin, böyük fikrin, böyük qüvvətlərin vardır*

(Hadi, 1978: 310).

Romantiklər insanlara müraciətdə insanı mürəkkəb varlıq kimi təqdim edirlər. Onlara görə insan həm mütərəqqi işlərin, xeyir əməllərin sahibi, həm də pisliklərin, şərin daşıyıcılarıdır. Çirkinlik və eybəcərlik törətmək ən böyük cinayət kimi ittiham edilir. Bu mənada A.Şaiq yazır:

*Əsrlərdən bəri zülmə alışan,*
*Qan içən, qan qusan, ey şər insan!* (Şaiq, 1968: 38).

Dünyanın müstəbid sakinlərinin despotizmini məhz onlara müraciətlə damğalamaq Hadi yaradıcılığında da xüsusi yer tutur və oradakı qəzəb, hiddət bu məqamlarda ölçü və məhdudiyyət tanımır. Bu poeziyada xalqların zülmkarlarına, insanlığın düşmənlərinə qarşı qətiyyətli və amansız üsyan vardır:

*İç, iç, nə qədər istərisən qanımı, zalım,*
*Bir gün görərəm qanını səhbalər içində* (Hadi, 1978: 130).

Yaxud:

*Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!*
*Qutar bu milləti-məzluməni qeydi-əsarətdən!*

(Hadi, 1978: 160).

Digər tərəfdən Hadinin lirik qəhrəmanı öz etiraz səsini “Məhəmmədəli şahın qulağına azani-intibah” oxumaqla da bildirir:

*Eylədin ehraq nazəndə vətən gülzarını,*
*Çıxdın, ey qəddar, zülmün payeyi-balasına*
(Hadi, 1978: 153).

Hadi şeirlərindəki “müstəbid”, “zalim”, “qəddar”, “qatil” ifadələri insanlığa düşmən kəsilən adamların xarakteri haqqında tam təsəvvür yaratmaqla bərabər, Hadi şeirlərinin qəzəb ölçüsünü dəqiq təyin edir.

Romantik şeirdə lirik qəhrəmanın **hürriyyətə** müraciəti də çox qüvvətlə səslənir:

*A hürriyyət! A münfərid əməlim!* (Səhhət, 1976: 26).

Yaxud:

*Huri-hürriyyət, əya, məhbubi-şuxü dilnigar,*
*Bəsdürür qıldın niqabi-zülm içində istitar*
(Hadi, 1978: 102).

Və yaxud Hadi hürriyyətə üz tutaraq deyir:

*Əcəba ağlamazmıdın, gözəlim,*
*Görmüş olsaydın, ol şəhidanı,*
*Uğrunda axan qızıl qanı,*
*Bir qızarmazdımı üzün, a gülüm* (Hadi, 1978: 180).

Romantiklərin hürriyyətə müraciətinin arxasında azadlıq ehtirası dayanmışdır. Onlar hər bir şeyi azad görmək istəyir, insanın azadlığını ən yüksək, ən ali keyfiyyəti kimi mənalandırırlar. Romantik şeirdə vətənin “sevgili övladı” qarşısında iki vəzifə qoyulurdu: bu övlad həm özü oyanmalı, həm də vətəni azadlığa çıxarmalıdır!

*Ey kainati-ruhuma sultan olan pəri!*
*Yandır biladi-qəlbimi, pozma dimağını* (Hadi, 1978: 90).

***Pəriyə*** *müraciətdə bir-birinə sığınmış, bir-birinə qovuşmuş iki cəhəti ayırmaq çətindir: Görəsən pəriyə – gözələmi, yaxud pə-*

*riyə – azadlığamı müraciət edilir? Şübhəsiz, burada heç bir mübahisəyə ehtiyac yoxdur ki, şeirin başlıca qayəsini azadlığa çağırış təşkil edir. Çünki romantik poeziyada ictimai ideralların, sosial problemlərin inikası gözəlin şəninə söz söyləməklə müqayisədə daha üstün, daha qabarıqdır.*

Bəzən də M.Hadi şeirində azadlığa münasibət **mələyə** müraciətlə ifadə edilir:

*Ruhum qədər səmalərə pərvaz edən mələk!*
*Ummani-zülmünün niyə yoxdur kənarəsı?..*
*Gözdən düşürmə bəndəni, ey hökmdari-hüsn!*
*Aldatmasın səni bu vəcahət əmarəsi* (Hadi, 1978: 104).

Yenə hiss edirsən ki, söhbət mələyin etdiyi zülmdən gedir. Amma bu zülmdən danışmaq, əslində azadlığa olan həsrətin nəticəsi kimi başa düşülməlidir.

H.Cavid poeziyasında isə mələyə müraciətin iki qütbü vardır. Bu poeziyada mələk bəzən qız mənasında, bəzən də elə azadlığa işarə kimi işlədilir:

*Mərhəmətsiz mələk, ədalı gözəl,*
*Gör nələr yapdın bu vüsalə bədəl?!*
(Cavid, 1968-1971, I cild: 123).

Yaxud:

*Əvət, gözəl mələyim! Hər səfa ələmlə bitər,*
*Bu bir lətifeyi-qüdrət, bu bir həqiqətdir*
(Cavid, 1968-1971, I cild: 129).

Hər iki halda, heç şübhəsiz, söhbət gözəldən gedir.

Şairin "Gecəydi" şeirində isə məsələ bir az başqa cürdür. Öz sevgilisinin evinin kəndarında (kənarında!) duran qəhrəman yanıqlı-yanıqlı deyir:

*Sən, ey sevimli mələk! Ah... zalım, ey zalım!*
*Sən ey nədimeyi-ruhim, ümidi-iqbalım!*
(Cavid, 1968-1971, I cild: 38).

Romantik qəhrəman öz sevgilisini sadəcə olaraq "mələk"

adlandırır və buna onun ixtiyarı da vardır. Lakin şeirdə müəllifin öz sözləri kimi verilən misralar xüsusi maraq doğurur:

*Ayaqda durmaq üçün onda yoxdur tabü tavan,*
*Sərildi yerlərə, lakin püriztirabü fəğan.*
*Dıyordu: "Yox daha səbrim, gecikmə, gəl mələyim,*
*Gəl, iştə, getməliyəm, əlvida... Gözəl mələyim"*

(Cavid, 1968-1971, I cild: 39).

Bu söhbətin də mərkəz nöqtəsini təşkil edən "mələk" anlayışı məhz gözəl bir qız mənasında işlədilir. Lakin şeirdə başqa bir mühüm mətləb vardır: öz sevgilisindən (mələyindən) müsbət cavab almayan qəhrəman ölümə düçar olur. Deməli, həmin qəhrəman üçün mələk özü bir azadlıq demək imiş.

H.Cavid "Bu gecə" şeirində isə yazır:

*Gözəl mələk! Gecələr daima səmayə baxar,*
*Qəmərdən, ah... o soluq çöhrədən səni sorarım*

(Cavid, 1968-1971, I cild: 118).

Şeirdə ictimai mətləblərə doğru səmtlənən məqsəd o qədər güclüdür ki, şairin məhz azadlıqdan danışdığını hiss etməyə bilmirsən. Çünki bu müraciət şairin "Dərin-dərin uçurumlar, vərəmli fırtınalar" düşüncəsindən sonra başlanır. Bu müraciət həmin gecənin, həmin gecə qaranlığının, başqa sözlə, irticanın şairin ruhunu əzməsi ilə bir vaxta düşür.

Romantik şeirdə həm əzazilliyə, müstəbidliyə qarşı mübarizə aparmaq, həm də azadlığa çatmaq idealları vahid bir məcrada birləşərək inqilabi yüksəliş haqqında fikrin təbliğini şərtləndirir. Hadinin aşağıdakı şeirində bu cəhət aydın müşahidə olunur:

*Bir istiqbalə bax "Şahim", gələn var, intiqamındır,*
*Batır, "xurşidi-şiranə"n, çıxan zülməti şamındır*

(Hadi, 1978: 170)

Gələn kimdir? – İnqilab!

Romantik şeirdə **sübhə** müraciət də inqilaba müraciət kimi başa düşülməlidir. M.Hadi "Bariqeyi-inqilab" şeirində açıqca yazır:

*Hala qırılmadı səsi tari-rübabımın,*
*Bitməz künuzu, bil ki, bu qəlbi-xərabımın,*
*Hər dəmdə canlanır nəğməsi inqilabımın,*
*Təsiri yox deyil, bilirəm ki, xitabımın,*
*Parlaq baxışla nurunu gör afitabımın,*
*Kəskin nəzərlə öp üzünü hər kitabımın* (Hadi, 1978: 277).

Burada poetik xitabın başlıca ünvanı inqilabdır. Çünki bu inqilab artıq öz nurunu göstərmiş bir Günəşdir. Belə bir ictimai proses isə Hadi rübabının daha gur, daha əzəmətli səslənməsinə, çalınmasına imkan yaradır, onu inqilab haqqında yeni nəğmələr qoşmağa ruhlandırır:

*Hər misraində şeirimin avazi-intibah,*
*Hər nəğməsində xəndəfəşandır birər sabah,*
*Xaməm həmişə söyləyir, ey qövmi-şəbpənah,*
*Açdı səməddünün səhəri, iştə şəhrah,*
*İdrakını qarartdı xürafat, ah, ah...*
*Eh sübh, çıx! Və bat yerə, ey sitreyi-siyah*
(Hadi, 1978: 277).

"Ey sübh, çıx!" çağırışı artıq inqilabın daha qüvvətlə dalğalanması istəyidir. Həmçinin şair bu məqamda inqilabı irticaya, inqilabi qüvvələri mürtəce, qaraguruhçu qüvvələrə qarşı qoyur. Abbas Səhhət yaradıcılığında da "millətə" xitabla deyilir:

*Nə idin dün, nə olmusan, əfsus,*
*Gec oyandın bu qəmli röyadən.*
*Yoxsa tutmuş məgər səni kabus?*
*Açıl, ey sübh, leyli-yeldadən!* (Səhhət, 1975, I cild: 24).

Bu şeirdə isə "sübh" sözü bəşəriyyəti "uzun əsarət" mənasında işlənmiş "şəbi-yelda"dan xilas edəcək azadlığı əks etdirir. Yeri gəlmişkən, A.Şaiqin "Zəmanənin inqilabçılarına" şeirindəki müraciəti də xatırlamaq yerinə düşər:

*Əldə etmək üçün böyük əməli,*
*Qorxmayın, cürət ilə qalxışınız!*

*Fırtına, dalğalarla çarpışınız!*
*İrəli, qəhrəmanlarım, irəli!* (Şaiq, 1968: 34).

Bütün bunlar o fikri tamamilə təsdiq edir ki, "harada olursa-olsun, əsarətə qarşı çevrilmiş inqilabi hərəkat hər zaman romantikləri fərəhləndirirdi. Romantizmin ideya məzmunu və məhz mütərəqqi cəhəti onun əsas nümayəndələrinin inqilabi hərəkata olan hərarətli münasibətlərində özünü göstərirdi" (Cəfər, 1974: 118).

Lirik qəhrəmanların **qadına, anaya, yerə, gülə, çiçəyə, kainata, ulduzlara** müraciətləri də dövrün vacib və zəruri problemlərini əks etdirməyə olan meylin nəticələridir. Hər müraciətdə, hər xitabda yeni mətləblər açılır, yeni məsələlər aydınlaşır. Belə bir müasirlik Azərbaycan romantizminin ideya gücünü, mübarizə istiqamətlərini aşkara çıxarır. Hüseyn Cavid qadına müraciətdə onların da oyanmağını istəyir, şair uyumağı, yatmağı zülmlə, zillət və möhnətlə müqayisə edir (Cavid, 1968-1971, I cild: 43). Bəzən də romantik şeirdə **məktuba, qələmə, əsrə xitab** edilir. Məsələn: A.Səhhət yazır:

*Ey qələm! Yazmada atəşbar ol!*
*Ey dili-qafil! Oyan, huşyar ol!* (Səhhət, 1975: 96).

Hər müraciət müəyyən fikri-estetik yük daşıyır. Hətta səciyyəvi faktdır ki, romantik şeirdə Tanrıya xitab, Tanrıya üz tutub danışmaq özünü qüvvətli şəkildə göstərir. Əgər müraciət edilən obyektlərə diqqət yetirsək, hər şairin yaradıcılığında bunların bu və ya digər dərəcədə dəyişildiyinin şahidi olarıq. Lakin elə müraciət obyektləri də vardır ki, onlar bütün romantiklərin yaradıcılığına xasdır. **Tanrıya xitab** məhz belələrindəndir. Bu baxımdan Məhəmməd Hadinin "Təraneyi-vətənpərvəranə", Hüseyn Cavidin "Dəniz tamaşası" və "Hərb allahı qarşısında", Abbas Səhhətin "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə", Abdulla Şaiqin "Qış gecəsi" şeirləri çox səciyyəvidir.

M.Hadinin adını çəkdiyimiz şeiri İran inqilabına həsr edilmişdir. Şair vətənin taleyini bu inqilabla, bu inqilabın nəticələri ilə bağlayır. O bildirir ki, bu günə qədər vətən istibdaddan viran olub, vətən övladı qürbətdə sərgərdan qalıb, hətta vətənin bülbülləri də nalan olubdur. Ona görə də şair vətən oğullarını, inqilabçıları bu fürsətdən qənimət kimi istifadə etməyə çağırır və istiqbalın təmin olunmasını ciddi vəzifə kimi irəli sürür. Lirik qəhrəman qəm və möhnəti, əziyyət və zilləti aradan qaldırıb, vətəni xoşbəxt, milləti şad görmək arzuları ilə çırpınır. Bütün bu müraciətlərdən sonra Hadi qəfil yazır:

***İlahi!*** *Dövləti-məşrutəni sən payidar eylə,*
*Müsavat ilə hüriyyət əsasın üstüvar eylə* (Hadi, 1978: 93).

"İlahi" xitabı şairin yuxarıda dediyi ideallardan doğan narahatlıqdan yaranır. Əlbəttə, bu xitab əlacsızlıq, acizlik deyil. Şərti mənalı "ilahi" sözü M.Hadi şeirinin daha qüvvətli alınmasının səbəb və şərtidir.

H.Cavidin "Hərb allahı qarşısında" şeiri adından da göründüyü kimi, birbaşa Allaha müraciətlə yazılmış şeirdir. Bu əsər nəinki Cavid şeirinin, nəinki Azərbaycan romantizminin, daha geniş mənada XX əsrin əvvəllərinə məxsus mütərəqqi ədəbi-ictimai fikrin müharibə dəhşətlərinə qarşı pamfletdir, xalqın, insanlığın bəşəriyyəti bürüyən müharibələrə qarşı etiraz səsidir:

*Ey odlu şəhpərilə saçan zəhri-intiqam!*
*Ey hərb allahı! Ey sırıtan kinli əjdaha!*
*Oldunsa bunca qəhrü fəlakətlə şadkam,*
*Artıq bitir şu səhnəyi, ey müftəris daha!*
*Endir şu qanlı pərdəyi, ey rəhnümayi-şər!*
*Endir də bir qədər nəfəs alsın bəni-bəşər*

(Cavid, 1968-1971, I cild: 91).

Şair hərb allahını "intiqam zəhəri", "kinli əjdaha", "yol göstərən şər qüvvə" sözləri ilə ittiham edir və eyni zamanda, onun

xislətini açır. Məlum olur ki, onun ən böyük "şücaəti", "tarixi xidməti" qəhr və fəlakət törətməkdir. Onun dəhşəti bütün cahanı sarmış, bəşər onun pəncəsində sarsılmış, hava, yer, su onun dəhşəti altında qalmış, həmçinin vəhşilərin özü belə bu allahın təzyiqi ilə inləməkdədir. Lakin Cavid üçün hərb allahı dindar, mömin adamın allahı deyil. Əksinə, H.Cavid hərb allahı qarşısında dayanan, onun qəzəbindən qorxmayan və ona öz sözlərini deyən bir sənətkardır:

*Ey şiddətü qəzəb savuran hamii-zəfər!*
*Artıq yetər, usandı cahan, sən də bir usan!*
*Tərk et şu qanlı torpağı, artıq çəkil, yetər,*
*Hər kəs didişmədən yorulub imdi ruh açan*
*Azadə bir havada çiçəklənmək istiyor,*
*Pək dadlı bir ümidlə əylənmək istiyor* (Cavid, 1968-1971, I cild: 91). A.Səhhətin "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə" şeirində Allaha müraciət bilavasitə vətənin taleyi ilə bağlıdır. Şair göstərir ki, vətənin gözləri yaşlı, halı pərişandır. O, vətənin başını qanadları altına qoymasından, göz yaşı axıtmasından, qəflət içərisində yatmasından, başqa ölkələrdən, məmləkətlərdən geri qalmasından narahatdır. Sanki Səhhətin bu məsələlər barədə vətəndaşlara gileyindən səbri tükənir və Tanrıya müraciətlə öz etirazını bildirir:

*Ya ilahi, sənə yetməz nə əcəb,*
*Bu qədər naleyi – "ya rəb, ya rəb"?* (Səhhət, 1975: 19).

Bundan sonra şeirdə oxucunu mədəniyyətə, irəliləyişə nail olmağa çağırış səsi ucalır. Bu mənada şeirin Allaha müraciət motivi bədii vasitə kimi meydana çıxır və əslində bu müraciət də vətən övladlarını hərəkətə gətirmək naminədir. A.Şaiqin "Qış gecəsi" şeirində isə ana xəstə uşağının sağalması üçün Tanrıya pənah aparır:

*"Oğlum!" – deyə səslənir yerindən,*
*Gördükdə yatır o xəstə birdən,*

*Göz yaşlarını silib çəkdi ah:*
*"Bu körpəmə sən şəfa ver, allah!"* (Şaiq, 1968: 33).

Bu müraciət də ananın kimsəsizliyindən, oğul yanğısından doğmuşdur. Beləliklə, hər hansı zamanda Allahla üz-üzə durub onunla "danışmaq" elə həmin zamanın, həmin günlərin problematikasını ifadə etmək deməkdir. Maraqlıdır ki, romantik şeirin özündə iyirminci əsrə də tez-tez müraciət olunur. A.Şaiq "İyirminci əsrə xitab" şeirində yazır:

*Qaldır buludlu pərdələri, anlasın cəhan.*
*Sönməz günəşmi, ya qara bir kölgədir doğan?*
*Varmı ümid bir daha feyzü səadətə?*
*Ya çəkmədə bizi yenə girdabi-zillətə* (Şaiq, 1968: 16).

Müəllif öz fikirlərini **əsrə-zamana** müraciətlə ifadə edir. Bu isə sənəkar fikrinin ciddi ümumiləşməsindən xəbər verir. Çünki burada həm də əsrdən başqa məkan kimi geniş yer kürəsi götürülür. Yer kürəsi fonunda hər hansı bir ilə müraciət qeyri-təbii görünə bildiyi üçün, məhz tərəflərin tamamlanması, uyğunlaşması naminə əsr seçilmişdir. Həmçinin bu nə bütün iyirminci əsri - 100 ili əhatə edir, nə də məcazi mənada bir, iki, üç... il ilə məhdudlaşır. "İyirminci əsr" şeiri yazıldığı tarixdən (1908) başlayaraq, nurun doğmasına, millətin "bir yana" çıxmasına qədər dövrü özündə ehtiva edir ki, bu son hədd hələ o vaxtlar şair üçün məlum deyildi.

Birinci dünya müharibəsi dövründə – 1915-ci ildə A.Şaiq yeni bir "Əsrimizə xitab" şeirini yazır (Şaiq, 1968: 67). Müəllif yenə narahatlığını bildirir:

*Qaldır dumanlı pərdələri, olsun aşikar,*
*Ağ günmü, ya yenə qara günmü qabaqda var?*
*Bu qırmızı alovlar içində nihan-nihan*
*Doğmazmı nuri-möhrü məhəbbət cəhan-cəhan?*

Eyni ilə, burada da əsrə xitab müharibə dəhşətlərinə nifrətdən yaranıb müharibənin qurtarmasına qədərki mərhələni əhatə

edir.

H.Cavidin 1915-ci ildə müharibə əleyhinə yazdığı "Qüruba qarşı" şeirində də iyirminci əsrdən danışılır:

*Əvət, dalğın günəş, tutqun günəş haqsız deyil zira,*
*Bütün yirminci əsrin müstəbid övladı həp alim...*
*Əvət, dalğın günəş, yorğun günəş haqsız deyil zira,*
*Bütün yirminci əsrin müstəid övladı həp zalim*

(Cavid, 1968-1971, I cild: 89).

Buradakı iyirminci əsr bütün yüz ili əhatə edir. Çünki sənətkara görə yalnız müharibə dövründə deyil, ondan sonra da müstəbid və müstəid, alim və zalim övladları mövcud olacaqdır.

Azərbaycan romantiklərinin şeir yaradıcılığında lirik qəhrəmanın müraciətinin məhz romantizmin özü üçün səciyyəvi olan başqa bir obyekti də vardır. Bu isə **mücərrəd, qeyri-konkret obyektlərə xitabla** bağlıdır. Belə ki, romantiklər yalnız insanlara, yalnız yerə, göyə, allaha müraciətlə kifayətlənmirlər. Yaxud başqa cür desək, onların yaradıcılığını qeyri-konkret məfhumlarsız təsəvvür etmək mümkün deyildir. Bunun başlıca səbəbini romantizmdəki insanların mənəvi aləminə nüfuz etmək məqsədində axtarmaq lazımdır. Çünki romantiklər ictimai həyatın problemlərini təhlil edəndə belə daha çox bunun həllinə insanın daxili dünyasından keçməklə çatırlar. Digər tərəfdən burada başqa bir amil də xüsusi rol oynayır. Belə ki, həyatın mürəkkəbliyindən çıxış etməyən romantiklər mürəkkəb həyatın inkişafına da, yeniləşməsinə də məhz romantik kimi yanaşırdılar. Bu yanaşma isə insanların daxili dünyasının "predmetlərini" bədii fikrin mərkəzinə gətirməyi zəruriləşdirirdi.

Azərbaycan romantiklərinin yaratdığı nümunələrdə qeyri-konkret, mücərrəd məfhumların miqyası və mənzərəsi genişdir. Bu genişlikdə müraciətin daha məhsuldar ünvanlarından biri **həqiqətdir.**

Məlumdur ki, XX əsrin əvvəllərində elmə və maarifə mü-

nasibət coşğun xarakter almış və bu coşğunluq bədii ədəbiyyatda geniş miqyasda öz əksini tapmışdı. İctimai xadim də, müəllim də, ədəbiyyat sahəsində realist də, romantik də, məktəb, təhsil məsələlərinin inikasını vacib yaradıcılıq vəzifəsinə çevirmişdi. Əlbəttə, məsələnin həlli məqamında fikirlərin ifadə formaları müxtəlif və fərqli idi. Ancaq ümumi məqsəd dəyişmir, arzu və istək eyni olaraq qalır. Müqayisə üçün qeyd edək ki, M.Ə.Sabir elm öyrənməyi təkid edəndə "Oxutmuram, əl çəkin!" kinayəsinə üstünlük verirdi. Ondan fərqli olaraq M.Hadi eyni məqsədi izləyərək "Oxu, bil, öyrən!" kimi açıq tezis irəli sürürdü. Hadinin həmin şeirinin ilk beyti cavanlara müraciətlə başlanır:

*Ey cavan, öyrən: Cəhalət ən böyük bir ardır,*
*Elmsiz adəm bəhaimdən də bimiqdardır* (Hadi, 1978: 207).

Bu müraciət bir başqa problemin həyati faktlarla, həyat obrazları ilə təhlilidir. Şeirin sonlarında da həmin proses davam edir və şair gözlənilmədən obyekti dəyişir. Sonuncu beytə qədər fikirlərini cavana söyləyən, hətta ona bir yerdə "qardaşım" deyən, müraciət edən Hadi axırda yazır:

*Zəhərlənmiş fikrimiz zəhrabi-mövhumat ilə,*
***Ey həqiqət,** parla, parlat Şərqi, zülmətzardır*
(Hadi, 1978: 208).

Hadinin "Ey həqiqət" xitabı şeirin ümumi istiqamətini dəyişir və həyatdakı çətinliklərin müqabili, "nicatı" olur.

M.Hadi şeirlərində həqiqətə müraciətin mənzərəsini "Əzhari-əfkar" şeiri (Hadi, 1978: 224-225) daha aydın göstərir. Burada müəyyən fasilələrlə həqiqət həm müəllif, həm də oxucu qarşısında dayanmış olur:

**Həqiqət,** ey bəşərin sərmədi-ilahəsi, çıx!
Görün qaranlığa batmışlara cəmalın açıq!

Yaxud:

***Həqiqət,*** *ey mədəniyyətfüruzi-əqvamın,*
*Gözü yolunda durur kainati-islamın.*

Və yaxud:

***Həqiqət,*** *iştə oxu Şərqə tazə, tazə həyat,*
*Bu qövmi-müzlüm üçün bir işıqlı ruh yarat!*

Bu sonuncu beyt sübut edir ki, Hadi öz həqiqət axtarışlarında "tazə həyat" arzusunu bildirir. Doğrudan da, Azərbaycan romantizmində lirik qəhrəman "böyük həqiqətlərin carçısı, yüksək əxlaqi sərvətlərin daşıyıcısı rolunda" (Гаджиев, 1980: 26) çıxış edir. Ümumiyyətlə, həqiqət motivi Hadi şeirində o qədər güclüdür ki, bəzən taleyə müraciət olunanda da həqiqət yada düşür:

*Ey tale! Uyma şəfqətü riqqət zamanıdır,*
*Qalma xəyal içində, həqiqət cahanıdır!* (Hadi, 1978: 205).

Romantik şeirin xoş gələcək axtarışları konsepsiyası ilə bağlı cəhətlərdən biri də bu şeirin **ümidə** müraciətindədir. Doğrudur, romantiklər heç vaxt əməldən, işdən əl üzmürlər. M.Hadi çox böyük nikbinliklə yazır:

*Ey nəzərgahi-əməl, ey şöleyi-iqbalımız,*
*Sizlərə vabəstədir, təmini-istiqbalımız* (Hadi, 1978: 40).

Yaxud:

*Ey baği-əməl, açıl bahar ol,*
*Ey sevgili qönçə, xəndədar ol* (Hadi, 1978: 179).

Lakin bunlara baxmayaraq, ümidə bağlı misralar da romantiklərin yaradıcılığında öz yerini heç nəyə güzəştə getmir. H.Cavid "Ey nəşvəli, ey şivəli ümmid!" – deyir (Cavid, 1968-1971, I cild: 126).

Ümid və inam motivləri yalnız ayrı-ayrı əsərlərdə meydana çıxan misralarla, ayrı-ayrı söz və ifadələrlə məhdudlaşmır. Romantizmin xoş gələcək konsepsiyasını təyin edən ümid və inam

bütövlükdə ayrı-ayrı şeirlərin də obyekti olur. M.Hadinin “Ümid səhneyi-tamaşeyi-həyatın ruhudur” şeiri çox məşhurdur:

*Mən bir günəşəm, yerdə əyandır ləməatım,*
*Şeirimdə parıldar duruyor çöhreyi-zatım.*
*Yoxdur zərəri, keçsə də fəqr ilə həyatım,*
*Kim olduğumu bildirəcək bil ki, məmatım,*
*Fərdayi-ufulumda bu qövm ağlayacaqdır,*
*Lakin gözümü dəsti-əcəl bağlayacaqdır* (Hadi, 1978: 254).

Romantik sənətkar nə qədər bədbin, kədərli xarakterdə olsa da, gələcəyə böyük ümidlə baxır. Doğrudur, şairin öləndən sonra xatırlanacağına əminliyi çox ağrılı və acıdır. Lakin “fəqr” həyatı keçirən sənətkar hər halda gələcək qədrşünaslığa da inam bəsləyirsə, bunun özü də elə nikbinlikdir:

*Bəxtim kimi olsun kəfənim, yəni siyəhnak,*
*Heykəl diləməm, heykəli-qəbrimdir o əflak.*
*Millət işıq olsun, məni udsun bu siyah xak,*
*Ancaq diləröm qövmim ola sahibi-idrak. idrakı olanlar məni sonra qanacaqdır,*
*Bir qövmi dirildən də cahanda qanacaqdır*
(Hadi, 1978: 254).

Maraqlıdır ki, M.Hadi nəyə ümid edirsə, məhz onun haqqında yazır. Ümumiyyətlə, nikbinliyin və romantizmdə gələcəyə bağlılığın məğzi və mahiyyəti kimi ümid edilən, inam göstərilən məsələlərdən danışmaq bir ənənə şəklini almışdır. M.Hadi yazır:

*Məyus olmam haldən, əlbət ruxi-fərda –*
*Məşriqdə də parlar, gözəlim, çöhreyi-ati* (Hadi, 1978: 232).

Bu misralarda “hal” (indi) və “ati” (gələcək) sözlərinin özü də şeirdə həm bədii fikrin, həm də həyat idealının bu gündən gələcəyə doğru istiqamətləndirilməsini açıq-aydın göstərir. Hətta səciyyəvidir ki, şeirin “Qüvvət, həyat, ümid...” adlandırılması məsələnin mahiyyətini xeyli aydınlaşdırmış olur.

Abdulla Sur da "Sərnigun ümidlər" mənsur şeirində (Sur, "Yeni irşad" qəzeti, 1911, № 14.) ümidi bəşəriyyətin "büt" və "bütxanəsi", "hürmüz" və "atəşgədəsi" adlandırır. Ümidə üz tutaraq ona nə qədər də rəngin, nə qədər də dilnişin, nə qədər də ürkək, nə qədər də dilrübasan – deyir. Digər romantiklərdən fərqli olaraq, A.Sur ümidin özündən bəhs açır, ümidi obraz səviyyəsinə qaldırır və onun xarakterini, səciyyəvi keyfiyyətlərini nişan verir. Bununla da ümid, sanki insanlaşır və gözlərdə yeniləşir: *"Yüz verməyib qaçanları buraxmayıb tutursan. Oynar, oynatarsan... Atar, tutarsan. Oxşayıb cırmalar, qıcıqlarsan. Durğun, yorğun... sönük, çürük həyatları canlandırıb qımıldanır, bahar kibi, çiçək kibi, şəfəq kibi tazə, nəzih bir rəng, vurğun bir ruh və can dirildərsən. Güllər kibi gülər, pərilər kibi dilbər edərsən".*

*A.Sur bəzən ağrının-acının güclü olması, azadlıq arzularının tezliklə həyata keçməməsi müqabilində ümiddən küskün görünür: "Ümid, ey baharlardan, səhərlərdən, fəğanlardan, ziyalardan xəlq olunmuş sərab. Ey izi var, özü yox cilveyi-həyat. Şeydalarından qaçma. Məftunlarını üzmə. Gül, güldür".*

Romantik lirikada qəhrəmanın xəyal müraciəti də xüsusi yer tutur. H.Cavid və M.Hadinin şeirlərində bu cəhətdən xeyli nümunə tapmaq mümkündür. Onlar haqqında ədəbiyyatşünaslığımızda da danışılmışdır. Buna görə də bu məsələnin izahı üçün Səid Səlmasinin "Xəyali-mənfur" sonetini ("Füyuzat", 23 iyun 1907, №20) nəzərdən keçirmək daha məqsədəuyğundur. Yeri gəlmişkən, XX əsr Azərbaycan romantizminin səciyyəvi janrlarından olan sonetin ilk nümunələrinin yaradıcısı kimi S.Səlmasinin bu şeiri əvvəldən axıradək xəyala müraciət şəklində yazılmışdır:

*Çəkil, həyatımı tədhiş edən xəyal, çəkil!*
*Müdam nifrətə bais o hali-tənnazm.*
*Çəkil də qılma bənə şuxi-müşrübanə nigah,*
*Səbati-əzmimi qırmaz o çeşmi qəmmazm.*

*Danışma! Sus deyirəm, istəməm, yəmin etmə*
*Gəlirmi yadına bir şəb başın sinəmdə ikən.*
*O almalıq deyilən yerdə biz oturmuşduq...*
*Ağacların arasında qüruba qarşı əmin.*
*Qəmər üful ediyorkən dərin-dərin bir ah,*
*Çəkib yapışdın əlimdən, o dəm dedin: "ey vah,*
*Sabah yaxlaşıyor, öncə sizdən ayrılmaq*
*Təhəmmüli-bəşərin xaricində nükbətdir".*
*Bu sözlər ah... yalanmış, bu bir cinayətdir.*
*Çəkil! Çəkil! Bəni aldatma! İstəməm mütləq.*

Təbii ki, bu xəyal lirik qəhrəmanı məftun edən və eyni zamanda onu aldadan işvəkar bir gözəlin xəyalıdır. O gözəl vaxtilə öz hərəkətləri və nəzərləri ilə Aşiqin qəlbinə hakim kəsilmiş, bir axşam başını onun sinəsinə qoyub göylərə tamaşaya dalmış və ay qüruba enərkən demişdir ki, sizdən ayrılmağa dözmək bəşər aləminin uğursuzluğudur. Lakin bu mələk sədaqət simvolu ola bilməmiş və öz yalanlarında cinayətə yuvarlanmışdır. İndi isə qəhrəman "Çəkil! Çəkil! Bəni aldatma!" nidaları ilə öz keçmişindəki aldanışlara acıyır və bundan sonra həyatın özünə açıq gözlə baxmağı üstün tutur.

Xəyalı romantik əsəri üçün vacib prinsiplərdən biri kimi təhlil etmək romantizmin estetikasında mühüm yer tutur. Belə ki, H.Cavid xəyal yüksəkliyini şair və şeir üçün əsas amillərdən biri hesab edir:

*Ağlarım, sızlarım, fəqət o zaman,*
*Ruhi-şeirimdə çırpmır sanırım*
*Bir qaranlıq, bir ehtiyac nihan.*
*Oylə bir ehtiyaci-mübrəm ki:*
*Ona vabəstə etilayi-xəyal,*
*Şeir, şair bulur onunla kəmal*

(Cavid, 1968-1971, I cild: 113).

Bütün bunlar belə bir həqiqəti təsdiq etmiş olur ki, romantik

qəhrəman mənən yüksəkdə duran qəhrəmandır. Onun daxili aləmi, daxili hiss və duyğuları bədii inikasda başlıca predmetə çevrilir. Həmçinin romantik qəhrəmanın daha ciddi səciyyəvi keyfiyyəti subyektivliklə müəyyənləşir. Həyat hadisələrinin geniş, hərtərəfli, sistemli duyulması, qavranması və dərk edilməsi yox, onlara şəxsi münasibətlə çıxış etmək – bu, romantik qəhrəmanların ən səciyyəvi keyfiyyətidir.

Romantizmin estetikasında, insana olan rəğbət də subyektə olan münasibətdən irəli gəlir. Belə bir mülahizə tamamilə doğrudur: “Şairin (Hadinin – K.Ə.) fəlsəfi görüşlərinin də əsası bundan ibarətdir ki, insan hər bir qüvvədən üstündür. O, varlığın məzmununu təşkil edən yaradıcı bir qüvvədir” (Zəka, 1967: 61). Şübhəsiz, romantiklərin yaradıcılığında subyekt, fərd, sənətkar “mən”i xüsusi yer tutur. Lakin başqa yaradıcılıq cərəyanlarında da gördüyümüz bu ortaqlıq xüsusiyyəti, yəni subyektə münasibət romantzmdə daha qabarıqdır. Ümumiyyətlə, subyektiv olan heç də bütün hallarda qorxulu deyil. O əslində geniş mənada alınanda müəyyənlikdir. Ona görə də romantizmdə subekytə olan bu maraq zənginliklə tamamlanır və yaradıcı şəxsiyyətə, sənətkara, onun cəmiyyətdə tutduğu mövqeyə, oynadığı rola baxışın spesifikliyinə gətirib çıxarır. Romantik qəhrəmanın **tənhalığının** da əsl mahiyyəti, məna və məzmunu məhz buradan doğur.

Lirikada romantik qəhrəman həm müşayiət edir, həm də göstərir, həm şahid olur, həm də ittiham edir. Demək olar ki, şeirdə sanki romantik qəhrəmandan başqa heç kəs yoxdur. M.Hadi:

*İnləyir bari-qəm altında vətən, imdad yox,*
*Kisveyi-matəm bürünmüş, cümlə bir dilşad yox...*

(Hadi, 1978: 78).

Bu misralarda və bütün şeir boyu müəllifin fikri belədir ki, sanki vətənin taleyini romantik qəhrəman kimi incəliyinə qədər dərk edən ikinci bir adam yoxdur. Hətta şeirin “Kimdən kimə şi-

kayət edəlim" başlığında da bu cəhət aydın şəkildə duyulur.

Lirikada romantik qəhrəmanın öz mövqeyini güzəştə getməməsi və öz-özünə müraciəti xüsusi yer tutmaqdadır. Belə məqamlarda romantik qəhrəmanın düşüncəsi, daxili duyumu aparıcı mövqedə dayanır. Başqa sözlə, sanki romantik qəhrəman ikili məzmuna malik olur: onlardan biri deyir, digəri isə qulaq asır və bununla daxili bütövlük yaranır.

H.Cavidin "Mən istərim ki..." şeiri bu fikri təsdiq edə bilər. Burada romantik qəhrəman yalnız öz arzu və duyğuları haqqında danışır:

*Mən istərim ki, gözəllər, bütün gözəlliklər*
*Uzaq, uzaq, pək uzaq bir üfüqdə əylənsin.*
*Uzaq və incə təbəssümlərilə şamü səhər*
*Həyatə nuri-səfa sərpərək çiçəklənsin...*

(Cavid, 1968-1971, I cild: 79).

Romantik qəhrəmanın "Mən istərim ki" müraciəti romantik "mən"ə doğru istiqamətlənmişdi. Həmçinin burada onun özünə böyük inamı, düşüncələrinin doğruluğuna tam əminlik vardır.

M.Hadinin "Həqiqət acımı, dadlımı?" və "Zümzüma-ti-təhəssürat, yaxud qarışıq xəyallar" adlı şeirləri də bu cəhəti təsdiq edir. Hər şeirdən bir beyti xatırlayaq:

*Derlər ki, həqiqət acıdır, dadlıdır, amma,*
*Vardır bu böyük sözdə həlavətli bir iyma*

(Hadi, 1978: 124).

Yaxud:

*"Lal ol, demə, qanma, gözünü kur elə" derlər,*
*Gözlü nasıl ömr eyləsin əmalar içində?!* (Hadi, 1978: 128).

Hər iki beytdə "derlər" sözü işlənmişdir. Bu söz romantik qəhrəmanın öz fikirlərini ifadə etməsi üçün çıxış nöqtəsidir. Deməli, şeir söylənilərkən qəhrəman qarşısında "deyirlər"i təmsil

edən insanlar qütbü dayanmamışdır. Onlar keçən günlərin şahidi, ötən vaxtlarda deyilən sözlərin təmsilçisi kimi yaşayırlar. Romantik qəhrəman isə bunları yaddaşına gətirməklə tək-tənha dayanmışdır.

A.Şaiq də “Vətən” (Şaiq, 1968: 7), “Niyə uçdun” (Şaiq, 1968: 11) şeirlərini romantik qəhrəmanın daxili monoloqu üzərində qurmuşdur. İlk şeirdə şairin vətənə müraciətlə yazdığı beytlər kiminsə qarşıda dayanması üçün heç bir ehtimal yaratmır. Çünki şeirdə romantik qəhrəmanın müraciəti nə qədər güclü və çılğın olursa-olsun, yenə də daxili söhbətin təsdiqi kimi meydana çıxır. Digər tərəfdən “Vətən” sözünün ümumi xarakterli məfhum olması da daxili monoloqu əsaslandıran sübutlardan birinə çevrilir. Hələ unutmaq olmaz ki, şeirdə söhbət daha çox elə romantik qəhrəmanın özü barədə gedir. “Baxdıqca”, “Gördükcə” ifadələri bu söhbətin istiqamətini bir az da dəqiqləşdirir.

“Niyə uçdun?” şeirində isə birinci Dövlət Dumasının qapanması əsas mövzu kimi alınsa da, bu romantik əhvali-ruhiyyəli əsərdə bir növ “gedənin arxasınca danışılır”. Yəni əsas məqsəd ondan ibarətdir ki, romantik qəhrəman öz aləminə çəkilmişdir:

*Uçdu mələkim, qaldı dərdü məlalı,*
*Fəryad! Yenə almaqdadır ətrafımı zülmət.*
*Eyvah, ümid qönçələrim solmada, heyhat!*
*Bu köhnə cahan söndürə bilməz bu zavalı.*

Daxili hiss və duyğular, öz aləminə qapılma, daxili monoloq – bunlar əslində romantik lirikanın qəhrəmanının təklənməyə doğru addımlarıdır.

Romantik şeirdə lirik qəhrəmanın təkliyi onun sükut içərisində olması ilə də ifadə olunur. Belə ki, ayrı-ayrı poetik nümunələrdə qəhrəmanların sükutla bağlı əhvali-ruhiyyələrinə tez-tez rast gəlmək mümkündür. Bir çox hallarda qəhrəman özü sükut içərisindədir, bəzən də sükutu müəllif təsvir vasitəsilə

oxucuya çatdırır. Belə bir ikili cəhət romantizmdə sistemli şəkildə görünür.

M.Hadinin "Aydınlıq bir gecə təfəkkür dəqiqələri" şeirində "Qərq oldu bütün varlığım emaqi-sükuta" misrası ayrı-ayrı məqamlarda iki dəfə təkrar edilir (Hadi, 1978: 321). Lirik qəhrəmanın beləcə sükuta qərq olmasının səbəbi nədir? Bəri başdan qeyd edək ki, bu sükut fərdi-intim hisslərlə bağlı deyildir. Qəhrəmanı narahat edən, "təfəkkür dəqiqələri"nə aparan, heç şübhəsiz, ictimai-siyasi mətləbdir:

*Göy parlaq ikən, torpağın övladı qaranlıq,*
*Güllər gülüyorkən, bəşərin gözləri ağlar,*
*Baxdım qəmərə, ulduza, baxdım mələkuta,*
*Qərq oldu bütün varlığım emaqi-sükuta* (Hadi, 1978: 321).

Deməli, qəhrəmanı düşündürən, onu sükut qarşısında qoyan gözləri ağlar bəşər övladının taleyidir.

Romantik sənətkarın başqa bir lirik qəhrəmanı isə belə deyir:

*Səs yox, sükutə dalmış idi növmpərvəran.*
*Asari-ruh yox, vətənim səngzar idi* (Hadi, 1978: 49).

Bu misraların götürüldüyü şeirin adı isə belədir: "Rövşənayi-leyldə bir xərabəzarın mənzərəsi". Deməli, burada da qəhrəmanı düşündürən ciddi həyat hadisəsidir.

M.Hadinin "Səhneyi-mübarizeyi-həyatda şanlı insanlar" şeirində sükut daha geniş miqyası əhatə edir: "Ah! Yer-göy bütün sükunətzar". Bəs bu sükunət çərçivəsində nə hadisələr baş verir:

*Girdabi-həyat önündə bəşər,*
*Müttəsil, müttəsil digirləniyor.*
*Atılıbdır, zavallı tək duruyor,*
*Duş i-ömründə bari -qəhri-h əyat,*
*Var məişət yolunda min əqəbat,*
*Qoşuyor, atlayor, yuvarlamyor* (Hadi, 1978: 185).

H.Cavidin də "Gecəydi" şeiri (Cavid, 1968-1971, I cild:

38-39) “Gecəydi... hər yeri sarmışdı bir sükuti-həzin” misrası ilə başlayır. Bu “həzin sükut” arxasında həyatın sərtliyi, insanın acı taleyi dayanmışdı. Məhz elə bu sükutun fonunda “Donuq ziyalı fanarlar baxardı həp qəmgin”. Bəlkə də bu “həzin sükut” olmasaydı “soluq surət” bir Azərbaycan romantizminin poetikası cavanın “Vücudu xəstə, mükəddər, həyatı pək durğun” olması təbii alınmazdı:

*Zavallı gəncin o titrəkpüriştika səsini,*
*Sükuti-leyli yaran nəşəsiz təranəsini*
*Kim anlar, ah... ona kim etina edər? Heyhat...*
*O aşiyanə girən şey fəqət süruri-nəşat...*
*Verir cavab ona ancaq sitəmli qəhqəhələr*

(Cavid, 1968-1971, I cild: 39).

Hərgah sükutu yaran, dağıdan bir şey varsa, o da “nəşəsiz təranədir”. Romantik sənətkar sükutun dağılması faktı ilə belə yenə qəhrəmanın təkliyini, onun ağır həyat şəraitini gözlərimiz qarşısında canlandırır.

H.Cavidin “Öksüz Ənvər” şeirində isə müəllimlə şagird arasında belə bir mükalimə var:

*“– Ey! Çocuq, mana bax!*
*Sən, iştə hanki cəhənnəmdə, söylə, nərdə idin?*
*Düşünmə, söylə!*
*– Əfəndim, şey...*
*– Ah, dəni, yaramaz!*
*Nasıl da bax dalıyor, sanki tülküdür qurnaz...*
*Çocuqcığazda cavab: iştə bir sükuti-həzin”*

(Cavid, 1968-1971, I cild: 47).

Şeirin qəhrəmanı yenə sükut içərisindədir. O, amansız, kobud, düşüncəsiz müəllim qarşısında dinməz dayanmışdır. Bu sükut şagirdlə müəllim, Ənvərlə cəmiyyət arasındakı əksliyin, təzadın sükutudur. Romantik qəhrəmanın təkliyinin bədii formada təsdiqidir.

Maraqlı faktdır ki, H.Cavidin bu şeirində də sükut pozulur. Amma necə?

*Gözündə dalğalanır incə bir bahar buludu,*
*O həp baxıb duruyor, yoxdur onda hiylə və suç...*
*Sükutə qarşı müəllim qəzəblə bir, iki, üç*
*Toqatlaymca, çocuq bircə kərrə hıçqırdı;*
*"– Aman, vay annəciyim..." sonra qəşş olub getdi,*
*Bu səs sinifdə olan cümlə qəlbi titrətdi*

(Cavid, 1968-1971, I cild: 47).

Sükut Ənvərə vurulan kötəklərlə dağılır. Lakin buna baxmayaraq Ənvər yenə sükut içərisindədir, yenə təkdir. Çünki o, bir tərəfdən kimsəsiz olduğuna görə kötək yeyir, digər tərəfdən isə artıq anasını itirmiş və müstəqim mənada da tək-tənha qalmışdır. Doğrudan da, bu qəhrəmanlar zülmə qarşı üsyan istərkən öz təkliklərindən və gücsüzlüklərindən əzab çəkirlər.

H.Cavidin "Çəkinmə, gül!" şeiri (Cavid, 1968-1971, I cild: 71) öz adı ilə gülməyə çağırış olsa belə, əslində sükut içərisində olan bir gözəl haqqında yazılmışdır. "Nədən şəfəqli buludcuqlar öylə çöhrəndə?" sualından qızın sükutlu vəziyyəti aydın görünür. "Bütün bir ömrə bərabərdir öylə bir gülüşün" fikrində də ağır bir sükutun təsviri vardır:

*Çəkinmə, gül! Ləbi-ləlin həyatı güldürsün;*
*Şu halə qarşı bütün mənliyim qalır məbhut,*
*Bax, iştə heykəli-camid qədər əsiri-sükut...*

Şeirin bu son misraları da qəti şəkildə təsdiq edir ki, yalqız qalan qəhrəman məhz sükuta qərq olmuş bir gözəllə üz-üzə dayanmışdır.

H.Cavid "Hərb və fəlakət" şeirində də "Soyuq, soyuq... gecə keçmiş, bütün cahan susmuş" (Cavid, 1968-1971, I cild: 61) deməklə, müharibə dəhşətlərini əks etdirir. Məhz belə bir sükut içərisində aşağıdakılar aydın və dəqiq görünür:

*Önümdə dalğalanır teyflər, qızıl qanlar,*
*Başımda patlıyor atəşli, sisli vulkanlar.*
*Təcəssüm etmədə qarşımda bir cahani-aləm,*
*Dönüb də tərsinə guya yanar bütün aləm*
(Cavid, 1968-1971, I cild: 61).

A.Şaiqin "Qış gecəsi" şeirinin aparıcı motivi də aşağıdakı misralarda ifadə olunmuşdur:

*Qurd-quş dəxi girmiş aşiyanə,*
*Çökmüşdür həzin sükut cahanə (*Şaiq, 1968: *32).*

Bəs bu sükutun arxasında nələr vardır? Kəndin qırağındakı tək və alçaq bir evdən sönük işıq gəlir. Evdə ana öz xəstə uşağına layla çalır.

A.Şaiqin "Bir ulduza" şeirində də eyni cəhəti görmək çətin deyildir:

*Yormuşdu bütün ruhumu, əfkarımı alam,*
*Bir dağ ətəyində düşünürdüm təkü tənha.*
*Qarşımda mücəssəm duruyordu səfi-ovham,*
*Qəlbim kimi küskün görünürdü bütün əşya.*
*Fikrim kimi sevdalar içimdə uyuyordu,*
*Qəsvətlə cahan dalmış idi səmt, sükunə.*
*Baxdıqca o səhnə mənə dəhşət veriyordu,*
*Varmışdı bu vulkanlı dənizlər də cünunə* (Şaiq, 1968: 30).

Romantik qəhrəman özünü tək-tənha hesab edir. Bununla bərabər sükunət qarşısında olduğunu söyləyir. Beləliklə, o, öz təkliyini, yalqızlığını qabarıq şəkildə etiraf edir.

A.Şaiqin "Şikayətlərim" şeirindən aşağıdakı bənd də səciyyəvidir:

*Yenə dilsiz sükut içində bütün*
*Qaralır nur saçan düşüncələrim.*
*Ürəyimdə sönür o qüvvələrim,*
*Yenə hər şey qara, cahan küskün* (Şaiq, 1968: 22).

Çıxılmaz vəziyyətdə qalan lirik qəhrəman çox təbii şəkildə öz taleyini nəql edir. Sükut onun düşüncələrinin meydana çıxma-

sında başlıca amil olur. Bəlkə qəhrəman elə bu sükutdan-özünə qapılmaqdan təsəlli tapır.

A.Səhhətin “Ölü şəhər” şeirində də (Səhhət, 1975: 52-53) sükut-qabarıq formada təqdim edilir:

*Kim baxarsa haçaq bizim şəhərə,*
*Bir məzarlıq kimi gələr nəzərə.*
*Hökmfərmadır onda səmtü sükut,*
*Sarmış afaqını dumanlı bulut* (Səhhət, 1975: 52).

Müəllif romantik qəhrəmanın dili ilə bu şəhərin təsvirini verir. Buradan nə səs-küy, nə Day-Daray gəlir. Hər tərəf viran olmuş, hər yan uçuq və pərişandır. Şəhər “San yapılmış nişanədir qəmdən” (Səhhət, 1975: 51). A.Səhhətin “Təxliyə, yaxud qaçqın” şeirində də vəziyyət elə bu cürdür:

*Ölü, səssiz, dumanlı səhradə*
*İştə bir əski şəhr məridir.*
*Qeyri-adi halı bu əsnadə*
*Qəmli bir macəraya məbnidir* (Səhhət, 1975: 98).

Burada da sükut, burada da “qəmli bir macəra”. Romantik sənətkarın təqdim etdiyi qəhrəmanlar sükut və kədər içindədirlər. Onlar tək və tənhadırlar.

Sükut və onun romantik qəhrəmanın təkliyi ilə əlaqədar olması baxımından A.Şaiqin 1910-cu ildə qələmə aldığı “Sükutumdan şikayətçi bir qadına” şeiri çox mənalıdır:

*Soruşursan: – Nədir bu əczü sükut?*
*– Məni hüsnündür eyləyən məbhut,*
*Ey mənim qəlbimi çalan afət,*
*Həm həyat, həm şüur verən fitrət.*
*Hər kəsə nitq, həm bəyan vermiş.*
*Şairə başqa bir nişan vermiş.*
*Bir sükut ilə endirər gözünü,*
*Duyurar aşinasına sözünü.*
*O sükutimdə oylə sözlər var,*
*Kəlməsindən beş-on kitab yazılar* (Şaiq, 1968: 39).

Burada şairin sükutu gözəllik qarşısındakı sükutdur. Doğrudur, gözəlliyin özü təsvir edilmir. Amma şeirdə qız, qadın gözəlliyi haqqında ümumi sözlər də yoxdur. Çünki məsələnin əsl mahiyyəti bunların heç birində deyildir. Başlıca mətləb ondadır ki, qəhrəman sükut içərisindədir və bu sükut o qədər mənalı, məzmunludur ki, hətta ondan "beş-on kitab" yazıla bilər. Beləliklə, şeirin qəhrəmanı da, digər romantik qəhrəmanlar kimi tək-tənha dayanıb, öz mənəvi aləminə qapılmağa çox böyük üstünlük verir.

Elə buradaca belə bir həqiqətin doğruluğuna şübhə yeri qalmır ki, "Sükut lirik qəhrəmanın öz daxili səsini aşkar və aydın eşitməsinə imkan verir" (Шаталов, 1979: 114).

Digər mühüm cəhət ondan ibarətdir ki, romantik sənətkarlar qəhrəmanların təkliyini açıq şəkildə göstərməklə bərabər, bu təkliyi daha artıq dərəcədə qabardır, başlıca mətləbə çevirirlər.

A.Şaiq "Nişanlı qız" şeirində yazır:

*Zülmət gecədə nişanlı bir qız*
*Bir hüzn, kədər içində yalqız* (Şaiq, 1968: 19).

Bəri başdan qeyd edək ki, bu iki misrada müəllifin ifadə etdiyi fikir bir çox poetik vahidlərlə romantik metodun təsdiqinə yönəlir. "Zülmət gecə", "Bir hüzn, kədər", "bir qız" və "yalqız" - bütün bu ifadələr həmin romantik əsərin təyinedici vasitələridir. Hərgah "nişanlı" qızın taleyini göz önünə gətirsək, onun "inləməsini", "bəxtindən uzun şikayət eyləməsini", həsrətlə dizini qucaqlamasını xatırlasaq, heç şübhəsiz belə bir qənaətə gəlirik ki, həmin misralarda istisnasız hər bir söz, bütövlükdə fikir və ideya romantik bədii inikasın nümunəsidir.

Unutmaq lazım deyildir ki, burada əsas mətləb qəhrəmanın təkliyini göstərməkdən ibarətdir. Həmçinin nişanlı qız da özünün tək olduğunu bildirir:

*Mən yalqızam, ah, yox müinim,*
*Dağ-daşları sızladır əninim* (Şaiq, 1968: 19).

Deməli, həm müəllif qəhrəmanın təkliyindən danışır, onun təkliyini faciə hesab edir, həm də qəhrəman öz təkliyini bilir və öz faciəsini bunda görür. Eyni cəhət şairin "Bəxtsiz rəfiqəmə" şeirində də ifadə olunmuşdur. Lirik qəhrəman bir quşa üz tutaraq deyir:

*Sən kimi mən də bağrıqan, yalnız, ildırımlarla tarümar yuvamız.*
*Mən də sən dərdliyəm, maraq etmə.*
*Başqa bir aşina soraq etmə* (Şaiq, 1968: 50).

A.Şaiqin şeir yaradıcılığında elə nümunələr də vardır ki, təkliyin inikası birbaşa sərlövhədən məlum olur: "Bir ulduza" (Şaiq, 1968: 30), "Bir mələkə" (Şaiq, 1968: 35) və sair. "Bir ulduza" şeirində romantik qəhrəman "Ulduzlar içində gözümə dəydi bir əxtər" deməklə yanaşı, öz tənhalığını da açıqca ifadə edir:

*Yormuşdu bütün ruhumu, əfkarımı alam,*
*Bir dağ ətəyində düşünürdüm təkü tənha.*

"Bir mələkə" şeiri də əhəmiyyətlidir. Birincisi odur ki, şeir "Molla Nəsrəddin" məcmuəsinin o nömrəsinə həsr edilmişdir ki, həmin nömrədə məhz Zəngəzurdakı aclıq təsvir olunur. Digər tərəfdən, şeirdə "Vicdanını inlədir bir qəm", "Ay, ulduz olub da dərdə qəmxar", "Bir qəmli sükut içimdə lahut" kimi misralar işlənir ki, bunlar "Nişanlı qız" şeirindəki əhvali-ruhiyyəni xatırladır, eyni zamanda, daha ciddi və daha açıq şəkildə ictimai-siyasi mətləbdən danışılır. Yəni bu şeirlərin lirik qəhrəmanları eyni mövqedən çıxış edirlər.

H.Cavid yaradıcılığında da təklik xüsusi bir akt kimi özünü göstərməkdədir. Romantik sənətkarın bəzi şeirlərinin adlarını xatırlayaq: "Bir rəsm qarşısında", "İştə bir divanədən xatirə", "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" və sair. Burada "bir" sözlərindən qaçmaq olmaz. Göründüyü kimi, H.Cavid şeirin adından başlayaraq xüsusi diqqət tələb edən obyekt yaradır. Digər

ciddi mətləb ondadır ki, həmin şeirlərin məzmun və mahiyyəti də bilavasitə təkliyin təcəssümü ilə bağlıdır.

"Bir rəsm qarşısında" şeirinin (Cavid, 1968-1971, I cild: 40) lirik qəhrəmanı üçün də yalnız bu rəsm vardır və qalan hər şey onun üçün mənasızdır. O, bütün varlığı ilə həmin rəsmə, oradakı təsvirə vurulmuşdur:

*Həzin bir çöhrə, bayğın bir nəzər, suzişli bir mənzər,*
*Geniş bir cəbhə, ülvi bir zəka, düşküncə bir sima.*
*Əvət, düşküncə bir sima, fəqətpək nazlı, pək dilbər...*
*Mənim ən sevdiyim bir lövhə, bir təsviri-pürməna...*

Yaxud:

*O, məncə mürtəsəm bir lövhədir rəngi-həqiqətdən.*

Və yaxud:

*Nə küskün bir nəzər, ya rəbb? Nə məsumanə bir surət!*
*Nə düşgün bir sehr, ya rəbb? Nə məzlumanə bir fitrət!*

Deməli, "bir" sözü-təkliyi ifadə edən poetik vahid, yalnız şeirin sərlövhəsində deyil, həmçinin mətnin daxilində də kifayət qədər özünə yer tuta bilmişdir. Bu isə təklik əhvali-ruhiyyəsini yaşayan romantik qəhrəmanın təkliyi və tənhalığı haqqında danılmaz həqiqəti sübuta yetirir.

H.Cavidin "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" şeirinin (Cavid, 1968-1971, I cild: 109-110) qəhrəmanı da yalqızdır. Elə ilk misralarda bu, aydınca duyulur:

*Ürəkdə qaldı məramım, duyulmaz oldu səsim;*
Gözümdə qalmadı nur, ah, iştə son nəfəsim...

(Cavid, 1968-1971, I cild: 109).

Doğrudur, həmin kimsəsiz qız özünə "həmdəm" tapır. O "həmdəm" Aydır. Lakin zindanda boğulan bu küskün taleli insan özünü Ayla müqayisə edərək bədbəxtliyini açıq ifadə edir:

*Bu fərqimiz var: o, varəsteyi-məzalimdir,*
*Mənim nəsibi-həyatımsa zülm zalimdir.*
*O, bəxtiyardır, artıq əsarət anlamıyor,*

*Gözəl-gözəl gəzinir, hürr yaşar o solğun nur!*
*Fəqət, üzər məni hər ləhzə bir vərəmli xəyal,*
*Əcəlmi yaxlaşıyor? Ya nədir bu küskün hal?*

(Cavid, 1968-1971, I cild: 109).

Bütün bu təkliyin, kimsəsizliyin müqabilində onun bir təsəllisi, ümidi var:

*Sən, iştə ey gecənin aşinayi-razi qəmər!*
*Gəzib dolaşdığın afaqə eylədikcə nəzər.*
*Guzərgəhindəki həmşirələr, xanım qızlar,*
*Səninlə söyləşərək həsbhal edər, zinhar.*
*Unutma, halımı aç söylə! Yalnız onlar için!*
*Bu can çəkişməyə verdim riza ki, bəlkə yarın*
*Bu zülmü duymayaraq bəxtiyar olur onlar*

(Cavid, 1968-1971, I cild: *110).*

H.Cavidin "Məyus bir qəlbin fəryadı" şeirinin (Cavid, 1968-1971, I cild: 126-127) qəhrəmanının istək və əhvali-ruhiyyəsini nəzərə alsaq, həmin şeiri "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" şeirinin tamamilə əksi hesab etmək olar. Belə ki, "Məyus bir qəlbin fəryadı"nda bilavasitə təklikdə qalan insanın ümid axtarışlarının puçluğundan danışılır. Məlum olur ki, romantik qəhrəman həmişə ümidlə yaşamış, lakin bu "işvəli ümmid" ona elə bir nicat gətirməmişdir. Sanki "bakirə" qız indi "məkr"li gözələ çevrilmişdir. Ona görə də lirik qəhrəmanın qəzəbi sonsuzdur:

*Get! Anladım artıq nə imişsən,*
*Duydum ki, nasıl fitnə imişsən!*
*Bir başqa dil aşifteyi get bul!*
*Köç, get! Sırıtıb durma, kənar ol!*
*Dəf ol ki, gözüm görməsin əsla,*
*Yıxdın məni, ey sıtmalı xülya*

(Cavid, 1968-1971, I cild: *126).*

Lirik qəhrəmanın indi bir həmdəmi varsa, o da kədərdir:

*Ey yəs! Sən ey hüzni-sərazad!*
*Ağuşimə gəl, qıl məni dilşad.*
*Gəl qəlbimə gir, ey sarı yıldız!*
Ruhimlə bərabər yaşa yalnız

(Cavid, 1968-1971, I cild: *126).*

Romantik qəhrəmanın kədər istəyi, onun yalqızlığının həmdəmi yox, əksinə, tək və tənhalığının daha da dərinliyini, ağırlığını sübuta çatdırır. Hətta diqqətli faktdır ki, digər romantik qəhrəmanlar ümidi həmişə ciddi istək kimi yaşatdıqları halda, bu şeirin qəhrəmanı əks mövqedə dayanır:

*Ummid ilə insanə gələn hiss,*
*Ya kizbü riyadır, ya təbəsbüs*

(Cavid, 1968-1971, I cild: 127).

Romantik qəhrəmanın xarakterinin müəyyənləşdirilməsində zahirən anlaşılmaz kimi görünən bu cəhət nədir? Bəlkə romantiklərin dünyagörüşündən irəli gələn ziddiyyətdir? Qətiyyən belə deyil və burada heç bir ziddiyyət yoxdur.

Məsələnin bu tərəfi doğrudur ki, bütün bunlar romantik sənətkarların həyata baxışları ilə əlaqədar ola bilər. Lakin romantik qəhrəmanların bəzən ümidli görünməsi, bəzən də ümiddən əl çəkərək kədərə böyük məna vermələrində heç bir ziddiyyət və anlaşılmazlıq yoxdur. Əksinə, bunlar bir-biri ilə müəyyən əlaqədə olmaqla qəhrəmanın xarakteri haqqında tam təsəvvür yaradır.

Məsələnin əsl mahiyyəti ondadır ki, ümidi puça çıxanda romantik qəhrəman məhz ümiddən əl çəkib kədər istəyi ilə yaşayır. Yəni o, harda isə bir az səbirsizdir və arzularına mümkün qədər tez çatmaq istəyir. Bu isə baş tutmayanda əvvəlki əhvali-ruhiyyəyə qayıdır və kədərlə yaşamağı daha münasib hesab edir.

Həm ümid, həm də kədər istəyi – bunlar bir-birlərindən nə qədər fərqli olsalar belə, vahid bir məqsədə xidmət etmiş olur.

Qəhrəmanın tənhalığa üstünlük vermək, buna nail olmaq

əhvali-ruhiyyəsi cəmiyyətlə insan arasındakı münasibətlərin xarakteri və mahiyyəti barədəki həqiqətin təsdiqidir. Şübhəsiz, romantizm üçün səciyyəvi olan bu xüsusiyyət və əlamət subyektiv amilin üstünlüyünün təkzib olunmazlığını meydana çıxarır və romantik qəhrəmanların inikasında romantik sənətkarların həyata baxışının spesifikliyini əsaslandırır.

Romantik lirikada qəhrəmanın bütün bu mövqe açılışları, xarakterlərinin səciyyəvi keyfiyyətlərinin mənzərəsi belə bir ciddi sual da doğurur: Bəs həmin şeirlərdə müəllifin mövqeyi necədir? Lirik qəhrəmanın arzuları və mübarizəsi ilə, düşüncələri və üsyankarlığı ilə, tənhalıqlarındakı etirazları ilə romantik şairlərin qayələri arasında nə kimi əlaqə vardır? Bu suallara cavab vermək üçün romantik lirikada müəllif və qəhrəman probleminin ayrıca təhlilinə ehtiyac vardır.

Bədii əsərdə müəllif və qəhrəman problemi müasir ədəbiyyatşünaslığın axtarışlarında ən aktual problemlərdən biri hesab olunur. Bu məsələnin izahı, hər şeydən qabaq, müəllifin – yaradıcının mövqeyi haqqında düzgün, doğru təsəvvür yaratmaq, sənətkarla lirik qəhrəman arasındakı əlaqələrin mənzərəsi barədə aydın qənaət əldə etmək kimi mühüm məna və məzmun kəsb edir.

Hər bir əsərdə müəllif və qəhrəman arasında yaxınlıq, eynilik axtarmaq mümkündürmü? Əlbəttə, yox. Yalnız Sabir satiralarını xatırlamış olsaq, belə bir nəticənin doğruluğuna şübhə yeri qalmaz. “Oxutmuram, əl çəkin”, “Ay alan, məmləkəti-Rey satıram”, – deyən obrazla Sabir arasında heç bir yaxınlıq yoxdur.

Yaxud M.Ə.Sabirin “Əkinçi” şeirindən bir bəndi xatırlayaq:

*Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?*
*Yağmadı yağış, bitmədi bir danə, nə borcum?*
*Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?*
*Getdi mənə nə fələliyin badə, əkinçi.*
*Lağ-lağ danışıb başlama fəryadə, əkinçi* (Sabir, 1960: 11).

Görkəmli mollanəsrəddinçi Əli Nəzmi da "Yat!" satirasında yazır:

*Axşam namazını tələsik qıl, yubanma, yat,*
*Sol böyrün üstünə uzanıb, qurdalanma, yat...*
*Üstündən özgələr iləri keçsin, atlayıb,*
*Qoy tapdasınlar, olma mükəddər, utanma, yat*

(Nəzmi, 1979: 206-208).

Məlum həqiqətdir ki, o əsərdə müəlliflə qəhrəman arasında yaxınlıq axtarmaq olar ki, həmin əsərin qəhrəmanı müsbət idealın daşıyıcısı olsun. XX əsr Azərbaycan romantik şeiri belə bir mütərəqqi yaradıcılıq nümanəsinin tələblərinə tamamilə cavab verir. Təsadüfi deyil ki, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq özləri həyatda azadlıq, xoş gələcək uğrunda mübarizə aparır, cəmiyyətdən narazı qaldıqlarını bildirir və onların əksər şeirlərinin qəhrəmanları da məhz bu mövqenin daşıyıcıları kimi çıxış edirlər. Yaxud əksinə desək, romantik şeirdə ideal dünyanı qəhrəmanla birgə müəllif özü də arzulayır.

Romantik şeirin müsbət qəhrəmanı ilə müəllif arasındakı sıx əlaqənin sübutu üçün M.Hadi və A.Şaiq yaradıcılığında QUŞ obrazı ilə bağlı bəzi məqamlara diqqət edək. M.Hadinin "Bədayei-təbiət" (1906) şeirində adından da göründüyü kimi, təbiət təsvir olunur. Lakin müəyyən xoş əhvali-ruhiyyə yaratmaq istərkən müəllif belə bir sərt həqiqət qarşısında qalır: "Ol sevgili quşlar ediyor naləvü fəryad" (Hadi, 1978: 23). Lirik qəhrəman təbiətin füsunkarlığını unudaraq, oxuyan quşların nalə və fəryadı haqqında daha çox düşünür. "Şirvan xatiratı" şeirində (1907) həmin vəziyyətə oxşar həqiqətlə tanış oluruq: "Bülbül yerində indi oturmuşdu zəğan" (Hadi, 1978: 49). Bu da etiraz və narazılıqdır. Elə həmin il A.Şaiq "Bir quş" şeirini belə bir misra ilə başlayır: "Oturmuş nəğməzarında həzin fəryad edər bir quş" (Şaiq, 1968: 8).

1908-ci ildə M.Hadi çox böyük nikbinliklə yazdığı "İstiqbalımız parlaqdır" şeirində "Oxur bülbül, gülər qönçə, dili oxşar bu mənzərələr" (Hadi, 1978: 102) fikrinə gəlir. Bir az sonra

isə "Həqiqət acımı, dadlımı?" şeirində eyni qənaəti təsdiq edir:

*Quşlar, kəpənəklər ediyor şövq ilə pərvaz,*
*Bülbül oluyor eşq ilə, sevda ilə dəmsaz* (Hadi, 1978: 125).

İndiyə qədər bülbüldən, quşdan fəryad edən bir obraz kimi söz açan şair, indi bülbülün sevincini oxucuya çatdırır. Yaxud A.Şaiq 1909-cu ildə sanki əvvəl yazdığı "Bir quş"a qarşı "İki qaranquş" şeiri ilə çıxış edir:

*İki yolçu - sevimli qırlanqıc*
*Bir budaqda ötürdü hey "vic-vic"* (Şaiq, 1968: 27).

Göründüyü kimi, hər iki romantik sənətkarın yaradıcılığında qəhrəmanın quş obrazına münasibəti müəyyən ahəngdarlıqla inkişaf edir. Bu baxımdan 1906-1907-ci illərin romantik qəhrəmanı 1908-1909-cu illərin romantik rəhrəmanından fərqlənir.

Burada azadlıq problemi ilə bağlı M.Hadinin "Pəri-yi-vicdan", A.Səhhətin "Dilbəri-Düriyyətə" (1907), A.Şaiqin "Hüriyyət pərisinə" (1908) adlı şeirlərinə diqqət edək.

M.Hadi:

*Pərdədə saxlanma, çıx, ey sevgili dildarımız,*
*Xəndəzari-bəhcət olsun könlümüz, rüxsarımız*
(Hadi, 1978: 39).

A.Səhhət:

*A sevdiyim, aç bir niqab üzündən,*
*Məcnun tək Leylaları divanə qıl!* (Səhhət, 1975: 26).

A.Şaiq:

*Müzlüm gecə, ətrafı bulud, çən bürüyərkən,*
*Göz yaşlarımın bəslədiyi, ey gözəl ümmid,*
*Qarşımda təcəssüm edərək ver mənə təyid,*
*Bu zülmət ilə sübhə qədər ta vuruşum mən* (Şaiq, 1968: 17).

Hər üç şeirin romantik qəhrəmanını birləşdirən başlıca cəhət azadlıq arzusudur. Bu arzu Hadidə "pərdədə saxlanma", Səhhətdə "aç bir niqab üzündən", Şaiqdə "qarşımda təcəssüm

edərək ver mənə təyid" fikirlərində ifadə olunub. Hətta M.Hadinin "Gül, sevdiciyim, gül" şeirində (1908) də eyni mövqe qalmışdır:

*Bilməm nədir üzündəki asari-iğbirar?*
*Ey qönçeyi-səbahət, açıl, olma pərdədar* (Hadi, 1978: 151).

Səciyyəvi haldır ki, azadlıq istəyinin poetik inikasında da romantik şairlər arasında bir müştərəklik və yaxınlıq vardır.

1908-ci ilin sonlarında isə başqa bir vəziyyət yaranır. M.Hadi şeirində artıq pərdələr açılır və hər şey səhnədə aydın görünür:

*Çıxar səhni-təmaşayə o gün rəqqasi-hüriyyət,*
*Gülər, oynar, oxur, alqışlanar yer-yerdən ol afət*
(Hadi, 1978: 103).

Hətta şairin bu vaxtlar yazdığı "İranın hürriyyət qəhrəmanlarına" şeiri üçün türk şairi N.Kamalın aşağıdakı misraları nəqarat kimi seçilir:

*Arş irəli, arş bizimdir fəlah,*
*Arş igidlər, vətən imdadinə (1, 110-111).*

Bunlar bilavasitə romantik şairlərin özlərinin əhvali-ruhiyyəsi idi. Çünki 1908-1909-cu ildə baş verən Cənubi Azərbaycandakı inqilabi hərəkat onları daxilən dəyişdirmiş və böyük ümidlə dolu şeirlərin yaranmasını da təmin etmişdir.

Lakin XX əsr Azərbaycan romantikləri bütöv yaradıcılıqları boyu, əsasən, mövcud cəmiyyətə etiraz ruhu ilə yazıb-yaratmışlar. Bu cəhət onların şeirlərindəki başqa bir davamlı xətlə tamamilə təsdiq olunur.

M.Hadinin 1906-cı ildə yazdığı şeirlərdə maarif nuru artıq "sönüb" (Hadi, 1978: 14), həyat bağçası "soluq" (Hadi, 1978: 14) görünür; 1907-ci ildə şairin əməli "açılmadan solur" (Hadi, 1978: 44), "Qönçələr, güllər, çiçəklər mürğzar ağlar" (Hadi, 1978: 59), hətta həzin bir sual da meydana çıxır: "Gördünüzmü bir çiçək baği-fənadə solmasın?" (Hadi, 1978: 77); 1908-ci ildə şeir

başlığına hətta belə bir ad çıxır: “Əşari-pərişan, yaxud solğun çiçəklər” (Hadi, 1978: 116).

H.Caviddə də belə təsəvvürlər yaranır: “Donuq ziyalı fanarlar baxırdı həp qəmgin” (Cavid, 1968-1971, I cild: 38). “Sönük vicudu saçar hərdəm atəşin fəryad” (Cavid, 1968-1971, I cild: 39), ”O solğun çöhrədə bir nuri-sərvət var ki, pək nadir” (Cavid, 1968-1971, I cild: 40), “O, bir öksüz, o, bir soluq yarpaq” (Cavid, 1968-1971, I cild: 45). “Dərin-dərin düşünürkən sönük baxışlı dəniz” (Cavid, 1968-1971, I cild: 63), “Sarı gül!, Ey şikəstə, solğun nur! (Cavid, 1968-1971, I cild: 80), “Sönən həpsi yox ümidi-nicat” (Cavid, 1968-1971, I cild: 82), “Solub bahari-şəbabım, dəyişdi hər halım” (Cavid, 1968-1971, I cild: 109).

A.Şaiq 1907-ci ildə “Söndü niyə vicdanımı təsvir edən amal” (Şaiq, 1968: 11), 1908-ci ildə “Söndü” nə çapıq, ruhuma qüvvət verən, ey nur” (Şaiq, 1968: 17), “Söndürdü atam çırağımı, ah” (Şaiq, 1968: 24), “Soyuq damarlarımı ah, isitmədi günəşin”, “Mənə yetişdi şu solğun çiçək bir ümmətdən” (Şaiq, 1968: 25), “Saralıb yarpaq da zəbun olmuş” (Şaiq, 1968: 28); 1910-cu ildə “Tükləri qıvrım, bətibənizi soluq” (Şaiq, 1968: 36), “Susdu bülbüllərin nədən, orman?” (Şaiq, 1968: 40), 1912-ci ildə “Söndü parlaq, gözəl ümidlərim” (Şaiq, 1968: 49), “Sönmüş ata-babamızın ocağı” (Şaiq, 1968: 52) şeirlərini yazır.

Ayrı-ayrı romantik şairlərin müxtəlif illərdə yazdığı şeirlərdə sistemli şəkildə işlənən “sönük”, “solğun”, “donuq”, “soyuq” kimi ifadələr müəyyən bir məqsədi izləməkdədir. Burada belə bir qaçılmaz faktı xatırlayaq ki, A.Şaiqin yuxarıda xatırladığımız “Söndü parlaq gözəl ümidlərim” misrası onun “həyat yoldaşı Raziyənin 1911-ci ildə uzun sürən xəstəlikdən sonra ölümü münasibətilə yazdığı “Bəxtsiz rəfiqəm” şeirindən (Şaiq, 1968: 577) götürülmüşdür. Yaxud A.Şaiq öz xatirələrində

M.Hadinin haqqında yazır: "Hadi öz faciəsini belə söylədi.

... Mən buradan çar istibdadından çıxıb geniş nəfəs almaq, azad həyat keçirmək ümidi ilə ora getmişdim. Fəqət orada həmin istibdadı bir az da artıqlığı ilə görüncə səbrim tükəndi" (Şaiq, 1978: 238).

Məlumdur ki, M.Hadi 1901-cu ildə Türkiyəyə getmişdir. Deməli, şairin yuxarıda nümunə gətirdiyimiz misraları "çar istibdadının güclü təsiri vaxtlarında meydana çıxmışdır. Eyni sözləri Əbdülhəmidin zamanında Türkiyədə təhsil alan H.Cavid üçün də demək olar. Deməli, romantik qəhrəmanın bəzən taleyini, bəzən də həyata baxışını əks etdirən yuxarıdakı bədii detallar spesifik səciyyə daşıyır. Başlıca cəhət odur ki, romantik qəhrəmanın bütün əhvali-ruhiyyəsi əslində elə müəllifin əhvali-ruhiyyəsidir. Yəni romantiklərin duyğu və düşüncələri bir növ lirik qəhrəmanın simasında meydana çıxmışdır.

Birinci dünya müharibəsi illərində romantik şeirin lirik qəhrəmanının xarakterində yeni cəhətlər meydana çıxır. Bu illərdə narazılıq yüklü bədii təsvirlərdə daha da qatılıq yaranır. H.Cavid 1916-cı ildə "Hərb və fəlakət" şeirində yazır:

*Soyuq, soyuq!.. Gecə keçmiş, bütün cahan susmuş,*
*Uzaqda inliyor ancaq zavallı bir bayquş*

(Cavid, 1968-1971, I cild: 61).

Yalnız elə bu misralar ən böyük ağrı və acını lazımi səviyyədə inikas etdirə bilir. Orada işlənmiş "soyuq, soyuq", "susmuş", "inliyor", "bayquş" kimi ifadələr qarşıya qoyulan ideya ilə onun bədii həllinin nümunəvi vəhdətini təsdiq edir.

Lakin müharibə dövrünün romantik qəhrəmanının xarakterində xüsusi bir cəhət də vardır. Bu cəhət bir tərəfdən həmin qəhrəmanı əvvəlki illərin qəhrəmanından fərqləndirir, digər tərəfdən də Azərbaycan romantizmi daxilində onun inkişafını göstərir. H.Cavid "Məzlumlar üçün" şeirində (1914) yazır:

*Fəqət qalanlar? O bikəslər – ah, ya rəbbi!*
*Nə yapsın! İştə qoşar canlı bir cənazə kimi*
(Cavid, 1968-1971, I cild: 81).

1915-ci ildə qələmə alınmış "Qüruba qarşı" şeirində də bu misralarla səsləşən ciddi bir məqam vardır:

*Bu qəsvətlər "neçin bilməm?*
*Neçin? Ya rəbb, neçin?" derkən*
*Qonub bir səyhə, müdhiş bir səda, bir nəreyi-hey-hey*
(Cavid, 1968-1971, I cild: 89).

Hər iki nümunədə eyni bir xitab diqqəti cəlb edir: Ya rəbb! Səciyyəvi cəhətdir ki, romantik şeirdə Tanrıya müraciət romantiklərin yaradıcılığının ilk mərhələsində təsadüfdən-təsadüfə işlədilirdisə, artıq müharibə illərində bu hal sistemli şəkil almışdır. H.Cavidin "Hərb allahı qarşısında" şeiri də elə məhz bu vaxtın məhsuludur. Lakin "Hərb allahı" ifadəsi yalnız sərlövhədə deyil, həmçinin mətnin özündə də vardır:

*Ey odlu şahpərilə saçan zəhri-intiqam!*
*Ey hərb ilahi! Ey sırıtan kinli əjdaha!*
(Cavid, 1968-1971, I cild: 91).

Eyni ilə M.Hadi də "Hərbi-müsəlləs, yaxud cəngi-seahəng" şeirində (1914) "Ey aləmin ilahi, nədir bunca hərbü zərb?" (Hadi, 1978: 239) ittihamını verir. Şair 1913-cü ildə qələmə aldığı "Ulduzlu bir gecədə müharibə tamaşası" şeirində isə yazır:

*Əgər varsa göylərdə müdrik diri,*
*Təmaşayə çıxmış deməkdir yeri* (Hadi, 1978: 297).

Burada da, heç şübhəsiz, "müdrik diri" "Tanrı" mənasında işlənmişdir.

A.Səhhətin "Ninni" şeirində (1915) Tanrının yada düşməsi (1,67), "Haşımbəy mərhum üçün" şeirində (1916) "Xuda" sözünün işlənməsi (1, 87) də məhz bu dövrün romantik şeirinin ümumi xarakteri haqqında ciddi bir qənaət hasil etməyə imkan verir.

Romantik poeziyada Tanrıya müraciət, yaxud Tanrının bir

obraz kimi şeirdə iştirakını birbaşa romantik sənətkarların yalnız dünyagörüşü ilə bağlı məsələ kimi izah etmək düz olmazdı. Birinci dünya müharibəsi illərində nahaq qan tökmə, insan qırğını elə bir kütləvi şəkil almışdır ki, romantiklərin öz etirazlarını Allaha müraciətlə ifadə etmələri tamamilə təbii səslənir.

Digər tərəfdən məlum olur ki, müharibə illərinin lirik qəhrəmanı da müəlliflə birləşir, onlar eyni cəbhədən çıxış edirlər. Ona görə ki, yaradıcılıqlarının ilk mərhələsində Qərbə rəğbətlə yanaşan, Qərb dünyasını ideallaşdıran XX əsr Azərbaycan romantikləri müharibəni törədən Qərb dünyasına qarşı artıq ikrah hissi ilə baxırdılar. Akademik M.Cəfər yazır: "müharibə illərində Qərbə münasibət dəyişməyə başladı. İndi artıq onlar da maarifçi realistlər kimi elmi, mədəniyyəti olan "qərb tayfalarının" təcavüzkarlığından, "mədənilərin" vəhşiliyindən yazır, təəccüb və heyrət edirlər" (Cəfər, 1974: 97). Belə bir cəhət romantiklərin bədii əsərlərində aydın şəkildə təsdiq edilir. Xüsusilə romantik şeirin şair və şeir probleminə həsr olunmuş nümunələri bu məsələdə tam aşkarlıq yaradır.

Azərbaycan romantizminldə şair və şeir probleminə göstərilən diqqət bilavasitə romantiklərin özlərinə olan münasibət deməkdir. Çünki romantiklər öz estetikalarında başlıca olaraq məhz romantizm məsələlərindən bəhs edirdilər. Belə olduğu tərzdə şübhə qalmır ki, lirik şeirin şair qəhrəmanları elə romantiklərin özləri idi.

İkinci bir məsələ də qanunauyğundur ki, romantizmdə şəxsiyyət konsepsiyasının ciddi əhəmiyyətə malik olması romantiklərin yaradıcılığında sənətkarın özünə olan marağı da təyin edir. Çünki "Romantizm üçün sənətkar – sənətin "subyekti" problemi həlledici idi" (Турчин, 1981: 78).

A.Səhhət sənətkar və onun taleyi ilə bağlı olan "Şikayət" (1912) şeirində yazır:

*El tənə ilə deyir filani – Divanə olub, əlacı yoxdur*

(Səhhət, 1975: 49).

Yenə onun 1912-ci ildə yazdığı "Sual və cavab" şeirində şairə belə bir sual verilir:

*Nə düşünməkdəsən, a divanə?*
*Yenə bir uyqu görmüsən, ya nə?* (Səhhət, 1975: 75).

Bu nümunələrdə "divanə" sözü diqqəti xüsusilə cəlb edir. Hər iki halda həmin adı şairə başqaları verir. "Şair" şeirində də bu mövqe davam etdirilir:

*Əlvahi-asimani ikən hər nəşidəsi,*
*Divanə zənn edir onu lakin avami-nas* (Səhhət, 1975: 100).

Maraqlı cəhətdir ki, "divanə" sözünün şairin ünvanına "el", naməlum adam, "avami-nas" tərəfindən deyilməsinə baxmayaraq, yaxşı mənada ona müəllifin də rəğbəti vardır. Bəlkə belə demək olar ki, "divanə" romantik şairi nişan verir və deməli, A.Səhhət romantik şairin obrazını yaradırdı.

Başqa bir cəhəti də burada qeyd etmək lazımdır. "Şair" şeirinə şərh verən prof. K.Talıbzadə yazır: "Şairin sağlığında çap olunmamış şeirlərdəndir. İlk dəfə 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalının 3-cü nömrəsində çap olunmuşdur" (Talıbzadə, 1955: 297). Bu mənada hər üç şeirin poetik strukturundakı "divanə" sözünü nəzərə alsaq, ehtimal etmək olar ki, A.Səhhətin "Şair" şeiri də əvvəlkilər kimi 1912-ci ildə və yaxud bir az ondan sonra qələmə alınmışdır.

A.Səhhətin "Şair, Şeir pərisi və Şəhərli" şeiri də müəllif və qəhrəman probleminin təhlili üçün səciyyəvidir. Əsərdə Şair *"tək-tənha oturub məhtaba qarşı tamaşayi-təbiət edərkən"* (Səhhət, 1975: 88) təqdim olunur. Bir az sonra bu Şair tənhalıqdan ayrılır və "dərdinə dərman" üçün getmək istəyirsə, o da mümkün olmur və deyir:

*İllər, aylar gəzirəm boş-boşuna, bikarə,*
*Laübalı yaşayış etdi məni avarə...* (Səhhət, 1975: 88).

Şairin özünü "bikar", "avarə" adlandırması, "laübalı" həyatı barədə danışması istər-istəməz "divanə" sözünü yada salır.

H.Cavid isə "İbtilayi-qəram" şeirində yazır:

*Dinliyorkən lisani-şeirimi mən,*
*Bir yetimin lisani-halı kibi,*
*Yüksəlir bir inilti qəlbimdən,*
*Titrədir ruhi-lərzədar şəbi.*

Aydın olur ki, şair öz şeirindən – öz yaradıcılığından danışır. Şeirdəki "yetim" sözü isə A.Səhhətdəki "Divanə" sözünü xatırladır.

Eyni zamanda, çox maraqlıdır ki, M.Hadi şairlərə ithaf etdiyi "Zamanın məzhəkələrindən" şeirində (1914) yazır:

*Qəlp pula döndü həp ilhamımız,*
*Qaldı kitab, qalmadı bir müştəri!*
*Hər kəsə versək də, deyir al geri!*
*Qaldı zavallı şüəra sərsəri.*
*Satılmayır zadeyi-ilhamımız,*
*"Çox yazıq olduq" deyirəm hamımız!* (Hadi, 1978: 234).

Burada üç cəhət əhəmiyyətlidir. Birinci budur ki, M.Hadidəki "sərsəri" sözü A.Səhhətin və H.Cavidin şeirlərindəki bu tipli sözlərlə həmahəng səslənir. ikincisi, şeirin ümumi ruhu M.Hadinin həyatını xatırladır. Bu baxımdan onun müasiri A.Şaiq yazırdı: "Zira ki, ta çocuqluqdan bir-birini təqib etməkdə olan böyük fəlakətlər onu (M.Hadini – K.Ə.) sarsıtmış, onda acı düşüncə, acı mühakimə, hər kəsə və kainata qarşı acı bir kin və nifrət hissi doğurmuş, dadmış olduğu acı təcrübələr intibah fikri oyatmış və əski aləmdən, əski həyatdan tamamilə bıkdırmışdı" (Şaiq, 1977: 152).

Üçüncüsü "zavallı şüəra" ifadəsi ilə bağlıdır ki, bu ifadə 1910-cu ildə yazılmış "Şair, hücreyi-iştiğalı və düşüncələri" şerindəki "Zavallı şairə bax!" (Şaiq, 1966: 212) ifadəsini xatırladır. Bəs elə isə həmin şair kimdir?

Bu şair kirayə, soyuq bir otaqda tək-tənha yaşayan "zavallı"

bir məxluqdur. Şeirdə sanki M.Hadi – müəllif lirik qəhrəmanla – şairlə üz-üzə dayanmışdır və onu müxtəlif vasitələrlə xəyaldan əl çəkməyə çağırır. Lakin şairin xəyal duyğusu axıra qədər qalır və bununla da müəlliflə qəhrəman arasında təzad yox, bir növ barışıq və saziş qalib gəlir. Deməli, müəllif qəhrəmana güzəştə gedir və onlar eyniləşirlər.

Prof. K.Talıbzadə A.Səhhətin "Şair, Şeir pərisi və Şəhərli" əsərindən danışarkən o dövrün ədəbi prosesini nəzərdə tutaraq yazır ki, yazıçıların "digər qismi mövcud ictimai vəziyyətlə razılaşmır, ona qarşı mübarizə etmək istəyir, lakin sözlərində acizlik hiss edərək kədərlənir, zidiyyətli hallar keçirirdi (Səhhət, Şaiq).

Səhhətin poemasındakı Şair bu ikinci qisim yazıçıları təmsil edir" (Talıbzadə, 1955: 102).

Eynilə, L.Qinzburq A.S.Puşkin yaradıcılığından danışarkən yazır: "Əgər Puşkinin yaradıcılığında vahid lirik qəhrəman yoxdursa, şübhəsiz, hər şeyi əhatə edən vahid müəllif fikri iştirak edir. Çox vaxt bu müəllif "mən"i Aleksandr Sergeeviç Puşkinin konkret bioqrafik obrazı ilə təcəssüm tapır, yaxud onunla birlikdə dostlarının və tanışlarının surəti meydana çıxır" (Гинзбург, 1962: 145). M.Hadinin "Şair, hücreyi iştağalı və düşüncələri" şeirində də ya Məhəmməd Hadi Əbdüssəlimzadənin, ya da onun romantik şair dostlarının obrazı yaradılmışdır. Ə.Mirəhmədovun fikri ilə bu, tamamilə təsdiq olunur: "Bəli, elədir ki, var. Bu elə deyəsən, həmin romantik şair Məhəmməd Hadidir" (Mirəhmədov, 1985: 82).

Digər maraqlı cəhət odur ki, A.Səhhət və M.Hadinin şair obrazları ciddi bir ideyanın ifadəsinə xidmət edirlər. Yəni hər iki sənətkar üçün şairdən bəhs açıb sürətlə onun üzərindən keçmək əsas mətləb ola bilməzdi. Onlar məhz "cəmiyyətlə kəskin konfliktdə olan romantik şairin obrazını yaradırdılar" (Фридман, 1971: 87).

Deməli, romantik şeirdə qəhrəmanla müəllif və müəllif

obrazı arasında tam yaxınlıq, hətta eyniləşmə halları vardır.

Bütün bunlar romantik şeirdə lirik qəhrəmanın bədii strukturunu aydınlaşdırır və eyni zamanda, həmin qəhrəmanın realist lirikanın qəhrəmanından fərqli cəhətlərini üzə çıxarır.

# II FƏSİL

# DRAMATURGİYADA ROMANTİK QƏHRƏMAN

Azərbaycan romantik dramaturgiyasının problemləri, spesifik xüsusiyyətləri, ayrı-ayrı poetika əlamətləri Hüseyn Cavid yaradıcılığında daha bariz şəkildə meydana çıxır. Faciə janrının yaranmasından sonra H.Cavid dramaturgiya tarixində yeni mərhələnin qapılarını açdı. Bu, romantik dramaturgiya idi və tamamilə doğru qiymətdir ki, "Hüseyn Cavidin incə lirizm və dərin psixologizm, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur" ("Hüseyn Cavidin anadan olmasının 100 illiyin haqqında" qərar. "Kommunist" qəzeti, 21 iyul 1981).

Burada başqa bir mühüm cəhət ondan ibarətdir ki, H.Cavid öz poetik istedadının gücünə arxalanaraq mənzum dram yaratmaq sahəsində müqəddəs bir ənənənin başlanğıcını qoydu. Beləliklə, sənətkarın şeir yaradıcılığından dramaturgiyaya keçməsinin səbəblərindən birini məhz yüksək ehtiraslara malik romantik qəhrəman axtarıcılığında aramaq lazımdır.

Doğrudur, o, qəti olaraq poeziyadan ayrılmadı və özünün dediyi kimi "aktyorların mənzum pyesdən qorxduqları" bir vaxtda poeziya təsəllisini yenə də mənzum dram yaratmaq fəaliyyətində tapdı. Digər tərəfdən "Poeziyadan poetik dramaturgiyaya keçid Cavid yaradıcılığında qanunauyğun bir hadisə idi: poema ilə yanaşı mənzum dram dünya romantizm ədəbiyyatı üçün səciyyəvi janrdır" (Qarayev, "Azərbaycan" jurnalı, 1982: 182).

Bəs elə isə H.Cavid dramaturgiyasında romantik qəhrəmanın süjet və kompozisiya daxilindəki hərəkətinin bu qəhrəmanın bədii zaman və məkan çərçivəsindəki mövqeyinin mahiyyəti nədən ibarətdir?

## 1. ROMANTİK QƏHRƏMANIN HƏRƏKƏTİ

H.Cavid dramaturgiyasına daxil olan əsərlərin baş qəhrəmanları əsl romantik qəhrəmanlardır. Ən səciyyəvi cəhət budur ki, bu romantik qəhrəmanlar bütün ideyanı öz çiyinlərində aparan və heç bir yerdə "yoruldum" deməyən obrazlardır. Bəlkə belə söyləmək daha münasibdir ki, bezikmək nə olduğunu bilməyən həmin qəhrəmanlar məhz elə bu funksiyasını yerini yetirmək üçün yaranmışlar. Başqa sözlə, belə bir fikirlə razılaşmaq lazımdır ki, romantik qəhrəman "hadisələrin bir yerə düzülməsi üçün sterjen deyil... o məhz ideyaların daşıyıcısıdır" (Гинзбург, 1979: 126). Bax elə buna görə də H.Cavidin pyeslərinə verdiyi adların, əsasən, baş qəhrəmanların adları ilə eynilik təşkil etməsi faktına da təsadüf kimi baxmaq olmaz. Yəni əsərin adını dəqiqləşdirmək, qətiləşdirmək məqamı gələndə heç bir ad romantik qəhrəmanın adını əvəz edə biləcək səviyyədə olmamış və əsl ünvan kimi məhz romantik qəhrəmanın adı seçilmişdir: Şeyx Sənanın, İblisin, Afətin, Knyazın, Topal Teymurun, Xəyyamın qəhrəman olduğu əsərlər, onlara uyğun olaraq, "Şeyx Sənan", "İblis", "Afət", "Knyaz", "Topal Teymur", "Xəyyam" adlandırılmışdır. O da maraqlı faktlardandır ki, əvvəlcə "Zavallı qadın" adlandırdığı əsərə də dramaturq sonra "Maral" adı vermişdir. Beləliklə, bu sabitləşmiş prinsiplə - baş qəhrəmana xüsusi rol verilməsi ilə H.Cavid dramaturgiyasının vahid əsası, vahid sistemi də təmin olunmuşdu.

Dramaturgiyanın romantik qəhrəmanları "ideyaların daşıyıcısı" kimi mühüm şərəfli vəzifəni yerinə yetirmək işini bədii əsərin süjet xəttindəki hər hansı başqa bir momentdən yox, məhz ekspozisiyadan başlayırlar.

Təsadüfi deyildir ki, "Şeyx Sənan" əsəri başlayan kimi əsas söhbət də baş qəhrəmanın ətrafında cərəyan edir. Zəhra "Bir xə-

bər yoxmu Şeyx Sənandan?" sualını verir (Cavid, 1968-1971, I cild: 135). Bəs Şeyx Sənana nə olmuşdur? Şeyx Əbuzər deyir:

*Qonşular söylüyor ki, həp gecələr,*
*Uyumaq bilmiyor sabaha qədər.*
*Qoşuyor hər səhər biyabanə,*
*Həm də əsla qarışmaz insanə*

(Cavid, 1968-1971, I cild: 135).

Onun insanlara qarışmaması, "sanki bir məcnun" olması məsələnin bir tərəfidir, digər mühüm tərəfi isə ondadır ki, Şeyx Sənanın məramı, məqsədi anlaşılmır. Baş qəhrəmanın daxilində müəmmalı bir sirrin gizlənməsi barəsində də ayrıca mülahizə irəli sürülür. Həmin sirr isə azca sonra Xumarın məşhur çağırışı ilə aydınlaşır və dəqiqləşir:

*Şeyx, gəl-gəl! Sevimli Sənan, gəl!*
*Sana layiq deyil o yer, yüksəl!*

(Cavid, 1968-1971, I cild: 139).

Faciənin sonunda isə Şeyx Sənan dağ başından yüksəkliyə doğru ucalır.

"İblis" pyesində əsərin lap əvvəlində İblis deyir:

*Dəryalarə hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yaxar, evlər yıxar insan*

(Cavid, 1968-1971, II cild: 8).

Həmçinin səciyyəvidir ki, bu mülahizilərlə İblisin sonda dediyi monoloq arasında bir bənzəyiş və yaxınlıq vardır:

*İblis!.. O böyük ad nə qədər calibi-heyrət!*
*Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.*
*Hər qülbədə, kaşanədə, viranədə İblis!*
*Həp Kəbədə, bütxanədə, meyxanədə İblis!*

*...Mənsiz də, əmin ol sizə rəhbərlik edən var:*
*Qan püskürən, ataş sovuran kinli krallar...*
(Cavid, 1968-1971, II cild: 98-99).

Tamamilə aydın görünür ki, əsərin əvvəlində "tufan"dır, sonda "viran", əvvəldə "səhralar"dır, sonda "qülbə, kaşanə, kəbə, bütxanə, meyxanə", əvvəldə "qızıl qan sellər kimi axır", sonda "qan püskürür", əvvəldə "Canlar yaxar, evlər yıxar insan" sonda isə İblis belə deyir:

*Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,*
*Daim ayaq altında sönüb məhv olacaqsın*
(Cavid, 1968-1971, II cild: 99).

Məsələ burasındadır ki, İblis əsərin əvvəlində insanı hansı bucaqdan görürsə, əsərin sonunda bütün bunları onun özü icra edir.

Yaxud iblis birinci pərdədə Arifə söylədiyi:
*Bir gün gəlir, əlbəttə, şu izan ilə sən də*
*Baziçə olursan qoca iblisin əlində* (Cavid, 1968-1971, II cild: 11) – sözləri ilə "ültumatumunu" verir və "laübalı qəhqəhələrlə çəkilib gedir". Bu isə onun həyata keçirmək istədiyi və əsərin əvvəlində elan olunmuş məramnaməsi idi.

"Uçurum"da dramatik hadisələr başlayan kimi Calalla Gövərçinin ayrılmaq məqamı diqqət mərkəzində olur. Gövərçinin yanğılı gəraylısı əsərin bir növ epiqrafına çevrilir:

*Hər səfada cəfa buldum,*
*Açmadan saraldım, soldum,*
*Sərbəst ikən əsir oldum,*
*Həm gülümsər, həm ağlarım*
(Cavid, 1968-1971, I cild: 269).

Bu ağrıya baxmayaraq, Cəlal ona təsəlli vermək imkanını hələ itirməmişdi:

*Gövərçin, Gövərçin, inan nə etsəm,*
*Nərdə bulunsam mən, nə yolda getsəm,*

*Əsla tapındığım mələkdən dönməm,*
*Səndən başqa bir kimsəyi düşünməm*
(Cavid, 1968-1971, I cild: 270).

Lakin faciənin süjet inkişafında mühüm rolu bu vəd yox, qəhrəmanın buradan başlayan və Parisə doğru istiqamətlənən ezamiyyəti oynayır ki, bu xəttin nəticəsi artıq Gövərçinin bayatısında ifadə olunmuşdur.

*Afət isə ("Afət") əsərin ilk səhnəsində Doktora deyir: "Mən bütün mənliyimi, bütün həyat və səadətimi yoluna fəda etməyə hazıram. Hətta sənin uğrunda cinayətdən belə çəkinməm. Ancaq bu qədər var ki, aldadılmaq istəməm, aldandığımı duysam məhv olurum. Həm də pək kinliyim, anlıyormusan? Məni aldatmaq istəyənləri əsla əfv etməm, iki gözüm olsa belə intiqam alırım, intiqam!... Əvət, mən, pək kinliyim. Məni təhqir edənlər Əzrayılın qucağına atılmış olurlar" (*Cavid, 1968-1971, II cild: *105).*

Bu sözlər dərin sevgi telləri ilə bağlandığı məşuqənin Aşiqə zarafatla dediyi sözlər deyil. Onlara adicə hədə-qorxu kimi baxmaq olmaz. Afət öz taleyinin haraya doğru getdiyini bilirdi və öz bəxtinin acısını yaşayırdı. Həmçinin Afət sanki öz şən həyatı üçün yox, məhz bu intiqama, doktoru Əzrayılın qucağına göndərməyə daha çox səy göstərirdi.

*İndi isə pyesin sonuna diqqət verək. Yenə Afət deyir: "Özdəmirin intiqamını, kəndi intiqamımı aldım. (Cənazəyə). Sən məni unutdun, gözəlliyimi təhqir etdin; İştə gözəlliyin intiqamını aldım"* (Cavid, 1968-1971, II cild: 147).

Afət əsərin əvvəlində dediyini axırda yerinə yetirir. Yaxud Afətin əsərin sonunda icra etdiyi əsərin əvvəlindəki bəyanatın elə özü idi.

Bütün bunlar onu sübut edir ki, romantik qəhrəman əsərdə heç bir "hazırlıq kursu" keçmədən öz məqsədi uğrunda fəaliyyətə başlayır, "mühakimə yürüdür, ümumiləşdirir, nə isə təbliğ və etiraf edir" (Берковский, 1979: 184.). Həm də bu fəaliyyət onun

öz-özünü aldatması deyil. Yəni romantik qəhrəman müəllif "proqramı"nın yerinə yetirilməsində müəlliflə "sazişə" girib, müəllifin ideyasını daşımağa razılıq verdiyinə və bu razılığa həmişə sadiq qaldığına görə əsl romantik qəhrəman olur.

Bəs bütün əsər boyu romantik qəhrəman hansı mərhələləri keçərək mətləbə doğru hərəkət edir? Təbii ki, romantik qəhrəman irəliyə doğru hərəkətində və öz fəaliyyətini sona çatdırmaq məqsədində çox ardıcıl olsa da, bütün yollar bu qəhrəman üçün dümdüz deyildir. Şübhəsiz, haradasa qarşıya maneə çıxır, haradasa romantik qəhrəmanın hərəkəti üçün "əngəl", "keçilməz" vəziyyət yaranır.

"Şeyx Sənan" facəsindəki o yeri xatırlayaq ki, Şeyx Sənan Xumarı görəndən sonra öz böyük idealını yaşamağa başlayır. Elə bu idealı yaşamağa başlayan andan da ona qarşı maneələr baş qaldırır. Mədinə şeyxləri onun peyğəmbəri bəşər kimi görmək müddəasına qarşı çıxırlar. Şeyxlər Sənanı Şeyx Kəbirin gözündən salmaq istəyirlər. Lakin Şeyx Sənan öz şübhələri ilə belə mürşid səviyyəsinə qalxır, ilk maneəni dəf edir.

İkinci ciddi mərhələ belə bir dialoqda daha aydın nəzərə çarpır:

**Şeyx Sədra**

*Möhtərəm şeyx! Axın-axın insan,*
*Səni həsrətlə bəkliyor əlan.*
*Bütün islam həp ziyarət için*
*Toplanıb gəlmiş...*

***Şeyx Sənan***

*İstəməm, çəkilin!*
*Məndən olmaz bir istifadə sizə,*
*Başqa mürşid bulun da kəndinizə*

(Cavid, 1968-1971, I cild: 193).

Artıq mürşidlik özü Şeyx Sənan üçün maneəyə çevrilmişdir. Həmin tituldan istifadə edərək, ona əngəl törədən şeyxləri

rədd etməkdən başqa elə bir çıxış yolu yoxdur. Çünki artıq Şeyx Sənanı özünün ziyarətgah olmasıdan daha çox, Xumarın ziyarətinə – yüksəklik ziyarətgahına getmək düşündürür: din ecazkarlığını itirir.

Şeyx Sənan üçün üçüncü ciddi maneə xristianların tələbləri ilə bağlıdır. Lakin bu tələblər də romantik qəhrəmanın istəkləri müqabilində elə bir müqavimət səviyyəsinə qalxa bilmir. Platonun:

*Şeyxim, ancaq bir iş də yapmalısın,*
*İki il tam donuz otarmalısın* (Cavid, 1968-1971, I cild: 199)

– şərtini Şeyx Səda "təhqir" adlandırır, Şeyx Sənan isə "hər nə əmr etsəniz qəbul edərim" deyir. Artıq Quranı rədd və şərabı, donuz otarmağı qəbul Şeyx Sənan üçün təhqir və maneə deyil, bunlar əsl ideala doğru gedən yolun keçidləridir və o inanır ki, onu həqiqətə (!) yalnız bu keçidlər çatdıra bilər.

Dini rəhbər Şeyx Sənan qarşısındakı bu əngəllər onun üçün çox asanlıqla həll olunur. Ona görə ki, vaxtilə yuxuda və xəyali formada gördüyü Xumar bu maneələrin düz arxasında dayanmışdır. Şeyx Sənan isə bir an belə keçmişinə dönüb baxmadan həmin maneələri addımlayıb keçir.

"İblis" əsərində Arifə nuri-həqiqət gətirməyindən danışan iblis məmnunluqla qarşılanmır. Arif onu "xain" adlandırır və zülmət gətirəcəyini deyib rədd edir. İblisin isə məqsədi aydındır: Arif ona tabe olmalıdır. Bu tabeçiliyə qarşı ilk müqavimət - maneə də elə buradaca elan olunur: *"Məhv olsa da həp mənliyim* uymam sana, dəf ol!" (Cavid, 1968-1971, II cild: 14).

İkinci məqamda Arifi ələ gətirmək istəyən İblis ona tapança və altun təklif edir və deyir ki, həyatda hər hansı məqsədə nail olmağın yolu və üsulu yalnız bunlarladır. Yenə də Arif "İblisin vermiş olduğu tapançanı və altunları yerə atır, son dərəcə qızğın və usanmış bir halda" deyir:

*Dəf ol, yetişir, eyləmə əsla məni təltif!*
*Möhtac deyil altuna, ya qurşuna Arif*

(Cavid, 1968-1971, II cild: 29).

İblis isə ikinci dəfə də "dəf ol!" nidası ilə qarşılaşsa belə qalibiyyət inamını qətiyyən itirmir və birinci pərdənin sonunda bunun mahiyyətini də izah edir:

*Get, bəllidir insandakı xislət;*
*Sizlərdəki ülfət sonu vəhşət,*
*Sizlərdəki şəfqət sonu nifrət,*
*Sizlərdəki rəhmət sonu lənət!...*

(Cavid, 1968-1971, II cild: 30).

Romantizm üçün səciyyəvi olan bir cəhət üzərində də qısaca dayanaq. Bu da "İblis" faciəsində əvvəldən axıradək işlənən "altun" sözü ilə bağlıdır. Arifi öz tərəfinə çəkmək üçün iblisin dəfələrlə ona təklif etdiyi altun nə qədərdir? Heç bir konkret fakt yoxdur. Amma Ü.Hacıbəyovun "O olmasın, bu olsun" komediyasına diqqət edək.

Yaxşı məlumdur ki, Məşədi İbadın leksikonunda "bir abbası" xüsusi yer tutur. O, Gülnazı görəndə sevincindən qulluqçu Sənəmə deyir: *"Buyur bu abbasını saxla, lazım olar, saqqıza verib çeynərsən"*(Hacıbəyov, 1985: 542). Məşədi İbad hambala da bir abbası verib onu *"ayağının altında yatırdır"* (Hacıbəyov, 1985: 549). Hərgah S.S.Axundovun "Tamahkar" pyesindəki *"bir abbası"* söhbətini (Axundov, 1975: 273) və M.Ə.Sabirin fəhləyə verdiyi *"Bir abbası gün muzdunu milyanmı sanırsan?!"* (Sabir, 1960: 54.) sualını da nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, varlıların aşağı təbəqə nümayəndələrinə münasibətdə əsas ölçü vahidi "bir abbası"dır. Bu pul bölgüsü Məşədi İbadın qoçu Əsgərə 2 min manat, millətpərəst Həsənqulu bəyə 500 manat, qəzetçi Rza bəyə 50 manat verməsi ilə müqayisədə öz mahiyyətini daha aydın şəkildə açır. Mətləb ondadır ki, cəmiyyətdə hər təbəqənin nümayəndəsinin əldə edəcəyi gəlir həmin təbəqənin tutduğu mövqedən asılı olaraq bir cürdür. Həm

də bu, romantik bədii inikasdan tamamilə fərqlənən realist təsvir və təhlildir.

Beləliklə, heç bir xırdalığa, konkretliyə enməyən və "altun" adlı ümumi maddiyyatı təklif edən İblis üçüncü dəfə də maneə ilə qarşılaşır. Bu məqamın izahı üçün aşağıdakı dialoq son dərəcə əhəmiyyətlidir:

**İblis**

*Bir şeyin yoxsa da könlün var ya,*
*Mana ver könlünü...*

**Arif**

*Əsla, əsla!..*
*Bunu heç umma, saqın Arifdən,*
*Vermişim könlümü yalnız ona mən*

(Cavid, 1968-1971, II cild: 36).

Burada isə İblis artıq Arifdən onun könlünü istəyir və tam qalibiyyət haqqında düşünür, amma yenə də etirazla qarşılaşır. Nəhayət, şərab köməyə çatır və iblis üçün maneələri birdən-birə dəf edir, fəlakət və cinayətlərin törənməsinə - baş niyyətinə nail olur.

"Topal Temyur" əsərində romantik qəhrəman tarixi şəxsiyyət olub faktik şəkildə çox qüvvətlidir. Romantik qəhrəmanın güclü, qüvvətli olması isə onun əsas məqsədə doğru ildırım sürəti ilə getməsini də təmin etmişdir. Yəni burada qəhrəman qarşısında heç bir maneə dözmür. Şair Kirmani onun qan tökmək niyyətlərinə qarşı çıxaraq deyir: *"...Siz insan qafalarını qırarkən biz də o qafalardan yapılma qədəhləri bir-birinə vururuz. Siz hərb və dəhşət qalibi, biz eşq və məhəbbət məğlubi. Fəqət bizim şu məğlubiyyətimiz o qalibiyyətdən daha üstündür"* (Cavid, 1968-1971, III cild: 19). Divanbəyi də Teymuru vuruşlardan çəkindirmək istəyir: *"Mana qalırsa xeyir və şər ekizdir. Məhəbbətlə ədavət bir-birinə bağlıdır. Lüzumundan fəzlə məhəbbət nifrət doğurduğu kimi, həddən artıq qan tökülməkdə də bir fəzilət yox"* (Cavid,

1968-1971, III cild: 21). Lakin bunlar romantik qəhrəman üçün elə bir maneə deyil. *"Mən məğrurları əzmək üçün bır allah balasıyam"* (III, 20) – deyən qəhrəman heç nəyin fərqinə varmadan öz məqsədinə doğru hərəkət edir.

"Knyaz" pyesində isə Knyazı öz əməllərindən çəkindirmək istəyən, bir növ ona "mane" olmağa çalışan ilk obraz dayısı Solomondur. Solomon kəndlilərin etirazı zamanı onların "bir az haqları" olduğunu söyləyir və Knyazı mərhəmət etməyə çağırır. işçilər gələndə də Solomon yenə öz mövqeyini saxlayır və *"şübhəsiz haqları var, haqları var"* inadı ilə çıxış edir (Cavid, 1968-1971, III cild: 91). Lakin Knyaz üçün bunlar çox ötəri və dayanıqsız maneələrdir. Doğrudur, geniş mənada Knyaz hiss edir ki, onu təqib edən adamlar və yeni yaranan mühit o qədər də gücsüz deyil. Lakin bu təqiblər Knyaz üçün açılmaz "pərdəli əngəllər"dir və elə bütün bu ruhla da Knyaz daxilən yiyələndiyi tapşırığı sona çatdıra bilir.

Digər bir məsələ.

Tipoloji baxımdan daha konkret yanaşsaq, realist faciələrin qəhrəmanları tək qalıb ölsələr belə, fikirlərinin şərikləri də vardır. Hətta onların məsləkdaşları ölümlərindən sonra daha da artır. Məhz buna görə prof. K.Məmmədov "Müsibəti-Fəxrəddin" faciəsindən bəhs edərkən doğru yazır: "Dramaturq bütün varlığı ilə inanır ki, gələcək Fəxrəddinlərin, Səadət xanımlarındır!" (Məmmədov, 1963: 112) H.Cavid dramaturgiyasında isə romantik qəhrəmanlar tam mənada təkdirlər.

Hətta istənilən əsərdəki digər obrazlar əsas romantik qəhrəmanla intriqaya girmək səviyyəsinə qalxa bilmirlər. H.Cavid dramaturgiyasında "romantik qəhrəman və digər obrazlar" prinsipi ilə şərtlənən və axıradək çox ciddi şəkildə gedib çıxa bilən sərt konflikt də yox dərəcəsindədir. Bəzi əsərlərdə romantik qəhrəmanla az-çox "ixtilafa" girə bilən obrazlar varsa, onlar da romantik qəhrəmanın fəaliyyətinə xidmət edirlər, hətta elə həmin

"ixtilaf"ları ilə belə xidmət edirlər. "Afət" əsərində belə bir dialoq var:

***"Özdəmir*** *(təkrar lüabalı qəhqəhələrlə). Əvət, düşünüyorum. Qadın pək körpə ikən tazə bir çiçək. Sonra şətarətli bir kələbək; daha sonra füsunkar bir mələkdir. Yalnız bəziləri, əvət, bəziləri isə çamurlarda gəzən bir ördək, azğın və hərcayi bir ördəkdir.*

**Afət.** *Ah!* (Deyə mütəəssir bir halda geri çəkilir. Doktor Qaratay düşəcək zənnilə onun qolunu tutar.)

***Özdəmir.*** *(Acı qəhqəhələrlə) Ah, bəxtiyar doktor! Sana, sənin gözəl taleyinə qibtə ediyorum.*

***Xandəmir.*** *Gəl, canım, gəl!.. Sən artıq saçmalıyorsun. Gəl, gedəlim bir az şahmat oynayalım.*

**Özdəmir.** (Afəti yarım baxışla süzər, mənalı bir qəhqəhə ilə). *Mən çoxdan mat olmuşam"* (Cavid, 1968-1971, II cild: 104).

Bu, sadəcə olaraq Özdəmirin Afət üçün güzəşti deyil, onun məqsədə çatması naminə yaratdığı "şərait"dir. Yalnız belə bir "şərait" romantik qəhrəmanın fəaliyyət miqyasını genişləndirə bilərdi. Bununla da təhqir olunmuş "gözəlliyin intiqamını almaq" idealı başlayır. Bu prosesdə Doktor Qaratayın Afəti atıb Altunsaça meyil göstərməsi hadisəni yetişdirən səbəbə çevrilir. Lakin lazımi məqamda Alagözün söylədiyi "Çünki ... ləkəli bir ananın övladıyam" sözləri mühüm rol oynayır və Afətin öz əməliyyatını başa çatdırması üçün əsas siqnal olur.

"Knyaz" pyesindəki Lena surəti də romantik qəhrəmanın məqsədə çatmasına xidmət edir. Doğrudur, Lena az da olmuş olsa bütün pərdələrdə görünür. Hətta bu mənada onu ayrıca obraz kimi də izləmək olar. Lena əsərin son pərdəsinə qədər elə bir ciddi iş görmür və onun elə bir ciddi bədii funksiyası da yoxdur. Ona görə bədii funksiya deyirik ki, Lena əsərdə elə bir nəzərə çarapacaq həyati-ictimai vəzifə daşımır.

Lena bu müddətdə Jasmenlə, Marqo ilə söhbət edir, Alma-

niyada Antonla Jasmenin görüşünün "əsas təşkilatçısı" olur. Bu "əsas təşkilatçılıq" da əsərdə əsas məzmun daşıya bilmir. O yerdə ki, Lena öz taleyinin kədərli şərqilərini oxuyub və bir az sonra atası Knyazla qarşılaşır, yalnız onda bu gənc qızın əsas rolu görünür.

Knyaz Lenaya deyir:

*Mən könlümü verdim sana ancaq,*
*Gəl, işvəli afət, məni sən etmə oyuncaq.*
*Bır busə ver ancaq şu dodaqdan,*
*Güldən daha nazik o gözəl pənbə yanaqdan.*
*Axşam da bərabər uyuruz, nazlı göverçin,*
*Əlbət bu xoş əyləncə səninçin*

(Cavid, 1968-1971, III cild: 90).

Məhz elə bu dəhşətli andan sonra Knyaz özünü məhv etmək qətiyyətinə gəlib çatır. Doğrudan da, o fikir qətidir ki, "ikinci planda olan obrazlarla əsas romantik qəhrəman arasında açıq-aşkar fərq mövcuddur. Əsas qəhrəman bəlkə son dərəcədə onu əhatə edənlərdən ayrıdır. O, digər surətlərə nisbətən başqa cür təsvir olunur və başqa hüquqlara yiyələnir" (Польский романтизм и восточнославянские литературы, 1973: 140.).

Şeyx Sənan və Xumarın, Cəlal və Gövərçinin, Səyavuş və Firəngizin, Xəyyam və Sevdanın munasibətlərində də birincilərin məqsədi daha səciyyəvidir. Çünki hər hansı bir əsərdə Gövərçinlərin sadiqliyindəki mənadan çox, Şeyx Sənanların dərin, köklü maraqlarındakı məna, məzmun əhəmiyyətlidir. Ona görə də bu məna romantik qəhrəmanın daxili aləmini, mənəvi dünyasını, inam və ümidlərini, iztirab və sızıltılarını meydana çıxarmış olur.

Romantik qəhrəman bütün başqa əməllərində də öz həlledici mövqeyini əldən vemir. Həmişə diqqət mərkəzində və yüksək pyedestal üzərində dayanır.

İblisə münasibətin vahid məcraya sığışan mənzərəsi belədir:

"Faciə İblislə başlayır, pərdələr İblislə qurtarır, final İblislə başa çatır. Hər yerdə, həmişə İblis!" (Qarayev, 1965: 113).

Səyavuşun mövqeyinin bütün mərhələlər üçün səslənən mənası budur:

"Gah Turanda, gah İranda baş verən hadisələri göstərməkdə məqsəd tarixin müəyyən mənzərəsini yaratmaqdan daha çox, Səyavuşun taleyini izləmək, böyük bir istedadın, ağılın faciəsini verməkdir" (Cəfərov, 1968: 252-253).

Xəyyamı təqdim etməyin elmi yolu öz həqiqətini belə bir fikirdə tapır: "Əlbəttə, bu əsərdə də qəhrəman - Xəyyam hər şeydən üstün idi" (Cəfər, 1958: 302).

Bütün bu mülahizələrdə qəhrəmanın üstünlüyünə maraq bilavasitə romantik qəhrəmanın aparıcı, yeganə deyil, həmçinin həlledici olması fikrinin təsdiqi ilə bağlıdır. Burada İblisin özünü də xatırlamaq yerinə düşər. O, əsər boyu bildirmək istəyir ki, hər şeyə qadirdir və belə bir qüdrətdə onun əvəzedicisi yoxdur. İblis dördüncü pərdədə özünü ən yüksək zirvəyə qaldırmaqla əvəzsiz mövqeyi haqqında qənaətini bildirir:

*Mən heçlə doğan bir ulu qüvvət, ulu qüdrət:*
*Bir qüdrəti-külliyə ki, aləm mənə bədxah,*
*Dünyada əgər varsa rəqibim o da: allah!...*

(Cavid, 1968-1971, II cild: 78).

Özünü Allah səviyyəsində tutmaq yox, hətta onu özünə rəqib hesab etmək - İblisin mənəmliyinin bundan bariz nümunəsi ola bilməz.

H.Cavid dramaturgiyasında baş qəhrəmanla mübahisəyə girə bilməyən digər obrazlar ikinci planda qaldığı kimi, bir çox mövzular da romantik qəhrəmanın ideyası müqabilində ikinci dərəcəli olaraq qalır. Bu baxımdan dramaturqun əsərlərindəki məhəbbət mövzusu ilə bağlı cəhətlərə diqqət edək.

H.Cavindin bir çox lirik şeirlərində, "Ana" pyesindən "Xəyyam"a qədər, demək olar ki, bütün dramlarında məhəbbət və

sevgi süjetləri mühüm yer tutur. Lakin bu süjetlər hər əsərdə bir cürdür, bir formadadır. Yəni sənətkar müəyyən bir pyesində məhəbbət hadisəsini qələmə alırsa, bu, digər pyesdəki məhəbbət hadisəsinə qətiyyən bənzəmir. Nəinki hadisə mənasında, hətta təbii olaraq, bir obrazın sevgi aləmi də başqa obrazın məhəbbət duyğuları ilə üst-üstə düşmür.

Məhəbbət daxili çılğınlıq və təbəddülatın mənbəyi olduğuna görə romantik sənətkar ilk dram əsəri olan “Ana” pyesindən başlayaraq, məhəbbət mövzusuna xüsusi maraq göstərmişdir.

Bu əsərdən məlum olur ki, Qanpolad sevdiyi və nişanlandığı ismətlə evlənmək üçün toy etmək arzusundadır. Orxan isə İsməti Qanpoladdan ayırmaq və özünə arvad etmək cəhdi ilə yaşayır.

Əsər üçün səciyyəvi cəhətlərdən biri budur ki, Qanpoladla İsmətin qarşılıqlı sevgisi onların bir-biri ilə söhbətində, danışığında deyil, daha çox İsmətin münasibətində meydana çıxır. Pyesdəki o yeri xatırlayaq ki, Orxan İsmətə öz çılğın sevgisini elan edəndə, İsmət Qanpoladı nəzərdə tutaraq qəti şəkildə deyir:

*Bütün dünya alt-üst olub dağılsa,*
*Ondan başqa sevdiyim yoxdur əsla!*

(Cavid, 1968-1971, I cild: 226).

İsmətin romantik sevgisi müqabilində bir adam, beş adam, bir kənd, bir şəhər deyil, bütün dünya dayanmışdır. Yəni onun üçün sevgi - həyat meydanında təkcə Qanpolad var. Bu, İsmətin öz baxışında meydana çıxan sevgisinin böyüklüyü və əlçatmazlığı barədəki həqiqətin təsdiqi idi.

Hüseyn Cavidin sırf məhəbbət üzərində qurulmuş ikinci əsəri “Afət”dir. Dramaturq bu pyesdə Afətin hiss və duyğularını, əzab və narahatlıqlarını qələmə almışdır. Bu gənc qadın doktor Qarataya könül verəndə, onun qəlbində ölüm qucağına gedən yolun şübhələri baş qaldırır. Ən dəhşətlisi budur ki, Afət Qarataya daha dərin və möhkəm tellərlə bağlanmaq üçün qanuni əri

Özdəmiri öz əlləri ilə məhv edir.

Afətin qəlbində sevgi və qəzəb, məhəbbət və intiqam yanaşı yaşayır. Hələ əsərin əvvəlində bunlar dəqiq ünvanına çatmır. Çünki bütün bu hisslər Afətin Özdəmirə deyil, məhz Qarataya münasibətində reallaşır.

Qaratay Afətin qəlbini fəth etdikdən bir müddət sonra onu atır və bu məqam Afətin artıq aldandığını təsdiq edir. Afət indi ərini öldürmüşdür və dəhşətli şəkildə aldanma iztirablarını keçirir. Lakin bu qadın öz taleyindən daha çox, məhəbbətin ləkələnməsi, gözəlliyin təhqir olunması haqqında düşünür. O, əsərin sonunda doktor Qaratayı öldürüb elə beləcə də deyir: "Sən məni unutdun, gözəlliyimi təhqir etdin, iştə gözəlliyin intiqamını aldım" (Cavid, 1968-1971, II cild: 147).

İntiqamında və intiharında belə Afət öz subyektiv – özü üçün doğma olan düşüncələrini həyata keçirir və yüksəlir.

Hüseyn Cavid özü də bir sənətkar kimi xəyanətə qarşı o dərəcədə barışmazdır ki, hətta şeirlərinin birində vəfasız aşiqi amansızlıqla ittiham edir:

*Mənə anlatma ki, eşq, aləmi-sevda nə imiş?*
*Bilirəm mən səni, get! Hər sözün əfsanə imiş*

(Cavid, 1968-1971, II cild: 125).

Hüseyn Cavidin "Uçurum" pyesində də ülvi məhəbbətin qorunması məsələsi aparıcı xətdir, ana xətdir. Lakin burada qabarıq planda Afət kimi sevgisi, eşqi təhqir olunan Gövərçin deyil, sevgini, eşqi alçaldan Cəlal dayanmışdır.

Cəlal Parisə öz rəssam sənətkarlığını təkmilləşdirmək arzusu ilə getdiyi halda, orada Anjel adlı bir qıza uyur. Bütün günlərini bu qızla eyş-işrətdə keçirir. Başqa sözlə, rəssamlığa olan vurğunluğu, Gövərçinə bəslənən eşqi "Fransa ərməğanı" ilə yüngül həyat keçirmək əvəz edir.

Bu əvəzlənmə əsl sevgiyə, həqiqi məhəbbətə xəyanətin əvəzlənməsidir.

Bu əvəzlənmə gələcək fəlakətin, uçurumun başlanğıcıdır.

Maraqlıdır ki, dramaturq həqiqi eşqin simvolu Gövərçinlə, antiməhəbbət rəmzi olan Anjeli heç üz-üzə də gətirmir. Sanki Hüseyn Cavid bu qarşılaşmanı həqiqi sevgi müqabilində münasib hesab etmir. Beləliklə, Cəlal yenidən Gövərçinlə qabaq-qabağa gəlir və qəribədir ki, bu məqamda Paris "səfiri" İstambul sakini Gövərçini "başqa bir eşqə uymaqda" təqsirləndirir. Bu təqsirləndirmə də Cəlalın özünə bəraət qazandırmaq cəhdi idi. Lakin o da baş tutmayanda, Cəlalın bircə yolu qalır: uçuruma tullanmaq!

"Afət" və "Uçurum" pyeslərindəki sevgi səhnələrinin təhlili göstərir ki, Hüseyn Cavid üçün ən başlıcası məhəbbətin təmizliyini, ülviliyini qorumaqdır. Məhəbbət onun nəzərində çox yüksəklikdə dayanırdı və yalnız bu yüksəklikdən, bu zirvədən insanların daxilinə nüfuz etmək, onları həyata, sağlam yaşayışa çağırmaq mümkün idi. Əslində yüksəkliyə qalxan, yüksəklikdə qərar tutan məhəbbətin özündə də belə bir güc, belə bir imkan vardır. Bu mənada Hüseyn Cavidin "Mənim tanrım" şeiri çox xarakterikdir (Cavid, 1968-1971, I cild: 58).

Bu şeir Hüseyn Cavidin gözəllik və sevgiyə olan münasibətinin ən bariz və aydın nümunəsidir. Hətta şair burada sevgini Tanrı səviyyəsində tutur və ona pənah aparır.

Bütün bunlarla yanaşı əsas mətləb ondan ibarətdir ki, Hüseyn Cavidin pyeslərindəki məhəbbət süjetləri bu və ya digər dərəcədə ifadə olunan ideya ilə bağlıdır. Yəni Hüseyn Cavid öz əsərlərində yalnız məhəbbəti təsvir etməklə məşğul olmur. Dramaturqun qələmə aldığı sevgi hadisələri sənətkar fikrinin açılışına, dünyanın dərki məsələlərinə və daha çox baş qəhrəmanın yaşadığı münasibətlərin təhlilinə, onun hərəkətinin tənziminə xidmət edir. Bununla da Hüseyn Cavid yaradıcılığında mühüm yer tutan məhəbbət probleminin qlobal xarakteri meydana çıxmış olur.

Şübhəsiz, "İblis" faciəsində məhəbbəti təmsil edən Arif -

Rəna - Vasif xəttini əsərdən ayırıb, əlahiddə şəkildə təhlil etmək düzgün olmaz. Çünki Hüseyn Cavidi bu üçlüyün ətrafında qərar tutan məhəbbət cərəyanı deyil, daha çox İblisin məhəbbət aləminə müdaxiləsi, təsiri düşündürür.

Rənanı da sevgi hissləri o qədər maraqlandırmır. Rəna öz babasının intiqamını almaq barədə səy göstərir. Onun Arifə, yaxud Vasifə yaxınlığının da mərkəzində elə məhz bu hiss dayanmışdır. Rəna əsərin əvvəlində açıqca deyir:

*Ah, babam, bir də anlı-şanlı babam! intiqam almadan, inan, yaşamam* (Cavid, 1968-1971, II cild: 21).

İblis isə Rənanın bu sirrini özü üçün aşkarlayandan sonra daha sərt fəaliyyətə başlayır. İş o yerə gəlib çatır ki, vaxtilə Arif, İblisin ona təklif etdiyi altun və qurşunu rədd etdiyi halda, Rəna uğrunda mübarizədə öz altunu ilə öyünür və silaha əl ataraq, qardaşı Vasifi öldürür.

Beləliklə, əsərdəki bu məhəbbət xəttinin özü belə İblis üçün çirkin niyyətlərini həyata keçirmək vasitəsi olur.

“Knyaz” pyesində isə Knyazla Jasmen arasındakı sevgi macəraları əslində Knyaza qarşı yönəldilir. Gürcüstandan Berlinə gedən Jasmen, nəhayət, orada həqiqətin astanasına gəlib çıxır və başa düşür ki, Knyazın ona bəslədiyi sevgi hissləri əyləncə xarakteri daşıyır. Jasmen:

*Altı ildir, yetər, oldum dustaq,*
*Məni Knyaz bir oyuncaq yaparaq.*
*Şən saraylarda zəhər uddurdu,*
*Buraxıb gəldim o munis yurdu* (Cavid, 1968-1971, III cild: 102) – deyərək, Knyazdan ayrılır.

Knyaz özünün son sevgisindən də məhrum edilir.

“Xəyyam” əsərindəki Xəyyam-Sevda xətti isə tamamilə başqa məna daşıyır. İlk növbədə unutmaq olmaz ki, pyesdəki sevgi süjeti məhz müdrik, filosof insanın duyğuları üzərində qurulmuşdur. Deməli, Hüseyn Cavidin təsvir etdiyi məhəbbət

hissləri fəlsəfi düşüncəyə doğru istiqamətlənməli idi. Beləcə də olur. Xəyyam – Sevda məhəbbətinin yüksək zirvəsində bu məhəbbət qırılır: Sevdaya zəhər verirlər. Belə bir məqamda Xəyyam öz müdriklik nidasını söyləyir:

*Qalx, oyan! Ah, niyə susdun, gözəlim?!*
*Həp təbiət, bəşəriyyət zalim...*
*Söylə, kimdən diləyim mən imdad?*
*Həp təbiət, bəşəriyyət cəllad!*

(Cavid, 1968-1971, III cild: 289).

"Xəyyam" pyesindəki sevgi xətti zalımlığa, cəlladlığa qarşı mübarizənin dayaq nöqtəsi olur.

Bəs "Şeyx Sənan"dakı məhəbbət motivlərini necə izah etmək olar?

Şeyx Sənan Turanda doğulmuş, sonra İranda yaşamış və daha sonra Ərəbistana gəlmişdir:

*Səni annən doğurdu Turanda,*
*Yaşadın bir zaman da İranda,*
*Kəsbi-irfan için, fəzilət için,*
*Sonra İranı tərk edib gəldin,*
*Ərəbistanı ixtiyar etdin.*
*Gənc ikən kəsbi-iştihar etdin.*
*Lakin ən son yerin, zəki Sənan!*
*Olacaq son nəfəsdə Gürcüstan.*
*Qapılıb hissə olmasan gümrah,*
*Olacaq məqbərən ziyarətgah*

(Cavid, 1968-1971, I cild: 152).

Şeyx Kəbir Şeyx Sənanın keçmişini beləcə nəql edir və hətta bu parçada "Cavidin tərcümeyi-halından bir nəbzə görməmək qabil deyil" fikrini söyləyənlər də olmuşdur (Zeynallı, 1983: 87). Lakin dramaturqu Şeyx Sənanın bura qədərki həyatı düşündürmür, daha doğrusu, müəllif üçün Ərəbistana – Mədinəyə gəlməmişdən əvvəl Şeyx Sənan ədəbi qəhrəman deyildir, lakin

bir cəhət var ki, Şeyx Sənan çox gəzmiş, öz həyat idealını dərk edə bilən insanın nümunəsidir.

Azərbaycan ədəbiyyatşünaslığında "Şeyx Sənan" faciəsinin tədqiqatçıları, əsasən, romantik qəhrəmanın Xumara sevgisindən danışmış, digər tərəfdən də bu məhəbbəti dini təəssübə qarşı qoymuşlar.

Doğrudur, Şeyx Sənanın tərcümeyi-halında iki qız vardır: Zəhra və Xumar. Bu, tragik qəhrəmanın əyyaşlıq cəhdi deyildir. Bəs onda əsərdə mühüm yer tutan hər iki xəttə necə baxmaq lazımdır?

Şeyx Sənanla Zəhra arasındakı sevgi münasibətləri altı ildir ki, mövcuddur. Bu, az vaxt deyil! Bəlkə Zəhra ilə toy etməyə Şeyx Sənanın "imkanı" çatmır? Bəlkə Şeyx Sənana dərin hörmət bəsləyən adamlar da ondan "öz köməklərini" əsirgəyirlər? Yox! Məsələ bundadır ki, Şeyx Sənan Zəhraya qovuşmaq istəmir və "onun eşqilə məstü bihuş" olan Zəhranı atmaq fikrində də deyil:

*Səni atmaqmı ?! Bir düşün əcəba,*
*Bu olur şeymi, nazənin Zəhra!*
*Sən mələksin, sevimli afətsin* (Cavid, 1968-1971, I cild: 139).

Hətta Şeyx Sənan Gürcüstana səfərə getməzdən qabaq da şeyxlərə üz tutaraq, "gecə-gündüz ondan xəbər bilmələrini" tapşırır (Cavid, 1968-1971, I cild: 170).

Şeyx Sənanın Zəhranı unudub Xumara meyil salmasını bir çox tədqiqatçılar Xumarın gözəlliyi ilə bağlayırlar. Yəni onların fikrincə, gürcü qızı ərəb qızından xeyli füsunkardır: "gözəl knyaz qızı, füsunkar bir dilbər olan Xumar ən müqəddəs, ideal gözəlliyin təcəssümü şəklində Şeyx Sənanın qarşısına çıxır və onu, birdəfəlik olaraq, tapındığı, müqəddəs saydığı imanından, sarsılmaz hesab etdiyi əqidəsindən döndərir" (Əlioğlu, 1975: 110); Yaxud: "Gürcü gözəli ərəb şeyxini dəyişdirdi" (Гусейнова, "Баку" qəzeti, 2 oktyabr, 1982); Və yaxud: "Şeyx Sənan insanın fikir və hisslərini buxovlayan bir mühitdən uzaqlaşmağı, həqiqi gözəlliyə

qovuşmağı “yüksəlmək” hesab edir və ona can atır” (Əfəndiyev, 1985: 64).

Lakin həqiqət belədir ki, Zəhra və Xumar bir-biri ilə rəqabətə girə bilən və heç vaxt bir-birindən geri qalmayan gözəllik səviyyəsindədirlər. Sənan Tiflisdə olarkən bir vaxtlar yuxuda gördüyü Xumarla qarşılaşır və heç də qəribə gəlməməlidir ki, Zəhranı “mələk” epiteti ilə vəsf etdiyi kimi, *“Söylə, əmrin nədir, gözəl mələyim?”* sualı ilə də Xumara müraciət edir (Cavid, 1968-1971, I cild: 299).

Başqa bir ciddi fakt da vardır:

*Səndə bir öylə hüsnü cazibə var,*
*Ki olur hər görən pərəstişkar*

(Cavid, 1968-1971, I cild: 136).

Bu, Əzranın Zəhra haqqında dediyi sözlərdir!

*Nə qədər qız yetirsə Gürcüstan,*
*Sana bənzər mələk yetirməz, inan*

(Cavid, 1968-1971, I cild: 193).

Bu isə Ninanın Xumar haqqında rəyidir!

Əzranın öz rəfiqəsi Zəhraya verdiyi qiymətlə, Ninanın öz rəfiqəsi Xumara verdiyi qiymətin bərabərliyi göz qarşısındadır. Bu isə Şeyx Sənanın Zəhra dura-dura, məhz Xumara doğru can atmasının səbəbini başqa nöqtələrdə axtarmağı tələb edir. Bəs onda səbəb nədir?

Şeyx Sənan fəlsəfəsinin dərki onun korlar və Dərvişlə qarşılaşması səhnəsində xeyli aydınlaşmış olur.

Bu korlar M.Hadi yaradıcılığında xüsusi şəkildə meydan çıxan ictimai-sosial mənada kor deyildirlər. Burada təbii-fizioloji hadisədən söhbət gedir. Həmçinin ikinci kor cəmisi iki dəfə hərdən bir misra söyləməklə cəmisi iki misra ilə pyesin dialoqunda iştirak edir. Lakin onun ən mühüm bədii funksiyası oxuduğu mahnı ilə təyin olunur (“**Nə eşq olaydı, nə aşiq**”...).

Bu mahnı korların ağrı və əzabını ifadə edir. Amma ən

dəhşətlisi budur ki, korlar Şeyx Sənandan imdad diləyib, gözlərinin açılmasını ondan "iltica" edəndə Şeyx Sənan deyir:

*Nəyi görmək dilərsiniz,*
*Yanıyor od içində həp aləm:*
*Həm də görməkdə bir məziyyət yox,*
*Kədər, işgəncə var; məsərrət yox,*
*Gərçi görmək də başqa nemətdir,*
*Görməmək ən böyük səadətdir*

(Cavid, 1968-1971, I cild: 167).

Şeyx Sənanın daxilində sonsuz bir narazılıq və küskünlük vardır. Onun ən böyük məqsədi yüksəlmək və narazılıqlardan qurtulmaq məqsədidir. Bunun üçün islam dinini qəbul edən Şeyx Sənanın həmin dinin tərəfdarlarına qarşı mübarizə aparması nəticəsiz qalardı.

Bu məsələnin izahı üçün "Şeyx Sənan" faciəsində bir-birini izləyən və bir-birinin davamı kimi meydana çıxan iki maraqlı məqama xüsusi diqqət edək. Bu məqamlar H.Cavidin romantik dramaturgiyasının və bu dramaturgiyanın poetikasının öyrənilməsi baxımından əhəmiyyətli olub əsərin ideyasının açılmasında, baş qəhrəmanın izlədiyi idealın aşkarlanmasında xeyli mənalıdır:

Birincisi, **Zəhra** deyir:
*Söylə, Sənan, nədir bu müdhiş hal?*
(Şeyx Sənan sükut edər)
*Nə bəla var başında? Söylə, nə var?*
(Şeyx Sənan cavab verməz) (Cavid, 1968-1971, I cild: 138).

İkincisi, **Şeyx Sənan** deyir:
*Baba dərviş! Qılmayın, lütfən,*
*Bizi məhrum feyzi-söhbətdən,*
(Dərviş sükut edir).
*Kimsiniz? Məsləki - təriqətiniz*
*Nə imiş?*

*Söyləyin rica edəriz.*

(Dərviş cavab verməz) (Cavid, 1968-1971, I cild: 176).

Hər iki halda remarklarda əvvəlcə "sükut edər", sonra isə "cavab verməz" sözlərinin işlənməsi təsadüfdürmü? Bəlkə bu, böyük sənətkarın "yanlış da bir naxışdır" mənasını ifadə edən özünütəkrara gəlib çıxmasıdır? Qətiyyən yox! Bunlar romantik şairin yaratdığı dramaturji qanunauyğunluqdur.

Təəssüf ediləcək cəhətdir ki, "Şeyx Sənan" əsərinin rus dilinə tərcüməsi zamanı həmin remarkalar əhəmiyyətsiz sayılmış və tərcüməsi məsləhət bilinməmişdir. Birinci parça rusca belə səslənir:

*Мой бедный,*
*Ну что с тобой? Болезненный и бледный,*
*Ты, как слеп ой? бредеш при свете дня.*
*Чем болен ты?* (Джавид, 1982: 23)

İkinci parçanın tərcüməsi isə aşağıdakı kimidir:

*Отец дервиш, простите бога ради,*
*Послушать вас мы, право, были в рады.*
(Дервиш молчит)
*Какой вы секты? В чем ее закон?*
*Быть может, нам полезен будет он...*

(Джавид, 1982: 67)

Hər iki mətnin orijinalındakı müəllif remarkaları ixtisar edilmiş, yalnız bir yerdə *"Dərviş sükut edər"* cümləsi saxlanılmışdır. Biri-biri ilə səsləşən dörd remarkadan üçünün ixtisarı isə Şeyx Sənan obrazının xarakterinin düzgün açılmasına, əsərin bədii strukturunun tam şəkildə dərkinə xələl gətirmişdir. Hərgah tərcüməçi (V.Portnov) əsərin bütün məqamlarında, "nəyi tərcümə etməyin vacibliyini bilməyi-tərcümənin birinci və əsas qanunu" (Кундзич, 1973: 23) hesab etsəydi, onda sənətkarı, Şeyx Sənan obrazının psixologiyasını rus oxucusuna və rus teatr ictimaiyyətinə olduğundan "artıq" yox, heç olmazsa olduğu səviyyədə

çatdırmağa müvəffəq olardı.

Məsələnin əsl mahiyyəti belədir ki, birinci parçada Zəhranın suallarına Şeyx Sənanın cavab verməməsi, əslində onun düşündüklərini Zəhranın dərk etməyəcəyi barədəki şübhənin ifadəsidir. Şeyx Sənan öz idealında özünü tək hesab edir, Zəhradan ayrılır və təklənir.

İkinci vəziyyətdə artıq Şeyx Sənan Zəhranın düşdüyü halı keçirir. Dərviş onun həyatı dərk etməsinə şübhə ilə yanaşır və ondan ayrılaraq, həmçinin həyat devizinə sadiq olaraq tənhalığa doğru getmək istəyir. Nəhayət, Şeyx Sənan Dərvişin sirrini öyrənir:

*Əgər fövqəlbəşər olmaq dilərsən,*
*Kənar ol daima cinsi-bəşərdən*

(Cavid, 1968-1971, I cild: *177).*

Beləliklə, "cinsi-bəşərdən" uzaq olmaq proqramı ilə hər şey öz həllini tapır. Elə bununla da Şeyx Kəbirə *"Ey böyük Şeyx"* deyib, onu vaxtilə mürşid kimi qəbul edən Şeyx Sənan indi məhz Dərvişi *"Ey pir mürşid"* adlandırır.

Şeyx Sənanın Xumara münasibətini Xumara qovuşmaqdan çox, yüksəlmək eşqi, ucalmaq məsləki təyin edir. Elə məhz Xumar da əngin səmalarda dayanıb, vaxtilə Şeyx Sənanı məhz yüksəlişə çağırırdı (Cavid, 1968-1971, I cild: 139).

Xatırladaq ki, Z.Əkbərov "Şeyx Sənan"da ilk səhnədən başlayaraq, "*yüksəlişə çağırış* (Kursiv bizimdir – K.Ə.) motivləri də diqqəti cəlb edir" (Əkbərov, 1977), yazanda düzgün mövqe tutmuş, lakin tədqiqatçı bütün əsər miqyasında bu məsələni "motivləri də" adlandırmaqla yardımçı mətləb kimi səciyyələndirmişdir. Əslinə qalsa, *yüksəliş* problemi faciədə baş ideyadır. Şeyx Sənanın mürşid olması, hətta islamı yaymaq üçün Gürcüstana səfər etməkdə də məqsədi, məşhurlaşmaq mənasında yüksəlmək eşqi idi.

Bir müddət sonra Şeyx Sənan Şeyxlər mühitinin nümayən-

dələri olan Şeyx Hadini "asi", Şeyx Mərvanı isə "səfil, abdal" adlandırır və özü də "şeyxlik"dən çıxmaq təşəbbüslərində ciddi mərhələ keçirir. Buna görə də onun "Şeyx çoban" olması məsələnin tam mahiyyəti deyil. Əsl mətləb Şeyx Sənanın "donuz çobanı" olmasındadır (Cavid, 1968-1971, I cild: 230). Çünki "Şeyx çoban" olmaq, haradasa elə şeyxliyi yaşatmaq deməkdir. Lakin "donuz çobanı" (bunu həm başqaları Şeyx Sənana söyləyir, həm də Şeyx Sənan öz-özünə deyir!) mərhələsi, qəhrəmanı "Şeyxlik"dən ayırır və əsas məqsədə yaxınlaşdırır. Bu prosesin "müəllif"i isə məhz Xumardır.

Deməli, Şeyx Sənanın Zəhraya "sadiq qalmaması"nın səbəbi Zəhranı seçməməkdə deyil. Əsas məsələ ondadır ki, Zəhra Şeyx Sənanı şeyxlər mühitinə bağlayır və ona daha çox yaxınlaşdırır, əksinə, Xumar Sənanı şeyxlər mühitindən ayırır və ondan daha çox uzaqlaşdırır. Bu məqamda H.Zeynallının fikri çox sərrastdır: "Bir zaman Zəhranı mələk ədd edən Sənan daim yüksəlmək istəyir. Bu da insan üçün qayət təbii bir keyfiyyətdir. Lakin fikir yüksəldikcə emosiya da, zövq və hüsn mücəssəməsi də yüksəlməlidir. Zəhra isə *yüksəlməyirdi* (Kursiv bizimdir – K.Ə.") (Zeynallı, 1983: 104). "Lakin nədənsə o (Şeyx Sənan – K.Ə.) Zəhraya tamamilə biganədir" (Osmanlı, 1985: 47) – fıkrindəki "nədənsə" şübhəsi də burada aydınlaşmış olur.

Şeyx Sənan Xumar naminə Gürcüstanda irəli sürülən bütün tələbləri qeyd-şərtsiz qəbul edir ki, bu da onun həmin tələblərin mənasızlığı, puçluğu haqqındakı qənaətinin nəticəsidir. Ən nəhayət, Şeyx Sənan qarşısında iki yol dayanır: ya xurmalıqdan ibarət gözəl bir bağçaya, ya da donuz damına getmək! Qəhrəman ikinci yolu üstün tutur. Maraqlıdır ki, indiyədək monastıra getmək istəyən Xumar da dəyişir:

*Bu uçuq dam Xumar için əlan,*
*Daha qiymətlidir monastırdan*

(Cavid, 1968-1971, I cild: 208).

Burada belə bir həqiqət də meydana çıxır ki, Xumarın monastır istəyi onun papaslar mühitindən narazılığı demək imiş.

Ədəbiyyatşünaslığımızda Şeyx Sənanla Xumar arasındakı münasibət də düzgün şərh edilməmişdir. Tədqiqatçılar, əksərən, onların sevgi və məhəbbətindən danışırlar. Ə.Sultanlının araşdırmalarında "məhəbbətin rəmzi olan Xumar"dan söhbət gedir (Sultanlı, 1982: 100). Y.Qarayev daha obrazlı ifadə ilə yazır: "Quru bir etimad naminə Zəhranın odlu məhəbbətini rədd eləyən Sənan, burada (Gürcüstanda – K.Ə.) Xumarın eşqinin, təmiz və dünyəvi bir hissin naminə iki il donuzlara çobanlıq edir" (Yaşar, 1965: 101). Başqa tədqiqatlarda da vəziyyət eynən bu cürdür: "Əsərdə Şeyx Sənanla gürcü Xumarın arasındakı *böyük məhəbbət* (Kursiv bizimdir – K.Ə.) nəql edilir" (Акперов, "Вышка" qəzeti, 23 oktyabr, 1982). Yaxud: "Sənanı məftun edən Xumarın eşqidir" (Osmanlı, 1985: 219). Hətta başqa bir monoqrafiyada sırf real sevgi macərası təqdim olunur: "Vaxtilə qadından qaçan, dini rəvayətlərə uyaraq qadınları bütün günahların, fəlakətlərin baisi hesab edən Şeyx indi bu tərsa qızının hüsnündə yerin, göyün, həyatın, yaşamağın mənasını görür. Xumarın eşqi Sənanı bir mərtəbə daha yüksəldir, Kamala yetirir. Bir zamanlar "nə qədər məndə varsa hissi-həyat, ehtirasata düşmənəm heyhat" deyən Şeyx indi güclü bir məhəbbətlə, ehtirasla sevir, bu sevgini yapma sitayişdən, din və ibadət ardında gizlənən hiylə və təsvirdən yüksək tutur" (Məmmədov, 1983: 63).

Əsil həqiqətdə isə faciədə Şeyx Sənanla Xumar arasında bu cür həyatı sevgi yoxdur. Ona görə də teatrşünas Ağakişi Kazımov rus dilində tamaşaya qoyulan pyesdə "Rejissor Sənanla Xumarın böyük məhəbbətini ön plana çəkərək əsərdə baş verən bütün hadisələri onlara tabe etdirir" traktovkasmm tənqidində haqlıdır (Kazımov, "Bakı" qəzeti, 12 yanvar, 1984).

Şeyx Sənanı Xumar özü yox, Xumarın qalxa biləcəyi yüksəklik orbiti maraqlandırır. Bax, bu mənada tənqidçi Y.Qara-

yev haqlıdır: "Sənan... real Zəhranı rədd edərək ideal Xumara can atır" (Yaşar, 1965: 107). Ona görə də faciədə Xumar nə qədər ki, yerlə bağlı olur, Şeyx Sənan hələ Xumara yaxınlaşmır. Şeyx Sənanla Xumar yalnız dağ başında - "start meydançası"ndan sonra, yəni "uçuş"da birləşir. Doğrudur ki, bəzən romantik ədəbiyyatda qəhrəmanlar "yerdən fiziki cəhətdən də ayrılmaq istəyirlər" (Сакулин, 1914: 11) və Şeyx Sənan obrazının əhvali-ruhiyyəsi də buna tamamilə uyğundur.

Deməli, Şeyx Sənanın həyat devizini Xumarın gözəlliyi, Xumarı qadın kimi sevmək deyil, məhz Xumarın ilk dəfə göründüyü məkan - yüksəklik idealı şərtləndirir. Bu fikri o da əsaslandırır ki, "romantik bədii əsərin məzmunu belədir ki, hər şeydən yaxşıya və *yüksəyə* (Kursiv bizimdir – K.Ə.) can atılır" (Гаджиев, 1963: 36).

H.Cavidin romantik qəhrəmanları öz hərəkət və davranışlarında romantizm poetikasının əsas prinsiplərini doğruldur və bu mənada spesifik əlamətlərlə qaynayıb-qarışırlar. Həmin əlamətlər bir çox hallarda obrazın özünün simvolik örtüyündə və məzmununda, bir çox hallarda isə obrazların rəmzi detallarla əlaqəsində reallaşır. Bu mənada çox düzgün müşahidədir ki, Azərbaycan realist dramaturgiya nümunələrindən fərqli olaraq, "Cavid faciələrində... bu poetik vasitələr artıq səciyyəvi və üzvi tərkib ünsürlərinə çevrilirlər" (Yaşar, 1965: 96).

İblis, Mələk, Qara geyimli Mələk, Skelet kimi obrazların simvolik xarakteri elə ilk oxunuşdan, ilk baxımdan görünür. Digər tərəfdən rəmzi-romantik ünsürlərə əsas romantik qəhrəmanlar sanki özləri ehtiyac duyurlar. Elə bil Mələk qiyafətli Xumar Şeyx Sənana "buta" verilmişdir. Qara geyimli Mələk Şeydanın son nəfəsində Şeydaya təsəlli bəxş etmək üçün yaranmışdır. Hətta bu Mələk *"Mən oyım ki, bütün ağlar gözlər, yaralı könüllər; bütün iztirablar və həyəcanlar həp mənim sayəmdə rahət bulur, həp mənimlə mütəsəlli olur"* (Cavid, 1958:

302), – deməklə özünü insan kimi təqdim edir. Bununla Şeyda üçün də gərəkli olduğunu sübuta çalışır.

*İblisin isə sehri az imiş kimi öz əmri ilə daha yeni sehr gətirir: "Ağaclar arasından bir taqım skeletlər çıxar, kəfənpuş olduqları halda süzülərək, qıvrılaraq rəqs edərlər"* (Cavid, 1968-1971, II cild: 97).

Knyaz isə:

*Təyyarə verin, bir uçayım mən,*

*Allahı bulub sirr açayım mən* (Cavid, 1968-1971, III cild: 187) – deməklə bir vaxtlar Xumarın Sənanı yüksəlmək çağırışına sanki cavab vermiş olur.

Romantik qəhrəmanı bürüyən bu rəmzi ünsürlər, romantik xəyallar onun zahiri çılğınlığı deyil. Onun "sirr açmaq" üçün yönələn daxili narahatlığının inikas formasıdır. Qəhrəmanların bəzilərində "Nuri-həqq" kimi ifadə olunan bu narahatlıq Topal Teymurda "dünya dəyərinin" dərki, Xəyyamda "Həyat sirrinin qaranlıqlarını" başa düşmək inadında meydana çıxır.

H.Cavid dramaturgiyasında bir növ simvolik məna daşıyan qəhqəhələr, gülüşlər romantik qəhrəmanın xarakter dəyişmələrini göstərən, bəlkə də daha çox təyin edən "indikator"lardan biridir. Çox xarakterikdir ki, romantik qəhrəman öz qəhqəhələri ilə göründüyü vaxt, teatr səhnəsinə yaraşan bir obraz təsiri bağışlayır.

Şeyx Sənan mühüm qəhqəhələrə gəlib çatanacan "yarım qəhqəhə, yarı məhzun, yarı məmnun bir fəryad" mərhələsini keçirməli olur. Zəruri olan bu mərhələ isə romantik qəhrəmanın inkişafındakı psixoloji təbiiliyi təmin edir.

Elə ki, Şeyx Sənan daxilində "Yüksələn məhv olur, fəqət enməz" məsləki yaşayır və "ümum" onu bu məsləkdən "geri çağırmaq" istəyir, məhz bu vaxt Şeyx Sənanın həqiqi istehzalı təbəssümü meydana çıxır:

*Sərsərilər, zavallı şaşqınlar!*
*Gediniz haydı, haydı azğınlar!*

(Cavid, 1968-1971, I cild: 250)

Şeyx Sənan kimi Cəlalın da qəhqəhələri bir az sonra başlayır və Parisdən gəldikdən sonrakı dövrü əhatə edir. "Qəhqəhə" mərhələsi Cəlalın dərketmə mərhələsidir. Müəyyən nöqtələrdə səmimi, sərxoşca, istehzalı, kinayəli olan qəhqəhələr sonra şiddətli və acı gülüşlərə, acı və yaralı qəhqəhələrə çevrilir. Bu çevrilmə romantik qəhrəmanın "həyəcanlı bir fəryad"ını əsaslandırmış olur.

Əslində Afət də belə bir proses keçirir. Onun da incə, şux, çılğınca, şən və şatır qəhqəhələri acı qəhqəhə və təbəssümlərə çevrilir. Həmçinin bu qəhqəhələr məhz qadın xarakteri üçün biçilən qəhqəhələr təsiri bağışlayır.

"İblis" əsəri H.Cavidin bütün başqa əsərlərindən fərqlənərək bir çox səbəblərlə yanaşı İblisin qəhqəhələrinə də borcludur. Bu qəhqəhələr İblisdən qətiyyən ayrılmaq istəmirlər və elə bil İblisin dodaqlarında yaşamaq – İblisi yaşatmaq üçün tələsirlər. İblisi müşayiət edən qəhqəhələr məmnun, çılğın, məğrur, istehzalı, laübalı, qızğın, kinayəli, acı qəhqəhələrdir və bunlar hamısı yalnız öz məqamlarında meydana çıxır. Sonda – İblisin monoloqunda isə bu qəhqəhələr sanki birləşir və yekun aktına çevrilir.

Müəllif də həmin səhnəni İblisin "gah istehzalı və məğrur, gah çılğın və qorxunc qəhqəhələri" ilə təqdim edir.

Knyazın da öz inkişafı ilə yanaşı qəhqəhələri, gülüşləri də inkişaf prosesi keçirir. Köylülərə və işçilərə münasibətdə eşidilən istehzalı qəhqəhə və gülüş, "Dəhşət bizi məğlub edəcək" anında acı gülüşə çevrilir. Hətta bir müddət sonra daşqın və coşqun qəhqəhələr, şən gülüşlər şiddətli bağırtı ilə əvəz olunur. Əsərin axırında isə Knyazın istehzalı təbəssüm və "çılğın qəhqəhələri" "məğrur qəhqəhələr" səviyyəsinə qalxır. Məhz elə İblis və Knyazın taleyini bir xətt üzərində təmsil eləyən də bu məğrur

qəhqəhələr olur.

Bütün bunlar insanın gülüşsüz yaşaya bilməməsi həqiqətinin inikası yox, bəlkə daha çox romantik qəhrəmanı özünəməxsus şəkildə təsvir etmək yolu ilə onun öz simasını göstərmək istəyinin nəticəsidir. Ona görə də bu qəhqəhələr qeyri-ciddi, bayağı qəhqəhələr deyil. Əksinə, Cavidin romantik qəhrəmanları ciddi, qətiyyətli və iradi möhkəmliklərinə görə çox nümunəvi qəhrəmanlardır. Bəlkə elə bunun üçündür ki, dramaturq onları faciə janrının qəhrəmanlarına çevirmişdir. Çünki bu qəhrəmanlar ölümdən qaçmamalı və hətta öz böyüklüklərini bu ölümləri ilə təsdiq etməli idilər.

Romantik qəhrəmanlar düşdükləri vəziyyətlərdən çıxa bilmək yollarını yaxşı bilirlər. Maraqlıdır ki, onlar hər hansı bir insan kimi ölüm haqqında düşünüb "təkcə öldüyüm günü bilmirəm" tezisi ilə də yaşamırlar. Bu ölüm romantik qəhrəman üçün təbii şəkildə gəlir.

Şeyda, Maral, Şeyx Sənan və Afət, Cəlal, Knyaz, Səyavuş və Xəyyam öz ölümləri ilə əsərləri sona çatdırırlar. Lakin bu ölümlərin heç biri digərinə bənzəmir: Şeyda həbsxanada ölür, Maralı Turxan bəy öldürür, Şeyx Sənan "nəhrə" atılır, Afət zəhər içir, Cəlal uçuruma tullanır, Knyaz özünü tapança ilə vurur, Səyavuşu arxadan vururlar, Xəyyam isə "birdən solur".

Bu bənzərsizlik müəllifin qəsdən yaratdığı bənzərsizlik deyil. Daha çox qəhrəmanların daxilindən, hadisələrin inkişaf təbiiliyindən irəli gələn bənzərsizlikdir. Cəlal bir rəssam kimi Gövərçinlə özü arasındakı uçurumu artıq başa düşmüşdür və nəsibi real bir uçurum oldu. Sakit, səssiz ölüm bir şair kimi Xəyyamın öz təbiətindən irəli gəlirdi. Afətə zəhər içirən incə qadın qəlbi olmuşdu. Knyazın tapança ilə özünü öldürməsinin səbəbi yaşadığı keçmişi heç nə ilə dəyişməyib, onu müqəddəs saxlamaq fanatikliyi idi.

Bütün bunlar tragik qəhrəmanın hərəkəti və taleyi, onun

dramatik əsərin süjetində və kompozisiyasında tutduğu mövqeyi barədə aydın təsəvvür yaradır. "Eposun, cəngavərlik və kurtuaz romanlarının qəhrəmanları – pəhləvan, cəngavər, ideal gənc zadəgan – mühitin norma və ideyalarını ifadə edirlər; Bayronun qəhrəmanı (sözün geniş mənasında) onları dağıdır. O, ideyanın ağıllı daşıyıcısı kimi bütün qəbul edilmiş normalara etiraz edir" (Гинзбург, 1979: 21).

H.Cavidin romantik qəhrəmanları bütün fəaliyyətlərində cəmiyyətin normalarına qarşı çıxırlar. Bu qəhrəmanlar hətta ölümləri ilə həmin qanunların əleyhinədirlər.

## 2. ZAMAN VƏ MƏKAN

Zaman və məkan problemi ən başlıcası fəlsəfənin problemidir. Amma o da doğrudur ki, hər hansı fəlsəfi qənaət də, elmi yekun və nəticə də, bədii həqiqət də həyatın, təbiətin və cəmiyyətin qanunlarından doğur. Buna görə də bədii zaman və məkanın ədəbiyyatşünaslıqda öyrənilməsi son illərin ən aktual hadisələrindəndir (Ритм пространство и время в литературе и искусстве, 1974; Типологические исследования, 1975; Лихачев, 1979; Поэтика литературы и фольклора, Воронеж, 1979; Поэтика литературы и фольклора. Воронеж, 1980; Семантика и структура, 1983).

Azərbaycan alimləri də tədqiqat maraqlarına uyğun olaraq zaman və məkan məsələsinə dair bir çox ciddi mülahizələr söyləmişlər. Bu mənada prof. Arif Hacıyevin "Romantizm və realizm" monoqrafiyasını ayrıca qeyd etmək lazımdır. Monoqrafiyada zaman və məkan problemi bədii metod problemi ilə əlaqəli şəkildə öyrənilir. Tədqiqatçının qədim dövr ədəbiyyatının nümunələri və faktları əsasında söylədiyi mülahizələr müasir elmi-nəzəri səviyyəsi ilə seçilir. Prof.A.Hacıyev öz tədqiqatında

zaman və məkanın romantik metodla əlaqəsini müəyyənləşdirərkən, tamamilə düzgün elmi nəticəyə gəlir (Гаджиев, 1972: 74).

Görkəmli ədəbiyyatşünas zaman və məkan problemlərinə toxunarkən ciddi yekun sözü söyləyir, bu tezisləri orta əsr Azərbaycan və dünya klassiklərinin, XVIII əsrin axırı və XIX əsrin əvvəllərində fəaliyyət göstərən romantik sənətkarların əsərləri nümunəsində təhlil edir. Ona görə də çox təbiidir ki, zaman və məkan probleminin XX əsr Azərbaycan romantiklərinin bədii yaradıcılıqlarına əsasən öyrənilməsi də yeni nəticələrə gəlməyi şərtləndirmiş olur.

Ədəbi və elmi fikirdə zaman və məkan bilavasitə bədii əsərin məğzində axtarılır. Tədqiqatçılar üçün hər hansı bir şeirin, poemanın, yaxud nəsr nümunəsinin harada və nə vaxt yazılmasından çox, bu əsərlərdə zaman və məkanın necə inikas etdirilməsi maraqlıdır. Belə bir maraq isə sadəcə olaraq, bədii əsərdə məkan adlarından və ünvanlarından, zaman faktlarından və vahidlərindən danışmaq demək deyildir. Başlıca vəzifə onları araşdırmaq, onların bədii əsərdə nə dərəcədə əhəmiyyət kəsb etməsini, yazıçı ideyası ilə bağlılığını meydana çıxartmaqdır. Həmçinin belə bir tədqiqat istiqaməti XX əsr Azərbaycan romantizminin özünəməxsus cəhətlərini, onun realist yaradıcılıq metodundan fərqlənən xüsusiyyətlərini öyrənməyə də əsas verir.

Burada bizim əsas məqsəd və vəzifəmiz romantik dramaturgiya qəhrəmanlarının zaman və məkan əlaqələrini, onların zaman və məkan daxilindəki hərəkətlərini meydana çıxartmaqdan ibarətdir. Miqyas və məna genişliyi ilə tədqiqata böyük imkanlar açan dramaturgiya materialları ilə yanaşı, müqayisə və ümumiləşdirmə məqsədi ilə yeri gəldikcə nəsrin və lirikanın nümunələrinə də müraciət edələcəkdir.

H.Cavid dramaturgiyası qəhrəmanların bədii zaman və məkanla əlaqəsini öyrənmək baxımından səciyyəvi faktlarla zəngindir. Belə bir araşdırma bir tərəfdən romantik dramaturgiyanın

özünün spesifikasını açmağa, digər tərəfdən də onun teatr-səhnə imkanlarını nəzərdən keçirməyə mühüm zəmin yaradır.

H.Cavidin pyeslərində hadəsələrin baş verdiyi və inkişaf etdiyi imkanlar çox böyük miqyaslı olmaqla bərabər, həm də dəyişkən xarakterdədirlər. Başqa sözlə, "Cavidin Sənanı, Arifi, Əkrəmi, Peyğəmbəri və Azəri dünyanı gəzən, böyük və *mütləq həqiqəti* (Kursiv bizimdir – K.Ə.) axtaran müsafirlərə bənzəyirlər" (Qarayev Y. Əsrin romantiki. "Bakı" qəzeti, 7 iyul, 1984). Yəni romantik sənətkarın məqsədi o deyildir ki, ayrı-ayrı guşələrin, bir çox ölkələrin mədəni mərkəzlərinin mənzərəsini çəksin, yaxud orada yaşayan əhalinin milli tərkibini araşdırsın və yaxud da bir əsər daxilində və ya əsərdən-əsərə onları dəyişməklə coğrafi biliyini nümayiş etdirsin. Böyük sənətkarlar üçün həm şəhər, həm də kənd, həm relyef, həm də təbiət mənzərəsi poetik vasitədir. Əsas məna isə insan-bədii obraz və müxtəlif məkanların bu obrazlarla əlaqəsindədir.

Hüseyn Cavidin dramaturgiyasında nəzər-diqqəti cəlb edən ən qabarıq məkan tipi **şəhərlərdir**: Məkkə, Mədinə, Tiflis ("Şeyx Sənan"), İstanbul, Paris ("Uçurum"), Bağdad ("İblis"), Səmərqənd, Bursa, Anqara ("Topal Teymur"), yenə də Tiflis və Berlin ("Knyaz"), Barjom ("Maral"), yenə də Tiflis və Nişabur ("Xəyyam") və sair. Bütün bu şəhərlər H.Cavidin əsərlərində qarşıya qoyulmuş müəyyən bir fikrin, eləcə də konkret mənada hər hansı bir qəhrəmanın xarakterinin açılışına xidmət edir. Hətta burada başqa bir mühüm cəhət də vardır ki, H.Cavidin poetik vasitələrə arxalanaraq irəli sürdüyü bəşəri ideyaların və fikirlərin müqabilində həmin şəhərləri başqaları ilə dəyişmək o qədər də asan deyildir.

Şəhərlər H.Cavidin diqqətini böyük olduqlarına görə cəlb etmir və əraziyə görə böyük, kiçik məkan Cavid sənəti çərçivəsində bir-birindən o qədər də fərqli məna daşımır. Yəni əsl sənətkarlar öz ideyalarını, qəhrəmanlarının düşüncə və ehtiraslarını

kiçik bir kənd miqyasında da ifadə etməyə qabildirlər. Lakin müəyyən məqamlarda şəhərin coğrafi baxımdan böyüklüyü də gərəkli və lazımlı olur. Belə ki, "Uçurum" pyesində ikinci məkan kimi seçilmiş Paris H.Cavidə öz əhatə dairəsinin genişliyinə görə lazım olmuşdur. Çünki Anjellərin yaşadığı mühit kiçik orbitə sığışa bilməz. Bunun üçün Paris, ya da onun kimi Avropanın iri şəhərlərindən birinə ehtiyac var idi. Yaxud Knyazın özünə sığınacaq tapdığı məkan da böyük olmalıydı ("Knyaz"). Çünki yalnız belə bir məkan həm Knyazı gizlətməyə, həm də onun eyş-işrətini davam etdirməyə şərait yarada bilərdi. "Xəyyam" pyesinin qəhrəmanı Xəyyam da öz düşüncələrini böyük fəaliyyət dairəsində-böyük şəhərdə açmağa müvəffəq olardı.

Parisli Anjel öz həyatını necə keçirir və hansı arzularla yaşayır? Belə bir sualın cavabı onun Cəlalı ələ gətirmək istəyində aydın ifadə olunmuşdu. O, Cəlala hər kəsi mələk sanıb aldadıldığından, hər sevgiyə inandığından, kimlərəsə əyləncə olmaq peşmançılığından danışır. Cəlalın könlünü fəth etdiyni qətiləşdirəndə isə ömrünün yeni sevinc – eyş-işrət payını qazanmış olur:

*Of, şu çılğın öpüşlər,*
*Həyatımı yaldızlar,*
*Sərsəm könül fərəhdən,*
*Həm rəqs edər, həm sızlar* (Cavid, 1968-1971, I cild: 285).

Bu fakt isə öz növbəsində Avropanın böyük şəhərlərində ehtiraslarını həyatları üçün meyara çevirən, vətəndaşlıq simasını itirən, heç nəyin fərqinə varmadan ailələr dağıdan adamların iç üzünü açır.

Bəs Knyazı Berlində nələr gözləyirmiş? Knyaz özü deyir:

*İştə Berlin! Mədəniyyət ocağı,*
*Hər yaşıl səhnəsi cənnət bucağı.*
*Hər tərəf dalğalı, hər mənzərə şən,*
*Fərqi yoxdur gecənin gündüzdən,*

*Hər salondan uçuşur zümzümələr.*
*Qadın-erkək gülüşüb rəqs eylər.*
*Gecə Berlində çalışmaq məncə,*
*Sofuluqdur, var ikən əyləncə*

(Cavid, 1968-1971, III cild: 149).

Böyük şəhər əyləncləri ilə Knyaza daha çox xoş gəlir. Həm Parisin, həm də Berlinin bir şəhər kimi hansı xüsusiyyətləri özündə daşımaları, bədii fakt kimi nəyə xidmət etmələri Cavid qələmində tam mənası ilə aydınlaşır.

*Sənətkar məkandan istifadə edərək, yalnız qəhrəmanların əhvali-ruhiyyəsini açmaqla öz vəzifəsini bitmiş saymır. Həmçinin qəhrəmanlar şəhərlərin simasını, şəhərlərin mövcud vəziyyətini əks etdirirlər. Bunᴜnla əlaqədar olaraq, "Xəyyam" pyesində təqdim edilən Nişaburun bazarını xatırlamaq yerinə düşər: "Bazar... Qarşıda çadırlı və çömləkçi dükanlar vardır. Taxçalarda hər dürlü çömlək və saxsı sürahi qoyulmuş, işçilər bir yanda çadır toxuyurlar, bir yanda çamurdan çömlək, sair saxsı qablar yoğurub yapırlar. Yaşıl dalları ətrafa sarqan, iri püsküllü söyüd (bidi-məcnun) altında şərbətçi, sıra iskəmlər üzərində oturan müştərilərinə şərbət verir. Ortalıqda başqa şeylər də satılır. Xoca, tacir, köylü və sair alış-verişlə məşğuldurlar"* (Cavid, 1968-1971, III cild: 218).

Burada hər kəs öz malını tərifləyir. Kimisi "sərin şərbət", kimisi "gözəl halva", kimisi "qızarmış tazə əkmək, tazə qaymaq" deyir. Bazar əhli müştəri sorağındadır. Bunların müqabilində daha çox diqqəti cəlb edən isə Xəyyamın kitab satmağıdır. Lakin Xəyyam alverçiliklə məşğul olmur, o, İbn Sinanın əsərlərini oxuculara çatdırmaq istəyir və deməli, öz ticarətində belə müdrik görünür:

*İbn Sinayı eşitdinsə, oxu,*
*İştə Şərqin o böyük feyləsufu.*
*Bax,yaratmış nə böyük xariqələr,*
*Bir düha nuri ki, daim parlar.*

(kitabları birər-birər göstərir)
*Bax, bu "Məntiq", bu da "Qanuni-şəfa",*
*Bunların qədrini anlar ürəfa*
(Cavid, 1968-1971, III cild: 221).

Böyük şəhərin böyük insanı: H.Cavid üçün Nişabur və Nişabur bazarı bunu təsdiq etməkdən ötrüdür. Hətta onu da nəzərə alsaq ki, kəndli özü də bu şəhərdə alış-verişlə məşğuldur və onda belə bir mənzərənin kiçik bir kənddə yaradılmasının qeyri-təbiiliyi (daha çox süniliyi) barədəki həqiqətə inanmış olarıq.

H.Cavid dramaturgiyasında bir çox hallarda kənd özü də ayrıca məkan kimi işlənir. "Uçurum" pyesinin dördüncü pərdəsi bunu təsdiq edə bilər: *"Köydə sadə bir qonaq, bağçaya enmək üzrə zərif bir balkon, ətrafda son bahara məxsus çiçəklər və ağaclar... Ta ucda təpəyə çıxmaq üzrə-hər iki tərəfi uçurumlarla mühat girintili-çıxıntılı bir cığır... Bağçadan cığıra kiçik və darcıq bir körpü ilə keçilir"* (Cavid, 1968-1971, I cild: 331). Bu, əsərə daxil edilmiş təsadüfi bir məkan deyildir. Belə ki, bu məkan Parisdən nəinki tamamilə fərqlənir, həm də onun əksini təşkil edir. Təbii ki, Parisdəki "son dərəcə süslü çiçəkli salon"la (Cavid, 1968-1971, I cild: 283) kənddəki bu mənzərə arasında kəskin fərq vardır.

Parisdəki salonda da, burada da əsas yeri çiçəklər tutur və bu zahiri oxşarlığa baxmayaraq, oradakı çiçək bər-bəzəyi eyş-işrət naminədir, kənddəki çiçəklər isə saf həyatın təcəssümüdür. Kənd mənzərəsi saflığı, təmizliyi ifadə edir.

Eyni zamanda, çiçəklərin və ağacların payız əhvali-ruhiyyəsi bu təmizlik içərisində kiminsə taleyinin fəciliyindən xəbər verir. Bu faciəli tale isə, nə qədər acı olsa belə. Gövərçinin qismətidir. Təsadüfi deyil ki, həmin mənzərə arxasından – "görünməz bir guşədən titrək və həzin bir ahənglə" aşağıdakı şərqi eşidilir:

*Gövərçinim, Gövərçin,*
*Ağlaram için-için,*
*Mən bu qara bəxt ilə*
*Neçin doğdum, ah neçin?*

(Cavid, 1968-1971, I cild: 332-333).

Remarkadakı körpü də, cığır da, təpə də kəndin səciyyəvi xüsusiyyətlərini yaşatmaqla bərabər, müəyyən məqamlarda hadisələrin inkişafını müşayiət edir. Belə ki, Gövərçin *"dalğın addımlarla körpüyə doğru*" yaxınlaşır (Cavid, 1968-1971, II cild: 345), Cəlal isə *"təpə başında görünərək ətrafı uçurumlu cığır ilə"* irəliləyir (Cavid, 1968-1971, I cild: 347). Beləliklə, körpü Gövərçinlə Cəlal arasında keçilməz məkan olur.

Adətən, körpülər keçmək, getmək, nəyəsə çatmaq üçündür. Körpünün bu həyati funksiyası əsərdə dəyişilərək, keçilməzli- yin sərhədi kimi görünür. Çünki körpüdən o tərəfdə Cəlal vardır və Gövərçin Cəlalla birləşmək fikrindən tamamilə daşınmışdır:

*Xəyal, boş bir xəyal, sönük bir xəyal!*
*Qırılmış bir könül, sağalmaz, məhal!..*
*Artıq unut, hər şey məhv olub getdi,*
*Əvət, Cəlal! Get! Bitdi... hər şey bitdi*

(Cavid, 1968-1971, I cild: 348).

Cəlal isə uçurumun qurbanı olur.

Əsərin fəci məqamı daha çox faciəviliyi ilə görünən Parisin deyil, məhz kəndin üzərinə düşür. Fəci təbiətdən uzaq olan məkanda faciə törəyir və bununla da sənətkarın təlqin etmək istədiyi fikrin gücü xeyli dərəcədə artmış olur.

*H.Cavidin "Səyavuş" faciəsinin bir səhnəsində də kənd məkan kimi seçilmişdir: "Yaxından bir köy, uzaqda Bəlx qələsi görünür, səhnədə İran köylüləri daş, çamır daşıyaraq yeni qələ yapmaqla məşğuldur... İki zəbtiyyə məmuru ağır yürüyən işçiləri qırmacla vurub sürətli hərəkətə məcbur edər. İki bənna divar üstündə türkü söyləyərək çalışır"*(H.Cavid. Seçilmiş əsərləri.

Bakı, Azərnəşr, 1958, s.411). *Burada kəndlilərin həyat şəraiti əks etdirilmiş, onların ağır, dözülməz günləri təsvir olunmuşdur.*

Əsərdə ikinci məmurun İxtiyara söylədiyi aşağıdakı sözlər də remarkadakı fikri bir daha təsdiq edir:

*Başqa laf istəməm, sus,*
*Əmr eləmiş Keykavus.*
*Bu qələ hər nə olsa,*
*Bitməlidir bir aya.*

Bu kənddə də Gövərçinin taleyi kimi bədbəxt talelər diqqət mərkəzindədir.

H.Cavid dramaturgiyasında obrazların qarşılaşmasını, toqquşmasını məkanlarla bərabər, bir çox hallarda onların ayrı-ayrılıqda yaşadıqları zamanlar da təyin edir. Bir növ müxtəlif zamanlar xarakterlərin yaranmasında əsas və səciyyəvi rol oynayır. Bu mənada "Uçurum" və "Afət" əsərləri çox xarakterikdir.

"Uçurum"da Anjelin və Gövərçinin yaşadıqları zamanlar eyni müddəti əhatə etsə də, Anjelin Parisdə Cəlalla keçirdiyi zaman Gövərçinin İstanbulda Cəlalsız keçirdiyi zamandan fərqlənir. Elə ilk növbədə bu fərq Cəlal və Cəlalsızlıqla təyin olunur.

Digər tərəfdən Cəlalın Anjellə olan əyləncələri Gövərçin üçün yoxdur və yaxud Gövərçinin bu müddətdə keçirdiyi hiss və duyğular Cəlal üçün məlum deyil, hətta Anjel üçün də mövcud deyil, çünki o, Gövərçini tanımır.

Əsərdə Gövərçinlə Anjelin birlikdə yaşadıqları anın verilməsinə ehtiyac duyulmur. Yalnız bircə yerdə Gövərçin uzaqlaşıb gedən Anjeli kinayə ilə "Fransa ərməğanı" adlandırır. Dramaturq üçün onların qarşılaşma dialoqunu verməmək, onları bir zaman daxilində əks etdirməmək hadisələrin inkişafında o qədər də əhəmiyyət daşımır. Çünki bu qarşılaşma funksiyasını elə onların bir-birindən ayrı yaşadıqları zamanın özü ifadə edir. Artıq Cəlal üçün Anjellə yaşadığı dövr tanrısını unutduğu dövr – *"Yetər*

*unutdurdun mənə tanrımı”* – (Cavid, 1968-1971, I cild: 343) səciyyəsini daşıyır, üstəlik Göverçinlə yaşamadığı dövr – Göverçinin unutduğu dövr isə Cəlala görə, Göverçinin qəlbində “yeni bir eşqin” çırpındığı dövrdür. Cəlal hər iki zamandan imtina edir. Artıq zaman yoxsa, ölüm məqamı gəlir. Əsərdə bu məqam uçurum vasitəsi ilə təmin olunur.

“Afət” pyesində isə Afətin unudulduğu vaxt Doktor Qaratayın “Altunsaça uyduğu” və “Altunsaçı buldu”ğu vaxtdır. Afət üçün bütün bu müddətdə öz əlləri ilə ərini məhv edərək dəhşətli dərəcədə aldanıldığını duymuş və dərk etmişdir. Onun Doktoru öldürməsinə də məhz elə Doktorsuz keçirdiyi bu vaxt, bu zaman səbəb olmuşdur.

H.Cavid dramlarında daha çox diqqəti cəlb edən və səciyyəvi olan məkan tipləri sırasına **oda və saraylar** da daxildir. Aydın məsələdir ki, dramaturji əsərlər üçün otaq şəraiti mühüm amillərdən biridir. Otaq, yaxud ev birinci növbədə teatr səhnəsinin nəzərə alınması ilə əlaqədardır. Eyni zamanda, məkan kimi verilən saray və oda obrazların əhvali-ruhiyyələrini, xarakterlərini açmaq üçün mühüm vasitədir. “Şeyx Sənan” faciəsində “Şeyx Kəbirin evində ülämaya məxsus bir qəbul odası” (Cavid, 1968-1971, I cild: 134), “Mədinədə həsir ilə döşənmiş bir oda...” (Cavid, 1968-1971, I cild: 219). “Afət” pyesində *“Son dərəcə zərafət və nəfasətlə süslənmiş bir oda...”* (Cavid, 1968-1971, I cild: 139), “Xəyyam” pyesində *“Tələbələrə məxsus bir oda”* (Cavid, 1968-1971, III cild: 1999), *“Xəyyamın iş odası”* (Cavid, 1968-1971, III cild: 255), “Şeyda” faciəsində “Mətbəəyə məxsus böyük bir müdiriyyət odası” (Cavid, 1968-1971, III cild: 269), *“Üst qatda həbsxanaya məxsus böyücü bir oda”* (Cavid, 1968-1971, III cild: 300) diqqəti cəlb edir. İlk təqdimatdan da bu odaların necəliyi barədə oxucuda tamamilə aydın təsəvvür yaranır. Üləma, tələbə, mətbəə və həbsxanaya məxsusluq öz işarə və nişanələri ilə görünür və onların bir-birindən fərqlənmələri

tamamilə təbiidir.

Tələbələrə məxsus olan "taxçalarda kitablar, üstürlab və sair həndəsi fiqurlar" görünür. Bu məkan təhsil alan adamlar üçündür. Lakin dramaturq həmin yerdə məkanın funksiyası ilə bağlı hadisələri təsvir etmir. Oxucu mübahisələr, elmi söhbətlər gözlədiyi halda şərabla qarşılaşır. Xəyyam həmpiyalələri olan Rəmzi və Xərabəti ilə bərabər şərab içir. Beləliklə, kəskin təzad yaradılır.

Yaxud "Afət" pyesində də belə bir təzadı görmək çətin deyildir. Oxucu ilk baxışda elə zənn edir ki, gözəl və zərifliklə bəzədilmiş odada xoş əhvali-ruhiyyənin şahidi olacaqdır. Lakin orada gözlənilməz əhvalatlar meydana çıxır: Alagöz kim olduğunu anlayır; Afət Özdəmirin intiqamını alır və Qaratayı öldürür, Zərifliklə bəzədilmiş otağa qan və ölüm hökm kəsilir.

Romantik lirikada da oda məkan kimi tez-tez işlədilir. M.Hadinin "Şair, hücreyi-iştiğali və düşüncələri" şeirində şairin odası təsvir olunur və bu soyuq odanın içərisi belədir:

*O guşədə qonulan çarpayədir yatağı,*
*Deyil də nəfsinə aid, kirayədir otağı.*
*Asılmış əlbisəsi bir tərəfdə divarə,*
*Şu əsgilər yaxışır boylə əski divarə,*
*O yanda bir çamadan keçmişin nəzirəsidir,*
*Zavallının bu oda hücreyi-fəqirəsidir* (Hadi, 1978: 212).

Məkanın bu təsviri bir tərəfdən "romantik, xəyalpərvər", "zavallı" bir şairin acı taleyi haqqında (Mirəhmədov, 1962: 100) tam təsəvvür yaradır, digər tərəfdən də bu kirayə otaq, sözsüz, zindana bənzəyir və zindandan qətiyyən geri qalmaz.

H.Cavidin "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" şeirində (Cavid, 1968-1971, I cild: 109-110) xüsusi nəzərə çarpdırılan, sərlövhəyə çıxarılan "zindan" yenə də səciyyəvi bir məkan kimi götürülmüşdür. Şair bu zindanın içərisini təsvir etmir və əsas məqsəd də bu deyildir. Çünki romantik sənətkarın

oxucuya çatdırmaq istədiyi ağrı və acı zindan guşəsində qalan və son fəryadını təsəlliyə çevirən qızın öz taleyi haqqındakı narazılığında ifadə olunmuşdur. Onun söylədiyi: "Mənimlə doğmuş imiş sanki iztirabü kədər..." misrası qəhrəmanın tərcümeyi-halının aydın mənzərəsini ifadə edə bilir.

H.Cavidin "Şeyda" əsərində də bir çox hadisələr məkanca zindanın eyni olan "həbsxana"da cərəyan edir. Bu səhnə baş qəhrəman Şeydanın düşdüyü vəziyyəti aydın göstərir. Belə ki, son pərdədə Rauf və Məsudun həbsxananın bir tərəfində, Şeydanın isə digər tərəfində olmasını dramaturq xüsusi şəkildə nəzərə çarpdırır. Hətta Raufla Şeyda arasındakı kiçik bir dialoq da xarakterikdir:

"Rauf (gözlərini ovuşdurub yerindən qalxır. Şeydanı bu halda görüncə təlaş və məharətlə). *Aman, nə yapırsan!?*

***Şeyda** (mültəfit olmayaraq). Uf... bu behişti mənzərə nə qədər lətif və nə qədər ülvi... (Dönüb Raufu yanında görüncə) Ah, onlar nə oldu ? Onlar nərəyə getdi?*

**Rauf** (heyrətlə). *Kimi arayırsan?*

***Şeyda** (səbirsizliklə). Allah eşqinə onlar nə oldu?*

*Rauf kimi sorursan?*

***Şeyda** (sinirli). Roza... Ah, mərhəmətsiz mələk.*

***Rauf** (Şeydanın açmış olduğu pəncərəni qapayaraq). Heç bu olur şeymi?! Sən nəhayət özünü xarab edəcəksən"* (Cavid, 1958: 303)

Bu dialoqda dramaturq, Şeydanın Raufun sözlərinə mültəfit olmamasını, əhəmiyyət verməməsini göstərməklə, baş qəhrəmanın əzablarını, çıxılmaz vəziyyətə düşməsini, təkliyini nəzərə çarpdırır.

Bəzən isə M.Hadi şeirində "zindan" və "qəfəs" bir beyt daxilində işlənir, daha qüvvətli bədii fikir yaradır:

*Siz etdiniz bizlərə dünyanı zindan,*
*Yıxılsın xanəniz, ey kəmşüuran* (Hadi, 1978: 9), – demək və

bütöv dünyanı zindan kimi görmək özü də M.Hadi şeirinin romantik vüsətindən, sənətkarın daxili narazılığından irəli gəlirdi.

H.Cavid dramlarında odalarla yanaşı saray salonları da əsərin hadisələrinə müvafiq şəkildə təsvir edilir. Bu baxımdan "Topal Teymur" əsərini xatırlamaq yerinə düşər. Birinci pərdənin məkanı belədir: *"Səmərqənddə, Əmir Teymur sarayında Şərq zövqünə uyğun süslü bir salon... Salonun içi Türküstan, İran və Hindistan məfruşatilə döşədilmiş... Dörd guşədə gümüşdən yapılmış birər qartal, ortada altun sütunlar, yıldızlı masalar və sandaliyələr"* (Cavid, 1968-1971, III cild: 8). Salon güclü və tükənməz varidatdan xəbər verir, hiss edirsən ki, Topal Teymurun əmrlər verdiyi məkan bu əmrlərin əks-sədasını daha da qüvvətləndirir və gurlaşdırır.

Burada diqqəti cəlb edən digər ciddi məsələ Türküstan, İran və Hindistan mallarıdır. Bunlar Topal Teymur sarayında təsadüfi səciyyə daşımır. Belə ki, Yıldırım Bəyazidin sarayındakı Cücə masqara oyunlarının birində Topal Teymuru yamsılayaraq deyir: *"Mən haqq və ədalət nümayəndəsiyəm. Əgər bir məmləkətdə zülm və istibdad güclənirsə, kənardan baxıb dururam. Xəlqin əmniyyəti üçün zülmün kökünü qazmaq və o məmləkəti usandırmaq istərəm. İştə buna görədir ki, Xorasana girdim, bütün İranı devirdim. Moskva tərəflərini sardım, Hindistana vardım. Əvət mənim böyük Teymurum... Mənim sarsılmaz imperatorum*!" (Cavid, 1968-1971, III cild: 45).

Aydın olur ki, Teymur sarayındakı döşənəcək hökmdarın özünə tabe elədiyi ölkələrin məhsuludur. Bu isə Teymur üçün hər gün baxıb öz qələbələrindən həzz almağın mənbəyidir.

*"Topal Teymur" pyesinin başqa bir səciyyəvi cəhəti ondadır ki, baş qəhrəmanın özü üçün təmin etdiyi hər bir məkan təmtəraqlılığı və ziynəti ilə seçilir: o, qələbələrinin fəxarətini heç vaxt gözündən kənara qoymur. İkinci pərdədə təsvir olunan köşk də bunu təsdiq edə bilər: "Gözəl bir köşk... Ortada fəvvarəli bir*

*hovuz, hovuz kənarında Kəşmir və İsfahan səccadələrilə ipək döşəklər, qədifə (məxmər) yastıqlar və balışlar, masa və sandalyalar... Bağça başdan-başa dürlü çiçəklərlə bəzənmiş, ta uzaqlardan sıra ilə ulu çinar ağacları nəzərləri oxşar. Kənardan edilən həzin bir kamança səsi ruhlara nəşə sərpər. Bir tərəfdə şərabla dolu sürahi və bir qədəh, soyulmuş və soyulmamış alma və şaftalı, digər tərəfdə qələm, dəvat, bir taqım dəftər və kitablar bulunur"* (Cavid, 1968-1971, III cild: 28). Bu məkan da öz miqyası ilə Topal Teymurun xarakterinə tamamilə uyğundur.

H.Cavid orta əsrlərə aid tarixi bir həqiqəti bütün əsrlərin, hətta Xətai, Fətəli xan əsrlərinin üzərindən keçirərək qələmə aldığı "Topal Teymur" əsəri də bədii zaman baxımından xarakterik və səciyyəvidir. Dramaturq pyesdə hadisələrin inkişafının hansı zamanda baş verməsini oxuculara müxtəlif vasitələrlə çatdırır. Asanca məlum olur ki, III və IV pərdələrdə Yıldırım Bəyazidin sarayında baş verən əhvalatlar arasında müəyyən vaxt məsafəsi vardır. Belə ki, əvvəlki pərdədə *"Bir guşədə çini saxsıda... hənuz açılmamış hərdəmbahar (həmişəbahar) gülü gözə çarpır"* (Cavid, 1968-1971, III cild: 38), sonrakı pərdədə isə artıq *"Salona qoyulmuş saxsıdakı fidanın dal budaqları əvvəlkinə görə daha böyümüş və tam mənasilə açılmış güllər"* (Cavid, 1968-1971, III cild: 54) vardır. Deməli, saxsıdakı gülün müxtəlif vəziyyəti, müxtəlif zamanların mövcudluğunu təsdiq etmiş olur.

Bu pərdədəki fərqli zaman, fərqli hadisə və məsələlərin də bazisi olur. "Açılmayan gül" zamanı Yıldırım Bəyazidin sakit, öz sarayında əyləndiyi, Cücənin məzhəkələrindən ləzzət aldığı bir dövrdür. Bu dövr intervalının yalnız sonunda Orxan və Olqa saraya daxil olurlar. "Açılan gül" zamanında isə saraya qəbul olunmuş Orxan və Olqa öz saraydaxili kəşfiyyatlarını davam etdirirlər, bir növ Yıldırım Bəyazidin məğlubiyyətini hazırlayırlar. Bu mənada Orxan və Olqanın üçüncü pərdənin sonundakı kiçik söhbəti çox xarakterikdir:

"Olqa (saxsıda gördüyü yaşıl fıdancığazı göstərir).

*–Ah, nə xoş, nə təravətli gül fidanı.*

***Orxan.*** *İştə həmişəbahar gülü, bax hənuz yeni-yeni qönçə verməyə başlayır.*

***Olqa.*** *Əvət, pək gözəl...*

***Orxan.*** *Bir gün gələr ki, şu yeni qönçələr açar, bizim arzularımız da onunla bərabər çiçəklənməyə başlar"* (Cavid, 1968-1971, III cild: 54).

Bu kiçik dialoq remarkalarda ifadə olunmuş zamanın kimin xeyrinə davam etdiyini aydınlaşdırmış olur. Aşkarlanır ki, Topal Teymur Səmərqənddə olsa belə, Bursada fəaliyyət göstərən Olqa və Orxanla birlikdə qələbə zamanını yaşayır.

Lakin burada da fəcilik vardır. Ona görə də dramaturq Teymur və Yıldırımı bir zaman daxilində görüşdürür. Bu görüş "fürsət bəkləyən qonşu hökumətlərin məmnunluğu" haqqında qənaəti aşkara çıxarır və mənasız vuruşlar barədə H.Cavid təəssüfünü təsdiq edir.

"Səyavuş" əsərində təsvir edilən saraylar da obrazların xarakterləri ilə bağlıdır. Bu mənada *"Keykavusun sarayında son dərəcə parlaq bir salon"* (Cavid, 1958: 390), *"Əfrasiyab sarayında türk zövqünə uyğun bir salon"* (Cavid, 1958: 446) cümlələri çox mətləbləri ifadə edir. Salonun parlaqlığı, yaxud türk zövqünə uyarlığı-bunların Topal Teymur sarayından geri qalmadığını göstərir.

Sarayların bər-bəzəyi bir-birinə oxşasa da, onlarda baş verən hadisələr, əhvalatlar təbii ki, fərqlidir. Hətta adamların xarakterində də ciddi dəyişmələr özünü göstərir. Belə ki, Teymur sarayında vuruşlar, müharibələr üçün planlar cızılır, tədbirlər tökülür. Ümumiyyətlə götürdükdə isə həmin sarayda aparıcı fərd kimi baş qəhrəman Teymur özü diqqət mərkəzində dayanır. Keykavus sarayında isə məsələ bir az başqa cürdür. Burada saray əhlini Keykavusdan çox Südabə məşğul edir.

“Səyavuş” faciəsinin bir çox yerində göstərilir ki, *“Gənc, əsmər, cazibəli, möhtəris baxışlı Südabə kölələr ümuzuna yüklənmiş təxti-rəvan üzərində iki cariyə ilə bərabər gəlir”* (Cavid, 1958:390). Bu fakt təsdiq edir ki, Südabə sarayda hamıdan üstündür. Südabənin mənəmliyi və məğrurluğu onun Səyavuşa qarşı istiqamətlənən təqiblərini də təbii axara salır.

Başqa bir yerdə deyilir: *“Keykavus sarayında başqa bir salon... Südabə taxt üzərində yaslanmış, cariyələr ətrafını sarmış”* (Cavid, 1958: 429). Burada da Südabənin mənəmliyi bir daha təsdiq olunur. Südabə bu yerdə deyir:

*Səyavuşun o dik, o məğrur başı,*
*Əyilməz olursa sevgiyə qarşı,*
*Onu al qanlarda görmək istərim,*
*Saçlarından çələng hörmək istərim* (Cavid, 1958: 430).

“Xəyyam” pyesində isə yalnız bircə dəfə, o da ikinci pərdənin əvvəllərində xüsusi şəkildə xatırlanmış zaman faktı nəzərə çarpır.

Dostları Rəmzi və Xəratəbi Xəyyamı soraqlaşdıqları vaxt Çadırçı *“Altı aydır ki, görən yoxdur onu”* (Cavid, 1968-1971, III cild: 111) məlumatını verir. Lakin bu təsadüfi xatırlanma deyildir. Belə ki, həmin dövrdən əvvəlki Xəyyamla sonrakı Xəyyam ciddi fərqlərlə görünür. Əslində də müəllif üçün tələbə Xəyyam deyil, məhz filosof, şair-müətəfəkkir Xəyyam lazım olmuşdur.

İlk pərdədə də Xəyyam öz fikir və mülahizələri ilə ağıllı insan kimi görünürdü. H.Cavidə isə yalnız mülahizələrində-rübailərində deyil, həm də fəaliyyətində müdrik olan Xəyyam lazım idi. (Çünki ağıllı görünmək hələ ağıllı olmaq demək deyildir). Ona görə də sonrakı pərdələrdə qəhrəman ardıcıl olaraq, dostlarının həyatına, sevgi aləminə, saray mühitinə müdaxilə edir və bu həqiqəti ölümünədək təsdiqləmiş olur. “Xəyyam” pyesində göstərilən həmin altı ay, sadəcə olaraq yalnız 180 gün demək deyildir, həmin zaman rəmzlənmiş məna daşıyıb, Xəyyamın fəa-

liyyət təkanının mənbə tarixidir.

H.Cavid dramlarında **açıq səma altında götürülən məkan,** heç də əvvəlki məkanlardan az yer tutmur. Sənətkar öz qəhrəmanlarını yalnız oda və saraylarda hərəkət etdirmir. Onun yaratdığı obrazlar açıq təbiət qucağında da bir-biri ilə danışır, mübahisə aparırlar. H.Cavid hələ ilk pyesi olan "Ana"nı yazdığı zaman məhz belə bir məkan seçmişdir: *"Səhnə Dağıstanda otlu, ağaclı kiçik bir bağça ərz edir. Bağçanın ucunda sadə və fəqira- nə bir evciyəz görünür. Uzaqda lətif, rəngarəng bulutlar, yüksək və mavi dağlar nəzərə çarpır"* (Cavid, 1958: 61). Demək olar ki, pyesdəki bütün hadisələr bu məkanda cərəyan edir. Burada Səlmanın da, ismətin də, Orxanın da xarakteri açılır. Müəllifin əsas ideyası məhz bu məkan vasitəsilə oxuculara çatdırılır.

Remarkada "fəqiranə bir evciyəz" sözləri təsadüfən işlənməmişdir. Bu epitet həmin evin ilk anda kasıblığından, evdə yaşayanların ağır güzəranından xəbər verir. Digər tərəfdən bu evin başqa bir funksiyası da vardır. Belə ki, Murad öz qatilliyini gizlətmək üçün Səlmadan imdad istəyəndə, Səlma həmin "fəqiranə evciyəzi"n qapısını onun üzünə açır:

*Haydı gir, çabuq bir tərəfdə saxlan,*
*Allah böyükdür, bir şey olmaz, inan* (Cavid, 1958: 90).

Sonra yenə davam edir:

*Haydı gir içəri, gizlən bir yanda,*
*Təlaş etmə, kəndini bil Amanda* (Cavid, 1958: 90).

Elə bütün məsələlərin mərkəzində də o dayanır ki, bu ev Murad tərəfindən öldürülmüş Qanpoladın evidir. Bu ev əsərin sonunda bir məkan kimi Qanpoladın qatili Murad üçün sığınacaqdır. Beləliklə, əsərdə yalnız obrazların faciəsi göstərilmir, məkanın-evin özünə də fəcilik xarakteri verilir.

*"Şeyx Sənan" faciəsində də məkanın inkişafı evdən, odadan açıq həyata doğrudur. Əgər ilk səhnələrdə bütün əhvalatlar ev şəraitində davam edirdisə, sonralar təbiətin məkan kimi seçilməsi*

*qüvvətli şəkil alır: "Qafqaziyada, imdiki Tiflis civarında kiçik bir dağ ətəyində mənzərəli bir yer... Bir tərəfdə Kür nəhri, digər tərəfdə dağa doğru ucu görünməz əyri bir cığır nəzərləri oxşar. Qarışda iki-üç çadır görünür. Müridlərdən bir qaç kişi çadırlardan çıxaraq əllərində dəsti Kürdən su gətirir"* (Cavid, 1968-1971, I cild: 172).

Hadisələri beləcə təbiət qoynuna çıxarmağın səbəbi nədir? Məgər qarşıya qoyulan fikri ev şəraitində də həll etmək olmazdımı? Əlbəttə, bu sualların mahiyyəti həmin məkanda baş verən hadisələrlə açıla bilər. Belə ki, bu səhnədəki mətləb yalnız Şeyx Sənan və Şeyx Sədranın məhz həmin məkanda gəzişmələrində, bülbüllərin səsinə qulaq asmalarında, hətta bir-biri ilə söhbətlərində də deyildir, çünki onlar çoxdan bir yerdə yaşayırlar və digər tərəfdən də Şeyx Sənanın, sözün bütün mənalarında, Şeyx Sədraya elə bir ehtiyacı yoxdur. Məsələnin mahiyyəti onda açılır ki, *"ağ geyimli, nurani bir dərviş yol kənarında görünür"* (Cavid, 1968-1971, I cild: 175). Dərvişin əsərə daxil olması məhz təbiət məkanının seçilməsində təbii alına bilərdi. Bu mənada Cavid məkan seçkisində çox dəqiq mövqe tutmuşdur.

Dərviş obrazının isə əsərə daxil edilməsi zəruri və vacib idi. Bunun üçün Dərvişin Şeyx Sənana söylədiyi aşağıdakı sözləri xatırlayaq:

*Nədir yalnızlıq? Anlarsan düşünsən,*
*Bu rəmzi get də sor, Allahdan öyrən.*
*Əgər fövqəlbəşər olmaq dilərsən,*
*Kənar ol daima cinsi-bəşərdən*

(Cavid, 1968-1971, I cild: 177).

Bu fikirlər Şeyx Sənan üçün nəinki maraqlı, həm də məqsəddir. Məhz bu sözlərdən sonra Şeyx Sənan öz idealında-yüksəkliyə qalxmaq arzusunda daha böyük mətinlik və cəsarət nümayiş etdirir.

*"Şeyx Sənan" faciəsinin dördüncü pərdəsinin ikinci səhnəsinə məxsus məkan da maraqlıdır: "Qürub zamanı bir tərəfdə*

*Kür nəhri, bəridə Kür boyunca yalçın bir qaya... Kənarda, çayın da ötəsində bir ormancıq... Görünməz tərəfindən qayanın təpəsinə yol varsa da, səhnə tərəfi fəqət bir uçurumdan ibarətdir"* (Cavid, 1968-1971, I cild: 246).

Bu məkanın qaya və uçurum hissələri çoxmənalıdır. Hadislərin inkişafı sübut edir ki, bunlar məhz evə sığışmayan məkan tələbindən doğmuşdur. Beləliklə, əsərdə dağ döşü, qaya təpəsi xarakterik məna və məzmun daşıyır. Şeyx Sənanın yüksəlişini isə yalnız onlar təmin edə bilərdi.

"Şeyx Sənan" faciəsində cığır və yol xüsusi estetik funksiya daşıyır. Bir yerdə *"böyük bir yol"* (Cavid, 1968-1971, I cild: 155) görünür, digər yerdə *"əyri bir cığır nəzərləri oxşayır"* (Cavid, 1968-1971, I cild: 172), üçüncü məqamda balkon *"yol üzərində"* yerləşir (Cavid, 1968-1971, I cild: 183), dördüncü məkanda *"görünməz tərəfdən qayanın təpəsinə yol vardı"* (Cavid, 1968-1971, I cild: 246). Yol və cığırın tez-tez təqdim olunması Şeyx Sənan obrazının hərəkətini əsaslandırır. "Böyük bir yol" böyük bir səfərdən xəbər verir. Beləliklə, Şeyx Sənan böyük bir yola çıxır: Mədinədən Məkkəyə, Məkkədən Tiflisə qədər uzanan məsafə qət edilir. Lakin iş bununla qurtarmır. Yol qayanın təpəsinə qədər uzanır. Şeyx Sənan isə öz mövqeyini yalnız burada təsdiq etməyə imkan tapır.

Eyni ilə "Uçurum" əsərində də cığır və təpə xüsusi rol oynayır: *"Ta ucda təpəyə çıxmaq üzrə hər iki tərəfi uçurumlarla mühat girintili, çıxıntılı bir cığır"* (Cavid, 1968-1971, I cild: 331). Burada da cığır Cəlal obrazının faciəsinə doğru gedən yolu əks etdirir.

Yaxud "Knyaz" faciəsinin ikinci pərdəsində *"Yüksəklərə doğru qumlu cığırlar gözləri oxşar"* (Cavid, 1968-1971, III cild: 107). Bu artıq Knyazın harayasa gedəcəyinə, nə məqsədlə öz mövcud məkanını dəyişəcəyinə işarədir. Beləcə də olur: Knyaz Tiflisi tərk edərək, Berlinə gəlir, orada isə ölüm qazanır.

Təsdiq olunur ki, Cavid dramlarında göstərilən yol, cığır təsadüfi səciyyə daşımır. Bu detallar obrazların səciyyəvi keyfiyyətlərini, psixoloji dünyalarını açır, nəyinsə baş verəcəyinə işarə edir. Amma çox xarakterikdir ki, yol və cığır qəhrəmanların həyatlarının sonu ilə əvvəli arasında sədd yaratmır, əksinə, mütənasibliyin vasitəsinə çevrilir.

*H.Cavidin "Maral" pyesində də açıq səma altında məkan verilir: səhnə "Barjomda səhər vaxtı, pək kənarda açıq və mənzərəli bir guşə ərz edər, tək-tük sərv ağacları və iki-üç dənə bıçqı ilə kəsilmiş ağac kötüyü görünür. Cəmil bəy əlində bir kitab olduğu halda, Bəypoladla bərabər, ağır addımlarla yüyürərək gəlirlər"* (Cavid, 1958: 121). *Bu da təsadüfi seçilməyib. Çünki Cəmil bəy özünün aşağıdakı istəyini yalnız belə bir mühitdə deyə bilərdi: "Humay, Humay! Ah, o gözəl xilqəti düşündükcə bütün ruhum, bütün vücudum sarsılıyor. Yaşadığım mühitdəcə yalnız onun gül üzünü görmək, onun lətif səsini eşitmək istərəm. Əvət, o mənim... Yalnız mənim olacaq"* (Cavid, 1958: 124).

Bəzən də bu tipli məkanlar birbaşa əsərdə qələmə alınan mövzunun özündən doğur. Məsələn, vuruşlardan bəhs edən, hakimiyyət çəkişmələrini göstərən "Topal Teymur" və "Səyavuş" əsərlərində toqquşmalara uyğun məkanların olacağı təbii şəkildə gözlənilir. Əlbəttə, bu, sənətkar üçün hökm deyildir. Yəni müəllif üçün elə bir məhdudiyyət olmadığı kimi, müəyyən bir proqram da vermək çətindir. Lakin hər iki əsərdə verilmiş bəzi məkanlar H.Cavidin dramaturqluq keyfiyyətlərinə xələl gətirməmiş, əksinə, onları daha da artırmış və zənginləşdirmişdir.

*"Anqara ovası, Teymur çadırı... Gündüz. Çadırın önündə qalın gövdəli, gürbüz, yaylı-oxlu iki nəfər növbət bəkliyərək qonuşurlar"* (Cavid, 1968-1971, III cild: 64). Və yaxud: *"Zabilistanda təlim meydanı. Səhər erkən. Coşqun musiqi. Sadə qiyafəli, qumral saçlı Səyavuş bir köy dəliqanlısı ilə qılınc təlimi yaparaq vuruşur"*(Cavid, 1958: 387). Hər iki səhnə gələcək

mübarizələrin proloqu kimi səslənir. Ancaq bunlar bir-birindən fərqlənən proloqlardır. “Topal Teymur” əsərində növbə gözləyən əsgərlərdən biri hökmdara işarə ilə deyir: “Əvət, nə demək! Ölüb-öldürən biz, gülüb-əylənən onlar! Çarpışıb-vuruşan biz, ad-san qazanan onlar! Ac-çılpaq qalan biz, zövqü-səfaya dalan yenə onlar!” (Cavid, 1968-1971, III cild: 66). Beləliklə, Teymur çadırını mühafizə edən növbətçi aparılan mübarizələrin nahaq, yersiz olduğunu açıb göstərir və bu sözlər sadəcə olaraq onun narazılığı deyildir. İkinci növbətçi həmin sözlərlə razılaşmırsa da, ümumilikdə bu fikir yüzlərlə, minlərlə adamın arzularını ifadə edir.

“Səyavuş əsərindəki təlim meydanında baş verən hadisələr isə tamamilə başqa istiqamət alır. Burada Səyavuş öz qəhrəmanlığını göstərir və yenilməzliyini sübut edir. Bu vaxt Qadın ona üz tutaraq deyir:

*Quzum! Er-gec parlar adın cahanda,*
*Diz çökərlər sana qarşı hər yanda.*
*Zalimlə məzlumu, saqın bir tutma,*
*Yediyin əkməyi, duzu unutma!*
*Hər ölkəyə varsan, bizi anarsan,*
*Nasırlı əllərə acır, yanarsan.*
*Şən saraylar məğrur etməsin səni,*
*Düşün daim yoxsulların dərdini.*
*Uyma evlər yıxan kinli şahlara,*
*Acı köküsləri yaxan ahlara!*
*Biz səni bəslədik, çalış adil ol!*
*Haydı yavrum, şanlı yol, uğurlu yol!* (Cavid, 1958: 389)

Səyavuş axıradək bu etimadı doğruldur. Saraylar dəyişsə də, onun yoxsullar arxasında dayanmaq idealı, məsləki dəyişməz qalır.

H.Cavid dramlarında diqqəti xüsusi ilə cəlb dən başqa məkan tipi ağaclar arasıdır. Ümumiyyətlə, dünya romantizmində

ağaclar toplusu, meşə məkan kimi tez-tez işlədilir. Rus romantizmində meşədən həm qaragüruhçu qüvvələrdən gizlənmək üçün, həm də “pis işləri müşahidənin mənbəyi” (Манн, 1977: 61) kimi istifadə olunur. Ağaclar arası məkan kimi H.Cavid yaradıcılığında həm yaxşı, həm də pis işlərin mənbəyi funksiyasında çıxış edir.

“Ana” pyesində Orxanın əsas məqsədi İsməti almaq və onun nişanlısı Qanpolada xəyanət etməkdir. O, bu istəyini həyata keçirməyə başlarkən ilk dəfə dostu İzzətlə “şaşırmış bir halda tez ağaclığa çəkilib” (Cavid, 1958: 71) İsmətlə qardaşı Səlimin söhbətinə qulaq asır. Səlimin onu hədələməsini eşidir və özünü haqsız mübarizəyə hazırlayır. İkinci halda isə Orxan İzzətlə birlikdə “təkrar ağaclığa çəkilərək” (Cavid, 1958: 82) Səlimlə İsmətin danışığını dinləyir və Qanpoladın səfərdən qayıdacağından xəbər tutur. Bu xəbər Orxanı daha da qəzəbləndirir və o, Qanpolada qarşı belə bir nifrətli fikrə gəlir:

*Zərər yox, onu mən sağ qoysam əgər,*
*Dünyada yox məndən alçaq bir nəfər* (Cavid, 1958: 84).

“İblis” faciəsində haydudlar ağaclar arasında Rəna və Arifin söhbətini dinləyirlər. Onlar Arifdə altun olduğunu bilən kimi ortaya çıxır və Arifdən altunu tələb edirlər. Bu məqamda Elxan da “ağaclar arasından çıxır” (Cavid, 1968-1971, II cild: 73). Lakin bu vaxt ağaclar arası-məkan yaxşılığa xidmətin mənbəyi kimi görünür. Elxan haydudlarla üz-üzə gəlir və Rəna ilə Arifi xilas edir. Faciədə İblis də “ağaclar arasından çıxır” (Cavid, 1968-1971, II cild: 77). Bu məkan da yenə çirkin məqsədlərə “xidmət göstərir”.

H.Cavid dramaturgiyasında “ağaclar arası” məkanının bu cür növbələşməsi “məkan” anlayışının genişliyini təsdiq edir. Yəni hər hansı məkana statik funksiya vermək düzgün deyildir. Məkan hadisələrin inkişafına, obrazların fəaliyyətinə görə dəyişilir və yeni məzmunlar qazanır.

H.Cavid dramaturgiyasında bəzən də ağaclar arası sadəcə olaraq müşahidə məkanı olur. Orada "məskən salan" obraz yaxşı və pis məqsəd güdmür. Sadəcə olaraq, burada məsələlərin aydınlığı, daha çox həqiqəti dərk etmək məqsədi izlənilir. Belə ki, "Topal Teymur" əsərində Dilşad iki dəfə "ağaclar arasında görünür" (Cavid, 1968-1971, III cild: 30-37). O, hər iki məqamda Orxanla Olqanın danışıqlarını dinləyir. Dilşad bu hərəkətlərində nə sevgilisi Orxana, nə də Olqaya qəsd etmək haqqında düşünür. "Ağaclar arası" bir məkan kimi onun daxili aləmini, psixologiyasını ortaya çıxarır.

H.Cavid dramaturgiyasında evin içərisi ilə çölünü, oda ilə baxçanı pəncərələr həm ayırır, həm də birləşdirir. Pəncərə bəzən sadəcə baxış bucağı, bəzən də sədd, sərhəd, bir mühitlə digər mühit arasında hasardır. "İblis" faciəsində İblis və Mələk ayrı-ayrı pəncərələrdən müharibə səhnəsini müşahidə edirlər.

Bu müşahidələr isə tamamilə müxtəlifdir. İblis deyir:

*Dəryalərə hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yaxar, evlər yıxar insan* (Cavid, 1968-1971, II cild: 8).

Mələk deyir:

*Ya rəbb, bu nə dəhşət, nə fəlakət?*
*Ya rəbb, bu nə vəhşət, nə zəlalət?*
*Yox kimsədə insafü mürüvvət,*
*İblisəmi uymuş bəşəriyyət?* (Cavid, 1968-1971, II cild: 8).

Obrazların psixologiya müxtəlifliyini məhz pəncərələrdən aparılan müşahidələr açır.

*"Maral" əsərində Maral bağçadakı gülləri pəncərədən seyr edərək deyir: "Ah, bu gözəl bahar hər kəsin könlünü açdığı halda, nədənsə məni sıxıyor. O, rəngarəng çiçəklərin lətif rayihələri, sanki məni boğuyor. O şətarətli bülbüllərin sevimli nəğmələri guya mənə gülüyor, yaxud mənim talesizliyimə*

*ağlıyor"* (Cavid, 1958: 107). *Əsərin qəhrəmanı çiçəklərlə müqayisəli şəkildə öz gələcək taleyini görür.*

"Şeyx Sənan" əsərində Şeyx Hadi bağçaya açılan pəncərə qarşısında dayanmışdır. O, pəncərəni açır və böyük məmnunluqla deyir:

*Nə müqəddəs havası var... hər an*
*Nəfəs aldıqca qəşş olur insan,*
*Adətə ruhə bir səfa gəliyor,*
*Adətə qəlbə bir şəfa gəliyor* (Cavid, 1968-1971, I cild: 219).

Şeyx Hadi sonra pəncərəni örtüb Əbülülaya deyir:

*Yorğunam, mən də bir yarım saət,*
*Uzanıb olmaq istərim rahət.*
*Fəqət ilk öncə Şeyx Sənandan Bir xəbər bil!..*
*(*Cavid, 1968-1971, I cild: *219).*

Pəncərənin açılması və örtülməsi ilə deyilən sözlər Şeyx Hadinin xarakterini açır. Məlum olur ki, onun pəncərə örtülərkən Şeyx Sənanla maraqlanmasında xəyanət məqsədi vardır.

*"Uçurum" faciəsində "Pəncərə önündə Cəlal-ağ uzun iş kəmliyində əlində tutmuş olduğu böyük rəsmə diqqətlə baxıb düşünür" (*Cavid, 1968-1971, I cild: *283). İlk baxışda Cəlalın rəsmə pəncərə qarşısında baxması, çəkdiyi şəkli dərindən dərk etmək məqsədi kimi oxucuya çatır. Əslində isə pəncərənin o tərəfi və bu tərəfi başqa- başqa mətləbləri ortaya çıxarır. Artıq bu zaman Cəlalı rəsm əsəri, yaxşı rəssam olmaq deyil, Anjel və Gövərçin düşündürür. Anjel Cəlalın dayandığı oda ilə, Gövərçin isə pəncərənin o tərəfi ilə əlaqədardır. Bu mənada təsadüfi deyil ki, Anjel Cəlalın otağına daxil olanda və bu iki "aşiq" öz macərasına başlayanda, "Gövərçinin dağınıq saçlı, məhzun baxışlı "xəyalı" pəncərə önündə görünür"* (Cavid, 1968-1971, I cild: 285).

"Səyavuş" əsərində Südabənin pəncərədən çöldəki ziyafəti seyr etməsi onun çirkin fikrinin qətiləşməsinə səbəb olur. Südabə

öz kədəri və məyusluğu ilə ziyafətdə görünən Səyavuş haqqında düşünür, onun qəlbini ovlamaq barəsində fikirləşir:

*Nəşədən bayılsa bütün kainat,*
*Sevda bulutları gülərmi? Heyhat!* (Cavid, 1958: 390)

Pəncərə bu arzunun baş tutmayacağının nişanəsi olur və belə bir həqiqət faciənin sonunda təsdiq edilir.

Qeyd etmək lazımdır ki, məkanı xarakterizə edən pəncərə detalı H.Cavid dramaturgiyasında təsadüfi işlənmir. O, öz ölçüləri, çərçivəsi ilə deyil, ciddi məqsədi ifadə etmək funksiyası ilə faciələrdə mühüm yer tutur.

Pəncərə bir detal kimi H.Cavidin tarixi həqiqətlərə sadiqliyini də aydınlığı ilə göstərir. Bu mənada "Peyğəmbər" və "Şeyx Sənan" əsərlərindəki faktlara müraciət etmək kifayətdir. Məlumdur ki, islam dinində qapalılıq bir tələb kimi irəli sürülür. islam dünyasına diqqət yetirilsə "Пространство здесь заключючено внутри помещения. Оно открывается сверху, а не горизонтально через окно" (Наджи уд-Дин Баммат. Концепции пространства в исламском мире. Культуры, № I, 1983, с.41.), "Даже на единственном верхнем окне установлена решетка (машрэбия)" (Баммат Наджи уд-Дин, 1983: 42). Bu həqiqət Cavid əsərlərində də qorunub saxlanılır. İlk fakt kimi qeyd edək ki, həm "Peyğəmbər", həm də "Şeyx Sənan" əsərlərində məhz "qara örtülü kəbə" vardır.

H.Cavidin əksər əsərlərində təqdim edilən ev, pəncərəsi ilə daha xarakterik göründüyü halda, "Peyğəmbər" pyesində təqdim edilən ilk ev isə tamamilə fərqlənir: *"Məkkədə geniş bir yol... uzaqda qara örtülü Kəbə... Yol kənarında bütçü dükanı, bir ixtiyar əlində bir büt yonar. Dükanın önündə dəxi satış üçün bir kaç danə hazır büt qoyulmuş. Qarşıda gözəl yapılı, böyük qapılı bir ev gözə çarpır, evdən ud səsi eşidilir"*(Cavid, 1922-23: 9). Müəllif pəncərəni təqdim etmir. "Ud səsi eşidilir" fikri isə evin bir daha örtülü olmasını xatırladır.

Digər remarkaya diqqət verək: *"Eyni şəhərdə məzarlıq, kənarda bir evciyəz, iki-üç xurma ağacı... İkindi çağı... Ev sahibi Səid təlası ilə gəlir, qapıyı şiddətlə çalar. Qapı açılır, onun otuz yaşını keçməyən qarısı – Xəttab qızı – qarşısına çıxar"* (Cavid, 1922-23: 44). Burada da evin pəncərəsi yoxdur. Bəlkə təsadüfdur, bəlkə sənətkar bu məsələyə əhəmiyyət vermir? Əslində isə Cavid üçün hər bir detal, hər bir hadisə dəqiq və yerli-yerindədir. Belə ki, sənətkar "Peyğəmbər" əsərinin "Nüsrət" hissəsində təsvir etdiyi evin pəncərəsi olduğunu qeyd edir, həm də Cavid "iki böyük pəncərə" (Cavid, 1922-23: 78) sözlərini işlədərək, heç bir əsərində müşahidə etmədiyimiz pəncərənin böyüklüyünü nəzərə çarpdırır. Buradakı mətləb isə pəncərənin məhz hansı evdə olması ilə aydınlaşır. İki böyük pəncərə Məkkədə baş rəisin evinə məxsusdur. Bu evdə isə Peybğəmbərə, dinə qarşı mübarizələrin istiqaməti planlaşdırılır.

"Şeyx Sənan" faciəsində də pəncərə ilə bağlı mətləblər bu istiqamətdədir. Doğrudur, Mədinədə Şeyx Kəbirin evində üç-dörd pəncərə vardır. Lakin bu pəncərələrdən az-çox istifadə edən varsa, onlar da Əzra və Zəhradırlar. Digər tərəfdən iki pəncərənin xurmalıqdan ibarət bağçaya açılması özü də evin qapalı olması haqqında təsəvvür yaradır.

"Şeyx Sənan" əsərində təsvir edilən başqa bir məkanda - Tiflisdə daha "fəal" görünən pəncərə vardır: *"Səhnənin ucunda donuz yatırılmağa məxsus bir dam... Damın qapısı önündə 2-3 donuz yatmış, yan tərəfdə bir su dəstisi var. İçərini sönük bir işıq aydınladır, pək kənarda Xumarın odası gözə çarpar ki, pəncərəsindən saçılmaqda olan incə bir aydınlıqla nəzər-diqqəti cəlb edər, ətraf ağaclıqdır"* (Cavid, 1968-1971, I cild: 202).

Xumarla-xristianlıqla bağlı olan məkan islam məkanından (gizlənmək və örtünmək məqsədindən!) tamamilə fərqlənir. Bu fərqi isə daha qabarıq göstərən məhz pəncərələrdir.

Mədinə və Tiflis arasındakı zaman faktı da əhəmiyyətlidir.

Belə ki, "Şeyx Sənan" faciəsində əsas məqsədin açılışı bilavasitə qəhrəmanın yuxusu ətrafında mərkəzləşmişdir. Bu yuxu Xumarın – yüksəkliyin Şeyx Sənana buta verilməsi ilə təyin olunan və əsərdə "tamamilə başqa həyat" (Бахтин, 1979: 171) şəraitinə aparan ciddi hadisədir. Lakin müəllif Şeyx Sənanı buna çatmaqda düz on il yubandırır. Bu on il müəllifə nə üçün lazım olmuşdur?

*Hərgah Şeyx Sənan Xumarın:*
*Şeyx, gəl-gəl! Sevimli Sənan, gəl!*
*Sana layiq deyil, o yer, yüksəl!*

(Cavid, 1968-1971, I cild: 139).

– çağırışına cavab verib elə o an Xumarın arxasınca getsəydi, onda Şeyx Sənan daxilindəki din mübarizələrinin o qədər də, ciddi əhəmiyyəti olmazdı. Çünki hələ bu vaxtlar Şeyx Sənan öz mürşidi Şeyx Kəbirin kölgəsində qalırdı və bu kölgədə o, öz idealı naminə dinini dəyişsəydi, elə bir təşvişli, həyəcanlı hadisə olmazdı. Başqa sözlə, ideala canatma Şeyx Kəbirin hələlik Şeyx Sənan üçün "əfv etmək" səviyyədə olduğu zaman deyil, məhz Şeyx Sənanın özünün "əfv etmək" qüdrəti olanda reallaşırsa daha mənalı görünür. Ona görə də keçən on il müddətində Şeyx Sənan islam mühitində elə bir yüksək mövqe tutur ki, bu mövqeyin həmin dini "mənəvi bir günəş" kimi təbliğ etməyə tam gücü çatır.

H.Cavid üçün aradan keçən on il ona görə lazım olmuşdur ki, dramaturq, yüksəklikdə dayanan Xumarın "yüksəl" nidasını islam mühitində yüksəlməyə səy göstərən Şeyx Sənanın qazandığı yüksəkliklə qarşılaşdırsın və birincinin üstünlüyünü daha qabarıq versin.

Lakin H.Cavid üçün o mətləb də aydın idi ki, Xumarın ətrafındakılar Şeyx Sənan "elçiliyinə" gözüyumma cavab verə bilməzdilər. Onlar "gənc aşiqi" sınaqdan keçirməli, onun qarşısına "düyünlü götük" diyirlətməli idilər. Şeyx Sənan isə ilk sınaqdan çıxandan sonra, daha bir vəzifə – "iki il tamam donuz otarmaq" məsuliyyəti qarşısında qalır. Müəyyən bir vaxt mənası

daşıyan bu iki il təbii görünməklə Şeyx Sənanı "donuz çobanı" səviyyəsinə qaldırır.

Məlum olur ki, Şeyx Sənanın daxili dəyişmələri üçün lazım olan iki zaman ölçüsü – on il və iki il məsələlərin təbii inkişafını və axarını təmin etmək üçün H.Cavidə xeyli dərəcədə gərəkli zaman faktları olmuşdur.

*H.Cavidin faciələri bu janrın tələblərinə uyğun olaraq ölümlə bitir. Lakin dramaturqu heç vaxt dəfn mərasimi maraqlandırmasa da, onun faciələrində məzarlıqdan məkan kimi istifadəyə rast gəlmək çətin deyildir: "Məzarlıq... imamzadə günbəzi... Onun yanında namaz qılmağa məxsus bir oda. Ətrafda məzarlar, yaşıl bir çinarla iki-üç sərv ağacı. Ötədə-bəridə vəhşi güllər. Daha irəlidə yaşıl bir təpəcik... Buludlu səhər, uzaqdan, həzin-həzin çoban düdüyü çalmır. İki məzarçı məzar qazmaqla məşğuldur"* (Cavid, 1968-1971, III cild: 29).

Maral, Afət, Knyaz, Cəlal kimi insanların və onlara bənzər neçələrinin ölümü məzarçıları maraqlandırmır. Birinci məzarçı deyir:

*Biri izlər, biri dəhşətlə qaçar,*
*Bir dovşan, biri qızmış canavar.*
*Uç qarış torpaq ikən son yatağı,*
*Bu didişmək nəyə lazım bu qadar*

(Cavid, 1968-1971, III cild: 294).

H.Cavid məzarlıqdan istifadə edərək, ciddi bəşəri problem qaldırır. Bu məkan ictimai məzmun etibarilə yazıçı fikrini oxucuya çatdırmaqda mühüm rol oynayır. "Peyğəmbər"dəki məzarlıq isə başqa bir fikrin ifadəsi üçün lazım olmuşdur. Həmin səhnədə göstərilir ki, ərəb öz qızını diri-diri məzara basdırır:

*İştə sus, yetər, bana*
*Qız övladı lazım degil* (Cavid, 1926: 50).

Dramaturq bu hadisələrin təqdimi ilə, mühafizəkar qanunların qadına münasibəti ilə barışmır və hətta ona kəskin

etirazını bildirir.

*Daha bir məzarlıq səhnəsinə də "Şeyda" pyesinin dördüncü pərdəsində təsadüf edilir: "Ətrafı sərvlərlə əhatə olunmuş bir xristian məzarlığı, səhnənin ucunda, məzarçıya məxsus bir oda, həzin günəş batmamış Mariya matəm əsvabında olaraq, ətrafı, üzəri əklillərlə, çiçəklərlə süslənmiş tazə bir məzar qarşısında dalıb gedib. Müller isə mütəəssir bir halda düşünüb durur. Bu sırada aşağıdakı türkü-şikəstə havasında olaraq yaralı və tutqun bir ahənglə ətrafdan eşidilməyə başlar"* (Cavid, 1958: 293). *Bundan sonra dramaturq ən ciddi məsələlərdən birini burada təsvir edir. Öz ayağı ilə məzarlığa gələn Məcid əfəndi öldürülür. Mürəttiblər zülmkar sahibkardan öz intiqamlarını beləcə alırlar.*

H.Cavid dramlarında tarix və tarixilik özü mühüm problemlərdən olmuşdur. Hətta Avropa və rus ədəbiyyatında romantik tarixi faciə "aparıcı janr olmadığı" (Архипов, 1978: 186) halda, XX əsr Azərbaycan romantizmində bu janr aparıcı mövqeyə qalxmış və Azərbaycan ədəbiyyatşünaslığının ən son tədqiqatlarında da həmin məsələ xüsusi və ayrıca olaraq araşdırılmışdır (Исрафилов, 1985: 41-48).

Lakin bədii zaman baxımından bizi daha çox maraqlandıran obrazların keçmişi haqqında olan məlumatlardır. Bu isə onu sübut edir ki, dramaturq qəhrəmanın tərcümeyi-halını verən zaman müəyyən məqsədlər izləmişdir. "Şeyx Sənan" əsərindəki artıq xatırladığımız aşağıdakı parça bu qəbildəndir:

*Səni annən doğurdu Turanda,*
*Yaşadın bir zaman da İranda,*
*Kəsbi-irfan üçün, fəzilət için.*
*Sonra İranı tərk edib gəldin,*
*Ərəbistanı ixtiyar etdin* (Cavid, 1968-1971, I cild: 152).

Sənətkarın özünün qarşısında da əsas məqsəd bu səfərlər deyil, məhz Şeyx Sənanın gələcək səfəri və deməli, gələcəyə doğru istiqamətlənən səfəridir.

"Uçurum"da isə Anjel öz keçmişini belə xatırlayır:

*Mən öncə bir mələkdim,*
*Yüksəklərdə uçardım.*
*Parlaq bir yıldız kimi*
*Ətrafa nur saçardım...*
*Hər kəsi mələk sandım,*
*Hər sevgiyə inandım,*
*Xəlqə əyləncə oldum,*
*Ah, bilmədim, aldandım* (Cavid, 1968-1971, I cild: 136).

Burada da müəllifin yaradıcılıq vəzifəsi Anjelin keçmişindən danışmaq deyil. Əslində Anjel də öz keçmişinə o qədər maraq oyatmaq məqsədi izləmir. Obraz bu gününü və gələcəyini düşünür: Cəlalı ələ keçirmək, onunla yeni eyş-işrətlərə dalmaq. H.Cavidin də bütün məqsədi Anjelin öz keçmişinə görə əsərdən ayırmaq, Cəlaldan uzaqlaşdırmaq yox, bu iki obrazı daha da yaxınlaşdırmaq və bu yaxınlığın faciəli nəticələrini göstərməkdən ibarətdir. "Şeyx Sənan" əsərində Zəhra da öz keçmişini xatırlayır:

*Altı ildir ki, zarü dərbədərim,*
*Həm onundur məsərrətim, kədərim.*
*Altı ildir əsirü mədhuşim,*
*Onun eşqilə məstü bihuşim* (Cavid, 1968-1971, I cild: 136).

Burada Zəhra özünün Şeyx Sənana sevgisini bildirir. Əvvəlki keçmişlərdən fərqli olaraq burada dəqiq vaxt da göstərilir – 6 il. Bir az sonra Zəhra Şeyx Sənana da açıqca deyir:

*Altı ildir sənin əsirin ikən,*
*İmdi biganəyimmi könlünə mən?*
(Cavid, 1968-1971, II cild: 138).

Göründüyü kimi, altı il Zəhra üçün çox böyük rəqəmdir. O, bu illəri özünün sevgi şahidi kimi xatırlayır və bununla nəyəsə nail olacağına ümid edir. Onunla müqayisədə 6 il Şeyx Sənan üçün çox qısadır, ömrün bir anıdır, hətta belə demək mümkünsə,

yaşanılmamış illəridir.

Deməli, müəyyən bir zaman vahidi müxtəlif insanlar üçün müxtəlifdir. Bu müxtəliflik hər kəsin həmin zamanla bağlılığından yaranır. Belə ki, "Afət" pyesindən Qorxmazla Afətin dialoqunu xatırlamaq məsələyə bir az da aydınlıq gətirə bilər.

*"**Qorxmaz.** Bir aydır ki, göydə idim, pək şairanə və gözəl günlər keçirdim.*

**Afət.** Ah, bir ay, otuz gün. Otuz ildən uzun, otuz dəqiqədən qısa... Əvət, ölmək istəyənlər üçün pək, pək uzun... Sevmək və yaşamaq istəyənlər üçün çapuq, pək qısa..." (Cavid, 1968-1971, II cild: 137).

Vaxta, zamana münasibətin izahını müəllif Afətin dili ilə çox dəqiq vermişdir. Bu dəqiqlik isə yalnız obrazın dəqiqliyi deyil, bəlkə daha çox onun həyata bağlılığının meyarıdır. O ki qaldı Afətin bir ayı otuz günə bərabərləşdirməyi, otuz dəqiqəyə xırdalamağı, azaltmağı, otuz ilə böyütməyi və çoxaltmağı, bu, onun öz psixologiyasını, düşdüyü vəziyyəti oxucuya çatdırmaq üçündür. Həmin bərabərlik, azaltma və çoxaltma o vaxt Afət düşüncəsinə daxil olur ki, bu, Doktorun onu atdığı və Altunsaç ilə evlənməyə hazırlaşdığı ərəfədir. Hətta maraqlıdır ki, bir az əvvəl əsərdə həmin toya bir ay qaldığını Afət biləndə məhz elə beləcə deyir: *"Bir ay sonra, otuz gün sonra, ah, nə qədər gec, nə qədər çapuq! Bir ay otuz ildən daha uzun, otuz dəqiqədən daha qısadır"* (Cavid, 1968-1971, II cild: 136).

Deməli, buradan aydın olur ki, bu sözləri Afət Qorxmaza deyərkən, Qorxmazın bir ay kənddə qalmasından yox, məhz Doktorun bir ay sonra toy etməsindən danışırmış. Yəni Afətin Qorxmaza dediyi "bir ay" zamanı Qorxmazın dediyi "bir ay" zamanı deyildir.

Cavid dramlarında hər hansı zaman faktı ya obrazları müəyyən məqsədə yaxınlaşdırır, ya da uzaqlaşdırır. Sənətkarın belə bir mövqeyi zamandan zəruri istifadənin nəticəsi kimi başa

düşülməlidir. Yəni günlər, aylar və illər Cavid dramaturgiyasını heç də məkandan və ayrı-ayrı detallardan az müşayiət etmir. Əksinə, bəlkə müəyyən məqamlarda daha qüvvətli görünür. “Şeyx Sənan” faciəsinin obrazlarından biri olan Şeyx Sədra deyir:

Şeyx tərk eyləyib tamam bır yıl,
*Gəzib ətrafı olmadıq məyus,*
*Dini təbliğə başladıq... əfsus!*
*Bir də döndük, bulunca Sənan,*
*Gördük olmuş o bir donuz çobanı.*
*İki gün yalvarıb rica etdik,*
*Gecə-gündüz həp iltica etdik.*
*Yenə rədd etdi... Baxdım olmuş əsir,*
*Nə qədər yalvarılsa yox təsir*
(Cavid, 1968-1971, I cild: 230).

İslam dinini yaymaq üçün şeyxlərin çıxdığı səfər müddəti yeni meyil doğurmuşdur. Hərgah Şeyx Sədralar öz dini mövqelərində qalmışlarsa, onlardan fərqli olaraq, Şeyx Sənan dini təbliğ məqsədindən uzaqlaşmışdır və yeni həyat astanasına çıxmaqdadır. Təbii ki, bu proses öz başlanğıcını səfər zamanından götürür. Əgər belə bir vaxt olmasaydı, yəqin ki, Şeyx Sənanın yeni mövqeyi aydınlaşmamış qalacaqdı.

Eynilə “Uçurum” əsərində Cəlalın Parisə səfər etdiyi zaman, onun xarakterini ətraflı şəkildə oxucuya çatdırır. Məlum olur ki, bu zaman Cəlalın Anjellə macəralarının əsasına çevrilir.

Bəzən isə zaman vahidi bir obrazın deyil, bir neçə obrazın və deməli, bütün əsərin mahiyyətini təmsil edir. Belə ki, “Knyaz” pyesində Tiflisdə baş verən hadisələr iki ildən sonra Almaniyada davam etdirilir. Bu iki il nəyi meydana çıxarır?

Birincisi, Knyazın mənəvi puçluğu, saxta məğrurluğu aydınlaşır. Doğrudur, qəhrəmanın xasiyyətindəki bu cəhətlər Tiflisdə özünü müəyyən qədər göstərmişdir. O zaman Knyaz

işçilərin xahişlərinə belə məhəl qoymur. Knyazın nəzərinə görə tütün fabrikasında işləyən işçilərin ciyərlərindən qan süzülsə belə, bədənləri zəhərdən qurumuş skeletə dönsə belə, onlara güzəşt olmamalıdır:

*Kin püskürən azğınlara yalnız,*
*Dəhşətli ölüm vardır amansız!..*

(Cavid, 1968-1971, III cild: 126).

Knyaz Tiflisdə hətta ona qulluq göstərən Marqonu da təhqirlərlə qarşılayır. Knyaz dayısı Solomona qarşı da kəskin mövqe tutaraq *"Bəli... knyaz qanı yox səndə..."* (Cavid, 1968-1971, II cild: 126) – deyir.

Bütün bunlara baxmayaraq, Knyaz Almaniyada, məhz iki ildən sonra daha iyrənc şəkildə görünür. O, özü üçün daha böyük nifrət qazandırır. Belə ki, bu azğın insan qızı Lenaya eşq elan edir:

*Mən könlümü verdim sana ancaq,*
*Gəl işvəli afət, məni sən etmə oyuncaq.*
*Bir busə ver ancaq şu dodaqdan,*
*Güldən daha nazik o gözəl pənbə yanaqdan.*
*Axşam da bərabər uyuruz, nazlı göyərçin,*
*Əlbət bu xoş əyləncə səninçin*

(Cavid, 1968-1971, III cild: 111).

Bu, artıq Knyazın ən böyük iyrəncliyi, mənəvi puçluğunun zirvəsi, saxta məğrurluğunun tənəzzülüdür.

İkincisi, hadisələrin iki ildən sonra Almaniyada cərəyanı Antonun dözümlülüyünü, əqidəcə möhkəmliyini meydana çıxarır. Doğrudur, Antonun da bu keyfiyyətləri hələ Tiflisdə olarkən görünməyə başlamışdı. Belə ki, Anton xalqa xidmət göstərməyi əsas vəzifə kimi müəyyənləşdirir. İşçiləri müdafiə edərək Knyaza deyir:

*Ah, sönüb məhv olacaqdır onlar,*
*Mərhəmət yoxsa da bir qanun var*

(Cavid, 1968-1971, III cild: 92).

*Sonra Knyaz daha kəskin şəkildə bildirir:*
*Burda dursam da bir əldən nə gəlir?*
*Eyi bil, er-gec əzənlər əzilir* (Cavid, 1968-1971, III cild: 97).

Bütün bunlara baxmayaraq, Antonun Almaniyaya getməsi, Knyazla qarşılaşması onun səbatlı mübarizəsini təsdiq edir. Aydın olur ki, Anton öz əqidə və məsləkində sabit və dözümlüdür.

İki il müddəti Jasmenin də yeni keyfiyyətlərini aşkara çıxarır. Əgər o, Tiflisdə Knyazın əsiri kimi görünürdüsə, Berlində tamamilə dəyişilir. Jasmen öz azadlığını itirdiyini duyur və deyir:

*Yetişir dinlədiyim son təhqir,*
*Məni bıqdırdı şu altun zəncir.*
*Knyazın yapdığı vəhşi qabalıq,*
*Bir nəvaziş ki, çəkilməz artıq.*
(yerdəki gül dəmətindən birini alar)
*İştə bir xatirə qalsın məndən,*
*Bu da çeynəndi, əvət, Jasmen də.*
*Bir gülün yox deyil, əlbət, dəyəri,*
*Bir tikəndən daha kəskin zəhəri*

(Cavid, 1968-1971, III cild: 168).

Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, bütün bunları bir gün, iki gün içərisində vermək mümkün deyildi. Belə olduqda psixoloji hazırlıq məsələlərində sünilik və bayağılıq meydana çıxardı. Ona görə də əsərdə psixoloji inandırıcılıq zamanın bu cür inkişafı, hərəkəti ilə (yəni vaxt əldə edilməsi hesabına) mümkün olmuşdur. Beləliklə, bir daha təsdiq olunur ki, Hüseyn Cavid əsərlərində hadisələrin inkişafı ilə bağlı olaraq, müəyyən zaman vahidlərindən istifadə edirsə, bunlar zəruri və vacib amildir.

H.Cavidin "İblis" əsərində isə zaman xüsusi formada özünü göstərir. Bədii zaman burada sanki "görünməz" olmuşdur. Yəni pyesdəki hadisələr günün, ayın, ilin keçməsi ilə səciyyələnmir. Elə ilk səhnələrdən əhvalatların – münasibətlərin inkişafını göy gurultusu müşayiət edir. Hadisələrin hərəkət müddəti həmin gu-

rultunun hansı müddətə qədər davam etməsi ilə müəyyən olunan bir təəssürat yaradır. Təsadüfi deyil ki, remarkada "şimşək çaxışı" da xatırlanır. Bu mənada "şimşəyin çaxması - həyatın qısalığıdır" (Долин, 1978: 161). Ona görə də "İblis"dəki hadisələr sanki bir günün, hətta bir saatın içərisinə sığışdırılmışdır.

Başqa sözlə, pyesdə qoyulan məsələnin izahı və əsas ideyanın çatdırılması üçün bədii zaman şərtilik prinsipi ilə qısaldılmışdır. Bu mənada "İblis"dəki zaman haradasa nağıllardakı zamana oxşayır. Çünki "Nağılda zaman olduqca "təcili"dir – sürətlidir" (Лихачев, 1979: 388).

***

Məlum məsələdir ki, romantizmin maraq dairəsinin mərkəzində insan dayanmışdır: romantiklərin düşüncə obyektində talelər qədər özünə yer tutan ikinci bir obyekt tapmaq çətindir. Hadi məqalələrinin birində Sədidən belə bir beyti nümunə gətirir:

"*To kəz möhnəti-digəran biqəmi,*
*Nəşayəd ki, namət nahənd adəmi.*

Sən ki, başqalarının möhnətindən qəmsizsən, sənin adını *insan* (Kursiv bizimdir – K.Ə.) qoymaq ciddən səzavar deyildir" (Hadi. Vətənimizin Temisbokl və Aristidlərinə nəsihət, "Həyat" qəzeti. 1 iyun, 1906.). Söhbət ondan gedir ki, insan cəmiyyətlə vəhdətdə olmalı, cəmiyyətin verdiyi dərdlər, ələmlərlə yaşamalıdır və öz azadlığı üçün yollar tapmalıdır.

Digər tərəfdən, insan şəxsiyyətinə diqqət, insana bu maraq romantiklərin yaradıcılığında insanı ideallaşdırmağa gətirib çıxarır. XX əsr Azərbaycan romantiklərinin cəmiyyətin dəyişdirilməsində əsas rolu sənətkarlara verməl변rinin də səbəbi elə buradan doğurdu. Romantiklər bütün ictimai inkişafda yaradıcı şəxsiyyətə, onun fikir və düşüncələrinə, bir növ hədsiz üstünlük verirdilər.

M.Hadi 1906-cı ildə yazırdı: *"Millətin nicatı sizlərsiz, əfəndilər. Əhvali-vətəndən bunca etdiyimiz qəflət və bəatalət yetər, evladi-vətən halına bu qədər iğmaz etdiyimiz kifayətdir"* (M.Hadi. Evladi-vətən baisi-imrani vətəndir. "Həyat" qəzeti, 26 yanvar, 1906). Müəllif "əfəndilər" adı altında ümumiləşdirdiyi yaradıcı insanları ayıltmaq, oyandırmaq istəyir, azadlığın əldə edilməsi üçün yeganə ümid nöqtəsini məhz onların fəaliyyətində axtarırdı. Bu məsələ M.Hadinin bir az əvvəl yazdığı başqa məqaləsində irəli sürülən ideyanın davamı idi: *"Böylə bir zamanda dəryayi-fəlakətə və girdabi-həlakətə düşüb hər cür çubdən mədəd tələb edən biçarə müsəlmanların, ruhu sönmüş, fikirləri qaralmış cavanların ruhu ədiblər olacaqdır"* (M.Hadi. Zaman daima təcəddüd edir. "Həyat" qəzeti, 26 yanvar, 1906).

A.Səhhət də "Sınıq saz"a yazdığı müqəddimədə Nizaminin aşağıdakı beytini nümunə gətirir və bu fikrə şərik çıxırdı:

*Böyüklər səfinin önü və arxası var idi,*
*Əvvəl peyğəmbərlər, sonra şairlər gəldi* (Səhhət, 1976: 36).

Yaxud A.Şaiq "Sabir mürşid və rəhbər bir şairdir" (Şaiq, 1977: 145) deyəndə Sabirə həsr etdiyi şeirlərində (Şaiq, 1968: 45-46) onu ideallaşdıranda, hər şeydən qabaq, romantizmin bu estetik prinsipini müdafiə edirdi. Hətta səciyyəvidir ki, A.Şaiqin Sabiri "mürşid" adlandırması ilə H.Cavidin Şeyx Sənanı "mürşid" səviyyəsinə qaldırması bir-biri ilə səsləşir və ciddi şəkildə bağlanır. "Şekspir kimi böyük filosofların nüfuzlu, mətin, sarsılmaz və kəskin fəlsəfələri, şübhəsiz ki, hər ingilisdə, bütün xalq ruhunda böyük və səmimi bir təsirə malikdir" (Cavid, Müharibə və ədəbiyyat. "Açıq söz" qəzeti, 25 oktyabr, 1915) – fikrində, həmçinin tərbiyə haqqında mülahizərində H.Cavid də öz müasirlərindən daha irəli getmişdir.

Hətta onu qeyd edək ki, M.Hadi başqa millətlərin nicatının səbəbini də məhz sənətkarın rolu ilə izah edirdi: *"Bu gün mədəniyyətin ən yüksək təbəqələrinə çıxmış, fünnun-aliyənin emaqi- binayanini duxülə müvəffəq olmuş olan millətlərin birinci səbəbi – sə-*

*adətləri nasıl mühərrirlər, nasıl ədiblər olmuşdur”* (Hadi, Qəzetlərimiz, mühənirlərimiz. “Səda” qəzeti, 18 yanvar, 1910). Bu baxımdan, “romantiklər sənətkar nüfuzunu *görünməmiş yüksəkliyə* (Kursiv bizimdir – K.Ə.) qaldırırdılar” (Гуляев, 1974: 22).

Bu məsələ Azərbaycan romantizmi üçün də göydəndüşmə deyildi. XX əsr Azərbaycan romantikləri də cəmiyyətdə sənətkarların rolunu həmin səviyyəyə qaldırmaqla Avropa və ya rus romantizmindəki eyni tezisi davam və inkişaf etdirirdilər. Azərbaycan romantizmində bu tezis romantikləri düşündürən Şərq mühitindən doğmuş, milli spesifiklikdən irəli gəlmişdir.

Romantiklər sənətkardan, sənətkarın cəmiyyətdəki rolundan bəhs edəndə, sənətkarı, yuxarıda dediyimiz mənada subyekti cəmiyyətə və ya obyektiv aləmə qarşı qoyurdular. Daha doğrusu, sənətkarla cəmiyyət arasındakı konflikt daha çox subyektin üstünlüyü ilə izah olunurdu. Vaxtilə L.V.Lunarçarski qeyd edirdi ki, “incəsənətdə romantizm orada və o zaman yaranır ki, sənətkarla mövcud cəmiyyət arasında *ixtilaf* (Kursiv bizimdir – K.Ə.) görünür” (Антопянский, 1966: 33). Q.V.Plexanov da məhz bu fikirdə olmuşdur (Плеханов, т.5, 1958: 693).

XX əsr Azərbaycan romantiklərinin məqalələrində, bədii əsərlərində sənətkarı cəmiyyətə qarşı qoymaq tendensiyası onların özlərinin mövcud həyatın qanunları ilə barışmamaq ideyasında tamamlanır. Daha ciddi cəhət ondadır ki, bu sənətkarların əsərlərindəki hətta romantik qəhrəmanlar belə həmişə cəmiyyətlə konfliktdədir. Azərbaycan romantizminin qəhrəman konsepsiyasının ideya siqləti də elə məhz burada meydana çıxır. Təkliyə və tənhalığa çəkilən və yaşayan, cəmiyyət problemlərini fərdi “mən”ində həll etməyə can atan, ülviliyi, fövqəlbəşərliyi həyat amalına çevirən, hətta bunun uğrunda ölümə gedən lirik və tragik qəhrəmanlar bütünlüklə mövcud cəmiyyətə qarşıdırlar.

Həm də bütün bunlarda romantizmin şəxsiyyət probleminin məna və miqyasının dərin və real mənzərəsi vardır. Romantik

qəhrəmanın özünü yüksək səviyyədə tutması, yaxud sənətkarın onu bu cür təsvir etməsi şəxsiyyətin ucaldılması məsələsi ilə bağlıdır. Rus romantikləri A.S.Puşkin və M.Y.Lermontovda belə idi. Həmçinin təsadüfi deyil ki, Azərbaycan romantiki A.Səhhət onlardan tərcümələr edəndə, məhz çox vaxt belə əsərlər seçirdi.

Təsadüfi deyildir ki, Lermontovun A.Səhhətin tərcüməsindəki "Peyğəmbər" şeirində qəhrəmanın mütləqlik-əvəzedilməzlik inadı var:

*O zamandan ki, hakimi-mütləq,*
*Məni qılmış peyğəmbəri-bərhəq,*
*Xəlqi-aləmdən eyləyib mümtaz,*
*Mənə vermiş kəramətü ecaz* (Səhhət, 1976: 99).

Bütün bunlar bir tərəfdən qəhrəmanı – şəxsiyyəti uca tutmaq, digər tərəfdən də şəxsiyyətin hüququnun müdafiəsinə can atmaq ideyasını ifadə edirdi.

# II HİSSƏ
# SİMVOLİK-POETİK OBRAZLAR

## I FƏSİL
## SİMVOLİK OBRAZLAR

### 1. TƏBİƏT OBRAZLARI

XX əsr Azərbaycan romantizminin poetikası, bu romantizmin obrazlar sisteminin səciyyəvi xüsusiyyətləri simvolik əlamətləri və bədii rəmz keyfiyyətlərinə görə də seçilir. Romantiklərin əsərlərində simvolik obrazlar ötəri və yaxud keçici deyildir. Aydındır ki, simvolları, rəmzi obrazları romantizmin "indikator"una çevirib, onu kiçikli-böyüklü bütün əsərlərdə, romantik əsərin ixtiyari nümunəsində də axtarmaq düzgün olmaz. Hərgah belə olsaydı, onda romantizmdəki simvol-surətlərdən deyil, məhz simvolizmdən danışmaq zərurəti meydana çıxardı. Eyni zamanda, nəzərə almaq lazımdır ki, "bütün incəsənət, hətta *tam realist əsər* (Kursiv bizimdir – K.Ə.) simvolik obrazlılıqdan" (Лосев, 1976: 190) kənarda deyildir.

Məsələnin əsl mahiyyəti bundadır ki, simvolika romantik yaradıcılıq metodunun əlamətlərindən, özünəməxsus keyfiyyətlərindən biridir. Belə bir məhrəmlik və doğmalıq romantizm sənətinin yalnız bədiilik amili deyil. Burada romantik sənətkarın ictimai ideallarının, qayə, məqsəd axtarışlarının da lazımi dərəcədə payı vardır: "şairi öz real vəziyyətinin narahatlığını və bədbəxtliyini unutmağa məhz fantaziya (oxu: simvolika) vadar edir" (Фридман, 1971: 91).

XX əsr Azərbaycan romantiklərinin bədii yaradıcılıqda simvolikaya olan meyilləri onların ədəbi-nəzəri görüşləri ilə sıx surətdə bağlıdır. H.Cavid Qurbanəli Şərifova 1909-cu il 23 fevral tarixli məktubunda bildirirdi: "...Sizə məktub yazarkən,

düşünürəm ki, kaş ki, mümkün olaydı da bir səhifədə, bir sətirdə, bəlkə bir kəlmədə fikrimi, duyğumu məhsulatı-təcrübiyyəmi sizə ərz edə biləydim" (Şərif, 1977: 58).

Şübhəsiz, fikri "bir səhifədə, bir sətirdə, bəlkə bir kəlmədə" ifadə etmək istəyi kağız və ya qələm qıtlığından deyildi. Bu, çox güman ki, "üstüörtülü" yazı tərzinə haqq qazandırmaq, az sözlə böyük mənaları verə bilmək arzusundan doğurdu.

H.Cavid bu ideyanı inkişaf etdirərək sonralar şeirlərinin birində yazırdı:

*Mən açıq şeirdən də həzz edirəm,*
*Fəqət gizli şeiri pək sevirəm*
*(*Cavid, 1968-1971, I cild: *73).*

Bunlar əslində H.Cavidin şeirlə, romantizm ilə bağlı proqram misraları idi.

A.Səhhətin də "Nəvayi - aşiqanə" şeirinin axırıncı misraları belədir:

*Lakin zəmana çünki fəna bir zəmanədir,*
*Eyham ilə, kinayə ilə natiq olmalı! (*Səhhət, 1976: *83).*

M.Hadi isə Rumidən bəhs edəndə və xüsusilə "Xurafat içində həqiqət" məqaləsində "üstüörtülü" yazmağın bir nəzəri prinsip kimi şərhini verir. O, "İctimai çaqqallara qarşı aslan ürəkli durmalıyız" məqaləsində yazır: "Bu ədibi-fəyyaz (Cəlaləddin Rumi – K.Ə.) mühitin müsaidəsizliyindən, cahilanə təəssüblərindən dolayı olmalıdır ki, kinayə və rümuzat pərdələrini simayi-süxəndən bütünləməsilə qaldırmaq istəməmiş, çünki böylə yanması "örtülü söz" söyləməyi vəqtinin hikməti-ictimaiyyəsinə daha müvafiq görmüşdür" (Hadi, "Tərəqqi" qəzeti, 29 iyul, 1908).

Romantik sənətkar digər məqaləsində yazır: "Zaman və məkanın iqtizasından olmalıdır ki, keçmiş əsrlərin hükəma, üdəba, şüəra və mühərriranı pək çox həqiqəti *xəyala surətində* (Kursiv bizimdir – K.Ə.) təsvir edərək, parlaq mənaları əlfazın

məzari-mübhəmiyyətinə basdırmışlar. İşıq və açıq sözləri də qaranlığa soxmaq yolunu iltizam etmişlərdir" (Hadi, "Səda" qəzeti, 9 yanvar, 1911).

Göründüyü kimi, M.Hadi bu ideyanı tamamilə müdafiə edir. Şübhəsiz, həmin müdafiə onunla bağlıdır ki, sözlərin gücündən istifadə edib dərin mənaları verməyi bacarasan. Bu baxımdan o yenə həmin məqaləsində yazır: "Bəzən sırf xurafatdan başqa bir şey olmayan əsərlərdə öylə *təmsilata* (Kursiv bizimdir – K.Ə.) təsadüf edilir ki, iç üzündə bir çox *həqiqətlərin* (Kursiv bizimdir – K.Ə.) gizlənmiş olduğu görülür.

Həman həqayiqi-məknunə və məaniyi-məsturə xurafat kisvəsindən soyundurulduğu təqdirdə bütün gözəlliyilə, bütün şəşəəsilə cəmalını ərz eylər, durur".

M.Hadi "əfsanə", "uydurma" mənalarında işlənən "xurafatın" içərisində böyük məzmunların ifadəsini alqışlayır. Məhz bundan sonra "mənaları qarışıq əlfazın, həqiqətləri xurafatın, gözəli kəlimati-müəmmaların dərinliklərinə basdırmağa" tamamilə tərəfdar çıxır və onu bədii yaradıcılığın zəruri şərtlərindən biri hesab edir. Bu mənada "Şairin (M.Hadinin – K.Ə.) sənətkar xəyalı, *simvolik ünsürlərdən istifadə haqqında olan görüşləri də* (Kursiv bizimdir – K.Ə.) təsdiq edir ki, o, həyat həqiqətini romantik örtüyə bürünmüş şəkildə, simvolik vasitələrlə təsvir etmək tərəfdarı idi, bu da, heç şübhəsiz, romantizmin estetik prinsiplərindən idi" fikri tamamilə doğrudur (Talıbzadə, 1984: 165). Həm də təsadüfi deyildir ki, ingilis romantiki Vortsvort "Simvolların köməyinə əsaslanır" (Дяконова, 1978: 214), Tofiq Fikrət yaradıcılığında "irtica – gecə, qəddar; inqilab, azadlıq, həqiqət – günəş, səhər, səma və başqa simvolik obrazlarla" ifadə edilir (Алькаева, 1959: 93), rus romantizminin poetikasında da simvollar mühüm yer tutur (Манн, 1977: 61).

XX əsr Azərbaycan romantizminin poetikasında simvolikanın tədqiqi geniş mənada romantiklərin yaradıcılıq əlaqə-

lərinin, romantizmdəki “üslubun özünü” (Лихачев, 1971: 179) və deməli, bu romantizmin özünəməxsusluğunu öyrənməyə imkan verir. Ancaq unutmaq olmaz ki, Azərbaycan romantizmində simvollardan istifadə məsələsi, yaxud simvollara meyil bizim ədəbiyyatda yeni hadisə deyildi, amma yeni səciyyəyə malik idi. Bu da bilavasitə yeni həyatın özündən, bu həyatın romantik metod daxilində inikasından irəli gəlirdi. “Bu cərəyana mənsub olan şairlər bəzən elə simvolik, rəmzi şeirlər yazırdılar ki, zahirdə öz halından şikayət və təbiət təsvirlərindən başqa heç nə görünmürdü” (Cəfər, 1963: 81-82).

Tamamilə doğrudur ki, təbiət, peyzaj romantik poeziyada ciddi simvolik məna kəsb edir. Romantiklərin təsvir etdikləri təbiət parçası nəğmə və yaxud həzin mahnı deyildir. O zaman təbiət təsviri nəğməyə çevrilir ki, şeirlə məhz məhəbbət duyğuları, şəxsi intim hisslər qələmə almır. Romantizm üçün təsadüfi olan belə bir cəhətə A.Şaiqin “Biri sənsən, mələkciyim, biri mən” şeirində (Şaiq, 1968: 55-56) rast gəlmək olar:

*Yamyaşıl gül-çiçəkli bir bağça,*
*Döşənib sanki yerlərə xalça.*
*Səhərin xoş nəsiminə qarşı*
*Açılarkən gülümsəyir qönçə.*
*Oxuyur şaxəsində bir bülbül,*
*Səsi məhzun, dəyərli, həm incə.*
*Dolanır qönçənin müdam başına,*
*Ona bülbül məhəbbət etdikcə.*
*Görünür qönçə məst, pürnəşə,*
*Bülbülün bağrını dəlirsə tikən,*
*O iki məst, müztərib görünən*
*Biri sənsən, mələkciyim, biri mən.*

Lakin ictimai problemlərin müqabilində məhəbbətdən danışmağa sanki vaxt tapa bilmədikləri üçün A.Şaiqin və eləcə də, digər romantiklərin yaradıcılığındakı peyzaj öz simvolik

örtüyü ilə ictimai məzmun daşıyır.

M.Hadinin "Mənaziri-təbiət" (Hadi, 1978: 20), "Bədayeyi-təbiət" (Hadi, 1978: 23), "Bükayi-təbiət" (Hadi, 1978: 59), "Bir işsizin qış düşüncələri" (Hadi, 1978: 195-199), H.Cavidin "İlk bahar" (Cavid, 1968-1971, I cild: 48), "Son baharda" (Cavid, 1968-1971, I cild: 128-129), A.Şaiqin "Qış gecəsi" (Şaiq, 1968: 32-33), "Son bahar" (Şaiq, 1968: 40), "Qış" (Şaiq, 1968: 42), A.Səhhətin "Yaz" (Səhhət, 1975: 31), "Yay" (Səhhət, 1975: 32), "Payız çağında" (Səhhət, 1975: 33), "Qış" (Səhhət, 1975: 34), "Yay gecəsi" (Səhhət, 1975: 65), "Yay səhəri" (Səhhət, 1975: 66), yenə də "Qış" (Səhhət, 1975: 68), yenə də "Yay səhəri" (Səhhət, 1975: 76) şeirləri birbaşa təbiətin özünə və bütün fəsillərinə aiddir. Hətta A.Surun "Əcəb, bu söz şeirmi?" əsərində dörd fəsildən bir yerdə danışılır (Sur, Əcəb, bu söz şeirmi? – "Həqiqət" qəzeti, 1910, №105.).

M.Hadi yazır:

*Təcəlla bəxşi-kuhsari-cahandır nuri-atəşrəng,*
*Çiçəklər, qönçələr, güllər təcəlligahi-mənadır.*
*Cahan mirati-hüsni-dilfiribi-dilbəri-hikmət,*
*Gəhi zülmət olur, gəh qəlbi-arif tək mücəlladır*
(Hadi, 1978: 20).

Yaxud:

*Güllər gülüyor, quşlar oxur, feyz saçır bad,*
*Ol sevgili quşlar ediyor naləvü fəryad* (Hadi, 1978: 23).

Bu nümunələrdən göründüyü kimi, təbiətin təsvirində ağrı və əzabı göstərmək başlıca xəttə çevrilir. A.Surun "Əcəb, bu söz şeirmi?" əsərində "Bahar qızı, yay qadını, küz öksüzü, qış qocanı andırır" deyilsə də, əsas diqqət bahar və qışın üzərinə yönəldilir. Azadlığa gedən yolun çətinliyini dərk edən müəllif, baharda da "Yalqız-yalqız bir könül gülməz, için-için ağlar" deyir. A.Surun şeirində təbiətin və ilin ayrı-ayrı fəsilləri göz önünə gəlir. Bu baxımdan, şairin Hüseyn Cavidə ithaf edilmiş "Neçin, nədən?"

mənsur şeiri (A.Sur. Neçin, nədən? – “Həqiqət” qəzeti, 1910, №123.) çox səciyyəvidir: *“Ağacların çoxu çiçəklənmiş, buludlara sarılmış, şəfəqlərə bürünmüş, hər biri rəngin bir pəri olmuşdur”*. Bu, sadəcə olaraq bahar haqqında məlumat deyil. Şairin bədii təzad yaratmaq istəyidir: *“Qalın, tünd buludlar üfüqlərə çöküb, dağları bağrına basdı... Uzun-uzun ovalar gözdən nihan olub şükufəzar, şəşəəbar mənzərələr bozardı, həp güllərə döndü, şəfəq yüzlü, sırma saçlı, mavi gözlü səma səfa və ülviyyətini qayib edib bənizini atdı”*.

Şair yağışın şapır-şapır yağmasını, tər, yaşıl yarpaqların, zərif çiçəklərin üstünə düşərək xəfif xışıltılarının eşidilməsini, çayın iniltili nəğmələrinin bir-birinə qarışmasını da təsvir edir. Sonra isə poetik suallarını verir: *“Yüksək qarlı dağlardan qopub gələn, yalçın sərt qayalardan sızıb çıxan, quytu-dərin dərələrdən qopub qoşan, çəmənlər çeynəyib çiçəklər yolan, dağlar aşıb, çakıllar sürüyən, əyri-büyrü, gilli-qumlu yataqlardan axan, ey səlsəbili-həyat, nə gur dalğaların var, nə səsli-küylü, fəqət durmaz, axımlı səfərin var? Bu nə cuş və xüruş, nə düşüb qalxmadır?"*

*Bunlar yağışdan sonrakı təbiətin, çaylar və bulaqların hamıya məlum mənzərəsidir. Lakin şair bu ahəngə, bu təbiiliyə ictimai məzmun verir, milyonlarla insanın qəlbində kök salan əzab və ağrını təbiətin üstünə endirir: “Yanağın daşlı, qumludur, kirli, çamurludur. Yerdə ikən göydə uçarsan... Göydə ikən yerdə qayətsən. Lətif ikən kəsif olursan... Saf ikən bulanırsan... O zümzümə dərin quyudur fənandan... O qəhqəhə için-için iniltidir, nareyi-candır... Sürünür, qıvrılırsan. Yellər ilə inləyib, ağlarsan, bağırırsan.*

*Nazan-nazan göz oxşayan, dilbər-dilbər könül açan təbiət, hansı qəlbi öpər, ruhu yalardın?“*

Şair təbiətin “qəlbi öpən” mənzərəsini “kirli, çamurlu” sifətinə qarşı qoyur. “Lətif ikən kəsif olmasına” acıyır. A.Sur

ağacların "rəngin bir pəriyə" çevrilməsini unudur, təbiətin zümzüməsində fəqanla dolu dərin quyu, təbiətin qəhqəhəsində için-için inilti görür.

Bütün bunların insan həyatı ilə bağlı olması qənaəti şübhə doğurmur. Şeirin son misraları bu həqiqəti təsdiq edir:

*Ey səfheyi-əlvan həyat, nə qırıq lövhələrin var?!*
*Bu nəğmeyi-avaz həyat, nə yanıq növhələrin var?!*

"Romantizmin simvolik motivləri insanın təbiət və cəmiyyətlə əlaqəsinə işarədir" (Турчин, 1981: 251) – mülahizəsi bu məqamda daha doğru və gərəklidir. Çünki romantiklərin yuxarıda adları çəkilən şeirlərində təbiətin və fəsillərin mənzərəsini əks etdirmək əsas məqsəd olmamışdır. Onlarda, əsasən, insanların ağrı və acıları əks etdirilmişdir. Həmin əsərlər üçün ümumi bir quruluş hakimdir: "Şeirin əvvəlində sırf təbiəti təsvir edən lövhə verilirsə, çox keçmədən şair həmin təsviri cəmiyyətlə, insanlarla əlaqələndirir" (Talıbzadə, 1985: 121). Beləliklə, romantik şeirdə təbiət və ilin fəsilləri insanın hər yerdə və bütün illər boyu ağrılı-acılı taleyinin inikasıdır.

Hətta maraqlıdır ki, romantik poeziyada təbiətin ayrılmaz hissəsi olan gül xüsusi rəmzi məna daşıyır (Веселовский, 1940: 11). H.Cavid şeirlərində gül, çiçək çox vaxt qadınla yanaşı təqdim edilir. Bu təqdimatda gözəlin – insanın həyatı ilə gülün və çiçəyin həyatı arasında bir uyğunluq diqqəti cəlb edir. H.Cavid "Qonşu çiçəyi" şeirində (Cavid, 1968-1971, I cild: 111) əvvəlcə çiçək su üçün "bəkliyor mavi gözlü bir mələk" – yazır. Gül rövnəqlənəndən sonra isə şair başqa bir vəziyyəti təqdim edir:

*O gül əndamı iştə seyr ediniz,*
*Pəmbə güldən gözəl deyil də nədir?*

Şeirdə gözəlin güldən üstün tutulması faktının özü belə romantik simvollaşdırma üçün səciyyəvi olan insanla gül arasında paralelliyə qətiyyən xələl gətirmir. Çünki həmin üstünlüyün özü də məhz bu paralellikdən meydana çıxır.

H.Cavid yaradıcılığındakı başqa bir məqam daha mənalıdır.

*Sarı gül! Ey şikəstə, solğun nur!*
*Neçin aludeyi-xəyal oldun?!*
*Cismi-nazindən başqa rəmz oxunur,*
*Söylə, bir söylə, sən neçin soldun?*

(Cavid, 1968-1971, I cild: 80).

A.Səhhətin bir şeirində müşahidə edilən "soluq çiçək" (Səhhət, 1976: 28) kimi H.Cavid də bu şeirdə mələyin "çeşmi-nazində başqa *rəmz* (Kursiv bizimdir – K.Ə.) oxunur" deməsi ilə bərabər "sarı gül"ü ölümün rəmzi kimi işlətmişdir. Beləliklə, "təbiət subyektivləşdirilir, təbiət predmetlərinə - peyzaja fərdi münasibət ifadə edilir" (Хорват, 1973: 211.).

H.Cavidin "Çiçək sevgisi" şeirində (Cavid, 1968-1971, I cild: 50) isə qəhrəman öz çiçəyini axtarır:

*Xayır, mən onları sevməm; mənimki pək ayrı,*
*Şu yanda, bax şu kiçik yerdə ayrı olmalıdır.*

Axırda qızın ölümü məlum olanda, qəti şəkildə meydana çıxır ki, gül qəhrəmanın hisslərini əks etdirməkdə tamamilə simvolik məzmun daşıyır. Digər tərəfdən, romantik şeirdə gülün rəmzi məna ilə yüklənməsi həmin şeirdə gül və çiçəklərin əksər hallarda solğun, ölgün və sarı olmasındadır. Bu mənada A.Şaiq yaradıcılığından da iki beyti xatırlatmaq yerinə düşər:

*Hanı rəngin çiçəklərin, a çəmən,*
*Bir gözəl dəstə gül tutaydım mən?* (Şaiq, 1968: 40).

Yaxud:

*Nə çılpaq, solğun, ey bahar çiçəyi,*
*Sənə qıydı nasıl əcəl mələyim?* (Şaiq, 1968: 51).

Gül ilə simvollaşdırma M.Hadi şeirində daha çox lalə ilə bağlıdır. M.Hadi yaradıcılığının ilk nümunələrində LALƏ çiçək, gül, qönçə ifadələri ilə yanaşı işlənir və bir növ onlara qarışır, lakin ad mənasını itirmir. Yəni bu halda onun "yan-yörəsində" zanbaq, həmşəbahar və s. yoxdur. Bir az sonra isə M.Hadi yara-

dıcılığında lalə obrazı qüvvətlənir və xüsusi məna daşıyır:

*Ol gördüyün qaramı düşüb qəlbi-laləyə?*
*Qəlbim kimiydi bəsləmədə lalə dağını* (Hadi, 1978: 90).

Yaxud:

*Qəbrimdə açan gülləri seyr et, a şükufəm,*
*Könlüm dağıdır laleyi-həmralər içində* (Hadi, 1978: 130).

Şairin işlətdiyi "könül dağı" lalənin simvolik məzmunu ilə fərdilikdən çıxıb sosial məna daşıyır. Çünki "simvolik obrazlar yarandığı dövrün ictimai-siyasi mübarizəsində mühüm əhəmiyyət kəsb edir" (Прокофьев, 1966: 33).

H.Cavidin dram əsərlərində də təbiət təsvirlərinə xüsusi diqqət verilmişdir.

***"Şeyda"**: "Bağçada ətrafı yaşıllıqlar, güllər və çiçəklərlə süslənmiş fəvvarəli hovuz... Kənarda çinarlar, sərvlər... oturmağa məxsus uzun sıralar... Ta uzaqlarda gözəl və şairanə mənzərələr...."* (Cavid, 1958: 285); ***"Şeyx Sənan"**: "Yol üzərində kiçik bir balkon... Qarşıda hovuzlu, çiçəkli bir bağça" (*Cavid, 1968-1971, I cild: *183).* ***"İblis"**: "Bağdad civarında ağadıq, mənzərəli bir guşə... Bir tərəfdə dışarısı yaşıllıqlarla mühat bir çardaq, içərisi həsirlə döşənmiş sadə bir qülbəcik" (*Cavid, 1968-1971, II cild: *7);* ***"Afət"**: "Dəniz kənarında, bağçada bir xiyaban... Xiyaban ilə dəniz arasında ortası açıq, otlar, sarmaşıqlarla örtülü bir çardaq... Xiyaban və çardaq içində - sağda, solda sıralar..." (*Cavid, 1968-1971, II cild: *128).* ***"Uçurum"**: "İstanbulda Cəlala məxsus elektriklə təsvir edilmiş böyük bir kitabxana... Divarlar bir çox dəyərli lövhələr, tarixi rəsmlərlə süslənmiş, masa üzərində bir tağım məcmuələr, kitablar; heykəlciklər və bir qafa tası görünür. Ətrafda rəngarəng gül dəmətləri gözə çarpır. Kitabxananın dənizə baxar iki-üç pəncərəsi, iki qapısı vardır. Qapılardan biri saraya, digəri salona açılır" (*Cavid, 1968-1971, I cild: *268);* ***"Topal Teymur"**: "Burasda Yıldırım Bəyazid sarayında süslü bir salon. Gecə... hər tərəf*

*mumlarla donatılmış. Bir guşədə çini saxsıda... hənuz açmamış hərdəmbahar gülü gözə çarpar. Yeni doğmuş ayla yıldızlar da uzaqdan görünərək şairənə bir mənzərə ərz edər" (*Cavid, 1968-1971, II cild: *37-38), yaxud; "Eyni səhnə... Gündüz... qarşıdakı böyük pəncərədən saray bağçasını süsləyən yaşıl ağaclar, rəngarəng çiçəklər nəzərləri oxşar... Salona qoyulmuş saxsıdakı fidanın dal budaqları əvvəlkinə görə daha böyümüş və tam mənasilə açılmış güllər aradan bir xeyli zaman keçdiyini xeyli xatırladır": (*Cavid, 1968-1971, III cild: *54);* ***"Səyavuş"****: "Keykavusun sarayında son dərəcə parlaq bir salon... Bağçaya baxır, əlvan camlı, ipək pərdəli böyük pəncərələr..."*(Cavid, 1958: 37-38), ***"Knyaz"****: "Berlində üst qatda, alman zövqünə uyğun süslü bir salon. Sağda, solda və qarşıda balkona açılar birər qapı. Balkon qapısının iki tərəfində birər böyük pəncərə... Balkon və pəncərələrin ətrafında rəngarəng çiçəklər gözləri oxşar"* (Cavid, 1968-1971, III cild: *149);* ***"Xəyyam"****: "Son dərəcə süslü və şairanə bir oda... Ortada ufaq və yuvarlaq masalar və sandaliyələr. Ətrafda nimtaxtlar üzərində səccadələr, balışlar və döşəklər. Masa üzərindəki şərab dəstiləri, qədəhlər və məzələr, çini saxsılardakı çiçəklər gözlərə bədii zövq verir"* (Cavid, 1968-1971, III cild: 254).

H.Cavidin, demək olar ki, bütün dram əsərlərində füsunkar təbiət özünün bir parçası ilə çıxış edir. Çiçəklər, çinar, sərv, bağça, ağaclıq, xiyaban, gül dəmətləri romantik sənətkarın pyeslərində təbiətin "səlahiyyətli səfirləri"dir. Bütün bunlar H. Cavid üçün mənzərə, peyzaj yaratmaq məqsədi deyildir. "Romantiklərin təbiətə münasibətində, təbiətin əbədiliyi haqqında təsəvvürlər əsas yer tutur" (Славгородская, 1982: 186). Bu da öz növbəsində panteizim ilə bağlı idi.

*H.Cavid bəzən "təbiətsiz" məkanlar da göstərir: "Xəyyamın iş odası... Bir yanda heyət elminə aid rəsədxana alətləri, bir yanda kütübxanə. İbn Sinanın əl məhsulu olan böyük*

*rəsmi divardan asılmış. Tələbələr çalışır. Kimipeykar ilə həndəsi şəkillər çəkir, kimi durbinlə yan pəncərədən günəşə baxır, kimi üstürlabla və bəziləri də kitab oxumaqla məşğuldur” (*Cavid, 1968-1971, III cild: *255). Yaxud “Mətbəəyə məxsus böyük müdiriyyət odası. Odanın bir qapısı ilə iki pəncərəsi sağ tərəfdən caddəyə açılır. Digər qapısı da sol tərəfdə-mətbəəyə enmək üzrə daima açıqdır. Divarda təqvimlər, xəritələr, teleqraf kağızları və məktublar asılmış... Sağda və solda sandalyalar və bir neçə masa... Masalar üzərində idarəyə məxsus kitablar, risalələr, məcmuələr, qəzetlər və sairə...”* (Cavid, 1958: 269) ***(“Şeyda”).***

Göründüyü kimi, H.Cavid hər yerdə təbiəti əsərə gətirmir. Deməli, sənətkar üçün təbiət predmetlərinə müraciət məqsədlidir. Bəs bu məqsəd nədən ibarətdir?

Məlumdur ki, təbiət saflıq və təmizliyin rəmzidir. Cəmiyyət daxilində insana “bəxş” edilmiş narazılıq da çox hallarda təbiətə gedişlə yüngülləşdirilir. Bu mənada H.Cavid insanla təbiəti həmişə üz-üzə qoyur. Belə bir “üzləşmədə” obrazların xarakterik keyfiyyətləri ya təsdiq edilir, ya da onların yeni keyfiyyət qazanması bir vəzifə kimi irəli sürülür. Romantiklər daha çox sosial problemlərin, insani münasibətlərin təhlilində, öz gələcək arzularının ifadəsində simvollardan istifadəni mühüm sənətkarlıq amili kimi götürmüşlər. Bu mənada M.Hadinin şeirlərindən birinin sərlövhəsində görünən “ictimai rəmzlər” (Hadi, 1978: 324) ifadəsinə də təsadüf kimi baxmaq olmaz.

*Əcəba ağlamazmıdın, gözəlim,*
*Görmüş olsaydın o şəhidanı,*
*Uğrunda axan qızıl qanı,*
*Bir qızarmazdımı üzün, a gülüm* (Hadi, 1978: 180).

Burada “gözəlim”, “a gülüm” ifadələri lirik qəhrəmanın öz sevgilisinə (qıza!) müraciəti deyildir. Qoyulmuş ictimai-sosial problem arxasında azadlıq obrazı dayanmışdır və həmin ifadələr məhz azadlığa işarədir. Romantik poeziyanın “Duşizeyi-hürriy-

yətə", "Dilbəri-hürriyyətə", "Hürriyyət pərisinə" adlı nümunələri romantik sənətkarların azadlıqla, azadlığın rəmzi ifadəsi ilə bağlı imkanlarını layiqincə əks etdirə bilir. Müəlliflər bu şeirlərində yalnız öz arzularını, istəklərini qələmə almırlar, həm də simvollarla bağlı romantik düşüncə tərzlərini nümayiş etdirirlər.

Bəlkə elə bu təfəkkür tərzinin nəticəsidir ki, M.Hadi türk sənətkarı Xalidə Salehə həsr etdiyi məqaləsində onu "pəriyi-hürriyyət" adlandırır: "Bu pəriyi-hürriyyətin əcniheyi-əfkar və şəhbal xəyalından süzülən həqiqətlər o qədər gözəl, o qədər dil-nişindir ki, adətən insanın ruhunu ninniləyir, hissiyyatını oxşayır, könlünə təzə həyat bəxş edir" (Hadi, "Tərəqqi" qəzeti, 7 iyun, 1909.).

Romantik şeirdə elə məqamlar da vardır ki, azadlıqla irtica məhz simvolik adlar vasitəsilə üz-üzə qoyulur. M.Hadi yazır:

*Ey sübh çıx! Və bat yerə, ey sitareyi-siyah!*

*(*Hadi, 1978: *277).*

Yaxud:

*Açıl, ey sübh, leyli-yeldadən!* (Hadi, 1978: 24).

Hər iki misrada "sübh" – azadlıq, "sitareyi-siyah" və "leyli-yelda" – irtica mənasını verir.

A.Səhhət yazır:

*Vəqta ki, keçər bu leyli-zülmət,*
*İşraq edər əxtəri-həqiqət* (Səhhət, 1975: 27).

A.Səhhətin irsini şərh edərkən şairin əsərlərinə müqəddiməsində prof. K.Talıbzadə yazır: "Azadlıq mövzusu Səhhətin obrazlar sistemini də, ayrı-ayrı sözlərin, ifadələrin rəmzi, məcazi mənalarını da təyin edirdi. Romantik şairin tez-tez işlətdiyi bir çox sözlər dərya, dəniz, səhra, üfüq, ümman, ildırım, şimşək, vulkan, bulud, fırtına, qiyamət, işıq, şölə və s. azadlıq mövzusunun bu və ya digər mənasını, hissəsini ifadə etmək üçün istifadə olunurdu" (Səhhət, 1975: 9).

Romantik şeirin üsyankar xarakterinə uyğun olan simvolik

obrazlar bir tərəfdən romantizm tələblərinin əyani nümayişi idisə, digər tərəfdən də, şübhəsiz, romantiklərin "müdafiə dəbilqələri" kimi çıxış edirdilər.

Ümumiyyətlə, romantik şeirdə irtica və onunla bağlı məsələlər "gecə", "qaranlıq" rəmzləri ilə daha çox ifadə edilmişdir. Bu mənada bir çox şeirlərə verilmiş aşağıdakı adları təsadüfi hesab etmək olmaz: "Gecəydi", "Qüruba qarşı", "Bu gecə", (H.Cavid); "Axşam tənəzzöhləri", "Ləyali vüsal, yaxud keçən gecə", "Dün axşamın ilhamı-yetimanəsi", "... Ulduzlu bir gecədə müharibə tamaşası" (M.Hadi). Bunlar sübut edir ki, romantiklər qürub çağını, axşam və gecəni poeziyaya gətirməklə qəhrəmanların və özlərinin düşündükləri əhvali-ruhiyyəni qələmə alırlar. Öz sevgilisi ilə görüşmək üçün *"Vücudu xəstə, mükəddər, həyatı pək durğun"* (Cavid, 1968-1971, I cild: 38) bir gəncə yalnız gecə fürsət olmuşdur. Ona görə yox ki, bu qəhrəman kimdənsə daldalanır, sevgisinin faş olmasından qorxur. Ona görə ki, həyatın müqaviməti qarşısında gənc oğlan öz nicatını sevgilisi ilə qovuşmaqda tapır. Lakin bu da baş tutmayanda ölüm son çıxış yolu olur. O:

*Könüllər qan, çiçəklər qan, bütün çöllər, çəmənlər qan,*
*Dənizlər qan, buludlar qan, hava qan, iştə hər yer qan...*

(Cavid, 1968-1971, I cild: 88).

deyərək öz etiraz səsini ucaldır. Eynilə "Bu gecə" şeiri də "Dərin-dərin uçurumlar, vərəmli fırtınalar"a qarşı çevrilmişdir (Cavid, 1968-1971, I cild: 118).

M.Hadi isə "Axşam tənəzzöhləri" şeirində (Hadi, 1978: 62-64) hər tərəfi seyr edir, adamları nəzərdən keçirir və qəflətdə qalmağa öz etirazını bildirir. Sərsəri, avara, və səfeh gəzməyi pisləyir. "Xəyali-vüsal, yaxud keçən gecə" şeirində (Hadi, 1978: 107) aşiqlə məşuqun görüşündən danışılır. Lakin təəssüflər olsun ki, bu, artıq arxada qalmışdır. "Dün axşamın ilhami-yetimanəsi" şeirində hüzn və möhnət təsvir edilir (Hadi, 1978: 229). Şair yazır ki:

*Qaçsın yanımdan istəsə, yarani-bivəfa,*
*Qəm yardır mənə, bunu sevmiş təbiət.*

M.Hadinin "Ulduzlu bir gecədə müharibə tamaşası..." şeirində də müharibə mənzərələri əks etdirilmişdir:

*Nə hikmətli şeydir bu atəşfəşan,*
*Gecə gündüz olmuş Günəş doğmadan* (Hadi, 1978: 297).

Bu mənada M.Hadinin "Şirvan xatiratı. Rövşənayi-leyldə bir xərabəzarın mənzərəsi" şeiri (Hadi, 1978: 48-49) çox səciyyəvidir. Şeirin ilk beyti belədir:

*Mehtab bir şəb idi, hava müşkbar idi,*
*Afəqə nur axardı, səma ləməzar idi.*

Buradan aydın olur ki, şair gecə vaxtı müşahidə aparır. O, üzünü göylərə tutur və asimanın küdurətdən azad olmasının, bu azadlığın dahilərin xəyalına bənzəməsinin, fəzanın ayna kimi təmiz görünməsinin şahidi olur. Lakin şair birdən-birə nəzərlərini yerə dikəndə gözlərinə xərabəzar sataşır və "qəmli mənzərələr aşkar" olur. Şeirin sonunda müəllif "Bülbül yerində indi oturmuş idi zəğan" deməklə öz narahatlığını ifadə edir.

Hətta belə demək mümkünsə, "müzlim gecə" romantik poeziyada bədii obraz səviyyəsinə qalxır. A.Şaiq yazır:

*Müzlim gecədə nişanlı bir qız,*
*Bir hüzn, kədər içində yalnız,*
*Atəşli düşüncələrlə inlər* (Şaiq, 1968: 19).

M.Hadi şeirində hətta kainat da "müzlim" görünür (Hadi, 1978: 250).

Məlumdur ki, Azərbaycan romantizmi Birinci dünya müharibəsi dövründə yeni xüsusiyyətlər qazandı. Belə ki, müharibə dəhşətləri romantiklərin bəşəri narahatlığının nüvəsində dayandı. Böyük arzularla yaşayan romantik sənətkarları hərb fəlakətləri məşğul etməyə bilməzdi. Onlar müharibəni də həm açıq, həm də rəmz-bənzətmələrlə ifadə etməyi üstün

tuturdular. M.Hadi: *"Şəb çox uzandı, yoxmu həqiqət sabah, ah!"* (Hadi, 1978: 239).

"Şəb" – "hərb" mənasını daşıyır. Eynilə, H.Cavid də "Gecəydi" şeirində (Cavid, 1968-1971, I cild: 38-39) insanın irticadan, zülmdən doğan vəziyyətini, taleyini əks etdirmişsə, "Hərb və fəlakət" şeirində "gecə" fonunda müharibə dəhşətlərini qələmə almışdır (Cavid, 1968-1971, I cild: 61-62).

Romantik poeziyada bəzən elə şeirlərə rast gəlmək mümkündür ki, onlardakı poetik istiqamətin mənasını, hətta müstəqim görünən bir çox sözlərin rəmz kimi işlənməsini müəyyənləşdirmək xeyli çətin olur. Bu hal xüsusilə M.Hadinin məhəbbətə həsr edilmiş şeirlərində özünü göstərir.

Doğru fikirdir ki, M.Hadi poeziyasında saf sevgi şeirləri azdır və əgər şair nə vaxtsa məhəbbətdən danışırsa, orada da nəhayət, "ceyran baxışlı gözəli azadlıq nərisi əvəz edir" (Mirəhmədov, 1962: 38). Bu mənada "Mələkim, nədir ol?" şeirində gözəlin təsviri verilir. Lakin bütün bu təsvirlər oxucu üçün gözəllə yanaşı, bəzən gözəldən də çox azadlığı xatırladır:

*Tiflanə tərz ilə gəlir ağuşi-nazinə -*
*Tifli - dilim, aç ona, gəlsin, qucağını.*
yaxud:
*Ey kainatı-ruhuma sultan olan pəri!*
*Yandır biladi-qəlbimi, pozma dimağını (*Hadi, 1978: *90-91).*

Ümumiyyətlə, "poetik simvolun quruluşu" mürəkkəb və çoxcəhətlidir (Губер, 1914: 111). Bəzi hallarda bədii rəmzin təyini o qədər də asan olmadığı halda, bəzən sənətkar işlətdiyi rəmzlərin düzgün oxunuşuna özü imkan yaradır. Başqa sözlə, əsərdə, bədii yaradıcılıqda həm məsələ verilir, həm də onun həlli, cavabı göstərilir. Bu mənada qeyd edək ki, M.Hadinin "Pəriyi-vicdan" şeirində bütün söhbət azadlıq üzərində qurulduğuna görə, oxucuda "vicdan pərisinin azadlığa işarə edilməsi barədə ilk təsəvvür yaranır. Şairin "Bir əməlim" şeirində: "Ey

vətən! Ey pəriyi-vicdanım" (Hadi, 1978: 11) misrası ilə rastlaşırıq, o halda şübhə yeri qalmır ki, M.Hadi "vicdan pərisi" dedikdə, məhz vətəni nəzərdə tutmuşdur.

Bədii rəmzin açılışı faktına M.Hadinin başqa bir şeirində də gözəl nümunə vardır:

*Bir ildırım olsam da, əritsəm gecələrdən –*
*Bir parça olan örtüyü gül üzlü səhərdən.*
*Gül üzlü səhər, iştə, qadındır bu firiştə,*
*Yol göstəri versin, girəlim biz də behiştə*

*(*Hadi, 1978: *265).*

"Gül üzlü səhər" ifadəsini şair öz etirafına görə, "qadın" sözünün əvəzində işlətmişdir. Doğrudur, ilk beytdəki "bir parça örtük" söhbəti qadın haqqında düşünməyə müəyyən əsas verirdi. Lakin bu fikir qətiləşəndən sonra başqa bir cəhət də məlum olur: şair "ildırım" sözünü "inqilab" mənasında işlətmişdir.

A.Şaiq də "Bu köhnə cahanı təməlindən uçurmaq" müraciətində (Şaiq, 1968: 11) üzünü "ildırıma", "fırtınaya", "tufana", hətta başqa bir məqamda "tufanlı ildırımlara" tutanda (Şaiq, 1968: 16) yenə poetik fikrin mərkəzində inqilab və inqilabi məsələlər dayanırdı.

## 2. MİFOLOJİ OBRAZLAR

XX əsr Azərbaycan romantizmi poetikasında folklorla, mifologiya ilə bağlı simvolik obrazlar da xüsusi yer tutur.

Ümumiyyətlə, XX əsrin əvvəlləri elə bir zaman idi ki, Azərbaycan mədəni həyatının bütün sahələrində folklora güclü meyil yaranmışdı. Bu dövr həm də A.Şaiqin hörmətlə danışdığı F.Köçərlinin "Balalara hədiyyə" (Şaiq, 1977: 123) və A.Səhhətin bəhs etdiyi H.Zərdabinin "Kəşküli-niğəm" (Səhhət, 1976: 49) kitablarının yarandığı dövr idi.

Əgər ədəbiyyatımızın qədim dövründə folklor daha çox poetik fikrin mənbəyi kimi mövcud idisə, artıq maarifçilik mərhələsində, maarifçilik dövründə xalq nümunələri haqqında mülahizə söyləmək, onları toplayıb nəşr etmək xüsusi vətəndaşlıq işinə çevrildi və "böyük bir haqq" (Şaiq) mənası kəsb etdi. Lakin bu, heç də o demək deyil ki, zəngin folklor irsi öz qaynaq funksiyasını itirmişdir. Əksinə, XX əsrin əvvəllərinə məxsus realizm və eyni zamanda, romantizm üçün şifahi xalq ədəbiyyatı qida mənbəyi olaraq qalmış (İbadoğlu, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, 1976, №4: 65-66), həm də klassik romantizm ənənələrinin davamı kimi yeni keyfiyyət, yeni məzmun qazanmışdır.

XX əsr Azərbaycan romantikləri folklora dair fikirlər söyləmiş, nəğmə və şərqilərin tərbiyəvi əhəmiyyətindən bəhs açmış, xalq ədəbiyyatını nəzəri cəhətdən təhlilə girişmişlər. Bu baxımdan, A.Şaiqin "Dilimiz və ədəbiyyatımız", A.Səhhətin "Nəğmə və musiqinin məktəblərdə əhəmiyyəti" məqalələri və H.Cavidlə A.Şaiqin birlikdə yazdıqları "Ədəbiyyat dərsləri" kitablarındakı el ədəbiyyatına dair mülahizələr maraq doğurur. A.Şaiq yazırdı: "Məişətimizin birər aynası olan hədsiz-hesabsız bayatı və şikəstələrimiz, məsəllərimiz, tapmacalarımız, ürəkləri ən dərindən çırpındıran, ruhları səmadakı şəfəqlər qədər

yüksəldən mahnılarımız, nəğmələrimiz qibtə ediləcək səadətlərdir" (Şaiq, 1977: 119). A.Səhhətin də aşağıdakı sözləri diqqətəlayiqdir: "Mədəni millətlərdə gördüyümüz böyük fədəkarlıqlar bütün uşaqlıqda öyrədilmiş bu kimi nəğmələrin, şərqilərin nəticəsidir" (Səhhət, 1976: 49).

Hər iki ədib folklor nümunələrini millilik məzmunu, xəlqilik mahiyyəti daşımalarına görə qiymətləndirir, onlara məhz bu cəhətdən üstünlük verirdilər. Vaxtilə slavyan xalqları romantizminin nəzəriyyəçiləri də, rus romantikləri də folkloru "xalqın mənəvi mədəniyyətinin mühüm hissəsi" hesab etmiş (Кравцов, 1972: 276), onu "milli mədəniyyətin estetik komponenti" kimi mənalandırmışlar (Юсуфов, 1970: 32).

Şaiq öz məqalələrində folklor nümunələrini çox heyranlıqla qiymətəndirir: "Hələ əsrlərdən bəri ağızdan-ağıza keçmiş aşıqlarımızın oxuduğu yanıqlı şeirlər, mahnılar, hekayələr, nağıllar heç bir millətdə görünməmiş qiymətli bir xəzinə olduğunu iddia edərsək, xəta deyil zənn edirəm" (Şaiq, 1977: 113). Müəllif həmçinin bəzi janrlara aid nümunələr gətirir, onların sənətkarlıq cəhətdən səciyyəsini verir, folklor janrı ilə ifadə olunan əhvali-ruhiyyə arasındakı üzvi əlaqəni göstərir. Onun:

*Ay gedər batan yerə,*
*Pərilər yatan yerə,*
*Sinəmi nişan qoydum,*
*Yar oxun atan yerə, –*

bayatısını təhlil etməsi, bir növ burada romantik obrazların xarakterinə uyğun cəhətləri meydana çıxarması təbii səslənir. Bayatılar, məsəllər, sayaçı sözlər "Bir çox təcrübələr görmüş, acılıqlar dadmış camaatımızın sineyi-fitrətindən çıxan" hikmətlər kimi təqdim olunur.

A.Səhhətin məqaləsində problemə bir qədər başqa münasibətlə yanaşılmışdır: "Əsgər musiqi arxasında gedər ikən intizamı saxlar, yorğunluğuna daha çox davamlı olar. Onun üçündür ki,

hammallar da ağır bir yük qaldırmaq istədikdə və yainki cütçülər kotan sürdükləri vaxt hərəkətlərini nəğmələr, şərqilər vasitəsilə intizama salırlar" (Səhhət, 1976: 48). Müəllif nəğmə və şərqilərin insan əməyini yüngülləşdirmək xüsusiyyətini ilk plana çəkir, onları adamların gündəlik iş və fəaliyyət yoldaşı kimi təqdim edir. "Mədəni millətlərdə gördüyümüz böyük fədakarlıqlar bütün uşaqlıqda öyrədilmiş bu kimi nəğmələrin, şərqilərin nəticəsidir" (Səhhət, 1976: 49) fikrində isə Səhhət folklor nümunələrinin tərbiyəvi mahiyyətini, təsiredici gücünü göstərmək istəmişdir. Buna görə də, müəllif öz məqaləsi ilə nəğmənin məktəblərdə tədris olunması zəruriliyini sübut etmişdir.

Cavid və Şaiq "Ədəbiyyat dərsləri" kitabında şifahi xalq ədəbiyyatının xüsusiyyətlərindən, yaranma üsullarından, həmçinin el ədəbiyyatı ilə yazılı ədəbiyyatın əlaqələrindən bəhs etmişlər. Onlar yazırlar: "El ədəbiyyatının əksəri pək əski zamanlardan bəhs edər. Və bizə ulu babalarımızdan bir pəyam söylər. El ata-baba mirası kibi tanıdıqları bu ədəbiyyatı sevə-sevə hafizəsində saxlar və nəhayət, artıq ağızlarda az söylənməyə başladıqdan get-gedə zəifləyərək mövqeyini yazı ədəbiyyatına tərk edər" (Cavid, Şaiq, 1919: 70).

XX əsr Azərbaycan romantizminin bədii təcrübəsində folklordan, folklor obrazlarından bəhrələnmə spesifik xüsusiyyətlərə malikdir. Bunun tam aydınlığı üçün H.Cavid yaradıcılığı ilə bağlı iki məqama diqqət yetirmək yerinə düşər.

Tarixi-ədəbi faktlar göstərir ki, hökmdarların sarayında əyləncə, gülüş yaratmağa qadir təlxəklər və masqaraçılar saxlanarmış. Onlar müəyyən vaxtlarda oyunlar çıxarar, kimisə məsxərəyə qoyar və saray əyanlarını güldürərmişlər (Şərq xalqlarının lətifələri, 1982: 3-6). Bəzən isə həmin oyunlar birbaşa teatr səciyyəsi daşıyardı. "Topal Teymur" əsərinin süjetində də belə bir xətt mühüm yer tutur.

Yıldırım Bəyazid öz sarayında saxladığı Cücəyə bəzi

oyunlar çıxarmağı tapşırır. O məqam daha mənalı və daha əhəmiyyətlidir ki, Yıldırım Cücəyə Topal Teymurun rolunu oynamaq haqqında sərəncam verir. Cücə öz geyim və hərəkətləri ilə Teymuru yamsılamağa başlayır. Bu zaman kənarda dayanan masqaralar onu sürəkli qəhqəhələrlə qarşılayır və oyunun yüksək səviyyədə alınmasına imkan və şərait yaradırlar. Maraqlıdır ki, Yıldırım öz replika və sualları ilə sanki rollardan birini ifa edir. Yıldırımın "Eşq olsun, eşq olsun" sözləri Cücənin ünvanına yönələrək, onun ifaçılığını alqışlamaq məqsədi daşıyırsa, "Sonra nə oldu?", "Sonra... Daha sonra?", "Ya bu tökdüyün qanlara, bu qopardığın tufanlara nə məna verəlim?" sualları isə tamaşanın iştirakçılarından birinin çıxışını xatırladır.

Cücə son dərəcə məğrur görkəm alaraq deyir: *"Bəlx şəhərinə vardım, Əmir Hüseynin işini bitirdim. Təkrar Səmərqəndə döndüm, əmir elan olundum... Xarəzmə girdim, qələlərini devirdim. Azərbaycan qucağıma atıldı, Gürcüstan təslim olaraq qurtuldu. Ermənistan və Gürcüstan xəracgüzarım oldu. Qaraqoyunlular üsyan etdi, ayaq altında əzildi. Şah Mənsur tüğyan etdi, bir anda başı kəsildi. Əvət, mənəm Cahangir dahi!... Mənəm hərb allahı!..."* (Cavid, 1968-1971, III cild: 49). Bu sözlərdə Topal Teymurun mənəmliyi, lovğalığı göstərilir və ifşa edilir. Həmçinin maraqlıdır ki, xalq dramlarında bu cür masqara oyunları vasitəsi ilə hökmdarların özünü də məsxərəyə qoyurlar. Belə ki, Sultan Mahmudun sarayındakı məşhur Təlxək öz çıxışları ilə çox vaxt sultana qarşı dayanır və onu "yüngülvari" tənqid etməklə gülüş yaradırmış. "Topal Teymur" pyesindəki Cücənin Teymura işarə ilə Yıldırımın qulağına dediyi: *"O dəlidir, sən də abdal"* sözləri (Cavid, 1968-1971, III cild: 48) də məhz belə səciyyə daşıyır.

H.Cavidin "Səyavuş" faciəsində isə başqa bir xalq dramının xüsusiyyətlərindən istifadə olunmuşdur. Belə ki, məşhur olan "Kosa gəlin" oyununda mənfi obraz kimi düşünülmüş Kosa oyunun axırında öldürülür. Camaat isə sevinir və şadlıq edirlər.

H.Cavidin “Səyavuş” əsərində də xalq dramının məhz bu xüsusiyyəti öz bədii inikasını tapmışdır.

Faciədən məlum olur ki, Səyavuş Keykavusun sarayında olarkən, atasının ikinci arvadı Südabə onunla zövq və səfa keçirmək istəyir. Bu iyrənc təklifdən sarsılan Səyavuş oranı tərk edərək, dayısı Əfrasiyabın sarayına gəlir. Lakin Səyavuşun uzaqlaşması Südabənin ehtiraslarını qətiyyən soyutmur. İndi artıq o, Səyavuşdan intiqam almaq istəyir və bu məqsədlə də Kosa ilə Rəqqasəni Çin elçisi paltarında Əfrasiyabın sarayına göndərir.

Əsərdə də Kosa xalq dramında olduğu kimi, mənfi sifətlərin mücəssiməsidir. O, zəhər tökülmüş qədəhi əlinə alaraq çılğınlıqla deyir:

*Bu bir zəhər ki, ilk öncə güldürür,*
*Güldürür, güldürür, sonra öldürür.*
*Səyavuşa məxsus qədəh iştə bu!*
*Bizdən ona dadlı, sürəkli uyqu!* (Cavid, 1958: 473)

Kosa özünü Rəqqasənin “kölgəsi” hesab edir və bir an belə ondan ayrılmaq istəmir. Hətta cəngavərlərə şərab süzmək məqamı gələndə, bu işi Kosa özü yerinə yetirməyə çalışır. Lakin cəngavərlərdən biri məhz Rəqqasənin mey süzməsini təkid edəndə, Kosa tez razılaşır. Çünki Kosa öz məqsədini Rəqqasə ilə həyata keçirə bilər və buna görə də, heç vaxt ondan ayrılmaq olmaz. Bu məsələdə müvəfəqiyyət qazanmaq istəyən Kosanın hiyləgərliyini duyan Birinci cəngavər Kosaya deyir: *“O bir mələk, sən şeytan!” Bu da tamamilə təbiidir. Ona görə ki, Kosa bütün hərəkət və davranışında, biclik və danışığında məhz iblisliyi yaşadır.*

Faciədə Kosanın ifşa edilməsi prosesi Rəqqasə ilə başlayır. Bu təmiz, məsum qız Səyavuşun ölümünə razı ola bilmir. O, zəhərli qədəhi yerə çırparaq “Parçalanmalıdır bu qanlı tabut!”- deyir. Lakin Kosa ehtiyat üçün gətirdiyi zəhərli xəncəri çıxarırsa, bu da elə bir səmərə vermir. Firəngiz fürsət taparaq xəncərlə

Kosanı öldürür. Xalq dramında olduğu kimi, mənfi qüvvə məhv edilir.

H.Cavid bu xalq dramından istifadə zamanı başqa bir səciyyəvi xüsusiyyətə də sadiq qalmışdır. Belə ki, faciədə baş verən bu hadisə yaz günlərinə düşür. Çünki Rəqqasə Əfrasiyab sarayına yola düşməmişdən qabaq oxuduğu şərqidə deyir:

*Qayğısız baharın ılıq busəsi*
*Tellərimə qondu zülmət uçarkən.*
*Sərxoş bülbüllərin o bayğın səsi*
*Oxşadı ruhumu güllər açarkən (*Cavid, 1958: 429*).*

Məhz belə bir vaxtda Kosanın səfəri və ölümü xalq dramı ilə tamamilə səsləşir. Çünki "Kosa gəlin" oyununun mərasimlə bağlı mənası qurtaran qışın qovulması, başlayan yazın alqışlanmasıdır" (Sultanlı, 1964: 41). Göründüyü kimi, H.Cavid xalq dramında olan bu əlaməti və xüsusiyyəti də faciədə sənətkarlıqla inikas etdirmişdir.

Xalq dramı motivləri H.Cavid yaradıcılığında bədii vasitə kimi özünü göstərir. Sənətkar həmin motivlərdən istifadə edərək, fikir və düşüncələrini daha aydın axara salır. Cücə obrazı Topal Teymurun (yamsılamaq yolu ilə!) və Yıldırım Bəyazidin (qarşısında məsxərə çıxarmaqla!) kimliyini ortaya qoyur və Teymur sarayındakı Şair Kirmani obrazı ilə birləşərək, müəllifin haqsız vuruşlar əleyhinə etirazlarını daha da gurlaşdırır.

Əfsanəvi və əsatiri obrazlara, onların simvolikasına maraq Azərbaycan romantiklərinin yaradıcılığında xüsusi yer tutur. Bunun başlıca səbəbi isə romantizmin özündən, onun özünəməxsus "fantastika"sından irəli gəlirdi. Fikri daha zəngin boyalarla, daha çılğın, ehtiraslı formada, daha təmtəraqlı şəkildə vermək arzusu romantiklər üçün istər-istəməz əfsanə və əsatirlərə qayıtmaq qapılarını geniş açırdı. İndinin özündə belə bu fikir müasir səslənir ki, Hadinin "folklor sənətindən götürdüyü cəhətlər də haqqında danışılacaq qədər çoxdur" (Saləddin, 1982: 73).

Onun şeirlərində tez-tez əfsanəvi və əsatiri obrazların adına rast gəlmək olar: Nəmrud, Gavə, Zöhhak, Şəddad və sair. Bütün bunlar təsadüfi səciyyə daşımır. Romantik sənətkar həmin şəxsiyyətlərin adları ilə ciddi və məzmunlu fikirlər ifadə edir. Hətta bu məqamda M.Hadinin bir çox əfsanələri bilməsi, öyrənməsindən çox, bu əfsanə qəhrəmanlarının şeirdə hansı estetik funksiya daşımasından bəhs açmaq daha maraqlıdır.

M.Hadi 1908-ci ildə yazdığı "Təraneyi-vətənpərəstanə" şeirini İran inqilabına həsr etmişdir. Şair çox böyük qəzəblə inqilabı boğanlara qarşı üsyana qalxır, iranlıların riyalar içində qalmalarına, bu ölkədə zülm və sitəmin artmasına acıyır. Şair öz hisslərini daha qüvvətli şəkildə oxucuya çatdırmaq üçün məhz aşağıdakı kimi yazmaq zərurətinə gəlib çıxır:

*Vətəndə rəhmdil yox, qatili-səffaklər çoxdur.*
*Tapılmaz gərçi Gavə, ah... kim,*
*Zöhhaklər çoxdur!*
*Zəkidir gərçi millət, sahibi-idraklər çoxdur,*
*Nə hasil, Şeyx Fəzlüllah tək napaklər çoxdur..."*

(Hadi, 1978: 92).

Yeri gəlmişkən bu bəndlə əlaqədar verilmiş şərhi də xatırlayaq:

"Gavə, Zöhhak-Əsatirə görə, Zöhhak qədim iranın zalım padşahlarından biridir. Firdovsinin "Şahnamə"sində mənfi surətdir. Belə bir mif var ki, Zöhhakın hər çiyninə bir ilan yapışmış imiş; öz qanını sormasınlar – deyə o, ilanlara gündə iki uşağın beynini yedizdirərmiş. Dəmirçi Gavənin başçılığı ilə üsyankarlar onu taxtdan salıb Firidunu hökmdar seçmişlər" (Hadi, 1978: 440).

Bu qeyd Gavə və Zöhhak kimi mifik obrazların səciyyəvi keyfiyyətlərini aydınlaşdırır və eyni zamanda, M.Hadinin inqilabi mövqeyi haqqında ciddi təsəvvür yaradır. Şair İranın müasir şəraitinin dəqiq ifadəsi üçün iki əfsanəvi şəxsiyyəti qarşı- qarşıya

qoyur; Gavələrin hələlik tapılmadığına və Zöhhakların çoxluğuna təəssüf edir. Sahibi-idrakların üzə çıxa bilmədiklərini göstərir və sənətkar qətiyyəti ilə "Şeyx" sözü yanında "napak" kəlməsini yazır.

M.Hadi İrandakı inqilabi yüksəliş dövründə yazdığı "Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir" şeirində isə şah taxt-tacının məhv olma qarşısında qalmağını əsatirə görə Yəmən ölkəsində yaşamış zalım hökmdar Şəddadın qoşunlarının məhvi kimi mənalandırır:

*Mücahidlər, sizi alqışlar ərvahi şəhidanın,*
*Mübarizlər, sizə dai lisanı əhli-vicdanın,*
*Həqiqət etdiniz bala şükuhun mülki-iranın,*
*Qülubu lərzədari-xövfdür vicdansız ədanın:*
*Düçari-yəsdir ləşkərkeşi-Şəddadı Tehranın*

(Hadi, 1978: 169).

Göründüyü kimi, hər iki halda Gavə, Zöhhak və Şəddad adları fikri daha qüvvətli verməyin əsası olmuşdur. Sənətkar bütün bunlarla demək istəyir ki, zülmkarlar, qaniçənlər və eyni zamanda, fədakar qəhrəmanlar yalnız tarixdə, yalnız əfsanələrdə deyil, bu günümüzün özündə də vardır. Ona görə də, xoş həyat, xoş gələcək üçün mübarizə etmək ədalətsiz cəmiyyətlərdə həmişə mövcuddur. Digər tərəfdən bu detallar Hadi şeirinin, Azərbaycan romantizm nümunələrinin mübarizə gücünü də açıqca nümayiş etdirir.

M.Hadi yeri gəldikcə dini rəvayətlərdən də istifadə edirdi. "Dəqyanus dini rəvayətə görə, eramızdan əvvəl Misirdə zalım bir padşahdır və zülm etdiyi adamlardan biri guya ədalətli və xeyirli sözlər deyən Yəhya adlı peyğəmbər olmuşdur" (Hadi 1978: 445). Romantik şair həmin rəvayətdən 1908-ci ildə qələmə aldığı "Məhəmmədəli şahın qulağına azani-intibah" şeirində istifadə etmişdir. Burada göstərilir ki, şah İranı bəla səhrasına döndərmiş, xanimanlar söndürmüş, canlar yandırmış, mülki viran qoy-

muşdur. Məzlumlar isə zülm zənciri altında inləməkdədir. Bütün bu ağrıları, əzab və işgəncələri daha qabarıq göstərmək üçün məhz belə yazır:

*Fışqıran xuni-xuruşani-şəhidandır bu gün,*
*Sən də Dəqyanussan hürriyyətin Yəhyasına*
(Hadi, 1978: 153).

M.Hadi şeirində dini obraz öz din örtüyündən çıxır, yəni reallaşır, adiləşir və Məhəmmədəli şaha çevrilir. Bu çevrilmədə onun azadlığa nə qədər qatı düşmən olduğu bir daha təsdiq edilir.

A.Şaiqin xalq əfsanəsi əsasında yazılmış və "azadlıq haqqında gözəl ballada" (Məmmədov, 1983: 97) olan "Simurğ quşu" şeiri də səciyyəvidir. Şair 1914-cü ildə yazdığı bu əsərdə öz dövrünün ağrı və acısını verməyə səy göstərmişdir. Şeir ana və oğulun dialoqu üzərində qurulmuşdur.

Oğlan Qaf dağı haqqında, onun qış-yaz dumana bürünməsi barədə anasına sual verir. Günəşin nə vaxt doğacağının bilmək istəyir. Ana isə deyir:

–Oğlum, o dağ inləyən Qaf dağıdır,
*Simurğ quşu daim orda yaşayır.*
*Yaşar bilməm, çox əsrlərdən bəri,*
*Nə izi var, nə tozu, nə əsəri.*
*Onu görən, yerin bilən yox, oğlum.*
*İnsanlar ki, qan tökər, eylər zülüm,*
*O quş qanadların acıqla çırpar.*
*Uşaq kimi bitməz-tükənməz ağlar.*
*Göz yaşları dönər göydə dumana,*
*Qatar-qatar yayılar hər bir yana* (Şaiq, 1968: 64).

Elə əfsanədə də belədir ki, "Simurğ Qaf dağında yaşayırdı" (Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Xalq ədəbiyyatı, 1982: 34). Ana bu hadisəni danışandan sonra oğlanın ürəyinə Simurğ quşu əzab-əziyyətli bir quş kimi daxil olur. O, ananın dediyi "Çox çəkməmiş yetişəcək bir zaman, sevinəcək o quş,

şən-şən güləcək" sözlərindən sonra dərk edir ki, Simurğ quşu həmçinin onlara xoşbəxtlik gətirəcəkdir.

Şeirdə Simurğ quşu nağıllarda olduğu kimi, öz əfsanəvi funksiyasını saxlayır. Lakin A.Şaiq həmin obrazdan istifadə edərək, dövrə, həyata öz münasibətini bildirir. Folklor obrazı, yaxud motivi sənətkar qələmində özünün müasirliyi ilə çıxış edir.

Azərbaycan romantiklərinin bədii əsərlərində əfsanəyə sənətkar diqqəti H.Cavidin "Şeyx Sənan" faciəsi ilə yeni zirvə qazanır. Bu barədə akad. M.Cəfər çox düzgün olaraq yazır ki, "Cavid... eyni əfsanənin mayasında olan reallığa yeni bir məzmun vermiş, əfsanəni təbliğ etmək istədiyi fikrə böyük insan məhəbbəti qarşısında milli və dini təəssübkeşlik heçdir, gücsüzdür ideyasına tabe etmişdir" (Cəfər, "Azərbaycan" jurnalı 1969, № 11: 185-186).

H.Cavidin Tiflisdə yaşaması, orada olan Şeyx Sənan türbəsinə tamaşa etməsi, yerli əhali arasında yayılan əfsanələrə maraq göstərməsi əvvəlcə mövcud türbə haqqında şeir yazmaqla nəticələnmiş, daha sonra isə dramaturq "Şeyx Sənan" faciəsini yaratmışdır.

H.Cavidin bu əsəri ilə eyni adlı əfsanə arasındakı əlaqələr barədə ədəbiyyatşünas Z.Əkbərov tədqiqat aparmış və bu yöndə irəli sürdüyü mülahizə və tezislər öz elmi gücünü indi də saxlamaqdadır (Əkbərov, 1977: 3-32). Həqiqət naminə demək lazımdır ki, H.Cavid faciənin mövzusunu "Şeyx Sənan" əfsanəsindən, onun variantlarından götürmüşdür. Lakin başqa bir cəhəti də unutmaq olmaz. H.Cavidin həmin faciəsinin süjeti və obrazları ilə "Əsli-Kərəm" dastanının süjet və obrazları arasında xeyli yaxınlıq vardır. Buna görə də, yalnız əsərin yazılmasında deyil, "Şeyx Sənan" əfsanəsinin seçilməsində belə "Əsli-Kərəm" dastanının müəyyən qədər rolu olmuşdur. Hətta yeri gəlmişkən qeyd edək ki, "Əsli-Kərəm" dastanı da başdan-başa dini təəssübkeşlik əleyhinə yazılmamışdırmı? Dastanda məhz "dini

təəssüb bu iki gəncin saf, təmiz məhəbbətini nakam məhəbbətə çevirir" (Təhmasib, 1972: 278). Şeyx Sənan faciəsi ilə "Əsli-Kərəm" dastanının müqayisəsi onlar arasındakı tam yaxınlığı təsdiq edir. Hər iki "Məcnun" qəhrəman Tiflisə yüksək qiymət verir:

***Kərəm:***

*Seyr elədim Gürcüstanın elini,*
*Elləri var-bizim elə bənzəməz.*
*Barlı bağçaları, qarlı dağları,*
*Gülləri var-bizim gülə bənzəməz*

(Azərbaycan məhəbbət dastanları, 1979: 96).

***Şeyx Sənan:***

*İştə Qafqas!... səfalı bir məva!*
*Allah-allah, nədir bu abü həva!*
*Nə qədər şairanə bir xilqət!*
*Yerə enmişdir adətən cənnət*

(Cavid, 1968-1971, I cild: 172).

Kərəm bütün dastan boyu öz sevgilisindən əl üzməyəcəyini bildirir. Şeyx Sənanın tənha olduğu vaxt dinlədiyi türkü də qəhrəmanın sədaqəti üçün ciddi zəmanət verir. Bu türkünü Özdəmir və Oğuz oxusa da, onun misralarında əks olunan məzmun bilavasitə Şeyx Sənanın vəziyyətini və taleyini əks etdirir:

*Uca dağlar aşdım, ormanlar keçdim,*
*Gözəllər içində bir gözəl seçdim,*
*Mən o gündən yaradana and içdim,*
*Dünya gözəl olsa, dönməm yarımdan.*
*Mənim yarım al yanaqlı mələkdir.*
*Təzə açmış sevimli bir çiçəkdir,*
*Qəhr olsun o qəhrəman ki, dönükdir,*
*Dünya gözəl olsa, dönməm yarımdan*

(Cavid, 1968-1971, I cild: 173).

Əlavə olaraq qeyd edək ki, bu şeirin ahəngi və ritmi ilə Kərəm qoşmaları arasında sıx yaxınlıq da vardır. Keşiş

("Əsli-Kərəm") və Papas ("Şeyx Sənan") obrazları arasındakı müqayisələr də bəzi mətləbləri üzə çıxara bilər. Deməli, bir həqiqət vardır ki, H.Cavid "Əsli-Kərəm"in qoşma və motivlərinə yaxından bələd olmuş və bu bələdlik "Şeyx Səna"nın yazılmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan romantiklərinin yaradıcılığında əfsanəvi obrazlara müraciət də ayrıca xətt kimi çox mənalıdır. H.Cavid "Şeyx Sənan" şeirində yazır:

*Oyan, ey pəri-xoşdil! Qalx, ayıl bir xabi-rahətdən!*
*Qiyamətdir, qiyamət!... Qalx, oyan, zövq al bu fürsətdən,*
*Mələklər göydən enmiş, feyz alırlar xaki-pakindən,*
*Seçilməz imdi əsla məqbərin gülzari-cənnətdən*

(Cavid, 1968-1971, I cild: 67).

H.Cavid qəribə taleli Şeyx Sənanın qalxmasını, oyanmasını və ayılmasını, daha geniş mənada dirilməsini istəyir ki, bu fədakar insan öz həmməslək və həmkarlarını görsün və tanısın. Sənətkar həmin şeirlə qədim əyyamlardakı kimi öz zamanının qanunları ilə barışmayanların indi də olduğunu və onların sayca çoxaldığını bildirir. Əfsanə qəhrəmanı romantik sənətkarın yaşadığı dövrün mübarizlik əhvali-ruhiyyəsini ifadə edir.

M.Hadi qələmi müraciət məqamında öz romantik vüsəti ilə bütün insan nəsilləri üzərindən çox sürətlə keçmişə doğru addımlayır və mifik obrazlardan biri olan Nuhun qarşısında dayanır:

*Ey Nuh! Açıb da çeşminipak et qübardən,*
*Sən qoyduğun kimi dururuz, bax məzardan!*

(Hadi, 1978: 123).

Bu misralar şairin "Ədvari-təcəddüd, əsari-inqilab" şeirindəndir. Müəllif azadlıq əldə edə bilməyən xalqın həyatına çox böyük yanğı ilə yanaşır və Nuha müraciətlə demək istəyir ki, biz elə onun zamanından bəri zülm və sitəm altında inləyirik. Keçmişə müraciət müasirliklə, aktuallıqla tamamlanmış olur.

H.Cavid və M.Hadinin Adəmə müraciəti də məhz bu mənadadır.

H.Cavid:

*Sən əvvəl xeyrü şərdən bixəbərdin.*
*Çocuq ruhilə bipərva gəzərdin;*
*Nə buldun qürbi-həqdən böylə sapdın?*
*Düşün! Naqis bəşər, bir bax nə yapdın!?*
*Bu gün qüdsiyyətli olmaqda bərhəm,*
*Yazıq! Aldandın, ey biçarə Adəm!*

*(*Cavid, 1968-1971, I cild: *28).*

Yaxud, M.Hadi:

*Bu gün islamı görməkçin dur, ey Adəm, məzarından,*
*Qucaqla, bağrına bas, naxələf bir pur lazımsa!*

(Hadi, 1978: 167).

Adəmə müraciətində də hər iki sənətkar vətənin naxələf övladlarına acıyır və öz oxucularını qeyrət və vətəndaşlıq göstərməyə çağırır.

Romantik şeirin Şeyx Sənana, Nuha, Adəmə müraciəti keçmişə maraqdan çox yeni həyat uğrunda mübarizənin çağırışlarıdır. Öz dövrlərinin gerilik və eybəcərliklərini göstərmək üçün romantiklərin çağırdıqları obrazlar - şahidlər əfsanəvidirlər, lakin onların adı ilə bağlı şeirlərdə həyata daha dərindən bağlı olan hiss və duyğular yaşayır.

Romantik şairlərin bu müraciətləri onların dünya kədərləri ilə bağlıdır. Həmin dünya kədəri bir tərəfdən bütün dünya-kainat boyda kədəri, digər tərəfdən, bütün insanları və xalqları əhatə edən sonsuz bir kədəri, üçüncü bir tərəfdən isə, Adəmdən və Nuhdan üzü bəri yüz illiklərlə ölçülən kədəri ifadə edir.

XX əsr Azərbaycan romantizmində, o cümlədən H.Cavid və M.Hadi yaradıcılığında "Adəm və Həvva" əfsanəsi, daha çox isə bu əfsanənin birinci qəhrəmanının taleyi xüsusi yer tutur. "Öz nəfsinə uyub cənnəti itirən insanın süqutu" (Qarayev, 1985: 112),

H.Cavidin "Hübuti-Adəm" şeirinin baş problemidir.

Şeirdə əfsanənin nəql edilməsi oxucunu tanış süjetlə yenidən tanış etmək məqsədi daşımır. Bu, hər halda sadəlövhlük olardı. Məsələnin əsl mahiyyəti ondadır ki, romantik sənətkar Adəmlə Həvvanın yaşadığı cənnəti bu günə qarşı qoyur:

*Diyorlar bir zaman Adəmlə Həvva*
*Yaşarmış rövzeyi-cənnətdə.*
*O bir məva ki, biganəyiz biz,*
*Bu torpaqdan uzaq, qəmsiz, kədərsiz.*
*O bir məva ki, ruhani, münəvvər;*
*Uçarmış orda pərrinpər mələklər*
*O bir məva ki, nəşr eylər sərasər*
*Əməllər, nəşələr, güllər, çiçəklər...*
*Fərəhdən ağlar insan bəlkə, bilməm!*
*Bulunmaz orda lakin hüznü matəm*

(Cavid, 1968-1971, I cild: 27).

Bu parçanın son beytlərindəki "hüznü matəm" təsadüfi işlənməmişdir. Əvvəlki beytlərin təsdiq formasında, ən sondakının isə inkarda (bulunmaz!) verilməsi də xüsusi məqsədin ifadəsi və işarəsidir: Cənnətdə "hüznü matəm" yoxdur, amma bu cəmiyyət hüzn və matəmdən ibarətdir. Əsərin son beytləri də həmin fikri tamamilə təsdiq edir:

*Əzil, qəhr ol, keçənlər keçdi, heyhat!*
*Budur həqdən səninçin son mükafat!*
*Qoşarsın bir zaman məhkumi-xüsran.*
*Aparsın gülşəni-lahuti giryan*
*Yaşarsın vadiyi-zillətdə məyus,*
*Fəqət dönməz! O günlər keçdi, əfsus!*
*Cahan durduqca həp nəslin bərabər Bu müdhiş zərbədən qurtulmaz inlər* (Cavid, 1968-1971, I cild: 29).

Bəlkə bunlar bir az da sərtdir. Hətta "qurtulmamaq" haqqındakı şair qənaətinə bədbinlik də demək olar. Lakin bu bəd-

binlik həyatdan əl üzmək yox, bəlkə şeirin strukturundan, qarşıya qoyulan ideyanın dəqiq ifadəsindən, qarşılaşmanın harmoniyasının – çəkisinin pozulmasından irəli gəlmişdir. Çünki şeirdəki cənnətin təsvirinin əksi kimi yalnız belə nəticə və yekun bədii-estetik tələbə verilən doğru cavabdır. Bu mənada şeirin finalı öz fəlsəfi ümumiləşməsinə görə bədbinliyi xeyli dərəcədə yumşaltmış olur:

*Əmin ol, nerdə nəfs olmuşsa hakim!*
*Həqiqi eşqi məhv etmiş məzalim,*
*Kimin ülvisə ruhu, söz onundur,*
*Əsiri-nəfs olan daim zəbundur* (Cavid, 1968-1971, I cild: 25).

M.Hadinin "Qəmərə" (Hadi, 1978: 328-329), "Hərarətli şeir və yaxud qızdırmalı halımda saçmalarım" (Hadi, 1978: 331-333) şeirlərində də Adəmdən söhbət gedir.

*Niyə qan tökdü Adəm övladı?*
*Qabil imiş o qatilin adı,*
*İlk qatildə qabiliyyəti-qətl,*
*Əzəlidir əvət bəliyyəti-qətl* (Hadi, 1978: 328).

M.Hadi Adəm "müqəddəsliyini" H.Caviddə olduğu kimi, bu günkü qatiliyyə - Qabilə və qabilliyyə, İblisə və iblisliyə qarşı qoyur və müqayisə yolu ilə Birinci dünya müharibəsinin dəhşətini, bəşəriyyətin ağrı və acılarını göstərir. M.Hadinin ikinci şeirində də eyni ruh hakimdir:

*Deyirlər zövci-həvvayə ki, məscudi-məlaikdir,*
*Dedim şeytanə rəhmət Adəm övladı görən gündən.*
*Behişti bir təməddün kəsb edərmi aləmin əhli?*
*Buna heyrətdəyəm bu vəhşətabadı görən gündən.*
*Bu yer qansız olurmu? Əqldən sordum, cavab iştə:*
*Bunu dərk etmədinmi tiği-cəlladı görən gündən?*
*Yer oğlu xəstədir qandım, qan almaq lazım olmuşdur*
*Qədimi adət ilə, hali-fəssadı görən gündən* (Hadi, 1978: *332).*

Bu şeirin axırı da çox səciyyəvidir. Adətən, qəzəl-qəsidə ədəbiyyatında müəllifin adı axırıncı beytdə çəkilir. Burada isə Hadinin adı sonuncudan əvvəlki beytdə xatırlanır və son beytdəki "Adəm" də sanki müəllif olur. Beləliklə, Hadi öz şeirinin müəllifliyini də sanki Adəmə güzəştə gedir və insan zülmünün tarixini onun əfsanədə şahid kimi yaşadığı bütün əsrlərə bərabər tutur.

XX əsr Azərbaycan romantizmində simvolik-mifik obrazlara istinad Pəri, Mələk, İblis surətləri ilə daha bariz şəkildə görünür. Aydındır ki, romantiklərin bu surətlərə olan ciddi meyilləri onların öz təbiətləri ilə, fantaziyaya və mifologiyaya olan dərin maraqları ilə bağlı idi.

Pəri mifik obraz kimi dənizdən peyda olmuşdur (Seyidov, 1983: 111) və bu ifadə romantik şeirdə bəzən azadlıq, vətən mənalarında işlənir, bəzən "gözəl qızı" bildirir, bəzən də işlənmə yerinə görə bənzətmə funksiyasında çıxış edir. Bu sözün simvolik mövqeyi daha aydın şəkildə A.Səhhətin "Şair, Şeir pərisi və Şəhərli" əsərində özünü göstərmişdir (Səhhət, 1975: 88-95). Əsərdə Şeir pərisi məkanına görə ("yanındakı uca dağın təpəsində gözəl bir qız surətində nurani bir kölgə zahir olur"), uçuş qabiliyyətinə görə ("Gəl bərabər uçalım, göylərə pərvaz edəlim") və ən başlıcası, şairə müraciəti ilə meydana çıxan idealına görə ("Yüksəl ülviyyətə, seyr elə səfa aləmini") məhz romantizmin simvolik obrazıdır. Şeir pərisi Şairə üz tutub deyir:

*Gəl mənimlə aparım övci-səmavata səni,*
*Orada nail edim dürlü füyüzata səni,*
*Orada könlün əlaiqdən olur varəstə,*
*Sənə təqdim edər əfvaci-mələk güldəstə.*
*Orada hurü pərilərlə edərsən xəndə,*
*Bəxtiyarlıqla yaşarsan əbədi fərxəndə* (Səhhət, 1975: 91).

Bu parçada başqa bir maraqlı məqam vardır. Belə ki, "Hurü pərilərin nişan verilməsinə təsadüf kimi baxmaq olmaz. Deməli, Şeir pərisi tək deyil və nəinki onun məkanı, hətta mühiti də vardır.

Pəri obrazı kimi mələk də göylər övladıdır, “... Tanrı qoynunda bəslənən bir qızdır”. Ona görə də, H.Cavidin bir çox əsərlərində Mələk öz müsahibini göylərə səsləyir, göylərə qaldırmaq istəyir. “Mələk qiyafətli” Xumarın Şeyx Sənanı səsləməsi məhz bu qəbildəndir. “Peyğəmbər” əsərində də “ağıl, idrak simvolu” (Cəfər, “Azərbaycan” jurnalı, 1982, № 2: 20) olan Mələk deyir:

*Buraxıb əczi, durmadan yüksəl,*
*Yüksəl, ey şanlı qəhrəman, yüksəl!*
*Ərşi-lahutə doğru aç şəhpər,*
*Daima yüksəl, ey böyük rəhbər!* (Cavid, 1984: 9).

“Şeyda” pyesində də eyni vəziyyət müşahidə olunur:

“Bu sırada qara geyimli mələk təkrar görünər.

***Şeyda.*** *Uf, bu səs sanki mənim ruhumu tərənnüm edir (onu görüncə).*

*Ah, yenəmi gəldin?*

***Qara geyimli mələk.*** *Əvət, gəldim də bərabər gedəlim.*

***Şeyda.*** *Pəki, nerəyə, nerəyə gedəcəyik?*

***Qara geyimli mələk.*** *Başqa aləmlərə, daha yüksəklərə”* (Cavid, 1982: 172)

Beləliklə, “Şeyx Sənan” əsərində qəhrəmanı yüksəkliyə çağıran da “mələk qiyafətli Xumar”, “Şeyda” pyesində Şeydanı “başqa aləmlərə, daha yüksəklərə” səsləyən də mələk, “Peyğəmbər” əsərində Peyğəmbərə üz tutub, “yüksəl, yüksəl” deyən” də mələkdir. Mələk obrazı özünün yüksək tribunasından insanları rahatlığa səsləyir. Həmçinin mələk o vaxt meydana çıxır ki, yerdəki eybəcərlik və çirkinlik həddini aşmışdır. Bu müqəddəs varlıq xeyirxahlığın timsalı kimi ən çətin dəqiqələrdə “peyda” olur. Hətta maraqlıdır ki, H.Cavid “Şeyx Sənan”ın əvvəlində obrazları sadalayarkən, “Bir mələk” surətini göstərmədiyi, ona işarə belə etmədiyi halda, bu obraz Şeyx Sənanın ağır günündə öz təbiətinə müvafiq olaraq, əsərin strukturunda da gözlənilməz (!)

şəkildə meydana çıxır və deyir:

*Səni təqdis edər mələklər, inan,*
*Heç təlaş etmə, gəl, böyük Sənan!*

(Cavid, 1968-1971, I cild: 220).

Lakin bir cəhəti də unutmaq olmaz ki, H.Cavidin “Şeyda” pyesində Mələyin xarakterində ikili cəhət vardır. Birincisi budur: “Mən oyam ki, bütün ağlar gözlər, yaralı könüllər, bütün iztirablar və həyəcanlar həp mənim sayəmdə rahət bulur, həp mənimlə mütəsəlli olur!” (Cavid, 1968-1971, II cild: 72). İkinci, “Əvət mən çox anaları yavrusuz, çox yavruları anasız qoydum. Bir düyün, yas olursa mənim əlimlə olur. Bir məmləkət padşahsız qalırsa, yenə səbəb mənim. Əvət, bir çoxlarını eşqindən ayırdım. Çox aşiqləri sevgilisinə həsrət qoydum” (Cavid, 1968-1971, II cild: 172-173). Xeyirxahlıq və eybəcərliyin üz-üzə gəlməsi və bir obrazda təcəssümü iblislik və mələkliyin vəhdətdə olduğunu, yanaşı yaşadığını təsdiq edir. Dramaturqun Mələyi qara geyimdə səhnəyə çıxarması da bəlkə elə bununla bağlı olmuşdur.

Bir məsələ də vardır ki, “Şeyda” əsərindəki Mələk obrazı H.Cavid yaradıcılığında bu silsilənin ilk nümayəndəsi idi. “Romantik obrazın heç də az təqdim olunmamış tiplərindən biri olan simvolik obraz-fərdi mənəvi hisslərin, romantik aləmin ayrılıqda fəaliyyət göstərən personajlarına çevrilməsidir” (Гаджиев, 1972: 69). Məhz belə bir çevrilmənin nəticəsi olan Mələk “Şeyda” əsərindən sonra “Şeyx Sənan”, “Uçurum”, “iblis”, “Peyğəmbər” və s. pyeslərdə görünür.

H.Cavid dramaturgiyasındakı başlanğıc Mələyin daxilində olan ikilik – (mələklik və iblislik) bu obrazın intişarı ilə birlikdə ayrıca götürülmüş Mələk və Skelet obrazlarını da yaradır.

H.Cavidin “İblis” əsəri XX əsr Azərbaycan romantizmində simvolik obrazın baş qəhrəmana çevrilməsinin bariz nümunəsidir. Səciyyəvi fakt kimi həmin pyesə ayrıca tədqiqat əsəri də həsr edilmişdir (İbadoğlu, 1969). Lakin qeyd edək ki, bundan əvvəl

A.Şaiq “İblisin hüzurunda” adlı hekayə yazmışdır (Şaiq, 1966: 59-63). Bu hekayədə İblisin və onun oğlanlarının min hiylə və fitnə-fəsadla insanı əsir etmələri nəql olunur. Həmin bəşəri ideya H.Cavid düşüncəsində “İblis” faciəsinə çevrilir. Belə bir simvolik obrazın – iblisin prototipini axtarmaq isə qeyri dəqiq və qeyri elmidir (Məmmədli, “Bakı” qəz., 11 fevral,1983).

Son araşdırmalarda “İblis”i realizmə doğru çəkmək meyilləri də olmuşdur: “Romantik bir üslubda yazılmış “İblis” əsəri öz əsas materialı ilə *həyata bağlanan realist* (Kursiv bizimdir – K.Ə.) bir əsər kimi dəyərləndirilmişdir” (Xəndan, 1981: 47). Bu məqamda A.Şaiqin də ciddi və elmi dəyərə malik mülahizəsini xatırlayaq: “Cavidin bütün əsərləri içərisində “İblis qədər *həyati və realist* (Kursiv bizimdir – K.Ə.) bir əsər yoxdur zənn edirəm” (Şaiq, 1977: 177). Hər iki fikirdə, hər iki yanaşmada zahiri oxşarlıq vardır. Bəlkə bu oxşarlığı daha çox “həyat” və “realist” sözləri yaradır. Lakin məqsədin izlənilməsində ciddi fərq də göz qabağındadır. R.Zəkada “romantik bir üslubun” əks tərəfi kimi işlənən “realist” sözü realizmə daha çox yaxındır və bu məqamda yanlışdır. A.Şaiqdə isə “realist” sözünü realizm mənasında yox, ondan əvvəl yaradılmış “həyat” sözünün sinonimi kimi başa düşmək lazımdır. Ona görə də, “İblis”ə münasibətdə H.Cavidin romantik müasiri əsərin ən son tədqiqatçılarının birindən daha doğru və daha düzgün qənaətə gəlmişdir. Çünki romantik əsərin həyati əsaslarını araşdırmaq bir məsələ, onu realizmin nümunəsinə çevirmək yanlışlığı isə başqa bir məsələdir.

Cavidşünaslıqda bunun tamamilə əksinə olaraq, “İblis”i bütünlüklə romantikləşdirənlər də olmuşdur: “İblis rəmzi bir surətdir... Arif də rəmzdir; zəkanın və vicdanın rəmzi...

Əsərdəki bu iki surətdən əlavə ikinci dərəcəli, epizodik surətlər də mənaca müxtəlif rəmzlərin ifadəsidirlər” (Əlioğlu, 1975: 145). “İblis” əsərinə başdan-başa rəmzlər və rəmzi surətlər toplusu kimi baxmaq da elmi prinsiplərlə bir yerə sığmır.

H.Cavidin "İblis" faciəsi ilə bu mövzu yüksək bədii həllini tapdı. Amma maraqlıdır ki, "Puşkindən sonra demon mövzusu rus lirik poeziyasında bir neçə on illik ərzində çox təkrar edildi və tezliklə çeynənmiş xarakter aldı, çünki onun işlənməsində yalnız görkəmli deyil, həmçinin bu dövrün miyanə rus yazıçıları da iştirak edirdilər" (Алексеев, 1978: 35). Bizdə isə belə olmadı. Doğrudur, Azərbaycan sovet teatrının pərdəsi H.Cavidin "İblis" faciəsinin tamaşası ilə qaldırıldı (Məmmədli, 1982: 109). Lakin yeni quruluşun bərqərarı bu cəlbedici mövzuya "axının" qarşısını aldı və "miyanə yazıçılar", sözün həqiqi mənasında, vaxt tapa bilmədilər. Bir də ilk dünya müharibəsi illərində H.Cavid yaradıcılığında İblis mövzusunun "təşəkkülü və inkişafı sürətli və məqsədyönlü" (Нольман, 1973: 399), təxirəsalınmaz idi.

Faciədə "Yerdən – alovlar içindən çıxan" İblis adamları məhv etmək, qəhr etmək, yerin altına göndərmək istəyir. Şər qüvvənin simvolu kimi o həm mühariblərə bais olur, həm insanlar arasında nifaq salır, həm də istədiyi cinayəti törədə bilir.

*Əvət, İblis o böyük sənətkar.*
*Həm yapar, həm də yıxar, qüdrəti var*

(Cavid, 1968-1971, II cild: 11).

Bu sözlər sanki İblisin öz əlləri ilə imzaladığı avtobioqrafiyasıdır. Məhz buna görədir ki, "Əsərdə hamıdan ağır bədii yükü olan" (Nəbiyev, "Ədəbiyyat və incəsənət" qəzeti, 8 aprel, 1983) İblis müxtəlif formalarda görünür: O, səhnəyə İblisə məxsus "əlbisə" ilə də, "xidmətçi ərəb qiyafətində", yəni insan kimi də çıxır. Lakin məzmun dəyişmir: məqsədə çatmaq ehtirası daha qüvvətli şəkil alır və yalnız o zaman rahatlanır ki, "Qan püskürən, atəş sovuran kinli kralların" onu əvəz edəcəyinə əmin olur.

İblisin simvolik obraz kimi mühüm bir səciyyəvi cəhəti üzərində dayanaq.

Faciənin ilk pərdəsinin başlanğıcında İblis və Mələyin hər birinin iki bəndlik (dörd misralıq) dialoqu və "göyə doğru"

üztutan Arifin "ey ulu tanrı!" xitablı monoloqu verilmişdir (İblis də hərb allahıdır və Tanrının müharibə illərində romantizmə gəlişindən artıq danışılmışdır – I hissə I fəsil).

Lakin burada maraqlı cəhət odur ki, həmin dialoq və monoloqu əsərin ekspozisiyası yox, məhz müqəddiməsi adlandırmaq olar. Çünki obrazların həmin mülahizələrində əsərdə həll ediləcək problemə ümumi baxış vardır. Məhz bundan sonra obrazlar faciənin kompozisiyasına real şəkildə daxil olurlar və elə bu vaxt "İblis sürəkli və istehzalı qəhqəhələrlə yerdən - alovlar içindən çıxar" (Cavid, 1968-1971, II cild: 10). İndiyə qədər yerin təkində yaşayan İblisin məskənində dəyişiklik baş verir. İblis göyün sakininə çevrilir. Bir çox hallarda isə göy gurultusundan sonra meydana çıxır. Nəhayət, əsərin finalında İblis haqqında deyilir: "Şiddətli və sürəkli qəhqəhələr içində yerin dibinə çəkilir" (Cavid, 1968-1971, II cild: 99).

Bütün qalan vaxtlarda İblis adamlar arasındadır və öz çirkin niyyətlərini həyata keçirməklə məşğuldur. Bu obraz Şərin simvolu kimi ideal həqiqət axtarıcılığında rol oynamır, amma romantizmin simvollar aləminin yeksənəqliyini, birtərəfliyini aradan qaldırır, Mələklə birlikdə çıxış edərək bütöv dünya yaradır. Amma simvolik obrazlar kimi onun da bir cəhəti səciyyəvidir: "İblis obrazı iki mühit – Yer və Göy arasında əlaqə nöqtəsidir" (Сакулин, 1914: 30).

Simvolik obrazlar şəbəkəsini təşkil edən təbiət obrazları və mifoloji obrazlar Azərbaycan romantizminin spesifik cəhətlərini, onun poetikasının özünəməxsusluqlarını meydana çıxarmağın əsas vasitələrindən biridir. Yalnız təbiətə və mifologiyaya bağlanmaq yox, bunları romantik inikas üsulunun tərkib hissəsinə çevirməklə romantiklər qarşılarına qoyduqları bu məsələni dəqiq həll etmişlər.

# II F Ə S İ L

# POETİK QARŞIDURMALAR

XX əsr Azərbaycan romantizminin səciyyəvi cəhətləri və xüsusiyyətləri onun poetik obrazlarında da öz ifadəsini kifayət qədər tapa bilmişdir. Yəni bu obrazlar ayrı-ayrı əsərlərin bədii sistemində qabarıq şəkildə nəzərə çarpır və bütöv halda götürüldükdə romantizmin ciddi əlaməti kimi meydana çıxır.

Bəri başdan qeyd edək ki, Azərbaycan romantizminin poetik obrazlarının özü də geniş və əhatəlidir. Bu məsələ ətrafında xüsusi tədqiqatların yaradılmasına da ehtiyac vardır. Lakin burda daha çox elə poetik obrazlardan danışılır ki, bunlar bilavasitə bədii qarşıdurma təşkil edirlər.

## 1. QƏRB VƏ ŞƏRQ

Əslində belə bir qarşıdurmanın romantizm bədii fikrində özünə xüsusi yer tutması mövcud ictimai mühitin dərkindən başlayırdı. İnsanların ağır və dözülməz taleyi, onların işgəncələrə məruz qalmaları arzu və gerçəklik arasındakı qatı təzada – romantiklərin mövcud həyatın real hadisələrindən ayrılmasına gətirib çıxarırdı. Belə bir vəziyyət isə onları Qərbə üz tutmağa vadar edirdi ki, romantiklər bu yola özlərinin çıxış nöqtəsi və ümidi kimi baxırdılar. Həmçinin tamamilə doğrudur ki, "Qərb haqqında düşündükdə bu yazıçılar (oxu: Azərbaycan romantikləri – K.Ə.). Qərbin mütərəqqi cəhətlərini, elmini, maarifini, feodalizmə, orta əsrliyə qarşı baş verən tarixi inqilabi hərəkatı, bir sözlə, Qərbin inqilabi cəhətlərini nəzərdə tuturdular" (Cəfər, 1974: 93).

Qərb və Şərq problemi, onun bir çox qabarıq cəhətlərinin bədii əksi Azərbaycan ədəbiyyatında xeyli əvvəldən başlamışdı. XIX əsrdə böyük Mirzə Fətəli Axundov "Yek kəlmə" haqqında

məqaləsində yazırdı: “Bu gün Avropada bir cinayətkarın öldürülməsi haqqında hökm verməyə çox az təsadüf edilir. Aya, Şərqdə ayələri pozmağa imkan varmı?” (Axundov, 1961: 196).

Realist sənətkar yaşadığı mühitin, geniş mənada Şərqin vəziyyəti ilə Avropanın – Qərbin hüquq qanunlarını əhatə edən canlı mənzrəsini qarşı-qarşıya qoyurdu. Hətta o, Şərq ətalətini, geriliyini açıb göstərmək naminə ingilis filosofu və iqtisadçısına müraciət etməyi zəruri sayır və “Con Stüart milli azadlıq haqqında” adlı məqalə də yazırdı (Axundov, 1961: 259-261).

M.F.Axundov realizmindən fərqli olaraq XX əsr Azərbaycan romantizmində belə bir meyil daha da inkişaf edərək səciyyəvi keyfiyyətə çevrilir və bu sənətin özünəməxsus xüsusiyyətlərini meydana çıxarmağa geniş imkan və şərait yaradır.

Bəs Qərbə meylin və eyni zamanda, Qərb və Şərq obrazlarının bir qarşıdurma kimi meydana çıxmasının səbəbi nədir? Bunu, hər şeydən qabaq, onların dünyagörüşündə axtarmaq lazımdır. Ə.Mirəhmədov M.Hadinin həyatının 1908-1910-cu illər dövrünü nəzərdə tutaraq yazır: “Bu vaxtadək Hadini maraqlandıran, əsasən, Şərq mədəniyyəti idisə, indi öz əsərlərində tez-tez Qərb klassiklərindən də söhbət açması onun mütaliə dairəsinin, ədəbi-elmi məşğələlərinin xeyli genişləndiyini göstərirdi” (Mirəhmədov, 1983: 162). Eynilə bütün romantiklər Qərb klassiklərindən xəbərdar idi və onları oxuyub öyrənirdilər.

M.Hadinin bir şeirindən aşağıdakı beytlərə diqqət edək:

*Şiller, Gete, Viktor Hüqo, Volter ilə Jan-Jak,*
*Ol dahiyələr etdi bu afaqdan işraq.*
*Herbert Spenser, Büxner, Sülli, Lamartin,*
*Alfred Müsse, Molyer, Şekspir ilə Darvin.*
*İştə Edisondur bu qucaqdan mütəvəllid.*
*İcadi ilə məhdi-təməddündə müfərrid* (Hadi, 1978: 191).

“Ya leyl” şeirinin bu kiçik parçası M.Hadinin ilk növbədə kimlərə bələd olduğunu xatırladır. Aydın görünür ki, M.Hadi

Qərb aləminə, Qərb həyatına yaxından bələd olan sənətkar idi. Filologiya elmləri doktoru, prof. B.Vahabzadə də elə beləcə yazır: "Məlumdur ki, Hadi tərcümə vasitəsi ilə Rusiyanın və Qərbin ən görkəmli sənətkarları ilə tanış olmuşdur. O, Şekspiri, Sokratı, Höteni, Viktor Hüqonu, Volteri, Russonu, Lamartini, Edisonu, Miltonu, Nyutonu, Darvini bilirdi və onların elmə və sənət aləminə gətirdikləri yeniliklərdən xəbərdar idi" (Vahabzadə, 1976: 40).

Yaxud A.Səhhətin "Müsəlman ürəfaları" şeirindəki bir neçə beytə diqqət verək:

*Mətləbi başlayır o, Homerdən,*
*Danışır Getedən, ya Şillerdən.*
*Bəd deyil Kant, Marks, ya Bualo,*
*Vəli xoş gəlməyir ona Hüqo.*
*Adların öyrənib bu əşxasın,*
*Başın aldatmağa əvam-nasın (*Səhhət, 1975: *37).*

Burada romantik şair "müsəlman urəfaları"nı satira atəşinə tutur, onların Qərbin böyük şəxsiyyətlərinə bələd olmalarını, orda-burda həmin mütəfəkkirlərin yalnız adını çəkməklə hörmət qazanmaq niyyətlərini qamçılayır. Bu həm də onu əsaslandırır ki, A.Səhhət Qərb ədəbiyyatı və fəlsəfi fikri ilə yaxından tanış olmuş, onları öyrənməyə səy etmişdir. Hətta onun "Qərb ədəbiyyatından bəqədri-qüvvə öz dilimizə tərcümə etmək" (Səhhət, 1976: 35) tezisini irəli sürməsi də bunun nəticəsi idi.

Yaxud H.Cavidin "Həsb-hal" məqaləsində adı çəkilən Kant, Lokk və H.Spenserin üzərindən sükutla keçmək olmaz ("Həqiqət" qəzeti, 14 may, 1910, №108). Və yaxud A.Şaiqin də "Əsrimizin qəhrəmanları" romanınında obrazlardan biri olan Məhərrəm əmi "öz xalqının istedadına inanmış olduğundan: "Bizim xalqımızın içinə Qərb mədəniyyəti girərsə, gələcəkdə böyük adamlar yetişdirə biləcək" (Şaiq, 1968: 192-193) deyirdi.

Burada bir mühüm cəhəti qeyd edək ki, XIX əsrin ikinci

yarısında Avropa ədəbi fikri Türkiyədə daha sürətlə yayılmağa başlayır. Bu vaxtlar Şünasinin əsas məqsədi "Şərqi Qərb mədəniyyəti ilə tanış etmək" (Гордлевский, 1961: 354) olur. Yenə də V.Qordlevski yazır: "1859-cu ildə Şünasi fransız yazıçılarından Rasin, Lamartin, Lafonten, Jilber və Fenelonun əsərlərinin tərcüməsindən ibarət məcmuə buraxır. Seçilmiş parçalar Şünasi romantizmi haqqında şəhadət verir" (Гордлевский, 1961: 356). Yaxud N.A.Ayzenşteyn yazır: "Sərvəti-Fünün" ədəbiyyatı XIX əsr türk ədəbiyyatının inkişafı tarixində, türk burjua nəsrinin yaranmasında mühüm mərhələdir. Bu proses Qərbin, hər şeydən qabaq, fransız ədəbiyyatının güclü təsiri ilə baş vermişdir" (Айзенштейн, 1959: 67).

H.Cavid də "Müharibə və ədəbiyyat" məqaləsində türk ədəbiyyatına Avropanın, xüsusilə fransız ədəbi fikrinin təsirindən danışır. Bu təsirin həm müsbət, həm də mənfi cəhətlərini göstərir (Cavid, "Açıq söz" qəzeti, 25 oktyabr, 1915). Yaxud A.Şaiqlə birgə çap etdirdiyi "Ədəbiyyat dərsləri" kitabında yazır: "Şünasiyi-mərhum Avropa üsullu nəsr və nəzmi ilk öncə türklərə tanıdan bir zatdır" (Cavid, A.Şaiq, 1919: 143-144).

Deyilənlər sübut edir ki, XX əsr Azərbaycan romantikləri Qərbi Avropa ədəbi-fəlsəfi fikrini həm də türk ədəbiyyatı vasitəsilə öyrənmişlər.

XX əsr Azərbaycan romantiklərinin Qərb fəlsəfəsinə, ictimai-ədəbi-bədii fikrinə yaxından bələd olmaları onların dünyagörüşünə təsirsiz qalmamışdır. Hətta nəinki dünyagörüşlərində, eyni zamanda, bədii əsərlərinin strukturunda da müəyyən yeniliklər yaratmışdır. Belə ki, "Qərb" obrazı və onu əvəz edən bir çox sözlər, ifadələr romantiklərin əsərlərində qabarıq mövqeyə çıxır, həmçinin "Şərq" obrazı və onun "əvəzediciləri" ilə qarşı- qarşıya gəlir.

Romantiklərin yaradıcılığında "Qərb və Şərq" qarşıdurmasının təşəkkülü "əcnəbi" sözü ilə bağlıdır. Çünki romantiklərin

yaradıcılığının ilk mərhələsində-qələmə aldıqları ilk şeirlərdə hələlik "Qərb" ifadəsi yoxdur. Bəlkə bunu romantiklərin Qərb dünyasına, Qərb ictimai-fəlsəfi fikrinə hələ o vaxtlar tam bələdliklərinin olmaması ilə izah etmək çətin deyil. Lakin məsələnin əsas mahiyyəti ondadır ki, bu illərdə romantiklər bədii yaradıcılıqlarında mövcud cəmiyyətdiki eybəcərliklərin qəti inkarına gəlib çıxmamışdılar. Bədiilik, sənətkarlıq baxımından Qərb aləminə o zaman "səyahət" başlanardı ki, cəmiyyətin qanunauyğunluqlarının müəyyən dərki mümkün olaydı.

M.Hadi yazır:
***Əcanib*** *qıldı hər bir karın itmam,*
*Bir isək əski tasdır, əski hamam.*
*Nələr icad edir ərbabi-sənət,*
*Sənayelə qılır təhsili-sərvət.*
*Tutub sənətlə dünyanı əcanib,*
*Fəqət biz qalmışıq məhrum, xaib* (Hadi,1978: 9).

Yaxud:
*Kürreyi-ərzə bütün oldu* ***əcanib*** *hökmran,*
*Qalx, ey naim, açılmışdır səbahi-imtahan.*
*Qanə dönmüşdür bu gündə qəlbi-millətpərvəran,*
*Qəbri-pakində rəsuli-girdgar ağlar bizə* (Hadi, 1978: 59).
A.Səhhət yazır:
*Bax,* ***əcanib*** *bərrü elm ilə sultan olub,*
*Cəhlü qəflətlə vəli islam evi viran olub,*
*Dideyi-dinpərvəran bu hala xunəfşan olub,*
*Çarə axtarmaq gərək, həm əhdü həm peyman olub*
(Səhhət, 1975: 15).

Həm də bunlar sübut edir ki, elə bu şeirlər yazılanda da romantiklərin cəmiyyətdən narazılıqları başlanmışdır. Belə bir həqiqəti "Biz isək əski tasdır, əski hamam", "Qanə dönmüşdür bu gündə qəlbi-millətpərvəran", "Cəhlü qəflətlə vəli islam evi viran

olub" misraları bütün aydınlığı ilə ehtiva edir.

Məsələnin digər tərəfinin izahı üçün böyük realist M.Ə.Sabirin məşhur şeirini xatırlayaq:

*Dindirir əsr bizi, dinməyiriz,*
*Atılan toplara diksinməyiriz.*
*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz.*

Həm romantiklərdə, həm də realist-satirik Sabirdə işlənən "əcanib", "əcnəbi" sözləri bir kökdən olub, lüğəvi mənasına görə "xarici" məfhumunu ifadə edir. Bəs "xarici" sözünün "Qərb"lə nə əlaqəsi var?

Burada elə bir mübahisəyə əsas yoxdur. Çünki həmin terminlər arxasında Azərbaycanın coğrafi sərhədlərindən kənar olan hər hansı – ixtiyari xarici dövlətdən söhbət getmir. Çünki müqayisələrin ümumi istiqamətindən aydın olur ki, XX əsrin əvvəllərində yaşayıb-yaradan sənətkar bilavasitə Avropaya və inkişaf etmiş Avropa ölkələrinə üz tuturdular. Ona görə ki, belə bir irəliləyiş, hərtərəfli inkişaf vüsəti məhz həmin əraziyə, bu ərazidə məskunlaşmış xalqlara məxsus idi.

Deməli, romantiklər və Sabir "əcanib", "əcnəbi" deyəndə məhz Qərbi nəzərdə tuturdular. Amma onların yaradıcılığında bu ifadələrlə Qərb və Şərq obrazları hələlik qarşıdurma səviyyəsində sistemləşməmişdi və hətta bu poetik qarşıdurmanın cəhətləri və tərəfləri də aydın görünmürdü. Bircə məqamı nəzərdən qaçırmaq lazım deyildir ki, həmin nümunələrdə - daha konkret: həm Hadi, həm də Sabirdə "əcnəbi" qarşısında "biz" ifadəsi dayanmışdı və bu ifadə məhdud çərçivəni-yalnız Azərbaycan ictimai-siyasi-mədəni mühitini ifadə edirdi. Hələlik "biz" bütöv Şərq demək deyildi. Yalnız A.Səhhətin şeirindəki "əcanib" sözü müqabilində işlənən "islam" ifadəsi "Şərq" terminini tam ifadə edirdi. Lakin ilk mərhələnin ümumi və səciyyəvi nəticəsi ondan ibarətdir ki, bu mərhələdə Qərb və Şərq yox, qərbli ilə şərqli qarşılaşdırılır. "Qərb

və Şərq" qarşıdurmasının geniş planlı və sistemli xarakteri başlayanda isə realist Sabir romantiklərdən uzaqlaşır və Şərqin özünü – milli həyatını, İran və Türkiyənin problemlərinin inikasını mühüm yaradıcılıq qayəsinə çevirir. Ona görə də, A.Səhhət "Sabir" şeirində elə birbaşa yazır: "Sən dua eylə yatmasın islam" (Səhhət, 1975: 41). Bu artıq Sabir yaradıcılığının mövzusu və problematikası ilə bağlı doğru və sərrast deyilmiş A.Səhhət qiyməti idi.

A.Səhhət "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə" şeirində yazır:

*Ayıl, ey xabi-qəmə aludə!*
*Bu qədər yatma dəxi asudə!*
*Aç gözün, gözlərinin qurbanı!*
*Bir tamaşa elə gör dünyanı!*
*Xaricilər qabağa düşdü tamam,*
*Nə yaman günlərə qaldı islam* (Səhhət, 1975: 19).

A.Səhhətin bu şeiri ilə M.Ə.Sabirin "Tərpənmə, amandır, bala, qəflətdən ayılma" satirası arasında ideya yaxınlığı vardır. Hətta onların yazılma tarixi də bir-birinə çox yaxındır. M.Ə. Sabirin şeiri "Molla Nəsrəddin" jurnalının 11 avqust 1906-cı il 18-ci nömrəsində, A.Səhhətin şeiri isə "Dəbistan" jurnalının 15 noyabr 1906-cı il 15-ci nömrəsində çap olunmuşdur. M.Ə.Sabir yazır:

*Tərpənmə amandır, bala, qəflətdən ayılma!*
*Açma gözünü, xabi-cəhalətdən ayırma!*
*Laylay, bala, laylay!*
*Yat, qal dala, laylay!*
*Göz nurudur uyqu, onu dur etmə gözündən,*
*Yol vermə məbada çıxa bir an sözündən,*
*Amma elə bərk yuxla ki, hətta get özündən,*
*Afaqı dutan şuri-qiyamətdən ayılma!*

*Laylay, bala, laylay!*
*Yat, qal dala, laylay!* (Sabir, 1960: 32)

O ayrı məsələdir ki, A.Səhhət birbaşa "ayıl" deyir, M.Ə.Sabir isə kinayə ilə "ayılma" deyəndə məhz yenə ayılmağı, mübarizəni nəzərdə tutur. Burada romantik və realist inikas üsullarının müxtəlifliyi və fərqi vardır. Lakin əsas mətləb ondadır ki, M.Ə.Sabir müəyyən bir məqamda Qərbi nümunə gətirə bilərdi. Nə etmək? Elə gətirmədiyinə görə də A.Səhhətdən fərqlənir.

Romantik Səhhət şeirdə "xaricilər" məfhumu ilə "islam" məfhumunu qarşılaşdırır. Əslində bu anlayışlar bir-biri ilə şeirin, daha konkret, beytin strukturunda tutduqları mövqelərə görə də qarşılaşırlar. Belə ki, "xaricilər" sözü beytin ilk, "islam" isə son bədii vahididir. Bəlkə bu təsadüfdür, amma fakt yenə faktlığın- da qalır.

Burada yenə bir ciddi məsələ meydana çıxır: doğrudanmı, romantiklərin yaradıcılığında "islam" sözü "Şərq" mənasını ifadə edir? Şübhəsiz ki, bu, bütün vəziyyətlərdə mumkün deyildir. Ancaq romantiklərin yaradıcılığında "islam" termini çox vaxt, qarşıdurma məqamlarında isə bütün hallarda "Şərq" sözünun bir növ sinonimidir. M.Hadidə ayrıca işlənmiş inkarolunmaz fakt: "Nə yerdə bir xərabə varsa, olmuş məskən islamə" (Hadi, 1978: 166). Yaxud yenə M.Hadinin müxtəlif şeirlərindən götürülmüş iki beyti müqayisə edək:

*Birincisi:*
*Doğubdur aftabi-mərifət afaqi-məğribdən,*
*Cahani-Şərqi seyr eylə şəbi-dəycur lazımsa*
(Hadi, 1978: 163).

*İkincisi: Mülki-islama bax, qaranlıqdır,*
*Qərbə bax gör ki, hökmranlıqdır* (Hadi, 1978: 271).

Birinci beytdə Qərb və Şərq aydın ifadə olunmuşdur və burada mübahisə üçün elə bir yer yoxdur. Məhz elə bu

mübahisəsiz məqam ikinci beytdəki "islam" sözünün bizim izlədiyimiz mənada açılışını tamamilə təmin edir. Çünki romantik sənətkar 1909-cu ildə yazdığı şeirdə Şərqi "Şəbi-dəycura" – çox qaranlıq gecəyə bənzədir, 1914-cü ildə qələmə alınmış şeirdə isə islam mülkünün – Şərqin qaranlıq olması açıq qeyd olunur. Digər tərəfdən, A.Səhhətin "Qaçıb elmin pərisi kişvəri-islamdan Qərbə" misrası (Səhhət, 1975: 29) burada bütün qüvvəsi ilə köməyə gəlir. Beləliklə, "islam" termininin qaranlıq qalan tərəfi aydınlaşır və romantik sənətkarın poetik "teoremi" ən doğru həllini şairin özünün verdiyi poetik "düstur"la tapır. Yeri gəlmişkən, qeyd edək ki, romantiklərin yaradıcılığında bir çox müəmmaların (simvolik obrazlar da buna nümunə ola bilər) onların öz yaradıcılıqlarının bədii faktları ilə açılışı Azərbaycan romantizminin özünəməxsus cəhətlərindəndir.

XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında "Qərb və Şərq" qarşıdurması bəzi vaxtlarda isə müxtəlif bədii priyomlar, bədii detallar və ayrı-ayrı şəxsiyyət adları vasitəsi ilə meydana çıxır. Bu isə belə bir qarşıdurmanın Azərbaycan romantizminin poetikası üçün sistemli məzmun daşıdığını və səciyyəvi olduğunu göstərir.

A.Səhhət yazır:

*Ey sananlar qəzeti şeyi-həba,*
*Bu təğafül nə rəvadır, əcəba?*
*Görüyorsuzmu Firəngistanı –*
*Ki, müsəxxər eləmiş dünyanı?*
*O kamalata qəzet baisdir,*
*Çünki hər elmdən o bahisdir* (Səhhət, 1975: 21).

M.Hadi yazır:

*Başqa bir vadidə puyandır Firəngistan bu gün,*
*Onları təhqiri, hayfa, sanmışız iman bu gün.*
*Bu gedişlə onlarındır atiyi-imran bu gün,*
*Qəti-ümmid eylədik biz doğrusu islamdan* (Hadi, 1978: 73).

Hər iki halda “Qərb” obrazını özündə təcəssüm etdirən yalnız bir bədii detal – Firəngistan (Fransa) qabarıq mövqeyə çıxmışdır. Bu baxımdan, Hüseyn Cavidin “Uçurum” əsərində Qərb və Şərqin təmsilçiləri olan Fransa və Türkiyə qarşı-qarşıya qoyulur ki, ondan ayrıca bəhs olunacaqdır.

Romantiklərin əsərlərində başqa bir məqama da tez-tez təsadüf olunur: ayrı-ayrı klassiklər, görkəmli şəxsiyyətlər müqayisə üçün ciddi əsasa çevrilirlər. M.Hadidə: “Şiller, Höte, Viktor Hüqo, Volter, Jan-Jak Russo, Herbert Spenser, Büxner, Sülli, Lamartin, Alfred Müsse, Molyer, Şekspir, Darvin” (Hadi, 1978: 191); A.Səhhətdə: “Homer, Höte, Şiller, Kant, Marks, Bualo, Hüqo” (Səhhət, 1975: 36).

M.Hadi “Həqiqət acımı, dadlımı?” şeirində yazır:

*İnsanlığa bir ləkkəyi-ar olduq, a millət,*
*Eylərsə əcəbmi, Qladston bizə nifrət?*
*Ar eyləyirəm söyləməyə kəndimə insan,*
*İnsan sifətində görünür çünki müsəlman (*Hadi, 1978: *128).*

Uilyam Qladston XIX əsrdə yaşamış (1809-1898) məşhur ingilis siyasi xadimidir. Romantik sənətkar onun şəxsiyyətindən bir poetik vasitə kimi istifadə edir. Qladstonun simasında Avropanı götürür və onu Şərq – müsəlman aləmi ilə qarşılaşdırır.

M.Hadinin “Mizani-əqvam” şeirində isə daha bir ciddi müqayisə vardır:

*Kəşf eylədi ərbabi-hünər “qüvveyi-bərqi”,*
*Bizlər edəriz vadiyi-zülmətdə tərəqqi.*
*İcad elədi əqli-bəşər “xaneyi-səyyar”,*
*Böylə oluyor zadeyi-nazəndeyi-əfkar.*
*İbda elədi dəsti-düha “Dafizi-əsvat”,*
*Bizlər hələ xabideyi-ağuşi-xürafat.*
*İnşa elədi əhli-xirəd “duməvisi”,*
*Bizlər oxuruz qisseyi-Leyla ilə Qeysi* (Hadi, 1978: 133).

“Qüvveyi-bərqi”, “xaneyi-səyyar”, “hafizi-əsvat”, “durnə-

vis" – bütün bunlar uyğun olaraq elektrikin, ulduzların hərəkətinin, akustikanın (qrammafonun) və teleqrafın kəşfinə işarədir ki, M.Hadi Kulon, Nyuton, Hyugens, Popov kimi alimlərin şöhrətini göstərir. Beləliklə, şairin inadlı hökmü həqiqət kimi səslənir: *Məğribdə bu gün şəmsi-hünər olmada şariq, Məsturi-səhaib hələ afaqi-Məşariq* (Hadi, 1978: 133).

Yəni bu gün Qərbdə hünər günəşi parıldadığı halda, Şərqin üfüqləri hələ buludlarla örtülüdür.

M.Hadi "Məmməd Səid Ordubadi cənablarına açıq məktub" məqaləsində Qərb sənətkarlarına verilən yüksək qiyməti alqışlayırdı: "İngiltərənin məşahiri-riyaziyyunundan Nyutonun bir dişi bir ingilis əslzadəsi tərəfindən 1816 sənəsində 730 ingilis lirəsinə alınmış, qızıl bir həlqəyə çevrilərək üzük məqamında istemal edilmişdir. Fransa üdəbasından Viktor Hüqonun "Səfillər" adındakı əsəri-məşhurini yazdığı qələm bir ingilis tərəfindən 45 min franka alınmışdır. Volterin ələ götürdüyü bir əl ağacı 500 franka satılmış, bir çuğun saatı 1500 franka iştira edilmişdir. Fransa şüərasından Molyerin bir dəllək dükanında oturduğu sandaliya şairin vəfatından sonra birinci dəfə beş min, ikinci dəfə olaraq on beş min franka furuş edilmişdir... və i.a." (Hadi, Məmməd Səid Ordubadi cənablarına açıb məktub. "Tazə həyat" qəzeti, 23 sentyabr 1906.). Bu da əslində Şərqdə sənətkarlara olan pis münasibətin göstərilməsi üçün tapılmış müqayisə tərəfi – Qərb faktı idi. Deməli, romantiklər hətta məqalələrində də Qərblə Şərqi qarşılaşdırırdılar.

M.Hadi başqa bir məqaləsində isə sənətkar istedadına münasibətini Avropa ilə müqayisədə aydınlaşdıraraq belə yazır: "Əgər ağzı göyçəyin biri çıxıb deyərsə:" Pəh oğlan! Sizlərdənmi Viktor Hüqo, Volter, Molyer olacaq?! Fəqət qədirşünaslıq, təşviqat görənlər filosof olmağa, üdəba sırasına keçməyə çalışarlar" (Hadi, Elmi-əbdana həqiqi bir nəzər. "Həyat" qəzeti, 3 sentyabr, 1906). Yaxud daha qabarıq qarşıdurma: "Xəyyam

Şərqdə binam olsa da, Qərbdə banamdır. Xəyyam Şərqi-qafilədə üful etsə də, Qərbi-Şərqdə parıl-parıl parlayır və yaşayır. Mən nami-Xəyyamı yaşadan cahani-mədəniyətə pərəstiş eylərəm...” (Hadi. Həzrəti-Xəyyamın şeirlərini tərcüməyə cürət ediyorəm. “İqbal” qəzeti, 24 mart 1914).

A.Səhhət də “Məğrib günəşləri”nə yazdığı müqəddimədə açıqca bildirirdi: “Avropalıların öz ədədiyyatı o qədər vase olduğu halda, yenə ərəb və farsın (yəni Şərqin – K.Ə.) məşhur ədib və şairlərinin əsərlərini öz dillərinə təmamən tərcümə etmişlər. Belə olan surətdə biz nə üçün avropalıların asarını öz lisanımıza tərcümə etməyək? Bilmədiyimizi nə üçün öyrənməyək? Elm heç millətin malı deyildir! Hər kəs yiyələnmək istəsə, onundur. Bu mətləb məni vadar etdi ki, Qərb ədəbiyyatından bəqədri-qüvvə öz dilimizə tərcümə etməklə əhalimizi onların asarına aşina edim” (Səhhət, 1976: 35).

A.Şaiqin “Üdəba və şairlərimizin halı” məqaləsindən yenə bir parçaya diqqət verək: “Həmin bu şum hesab etdiyimiz şəxslərin asari-şeiriyyələrini Avropa millətləri əl-əl gəzdirib öz ana dillərinə tərcümə edib qidayi-ruh edirlər ki, hal-hazırda Avropada kütübxanalarda, klublarda iftixarımız Sədi, Hafiz, Ömər Xəyyam və qeyrilərinin asarı mövcuddur. Misra: “Qədri-gül bülbül şünasəd, qədri-gövhəri gövhəri”.

Bu qisim bitədbirlik aya bizim ihmalımızdan naim deyilmi? Hansı bir şair və ədibimizin bu zamanədək layiqincə səvanehi-haliyyələri meydana çıxıbdır?

Nə qədər şüəra və üdəbalarımız var ki, adları dəxi millətimizə məlum olmayıb, həm adları, həm gözəl asarı təhti-xifadə qalmış” (Şaiq, 1977: 101).

Hətta maraqlıdır ki, hələ uşaqlıqdan A.Şaiqin təfəkküründə belə bir meyil yaranmışdır: “Abdulla (A.Şaiq – K.Ə.) da ərəb və fars dilini mənimsəyərək, Rumini orijinaldan oxuyur, onun dilində şeir yazırdı. Rumi böyük şair-filosof idi. Hegel özü etiraf

edirdi ki, dialektik metod yaratmaqda mən Rumiyə borcluyam. Belə olduğu halda, Abdulla təəccüb edirdi ki, bəs nə üçün Rumini öz vətənində sevmirlər, kafir adlandırırlar? Nə üçün "Məsnəvi"ni Xorasanda əllə yox, maşa ilə götürüb açırlar?!" (Məmmədov, 1983: 23)

Bütün bunlar sübut edir ki, XX əsr Azərbaycan romantikləri öz məqalələri ilə də bədii yaradıcılıqlarındakı Qərb və Şərq qarşıdurmasının sistemliliyi haqqında qəti təsəvvürə gəlməyə dair ciddi faktlar qoyub getmişlər.

Romantiklər, hər şeydən qabaq, Qərbdə mövcud olan elmi yüksəlişi diqqət mərkəzinə gətirirdilər. Elmin və elmi fikrin Avropada sürətli inkişafına şübhə ola bilməzdi, lakin romantiklərin elmi birinci dərəcəli məsələ kimi ortaya atmalarının digər mühüm səbəbi də var idi.

Faktlara müraciət edək.

M.Hadi yazır:

*Elm ilə dərağuş olunur şahidi-nüsrət,*
*Elm ilə zəfərpərvər olub avropalı* (Hadi, 1978: 12).

Yaxud:

*Şərqdə batmış maarif,*
*Qərbdə çıxmış fünun,*
*Mərifətlə, elm ilə*
*Məğribzəmin nəvvardır* (Hadi, 1978: 207).

A.Səhhət yazır:

*Qaçıb elmin pərisi kişvəri-islamdan Qərbə,*
*O yari-dilrübayə əhli-məğrib aşinalanmış.*
*Dolub Əhriməni-cəhl ilə Şərqin darülimani,*
*Tutub əmrazi-nəfsaniyyə xəlqi, mübtəlalanmış.*
*Bu yanda hökmfərma din adı altında dinsizlik,*
*O yanda elmi-əxlaq ilə bütlər etidalanmış*

(Səhhət, 1975: 29).

Romantiklərin Qərblə Şərqi müqayisədə elmi “aparıcı füqur” – əsas mətləb kimi almaları, onların elmi dünyagörüşə üstünlük vermələrindən irəli gəlirdi. Romantiklərə görə, elm cəmiyyəti dəyişdirən əsas qüvvə ola bilər. Bu mənada M.Hadi yaradıcılığında elm ilə yanaşı, mədəniyyət də xüsusi şəkildə qiymətləndirilirdi:

*Onlar erişib cənnətə, biz veyldə qaldıq,*
*Sübhi-mədəniyyətdə də “vəlleyl”də qaldıq*

(Hadi, 1978: 191).

Bu beytə Ə.Mirəhmədovun verdiyi qeyddə yazılmışdır: “Veyl – dini əsatirə görə, cəhənnəmdə olub, “Vadiyi-veyl” adlanan bir dərə. “Vəlleyl” – Quranın ilk surələrindən birinin adı” (Hadi: 447).

Mədəniyyətin inkişaf səviyyəsi baxımından da Hadi Qərbi “Cənnət”, Şərqi isə “Cəhənnəm” adlandırır. Burada “cənnət-cəhənnəm” qarşılaşması Qərbdə və Şərqdə mədəniyyətin inkişafını və ona göstərilən qayğının real mənzərəsini ifadə edir.

M.Hadi “Əlvahi-nəfasət” şeirində bu mətləbi birbaşa, açıq şəkildə də bildirir:

*Mən Şərqə cəhənnəm deyirəm, Qərbə də cənnət*

(Hadi, 1978: 265).

Ümumiyyətlə, tamamilə doğru fikirdir ki, M.Hadi “Qərb və Şərqi hər cəhətdən bir-birinə qarşı qoyurdu” (Cəfər, 1974: 92).

Bir məsələ vardır ki, romantiklər (daha çox isə M.Hadi) Qərb və Şərq obrazlarının qarşılaşdırılması əsasında çox ciddi ictimai problemlərə toxunurdular. Bu qarşıdurmanın romantizmin poetikasında davamlı xarakter alması da belə bir nəcib məqsəddən irəli gəlmişdir. M.Hadinin “Yazıq millət” şeirində Qərbdə mövcud olan sənaye üstünlüyü təqdir edilir:

*Sənaye sayəsində kəsbi-şövkət qıldı qərbiyyun,*
*Baxın biz əhli-Şərqə, məskənət, nəğmət, cəfa bizdə*

*(*Hadi, 1978: *136).*

"Nisviyyət təranələri" və "Ümməhati-həyat, yaxud cinsi-lətifə bir baxış" şeirlərində isə Qərb və Şərq qadınlarının həyatı, yaşayışı, ən nəhayət, taleyi müqayisə olunur:

*Qərbi partlandıran camalındır,*
*Çarşafın Şərqi pərdədar etmiş,*
*Sübhü yox şəbliqa diyar etmiş,*
*Sübhi-sadiq sənin məahndır (*Hadi, 1978: *223).*

Yaxud:

*Şərqin amalı, fəcri-iqbalı örtülü...*
*Qərb açıldı oldu sabah.*
*Olduğuyçün qadınlarında cinah*
*Açdı Məğrib səmayə şəhbalı.*
*Əlbət, səfil olursa qadın,*
*Alçalır bəşər!* (Hadi, 1978: 262).

M.Hadi "Mülhimeyi-əşar" şeirində Şərqdə sevinmək, şadlanmaq üçün bayramın belə olmamasından şikayətlənir:

*Ayaq altında çeynənər dururuz,*
*Baxsan a, Qərb oldu nurəfruz.*
*Qərbə bayram, əvət tamam əyyam,*
*Bizə bax ki, tamamımız səyyam.*
*Yoxmu bir bayramı bu əyyamın?*
*Yoxsa şəvvalı yox, bu səyyamın?* (Hadi, 1978: 273).

Burada belə bir sual meydana çıxır: Bəs əsrlər boyu Şərqdə və Azərbaycanda ənənəvi bayrama çevrilən Novruz bayramı şadlıq, sevinc mərasimi deyilmi? Axı heç olmazsa şərqlinin bircə gün belə sevinib şadlandığı bu bayramı M.Hadi unutmuşdurmu? Əlbəttə, yox!

Birincisi, romantik şair həmin şeirdə "Rəmazandırmı cümləsal bizə?" – deyir (Hadi, 1978: 273) və orucluq bayramına, bu bayramın mahiyyətinə işarə edir. İkincisi isə ağrı və acı içərisində yaşayan, azadlıq üçün çırpınan millət, xalq Novruz bayramını necə keçirə bilərdi? Bu məsələnin daha da aydınlığı

üçün H. Cavidin "Novruz bayramı" şeirinə diqqət edək. Həm də xatırlatmaq yerinə düşər ki, bu şeir Azərbaycan romantizm ədəbiyyatında kinayə ilə yazılmış nadir nümunələrdəndir:

*Bütün aləm dağılsa, od tutsa,*
*Bizə lazımdır imdi zövqü səfa.*
*Bir müsəlman ki, onda qeyrət var,*
*Sevinir, kef edər, çalar, oynar.*
*Sevinin! Zurna, toy çalın, sevinin,*
*Nə gözəl bayram! Of, gülün, sevinin!*
*Dinə, namusa küsdünüzsə, gülün!*
*Sevinin, həp gülün!... Nə nəşəli gün?!*

(Cavid, 1968-1971, I cild: 57).

Məsələ buradadır ki, hər iki romantik sənətkar oxucularını haqq və ədalət uğrunda mübarizəyə səsləyirdilər. Bu mənada onlar hürriyyət, azadlıq problemlərini qaldıranda da Avropanı yüksək qiymətləndirirdilər.

M.Hadi "El fəryadı" şeirində yazırdı:

*Hürriyyət ilə millət edər kəsbi-məali,*
*Hürriyyət ilə mülkün olur qiyməti-ali,*
*Avropalı hürriyyət ilə tapdı kəmali,*
*Əlbəttə, əsarətlə olur məhv əhali,*
*Hürriyyətü sərbəstlik imrani-vətəndir* (Hadi, 1978, 26).

Bütün bunlar romantiklərin yaradıcılığının ilk mərhələsini təyin edən səciyyəvi əlamətlər və xüsusiyyətlər idi. Təbii ki, Qərb və Şərq obrazlarının qarşılaşdırılması həmişə Qərbə üstünlük verilməsi ilə məhdudlaşmamışdı. Bu tənasübün və tarazılığın bərabərləşən çağı da olmuşdur: o vaxt ki, İranda inqilabi hərəkat gücləndi (1908), onda romantiklər Şərqi Qərblə bərabər tutmağa başladılar. Romantiklərə görə, artıq Qərblə Şərq arasındakı kəskin fərq aradan götürülməkdədir. Belə bir sevinclə yaşayan M.Hadi öz duyğularını şeirə köçürdü:

*Bu gün tiği-rəşadət xiyrəsazi-çeşmi-imkandır,*
*Bu gün əqvami-Qərbiyyə nigəhəndazi-İrandır,*
*Bu gün Məşriq-zəmində şəmsi-hürriyyət dirəxşandır,*
*Bu heyrətbəxş qeyrət calibi-ülviyyətü şandır,*
*O Firani-zəmanın son məkanı Nili-xüsrandır*
*(*Hadi, 1978: *169).*

Eynilə A.Şaiq də yazırdı:
*Vəqta ki gələr sevimli ati,*
*Bir dairəyə girərsə həmayiq,*
*Nuru bürüyər bütün cihati,*
*Ulduzlar ilə yanar Məşariq* (Şaiq, 1968: 18).

Qərb və Şərq obrazlarının qarşıdurma mövqelərinin parlaq bədii həllini M.Hadinin "Şərq və Qərbi müqayisə" şeirində görmək çətin deyildir (Hadi, 1978: 292-295). Bu şeirdə Qərbdə sənətin inkişafından, "elmin səsinin ucalmasından", filosofların qüdrətindən, ağıllı rəhbərlərdən danışılır, Şərqin cəhalət və mövhumatı, geriliyi tənqid olunur. Bu məsələlər vaxtilə xüsusi şəkildə tədqiq edilmişdir (Mirəhmədov, 1946: 39-43).

Şeirdə ən maraqlı cəhət Qərb və Şərq obrazlarının açıq şəkildə əks qütblər təşkil etməsidir. Elə şeirin bədii təşkili də məhz bununla bağlıdır:
*Məğribdə var maarif, Məşriqdə var cəhalət,*
*Məğribdə hürrdür xəlq, Məşriqdə var əsarət,*
*Şərq əhli çox donuqdur, Məğribdə var nərahət,*
*Məğrib işıqlı yerdir, məşriq zəmini-zülmət,*
*Bizlər fərmani-zülmət* (Hadi, 1978: 293).

Tam aydınlığı ilə görünür ki, bu bəndin hər bir misrası fikir və ideya baxımından açıq-aşkar iki yerə bölünür. Həmçinin məsələnin mahiyyəti yalnız onda deyildir ki, bölünmüş hissələr tamamilə bir-birinin əksidir və qarşıdurma təşkil edirlər. Yəni misranın bir tərəfində Qərb, digər tərəfində isə Şərq obrazı ucalır. Bir tərəfdə maarif, azadlıq, hərəkət və işıq var, digər tərəfdə isə

cəhalət, əsarət, donuqluq və zülmət hökm sürür. Belə təzadlı və eyni zamanda, ahəngdar misralar şeirin bədii siqlətini artırmaqla yanaşı, təsiretmə gücünü də artırır.

"Şərq ilə Qərbi müqayisə" şeirində poetik qarşıdurmanın daha ciddi bir forması vardır. Bu forma bilavasitə şeirin ikinci bəndinə aiddir:

*Məğribdə cayi-bala ərbabi-hikmətindir,*
*Yüksək olan məvaqe əshabi-fikrətindir,*
*Təzimlər o yerdə əhli-fəzilətindir,*
*Qiymətli rütbələr həp əşxasi-sənətindir,*
*Ən parlaq ehtiramat cinsi-lətafətindir,*
*Hürriyyəti-nəcibə xəlqin, cəmaətindir.*
*Məşriqdə sədri-məclis timsali-qəflətindir,*
*Ən parlaq ehtiramat ərbabi-zülmətindir,*
*Sözlər də altun olmuş, ərkani-dövlətindir,*
*Bir irsdir xürafat, əhli-fəqahətindir,*
*Vaiz deyir ki, dünya əhli-zəlalətindir,*
*"Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,*
*Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə"* (Hadi, 1978: 292).

Bu bəndin izahından qabaq, mühüm və ciddi istinad nöqtəsi kimi, XVI əsrdə yaşamış görkəmli söz ustası Məhəmməd Füzulinin məşhur qəzəlindən bir beyti xatırlayaq:

*Bülbüli-ğəmzədəyəm, bağü baharım sənsən,*
*Dəhənü qəddü rüxün ğönçəvü sərvü səmənim*

(Füzuli, 1958: 234).

Burada orta əsrlər Azərbaycan şeirinin poetikası ilə M.Hadi şeirinin poetikası arasında yaxınlıq və M.Hadi şeirindən gətirilmiş nümunənin açılışı üçün bədii açar vardır. Belə ki, M.Füzuli beytinin ikinci misrasını bir növ tamamilə ortadan "qırıb", onlar arasında bərabərlik işarəsi qoyaq:

Dəhənü qəddü rüxün = ğönçəvü sərvü səmənim.

Bərabərliyin sayını çoxaltmaq da olar: dəhən = ğönçə, qədd = sərv, rüx = səmən.

Təbii ki, qarşıdurmada bərabərlik işarəsi tamamilə əksinə çevrilməli və hətta tərəflər fikir və ideya baxımından əks dayanmalıdırlar. Bütün bunlardan sonra M.Hadinin şeirindən gətirilmiş nümunədə qarşıdurmanın mənzərəsi tamamilə aydınlaşır. Aydın vəziyyət isə belədir: birinci və yeddinci, ikinci və səkkizinci, üçüncü və doqquzuncu, dördüncü və onuncu, beşinci və on birinci, altıncı və on ikinci misralar ideya, fikir baxımından tamamilə, özü də sərt şəkildə qarşı-qarşıya dayanır. Yəni Qərbdə hikmət sahibi uca yerdədir, Şərqdə iclasın sədri qəflətdə olandır; Qərbdə düşüncə sahibi yüksək mövqedədir, Şərqdə hörmət cəhalət əhlindədir; Qərbdə bilik, hünər, mərifət əhlinə təzim edərlər, Şərqdə ən böyük ehtiram zülmkarlarındır; Qərbdə qiymətli rütbə sənət şəxslərinə – sənətkara məxsusdur, Şərqdə hökumətin ən məsul və ən böyük vəzifə daşıyan adamlarının sözü altundur; Qərbdə qadına böyük ehtiram var, Şərqdə şəriət qanunu ilə xurafat güclüdür, deməli, qadın mütidir; Qərbdə azadlıq xalqın, camaatındır, Şərqdə dünya zülm sahibinindir.

M.Hadinin "Şərq ilə Qərbi müqayisə" şeirində elə məqamlar da vardır ki, qarşıdurmanın bir tərəfi yoxdur, amma o, bütöv mətn daxilində asanca hiss edilir. Yəni şeirin poetik strukturunda əgər qarşıdurma ciddidirsə, həm də sistemlidirsə, onun bir qütbünün buraxılması bəzən təkrarı aradan qaldırmaq üçündür. Həmin şeirdən aşağıdakı misralar məhz belədir:

*Məşriqdə söndürən çox, parlarsa bir ziyakar,*
*Məşriqdə öldürən çox, canlansa bir dühakar...*

(Hadi, 1978: 292)

Burada romantik sənətkar Şərqi parlayan ziyanı söndürməyən, dahini qoruyub saxlayan Qərbə qarşı qoyur və onun geriliyini göstərir.

Bütün bunlar sübut edir ki, romantizmdəki poetik qarşıdurma öz müxtəliflik formaları ilə poetik inikasın da rəngarəngliyinə

şərait yaradır. Lakin qarşıdurmalar da müəyyən mərhələ daxilində formalaşır və inkişaf edir.

Bu mənada 1914-cü ildə yazılan "Şərq ilə Qərbi müqayisə" şeirindəki Qərb və Şərq obrazlarının qarşılaşdırılması Məhəmməd Hadi yaradıcılığında bu tipli qarşıdurmanın son nümunəsi idi. Ümumiyyətlə isə Birinci dünya müharibəsinin başlanması ilə romantiklərin bədii irsində "Qərb-Şərq" qarşıdurması ya yoxa çıxır, ya da öz funksiyasını tamamilə dəyişir. Bu vaxta qədər "Şərq bizim romantiklərin nəzərində qəflət yuxusuna dalmış, müasir mədəniyyətdən uzaq düşmüş, azadlıqdan məhrum olan mövhumat, cəhalət, ətalət içərisində çürüyən yazıq, məhkum Şərq idi" (Cəfər, 1963: 110). Məhz buna görə, Qərb gözəlliyinə olan maraq xeyli davam etmiş, romantiklərdə bir müddət bu gözəlliyə şübhə yaranmış və onlar Qərb ilə Şərqi bütün cəhətlərinə görə eyniləşdirmişlər. Yalnız Birinci dünya müharibəsi illərində Qərbə olan maraq son dərəcə azalmış, heçə çıxmış və əks istiqamətə yönəlmişdir; burada xüsusilə qeyd etmək lazımdır ki, Hüseyn Cavidin 1917-ci ildə qələmə aldığı "Uçurum" pyesi "Qərb və Şərq" qarşıdurmasındakı bu dəyişmə proseslərini bütün aydınlığı ilə nümayiş etdirir.

1. Rus ədəbiyyatında Qərb və Şərq qarşılaşması bəzən "Polşa və Qafqaz" formasında reallaşır, hətta Qafqaz "gürcü", "krımlı" metonimik məcazi ifadələri ilə də əyaniləşir (Лотман, 1985: 17). "Uçurum" pyesində isə Qərbi Paris, Şərqi isə İstanbul təmsil edir. Bu şəhərlər və onların adamları bir-birindən uzaq olduqları qədər də ayrı-ayrı mənəvi-əxlaqi keyfiyyətlərə malikdirlər.

Romantik şeirdə olduğu kimi H.Cavidin romantik faciəsində də əsərin əvvəlindəki hadisələrin mahiyyətinə görə Qərb – Paris və İtaliya – Roma formasında cəzbedici və idealdır. İtaliyaya münasibətdə romantizmin mövqeyi aydındır: "Romantiklər İtaliyanı özləri üçün xoşbəxtlik və romantik ölkə kimi kəşf

etdilər" (Турчин, 1981: 110). Bu mənada əsərdə Cəlalın buraya səfərini ilk dəfə Yıldırım elan edir: "İtaliyayı gəzmək istiyor" (Cavid, 1968-1971, I cild: 273).

Bir müddət keçdikdən sonra Cəlal da öz istəyini açıq bildirir:

*Xayır, mən əhd etmişəm:*
*İtalyayı görmədən,*
*İstanbula dönməyim (*Cavid, 1968-1971, I cild: *296).*

Maraqlıdır ki, Cəlal İtaliyada olandan sonra yüksək məmnunluqla deyir:

*Heç şübhə yox "sapqın!" – deyə həp darıldınız mana;*
*Səfər etdim Rafaelin, Mikelancel yurduna,*
*Nələr gördüm, ah bilsəniz, nələr, nələr, ah nələr!?*
*Nə heykəllər, madonnalar!.. Nə parlaq nümunələr!..*
(Cavid, 1968-1971, I cild: 306-307).

Məsələ buradadır ki, bütün bu məqamlarda İtaliya ilə İstanbul qətiyyən qarşı-qarşıya dayanmırlar. Başlıca münaqişə və ixtilaf Şərqin timsalı olan İstanbulla Qərbi təmsil edən Fransa, daha konkret mənada Paris arasında gedir.

Pyesin ilk pərdəsindəki dialoqların mərkəzi problemini Qərb və Şərq arasındakı mübahisə təşkil edir və bu barədə ayrı-ayrı mülahizələr söylənilir. Mübahisənin başlıca səbəbi ondan ibarətdir ki, Gövərçinlə yenicə evlənmiş Cəlal rəssam sənətkarlığını daha da təkmilləşdirmək üçün Fransaya getmək istəyir. Belə bir səfərə ilk öncə narazılığını bildirən onun həyat yoldaşı Gövərçin olur: bu etiraz, əsasən, şəxsi xarakter daşısa da, Avropa mühitinin Cəlalın əxlaqına mənfi təsir göstərəcəyi barədə şübhəni də ifadə edir.

Bəs ayrı-ayrı obrazların Qərbə və Şərqə münasibətlərindəki haçalanmış fikirlərin mənzərəsi necədir?

Yıldırımın mülahizəsi:

*Mən Firəngistanın şux həyatinə*
*Yaxından aşina olmaq istərim.*
*Bir qədər Parisdə qalmaq istərim.*
*Cəlal isə pək maraqlı bir rəssam,*
*Əski, yeni lövhələri biltamam,*
*Görüb bilmək, bir şey sezmək istiyor*
(Cavid, 1968-1971, I cild: 273).

Əkrəmin mülahizəsi:
*Əvət, bu pək gözəl düşüncə, lakin*
*Səyahətdən zövq alan bir türk için,*
*Krım yaylaları, İdil boyları,*
*Qafqaz dağları, şanlı türk soyları*
*Birər sərgidir – seyrinə doyulmaz,*
*Gənc bir rəssam üçün dəyərsiz olmaz,*
*Həm nə həqiqi lövhələr, bilsəniz!*
*Hər zövqü, hər qəlbi oxşar şübhəsiz*
(Cavid, 1968-1971, I cild: 273).

Bütün açıqlığı ilə görünür ki, bu mülahizələr bir-birinin tamamilə əksidir. Yıldırım və Cəlal Qərbə üstünlük verir. Qərb həyatında rəssamlıq üçün bir əsrarəngizlik görürlər. Şərq ellərini qarış-qarış gəzib dolaşan Əkrəm isə görüb tanış olduğu bu ellərin "həqiqi lövhələr" yaradılmasındakı roluna daha çox güvənir.

Bu dialoqda onların sənətə baxışlarındakı ikili mövqe də bütün aşkarlığı ilə görünür. Aydın olur ki, "həqiqi lövhə" tərəfdarı olan Əkrəm realizm sənət konsepsiyasını müdafiə edir. Yıldırım isə belə söyləyir:
*Cəlal həqiqətdən ziyadə – məncə –*
*Xəyal düşgünüdür, onun zənnincə*
*Xəyaldan doğarmış bütün böyüklük,*
*Həqiqi lövhələr onca pək sönük...*
(Cavid, 1968-1971, I cild: 273).

Buradan belə aydınlaşır ki, Cəlal romantik təbiətə malik rəssamdır və onun Avropaya səfəri də məhz bu cəhətlə bilavasitə

əlaqədardır. Çünki o, Qərbdə romantizm məsləkinə uyğun olan həyatla rastlaşacağına və yeni romantik əsərlər yaradacağına böyük inam bəsləyir.

Müdrik Uluğ bəyin Qərbə münasibətində isə tam obyektivlik vardır:

*Haydı, yavrum, gedin, uğurlar olsun!*
*Gedin, böyük tanrı, sizə yar olsun!*
*Fəqət bilməli ki, bir çox igidlər,*
*Şu yaldızlı yolda olmuşlar hədər.*
*Əvət, bilməli ki, Firəng elləri,*
*Həm bəslər, həm soldurur əməlləri;*
*Avropada işıq da var, zülmət də,*
*Orda səfahət də var, fəzilət də.*
*O bir əngin dəniz ki, pək qorxuncdur.*
*İnsan gah inci bulur, gah boğulur*

(Cavid, 1968-1971, I cild: 281).

Bundan sonra Cəlal Parisə yola düşür və Parisdə yeni həyat yaşamağa başlayır. Maraqlıdır ki, "Paris Çexov dramaturgiyasının poetik semantikasında səhnədə göstərilən hərəkət məkanından çox uzağı ifadə edən anlayışdır" (Зингерман, 1982: 333). Hüseyn Cavidin pyesində isə Paris elə uzağın özüdür və onun da remarkada olduğu kimi, deməli, səhnədə də məkanı vardır. Hətta təsadüfi deyildir ki, romantik sənətkar İstanbulu və Parisi təqdim etdiyi remarkalarda Qərb-Şərq təzadının müəyyən qədər göstərilməsinə nail olmuşdur. Belə ki, birinci pərdədə Cəlalın İstanbuldakı kitabxanası təsvir edilir. Burada daha çox diqqətdə qalan "ətrafda rəngarəng gül dəmətləri gözə çarpar" (Cavid, 1968-1971, I cild: 268) təqdimatıdır. İkinci pərdədə isə Cəlalın Parisdəki iş otağı verilir ki, orada dramaturq başqa bir cəhəti nəzərə çarpdırır: "Qarşıdakı böyük pəncərədən günəşin batmaqda olduğu görünür" (Cavid, 1968-1971, I cild: 283).

Bunlar hər iki mühit haqqında müəyyən fərqli təəssürat

yaradan bədii çalarlardır. Bəs elə isə Cəlalın Parisdəki həyatı necə cərəyan edir?

Əvvəlcə qeyd edək ki, Azərbaycan ədəbiyyatında Cəlaldan əvvəl də Parisə getmək istəyən ziyalı obrazı olmuşdur. Bu obraz Mirzə Fətəli Axundovun "Hekayəti-Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasındakı Şahbaz bəydir. Şahbaz bəy Müsyö Jordonla birlikdə Parisə getmək istəyir. Lakin bu gedişin "təhlükəli" olduğunu hiss edən nişanlısı Şərəfnisə xanım deyir: *"Nə bilim, cahıl uşaqdır. Müsyö Jordan beyninə salıbdır ki, Parisdə qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzü açıq oturub-dururlar. Nə bilim, başqa zadlar da çox deyibdir. İndi o da dəli- divanə olub deyir ki, gərək gedəm bir Parisi görəm. Əvvəl əmimdən rüsxət istəyəcəyəm, qoymasa, gecə atımı minib, Arazı o taya keçib, Müsyö Jordan ilə görüşüb, onunla bərabər gedib, Parisi görüb seyr edəcəyəm"* (Axundov, 1982: 42).

Lakin onda realist düşüncəli Azərbaycan qadınları Şahbaz bəyin Parisə getməsinin qarşısını ala bilirlər. Gövərçin isə Cəlalın qarşısına maneə ola biləcək qüvvə ilə çıxa bilmir. Cəlal Parisə qədəm qoyub və vaxtilə Şərəfnisə xanımın mülahizə eylədiyi "məclislərdə və yığıncaqlarda üzüaçıq oturub-duran" qadınlarından biri ilə – Anjellə rastlaşır.

Anjel kimdir? Onun barmağındakı üzükləri göstərərək dediyi aşağıdakı sözlər çox xarakterikdir:

*Almas deyil bunlar da,*
*Pırlantadır, əzizim!*
*Bunu Moskovdan gələn*
*Bir qraf etmiş təqdim,*
*Bu da gənc bir iranlı*
*Şahzadədən yadigar...*
*Bax, nə sevimli şeylər,*
*Yıldız kimi parıldar* (Cavid, 1968-1971, I cild: 291).

Təbii ki, bu qaş-daş "sərgisinə" yeni incilər də əlavə olunur

ki, həmin inciləri Anjelə Cəlal bəxşiş etmişdir. Daha geniş mənada H.Cavidin "Uçurum" faciəsində Cəlalla Anjel arasındakı münasibətlər Qərb həyatının çirkinlik və eybəcərliklərini, Gövərçinin taleyi isə Şərq təmizliyini inikas etdirir.

Bütövlükdə isə Cəlalın Gövərçindən ayrılması, Parisdə Anjelə uyması və nəhayət, Qərbin ona bəxş etdiyi çirkin əxlaq vərdişləri ilə geriyə qayıtması və öz ailəsinin, səadətinin məhvinə bais olması Qərb və Şərq arasındakı təzadı tam çılpaqlığı ilə meydana çıxarır.

Beləliklə, faciənin ilk pərdəsində Qərbə sevgi olduğu halda, son pərdə və şəkillərdə Qərb ikrahla xatırlanır, Şərq Qərbdən üstün tutulur. Belə bir cəhət – Qərb və Şərqə münasibətin müxtəlif məzmun alması Azərbaycan romantizminə dair əsərlərlə təsdiq edilir. Eyni zamanda, bir neçə mərhələnin ayrı-ayrı münasibət formaları birləşmiş halda "Uçurum" pyesində görünür. Buna görə də, heç bir mübahisə gözləmədən Hüseyn Cavidin "Uçurum" faciəsini XX əsr Azərbaycan romantizmində qarşıdurma təşkil edən Qərb və Şərq obrazlarının mövqe dəyişmələrini əks etdirən simvolik nümunə də adlandırmaq olar.

A.Şaiqin də "Şərq gözəlinə" şeiri məhz bu istiqamətin yeni formada təsdiqidir. Həmin şeir haqqında ("Maarif və mədəniyyət" jurnalı, 1923, №11, s.11.) yazılmışdır: "Bu mənzumə 1921-ci ildə Şərqin ictimai, fikri və siyasi bir inqilab ərəfəsində bulunması münasibətilə söylənilmişdir":

*Bir zaman olmuşdum Şərqin əsiri,*
*Şimdi çeynər səni Qərbin zənciri* (Şaiq, 1968: 75).

XX əsr Azərbaycan romantizm ədəbiyyatında Qərb və Şərq obrazlarının qarşılaşdırılması bir məqsədə xidmət etmişdir: Şərqin bu gününü və gələcəyini xilas etmək. Burada daha maraqlı cəhət bundan ibarətdir ki, romantiklər mövcud cəmiyyətdən narazılıqlarını bildirmək üçün uzaq obyektlərin müqayisə tərəfi kimi götürülməsinə xüsusi əhəmiyyət verirdilər və elə üstünlük də

onların tərəfində idi. Bir tərəfdən onları görməmək, oradakı mənzərənin şahidi olmamaq, digər tərəfdən də romantiklərə məxsus olan daxili hiss və duyğular burada vahid əsasa çevrilirdi. Bu istiqamətin davamı kimi romantizmin poetikası üçün səciyyəvi olan yeni cəhətlər meydana çıxırdı. Belə ki, öz ümidlərinin Qərbdə puça çıxacağının şübhəsi ilə yaşayan və yaxud da bunun real şahidi olan romantik sənətkarlar daha uzaq obyektlərə üz tutur, təbiətin və kainatın predmetlərini bədii obraz səviyyəsinə qaldırır,yeni təsəlli ilə yaşayırdılar.

Şübhəsiz, burada elə bir cəhət də vardır ki, bu cəhət fikrimizdə qarışıqlıq yaratmamalıdır. Yəni söhbət ondan getmir ki, romantiklər Birinci dünya müharibəsi başlayana qədər, Qərbə öz məhəbbət duyğularını dəyişənə kimi yalnız təsəlli və ümid qığılcımlarını Qərbdə axtarmışlar. Qərb "arzusu" puça çıxandan sonra isə üzlərini ayrı-ayrı obyektlərə, yuxarıda bildirdiyimiz kimi, təbiət və kainat predmetlərini obrazlaşdırmağa doğru çevirmişlər. Romantizmin təbiətinə uyğun olaraq bu proses həmişə vəhdətdə getmişdir. Yəni XX əsr Azərbaycan romantikləri öz arzu və istəklərini ifadə etmək üçün eyni vaxtda həm Qərbi, həm də təbiət və kainatın ayrı-ayrı predmet və obyektlərini bədii obraz kimi almışlar. Bu mənada Yaxın və Uzaq obrazlarının əhatə etdiyi obrazlar sisteminin və eyni zamanda, bu obrazların özlərinin poetik qarşıdurma təşkil etməsi məqamlarını araşdırmaq qanunauyğundur.

## 2. YAXIN VƏ UZAQ

Klassik Azərbaycan ədəbiyyatında bu gün də öz şöhrətini qoruyub saxlayan bir çox əsərlər şahların, hökmdarların sifarişi ilə yazıldı (Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri və s.), hökmdar obrazları da yaradıldı (Nizami Gəncəvinin Xosrov,

Bəhram Gur və s. obrazları). XIX əsrdə realist M.F.Axundov "Aldanmış kəvakib" povestində Şah Abbasın taleyini verdi. Sonra "Nadir şah" (N.Nərimanov), "Ağa Məhhəmməd şah Qacar" (Ə.Haqverdiyev) pyesləri meydana çıxdı.

İranın hakimi Məmmədəli şah XX əsrin əvvələrində M.Ə.Sabirin onlarla əsərində, "Molla Nəsrəddin" satirik jurnalında və Cəlil Məmmədquluzadə başda olmaqla mollanəsrəddinçilərin felyeton və şeirlərində lazımi qədər ifşa olundu. Bir az əvvəl isə M.F.Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasında "vəzir" baş qəhrəman səviyyəsinə qaldırılmışdı.

Romantik Hüseyn Cavidin dramaturgiyasında isə Topal Teymur hökmdardan çox, sərkərdə idi. Hətta Peyğəmbər də dini rəhbər kimi deyil, bu rütbəyə və ada çatmaq üçün apardığı mübarizələrin başçısı – sərkərdəsi səviyyəsində təqdim olunmuşdu. "Səyavuş"da isə hökmdarlar yox, xalqın nümayəndəsi olan Səyavuş özü baş qəhrəmandır. Hətta romantiklər hökmdarlığı qələmə almaq istəyirlərsə, bu, "Bir saatlıq xəlifəlik"dən (A.Şaiq) o tərəfə getmir.

Yaxud başqa bir maraqlı məqama diqqət edək. Realist Mirzə Fətəli Axundovun komediyalarındakı obrazların əksəriyyəti dini məbədləri ziyarətə gedib gələnlərdir: Hacı Kərim, Məşədi Cabbar, Hacı Nuru, Məşədi Qurban, Hacı Salah və nəhayət, məşhur Hacı Qara. Tənqidi realizmin ciddi nümunəsi olan "Ölülər" əsərində Şeyx Nəsrullah və ona kömək çıxanlar da: Hacı Həsən, Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım, Məşədi Oruc, Kərbəlayı Fatma xanım... ziyarətə gedib-gələnlərdir. Hətta C.Məmmədquluzadə "Danabaş kəndinin əhvalatları" povestində ziyarətə getmək istəyən Məmmədhəsən əminin obrazını da yaratmışdır.

H.Cavidin "Şeyx Sənan" faciəsində isə "Mədineyi-münəvvərədə, Şeyx Kəbirin evində üləmayə məxsus bir qəbul odası..." (Cavid, 1968-1971, I cild: 134), "Məkkeyi-müəzzəmdə

böyük bir yol... Yol kənarında bir taqım evlər, uzaqda qara örtülü Kəbə...” “Eyni şəhərdə məzarlıq”, “Məkkədə baş rəisin evi” dörd pərdənin də vahid məkan – Məkkə dekorunu aydın göstərir (Cavid, 1984: 7,13,39,65).

Deməli, realist ədəbiyyatda Məkkədən (ziyarətgahlardan) gələnlər, yaxud oraya getmək istəyənlər əsas mövqedə dururlarsa, romantik dramaturgiyada bunun tamamilə əksinə olaraq, Məkkə (ziyarətgah) sakinlərinin özləri görünür.

Bütün bunlar romantik ədəbiyyatla realist ədəbiyyatı bir-birindən fərqləndirən müəyyən cəhətlərdir. Lakin elə amillər də vardır ki, bunlar romantizmin səciyyəvi xüsusiyyətləri kimi heç bir müqayisə tərəfi tələb etmir. Belə ki, XX əsr Azərbaycan romantizmində insanların daxili dünya, daxili düşüncə və duyğularının təhlili forması, mənəvi aləmlərdəki sarsıntı və narahatlıqların təsəllisini tapmaq eşqi poetik ilhamın əngin səmalara “uçmaq” ehtirasında daha güclüdür. Yüksək idealları ifadə etmək amalına xidmət edən, ideal aləmin, ideal həqiqətin sorağında olan bu eşq, bu ehtiras M.Hadidə olduğu kimi, daha çox xəyal – arzu kimi özünü göstərir:

*Uçsaydım, ah, mən o müəlla cahanlara!*
*Yüksəlmək ən böyük əməlim asimanlara* (Hadi, 1978: 55).

Göründüyü kimi, burada uçmaq, yüksəlmək ümidi canlı və daha qabarıqdır. İfadəlilik və qayə əzmkarlığı o qədər yüksəkdir ki, ağlasığmaz, hüdudsuz məsafəni sürətlə (o vaxt “kosmik sürət” anlayışı da yox idi) fəth etmək bildirişi belə xəyali təsir bağışlamır. Xəyal və əlçatmazlıq inad və inam qarşısında gücünü itirir, puça çıxır.

Digər tərəfdən, romantik sənətkar özü də bilir ki, o “müəlla cahanlara” çatmaq çox çətin məsələdir, bəlkə heç mümkün də deyildir. Lakin şeirin əsas mahiyyətini qəhrəmanın oraya yetişməsi yox, oraya can atmaq ehtirası təyin edir. Çünki qəhrəman “sakit bir yerə sığınmaq istəyir” (Mirəhmədov, 1962:

69) və öz sığınacağını asimanlarda tapır.

H.Cavid də "Ruhum uçar, uçar əbədi bir səfa duyar" – deyir (Cavid, 1968-1971, I cild: 70). M.Hadidəki "uçmaq" arzusu artıq sakit bir "Uç gəl, mana, ey həmdəmi-hissim" (Hadi, 1978: 127) misrası ilə uçaraq mənzil başına çatanın geri qayıtmaq intizarını çəkir. XX əsr Azərbaycan romantizmində uçuş proqramının hazırlanması, uçuşun yerdən tənzimi, uçub obyektə çatmaq və nəhayət, geriyə uçuşda heç bir nasazlığa düçar olmamaq bütöv bir hərəkət xəttinin, maneəsiz "hava yolu"nun mövcudluğunu təsdiq edir. Şübhəsiz ki, bu, romantik sənətin kəşf etdiyi yoldur və yalnız ona məxsusdur.

M.Hadi 1914-cü ilin əvvəllərində çap etdirdiyi bir məqaləsində yazırdı: "Böyük və yüksək Tofiq Fikrət nə gözəl söyləmişdir:

*Yüksəlməli, toxunmalı alnın səmalərə,*
*Doymaz bəşər dedikləri, qoş etilalərə!*

Namiq Kamal bəy də demişdi ki:

*Yüksəl ki, yerin bu yer deyildir,*
*Dünyaya gəliş hünər deyildir"*

(Hadi, Türklərin illik səltənəti. "İqbal" qəzeti, 28 fevral 1914).

O başqa məsələdir ki, Azərbaycan romantiki öz yaradıcılığında mütərəqqi türk romantikləri ilə sıx bağlı idi. Burada diqqətli cəhət odur ki, M.Hadi həmin sənətkarların məhz yüksəlməklə bağlı olan beytlərini nümunə gətirir. Hətta maraqlıdır ki, Azərbaycan romantiki həmin ildə çap olunan "Şükufeyi-hikmət" kitabına daxil etdiyi "Nasıl yüksəlməli?" şeirinə Tofiq Fikrətin həmin beytini epiqraf vermirdir (Hadi, 1978: 287).

Daha bir səciyyəvi fakt. 1912-ci ildə Abdulla Surun vəfatı ilə bağlı Hüseyn Cavid yazdığı məqalədə göstərir ki, A.Surun dəfn mərasimində "cənazənin üzərində mərhumun adı ilə bərabər, Namiq Kamal mərhumun bu beyti yazılmışdır:

*Yüksəl ki, yerin bu yer deyildir,*

*Dünyaya gəliş hünər deyildir"* (Cavid, Mirzə Abdulla Məhəmmədzadə, yaxud A.Sur və ya Abdulla Tofiq. "İqbal" qəzeti, 16 may, 1912).

Təbii ki, həmin beyt ilk növbədə A.Surun həyat ideallarının ümumiləşmiş və simvolik yazısı idi. Digər tərəfdən və ən ümdəsi isə, A.Surun türk romantiki ilə, hətta məhz həmin misralarla bağlı yaradıcılıq əlaqəsi aşkarlanır. Belə ki, Azərbaycan romantiki "Püsgüllü ulduz" mənsur şeirində ulduza müraciətlə birbaşa yazmışdı": *"Bu yer sənin yerin deyil"* (Sur, Püsküllü ulduz. "Həqiqət" qəzeti, 1910, № 103). Demək, XX əsr Azərbaycan romantiklərinin nakam həmkarı da əsərlərində yüksəlmək eşqini daha üstün tutmuşdur. Hətta bir daha qeyd etmək yerinə düşər ki, Şeyx Sənanın yüksəlmək idealı Azərbaycan romantizminin poetika sistemində təsadüfi olmayıb, romantik şeirin bu istiqamətdəki axtarışlarının qanunauyğun davamı idi.

Romantizm ədəbiyyatında göylərə, əngin səmalara qalxmaq arzusu yalnız yerdəkilərin cəhdində ifadə olunmurdu. Bəzən göylərdə "məskən salan" sakinlər də Yer övladını göylərə dəvət edirdilər. H.Cavidin "Şeyx Sənan" faciəsində Xumar məhz göyün "xitabət kürsüsü"ndən danışırdı (Cavid, 1968-1971, I cild: 139). Abbas Səhhətin "Şair, Şeir pərisi və Şəhərli" əsərində Şeir pərisi Şairi göylərə səsləyirdi:

*Vəcdə gəl, nəğməsəra olmağa ağaz edəlim,*

*Gəl, bərabər uçalım, göylərə pərvaz edəlim* (Səhhət, 1: 89).

Bir maraqlı cəhət vardır ki, romantik əsərlərin bəzi obrazları göylərə olan maraqlarını müxtəlif formalarda ifadə edirdilər. Nümunə üçün qeyd edək ki, H.Cavidin Knyazı göyə doğru baxaraq deyir:

*Təyyarə verin, bir uçayım mən,*
*Allahı bulub sirr açayım mən*

(Cavid, 1968-1971, III cild: 187).

Yenə də "Knyaz" pyesində nəğmə oxuyan iki səsə diqqət verək:

İncə səs

*Mən ağ bir gövərçin olsaydım, əngin,*
*İrişilməz üfüqlərdə yaşardım.*

Qalın səs

*Mən bir şahin olub səni seyr için*
*Ən keçilməz fəzaları aşardım*

(Cavid, 1968-1971, I cild: 86).

Göylərə uçmaq istəyi, obrazın göyərçinə çevrilmək arzusu (üstəgəl H.Cavid yaradıcılığında ayrıca Gövərçin obrazı da vardır!) insanlar aləmindən ayrılmaq və birdəfəlik üz döndərmək, insan dünyasını tərk etmək demək deyildir. Əslində üfüqlərdəki "bitməyən dərinlik" (H.Cavid) və intəhasızlığa doğru yönəlmək – rahat və insan kimi yaşamaq məqsədidir.

Romantik ədəbiyyatda Göyə doğru bu tipli canatmalar bir çox Yer obyektlərindən, o cümlədən Dəniz və Dağdan başlayırdı. Başqa sözlə, romantik sənətkarlar Dəniz və Dağ obrazlarını qəhrəmanların daxili dünyalarının və duyğularının qabarıq ifadəsi vasitəsinə çevirirdilər. "Dərya kənarı" şeirində (A.Səhhət) romantik qəhrəman xoş təəssürata qovuşur:

*Ol mənzəreyi-dilkəşə etdikcə tamaşa, min,*
*Min ləzzəti-ruhani olub qəlbdə peyda* (Səhhət, 1976: 11).

Qəhrəmanın dəniz mənzərəsindən məmnun olması, bu mənzərədən razı qalması nə deməkdir? Onu hansı hiss və duyğular buraya gətirmişdir?

Romantizm ədəbiyyatında Dəniz, ilk növbədə, qəhrəmanın sakit bir guşə axtarmaq təşəbbüsünün nəticəsidir. Qəhrəman bu sakitlik zonasında bütün ətraf hadisələrdən təcrid olunmaq və öz aləminə qapılmaq vaxtı qazanır. Hətta buradakı tənhalıq da onun üçün daxili bir ehtiyacın qənimətidir. Çünki romantik qəhrəman deyir: "Dəryaya baxıb, sevgili yarım, səni görrəm".

H.Cavid bu fikri daha aydın formada ifadə etmişdir:

*Bütün gözəlliyi həp sanki toplamış yaradan,*
*Dənizdə xəlqə nişan vermək istəyir əlan*

(Cavid, 1968-1971, I cild: 63).

Yaxud "Uçurum" pyesində Əkrəm Gövərçinə ümid, təsəlli yolunu belə nişan verir:

*Yetər artıq, yetər təhəssür, məlal,*
*Gəl gözəl Bosforu tamaşaya dal*

(Cavid, 1968-1971, I cild: 313).

Onsuz da Gövərçinin "dənizi tamaşaya dalması" (Cavid, 1968-1971, I cild: 268) onun təbiətinə müvafiq idi.

Əgər A.Səhhət şeirində romantik qəhrəmanın öz "sevgili yarı" ilə qiyabi söhbəti, mükaliməsi baş mövqeyə qalxırsa, H.Caviddə qəhərəmanın istəyi geniş və uzaq dəniz üfüqlərində "gümüş suların çağlaması" gözəlliyinə, "gözəl Bosforu" seyrlə bağlıdır. Lakin hər iki halda bir ümumi cəhət vardır ki, bu da qəhrəmanın gözəllik axtarıcılığının təsdiqidir. Çünki romantiklər üçün "harmoniya və gözəllik axtarışlarında təbiətə müraciət səciyyəvi idi" (Аникин, Михальская, 1985: 161).

Qeyd etmək yerinə düşər ki, H.Cavidin pyeslərindəki hovuz başının, çay qırağının təqdimi də (bunlar remarkalarda olsa belə!) dəniz səciyyəli bədii detallardır. Bunlara sadəcə olaraq, Dəniz tipinin əvəzlənməsi kimi baxmaq lazımdır.

Romantizm ədəbiyyatında qəhrəmanların dəniz çimərliyinə getməsi, dəniz sahilində sevgi görüşlərinə çıxması, demək olar ki, müşahidə edilmir. Müqayisə üçün M.F.Axundovun "Hacı Qara" komediyasındakı bir məqama diqqət verək:

***Hacı Qara.*** *Ay aman! Heydər bəy, Səfər bəy, yetişin, mən boğuldum.*

***Heydər bəy.*** *Hacı, haradasan?*

***Hacı Qara.*** *Burada, söyüd ağacına yapışıb sallanmışam!*

***Heydər bəy.*** *Ay evin yıxılsın, bir elə dərin yerə düşübsən ki,*

*səni çıxarmaq heç mümkün deyil!*

***Bədəl.** A başınıza dönüm, mənim atamı çıxardın!*

***Kərəməli.** A gədə, qoy boğulsun, malı, dövləti tökülsün qalsın, beş gün yeyin, için, kef edin! Nəyinə gərəkdir qaydına qalırsan"* (Axundov, 1982: 143)

Burada yalnız Hacı Qaranın çaya düşməsi faktı ötəri xatırlanmır, həmçinin komik qəhrəmanın sudakı real vəziyyəti, keçirdiyi iztirablar, xilas olmaq yalvarışı da təfərrüatı ilə göstərilir.

Yaxud dramaturqun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasının üçüncü məclisi xanın divanxanasında, dərya kənarında baş verir və pərdənin sonunda xan "lötkəyə minib dərya seyrinə çıxır". Axırda isə belə bir xəbər gəlir: "Əmin xan dərya üzündə seyrə çıxmışdı, qəflətən bərk külək əsib, lötkə çevrilib, xan dəryaya qərq olubdur" (Axundov, 1982: 123).

N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesinin elə lap başlanğıcında isə Cəvahir xanım Əşrəf bəyə deyir: "Nə olacaq? Hacı Salmanı tanıyırsanmı? Evi yıxılmış biçarə atamı tovlayıb, var-yoxunu əlindən alıb verib baramaya, indi deyirlər ki, Qara dəryada gəmi qərq olub, tamam barama batıb... Atam bu əhvalatı eşidən kimi, başına hava gəlib, olub dəli, evdən qaçıb..." (Vəzirov, 1977: 103) Hacı Qəmbər özü də deyir: "Ayağımın birisi deyir: dərya topuqdandır, o birisi deyir: Həri, ha-ha... dərya Bakının neft quyularından da dərindir, ora düşən, get ay batandan sonra gəl" (Vəzirov, 1977: 105).

Romantik qəhrəmanlar isə qaçaq malı gətirərkən çaya düşüb boğulmaq təhlükəsi qarşısında qalan Hacı Qara, var-dövlətinin dənizdə batmasından ah-uf edən Hacı Qəmbər kimi qəhrəmanlara bənzəmirlər. Eyni zamanda, romantik qəhrəmanların "Qara dəryada gəmisi qərq olmaz" (burada dənizin ünvanı aydınca məlumdur), ümumiyyətlə, "dəryada gəmisi qərq olar" (dünya kədəri mənasında!). Yaxud romantik qəhrəmanlar

"gedib ay batandan sonra gəlməzlər", elə ay işığında görünərlər.

Romantik təbiətli obrazların Dənizə münasibəti və Dənizlə əlaqəsi baxımından Hüseyn Cavidin "Uçurum" pyesindəki belə bir maraqlı məqam da diqqətdən yayına bilməz. Belə ki, Gövərçin faciəli bir vəziyyətə düşəndən sonra Əkrəmə deyir:

*Xayır, heç bir təsəlli istəməm, ah!*
*Artıq yetər, mənimçin ən son pənah,*
*İştə Bosforun şəfqətli qucağı!*
*İştə qayğısız qurtuluş ocağı!*
*Əvət, ta əskidən bir çox məsumlar,*
*Mənim kimi bəxti dönmüş məzlumlar,*
*Həp şu Bosfora etmiş də iltica,*
*Rahətlə dalmış əbədi uyquya*

(Cavid, 1968-1971, I cild: 314).

Amma elə bu, arzu olaraq da qalır. Gövərçin özünü "Bosforun şəfqətli qucağına" tullamır.

Romantik qəhrəmanların Dənizə münasibətində "dərya kənarı" deyilən pozulmaz sərhəd vardır ki, bu xətt onlarla dəniz, çay, hovuz arasında özünə möhkəm yer tutur. Deməli, romantik qəhrəmanlar Dənizə yalnız "kənar" mövqedən baxırlar. Bu mənada romantizm ədəbiyyatında qəhrəmanlara gərək olan Dəniz (çay, hovuz) rəmzi səciyyə daşıyaraq, gözəllik, ülvilik, genişlik kimi mənaları ifadə edir.

H.Cavidin "Şeyx Sənan" faciəsində belə bir məkan verilir: *"Bir tərəfdə Kür nəhri, digər tərəfdə dağa doğru ucu görünməz əyri bir cığır nəzərləri oxşar"* (Cavid, 1968-1971, I cild: 172). Bu məqamı təsadüfən xatırlamadıq. Çünki Azərbaycan romantizmində Dəniz kimi Dağ obrazı da spesifik əlamətlərə malikdir. Ümumiyyətlə, bədii yaradıcılıqda Dağ və dağlar bədii inikas prosesində çox vaxt təbiətin gözəlliyi, füsunkarlığı kimi diqqəti cəlb etmişdir. Aşağıdakı misralar da bunu təsdiq edə bilər:

*Çeşməli, yaşıl dağlar,*
*Yazdır, gül açır dağlar* (Cavid, 1968-1971, II cild: 21).

Təbiətin oyanması ilə bağlı A.Şaiq arzusunu ifadə edən belə nümunələrin sayını artırmaq çətin deyildir.

Dağa xüsusi maraq göstərmək bir çox romantik qəhrəmanların əlamətdar keyfiyyətidir. Bu mənada səciyyəvidir ki, M.Lermontovun romantik qəhrəmanlarından olan "Mıtsırinin son arzusu doğma dağ zirvələrinin göründüyü yerdə dəfn edilmək istəyidir" (Европейский романтизм, 1973: 223). Digər tərəfdən, "Mıtsırinin həmişə cəzbedici, əlçatmaz və gözəl gördüyü Qafqaz dağlarının zirvələri daim əziz və uzaq idealın simvoludur" (Фишер, 1914: 212).

Şübhəsiz ki, "meşə" romantizm ədəbiyyatında bir çox mənalar daşıdığı kimi, "dağ" da müəyyən spesifik mahiyyət kəsb etmişdir. A.Səhhətin tərcüməsində də M.Lermontovun "Peyğəmbər" şeirində qəhərəman haqqında belə deyilir: *"Getdi dağlarda eylədi məskən"* (Səhhət, 1976: 190). Yaxud H.Cavidin qələmə aldığı Peyğəmbər də elə əsərə birbaşa dağ zirvəsində ikən daxil olur: *"Aydın və yıldızlı bir gecə. Məkkə yaxınlığında Hira dağı. Ətrafında mağaralar, yalçın qayalar, sarp enişlər, qorxunc uçurumlar... Peyğəmbər əli alnında dərin düşüncələrə dalmış"* (Cavid, 1984: 7).

Bu tipli romantik qəhrəmanlara "dağlara çəkilən" və "dağlarda döyüşə çıxan" qaçaq obrazları kimi baxmaq olmaz. Həmin qəhrəmanlar üçün Dağ da Dəniz kimi rəmzi məna daşıyır və daha çox onların yüksəlmək, ucalmaq arzularını ifadə edir. Təsadüfi deyildir ki, "Şeyx Sənan" əsərinin sonunda *"Şeyx Sənan Xumarı qolları arasında tutmuş olduğu halda pək güc nəfəs alaraq, yorğun addımlarla dağın təpəsinə çıxmaq istər"* (Cavid, 1968-1971, I cild: 111). Həm də Şeyx Sənanın ucalmaq ehtirası yalnız yarıyolda dayanmış bu yüksəlişlə məhdudlaşmır. Dağ – Şeyx Sənanın Xumarla birgə "buludlar içindəki uçuş"larının dayaq və təkan nöqtəsi olur.

Bəzən H.Cavidin romantik qəhrəmanlarının qəlbində dağlara olan həsrət duyğusu da baş qaldırır:

*Qarlı, qartallı bir yığın dağlar,*
*Ta uzaqlarda bəmbəyaz parlar*
(Cavid, 1968-1971, I cild: 172).

Qəhrəmanlardan "ta uzaqlarda" olan bu dağlar da məhz özlərinin ucalığı və zirvəsi ilə mənalıdır.

Ümumilikdə götürüldükdə Dəniz və Dağ romantik qəhrəmanların istək və arzularını nə qədər uğurlu ifadə etsə də, bu qəhrəmanların daxili yanğılarını yenə kifayət qədər söndürə bilmir.

Onlar mövcud cəmiyyətin çirkinlik və eybəcərliklərini daha kəskin şəkildə inkar etmək üçün göylərin-kainatın uzaq obyektlərinə üz tutmağı zərurətə çevirirlər. Bu məqamda Yer adamlarının "həmdəmi" olan Günəş, Ulduz və Ay daha çox kara gəlir və romantiklərin bədii sistemində yeni poetik çalarlar yaradır.

Romantizm ədəbiyyatında Günəşə çox böyük məhəbbət ifadə edilir. Ümumiyyətlə, bədii yaradıcılıq üçün tez-tez müqayisə məqamı olan Günəşdən və onun ayrı-ayrı xüsusiyyətlərindən əksər sənətkarlar bu və ya digər dərəcədə istifadə etmişlər və edirlər.

Aydındır ki, romantiklərin yaradıcılığında gözəllə bərabər bir çox həyat və kainat predmetlərinin romantikcəsinə vəsfi xüsusi yer turur. Bu mənada H.Caviddəki *"Günəş! Ey xilqətin gözəl gəlini!"* misrası (Cavid, 1968-1971, I cild: 76) romantiklərin hamısının vahid istəyini ümumiləşdirir. M.Hadinin *"Mən bir Günəşəm, yerdə əyandır ləməatım"* (Hadi, 1978: 254), A.Şaiqin "Hamımız bir günəşin zərrəsiyik" (Şaiq, 1968: 38) misraları da romantik qəhrəmanların Günəşə olan maraqlarının genişliyini təsdiq edə bilər.

H.Cavidin "Dəniz tamaşası" şeirindəki birinci bənd də ciddi maraq doğurur:

*Günəş qurub ediyor; göy... mühitimiz gömgöy...*
*Göz işlədikcə könül uçmaq üzrə çırpınyor.*
*Günəş qurub ediyor; göy... fəza, dəniz gömgöy...*
*Uzaqda, yalnız üfüqlərdə var bir aləmi-nur*
(Cavid, 1968-1971, I cild: 63).

Günəşin adı ilə bağlı olan hər şeydə, hətta qürubunda belə nur görmək yerdəki ağrıların təsəllisi idi. Bir növ romantiklər cəmiyyətə etirazın nəticəsi kimi Günəşə üz tuturdular.

Eyni ilə ulduzlar aləmi də kainat cisimlərinə sönməz marağın davamı kimi romantik ədəbiyyat üçün münasib bir aləmdir. "Ulduzlara", "Ulduzlara doğru" (M.Hadi), "Bir ulduza" (A.Şaiq) şeirlərində ulduzla qəhrəman arasında hərarətli bir əlaqə vardır. Hətta ulduza maraq A.Səhhət yaradıcılığında o səviyyədə görünür ki, şair, taleyi, gələcəyi haqqında düşündüyü milləti "ey sübh ulduzum" (Səhhət, 1975: 24) epiteti ilə təqdim edir. H.Cavid də yazır:

*Susun artıq! Şu zöhrə yıldızını,*
*Seyr edin iştiyaqü həsrət ilə,*
*Bu gözəl lövhə sonra düşməz ələ*
(Cavid, 1968-1971, I cild: 76).

Aydındır ki, sübh ulduzu yaxud zöhrə ulduzu səhərə yaxın göydə tək-tənha qalır və sonra o da sönüb gedir. Romantik şairlər də yaradıcılıqlarının ilk mərhələsində məhz elə bu sönmək qorxusunun ağrı və acısını yaşayırlar. Lakin romantizmin bir sıra nümunələrində "dan ulduzu – gələcəyə ümid və inam rəmzidir" (Гуревич, 1980: 60) və romantik qəhrəmanların əksəriyyəti ulduzlara müraciətində daha çox öz inamları ilə çıxış edirlər.

A.Divanbəyoğlunun "Can yanğısı" povesti də elə beləcə başlayır: "Dan üzü idi. Hələ *dan ulduzu* (Kursiv bizimdir – K.Ə.) batmayıb ərşi-fələkdə öz dövrünü edirdi. Mən də meşə cığırı ilə boyumdan uca otların arasından şehə bulana-bulana adət etdiyim sabah gəzməyimdən evə hərəkət edirdim" (Divanbəyoğlu, 1981: 151). Məhz burada da dan ulduzu inamın rəmzidir.

Ay obrazı isə müəyyən məqamlarda qəhrəmanların yaşadıqları əhvali-ruhiyyənin müxtəlifliyini təcəssüm etdirir. Bəzi qəhrəmanlar onu "çöhreyi-dilbər", "nuri-cazibəpərvər" adlandırır, bəziləri də onda "xəstə bir qadın çöhrəsi" müşahidə edirlər. H.Cavidin "Uçurum" pyesindəki Əkrəm obrazı üçün isə Ay öz şahidlik səlahiyyəti ilə mənalıdır:

*O, şahiddir bütün səadətlərə,*
*O, vaqifdir bütün fəlakətlərə,*
*O görmüş hər zülmü, hər cinayəti,*
*O duymuş hər eşqi, hər məhəbbəti,*
*O,məhrəmdir hər sirrə, hər duyğuya,*
*O, munisdir sevdalı uyğuya (*Cavid, 1968-1971, I cild: *276).*

Elə bu şahidliyin məzmununa uyğun olan fikri M.Hadinin "Qəmər" adlı şeirində də aydın görmək çətin deyildir. Şaiq Ay haqqında danışandan sonra ona müraciətlə yazır:

*Olmuş olsaydı nitqü idrakın,*
*Canlı tarix olardın aləm üçün (*Şaiq, 1966: *276).*

Bunlar romantiklərin "səadət və fəlakət", "eşq və zülm", "məhəbbət və cinayət" həqiqətlərini yaşadan "canlı tarix" axtarışları idi. İş elə gətirmişdir ki, belə bir tarix – yaddaş olmaq qabiliyyəti Yer kürəsini – insanları kənardan seyr edənlərin qismətinə, payına düşmüşdür.

Burada çox səciyyəvi bir faktı – Ə.Haqverdiyevin "Ayın şahidliyi" hekayəsini xatırlayaq (Haqverdiyev, 1974: 111). Hekayədə Salmanın ölümünün yeganə şahidi Ay olur. Salmanın qardaşı Süleyman isə bu şahidin sayəsində öz qardaşının intiqamını alır. Beləliklə, Ə.Haqverdiyevin hekayəsində Ay insan mühitinə endirilir və bir az da sərt desək, "məhkəmə şahidi" kimi çıxış edir. Amma romantik ədəbiyyatda Ay Yerə enmir və insanların yalnız təsəllisi səviyyəsində özünü göstərir. H.Cavidin "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" şeirində (Cavid, 1968-1971, I cild: 110) də məhz belədir.

Xarakterik cəhətdir ki, bir çox hallarda romantik qəhrəmanlar Günəşi, Ulduzu, Ayı bir yerdə xatırlayır, onların hər üçü haqqında eyni vaxtda düşünürlər. H.Cavidin “Yadi-mazi” şeirində qəhrəman, Günəşin şöləlvalənmiş mənzərəsinə məftun olduğundan Şərqin o gözəl “bakireyi-ləmənisarı”nın həmişə axşamlar “Qərbə müsafir getdiyindən” danışır və özü də keçmişdən gələn “müsafir” kimi çıxış edir:

*Yıldızlara heyrətlə baxar, öylə sanırdım,*
*Həp təzə gəlinlər gəzinir ruyi-səmada.*
*Bir heykəli-sevda pürşölə sanırdım,*
*Gördükcə o məhzun qəməri seyrü səfada*

(Cavid, 1968-1971, I cild: 35).

Yaxud dramaturqun “Afət” pyesində əsərin qəhrəmanı Afət Alagözə üz tutaraq söyləyir: “Dünyadakı otları, çiçəkləri, quşları, kələbəkləri, insanları və heyvanları həp birər-birər gözdən keçirsən, sevgidən məhrum bir məxluqə, heç bir zihəyatə rast gəlməzsən. Hətta günəşlər, aylar və ulduzlar arasında sıxı bir rabitə var, sarsılmaz bir cazibə qanunu var” (Cavid, 1968-1971, II cild: 131). A.Divanbəyoğlunun “Can yanğısı” povestinin qəhrəmanı da bildirir ki, “Gündüz Gün, gecə Ay və ulduzlar həmdəmim idi” (Divanbəyoğlu, 1981: 156).

Romantik qəhrəmanların Günəş, Ulduz və Aya birlikdə müraciət etmələri qəhrəmanların bilavasitə mənəvi ehtiyaclarından irəli gəlirdi. Bəzən isə onlar nə vaxt ki, qarşısındakı müsahibini bir obyektlə-dəlillə inandıracaqlarına tərəddüdlə yanaşırlar, o halda hər üç obyekt birlikdə köməyə çatır.

Aydındır ki, Günəş gündüzü, Ay və Ulduz isə gecəni təmsil edən göy cisimləridir. Romantik qəhrəmanların təqdimin də bu həqiqət xüsusilə nəzərə alınmış və təbii şəkildə inikas etdirilmişdir. A.Şaiq şeirlərinin birində yazır:

*Zülmət gecələrdə saçaraq nurini, sansız,*
*Azmışlara hey göstərir o doğru siratı.*

*Dinlə məni ol rəhbərim, ey sevgili ulduz,*
*Olmazmı mənə göstərəsən ruhi-nicatı?* (Şaiq, 1968: 30).

Necə olmuşdur ki, romantik qəhrəmanın "rəhbər" axtarışları prosesində onun xəyalı bütün Yer obyektlərini adlayıb keçərək, gecə qaranlığında azmışlara yol göstərən ulduzlarda bənd almışdır? Bunun səbəbi harada və nədədir?

Birincisi, qəhrəmanın "qaranlıq" mühitdəki əhvali-ruhiyyəsinə gecə qaranlığı, həmçinin gecənin işıq ümidi olan ulduz daha münasib, daha uyğun və daha təsəlliverici idi.

İkinci, uzaq obyektə maraq mövcud cəmiyyətə – yaxına etirazın nəticəsi kimi başa düşülməlidir. Belə bir mövqeyə isə qəhrəmanın və şairin zəifliyi kimi yox, onlardakı vətəndaşlıq yanğısının nəticəsi kimi baxmaq lazımdır.

H.Cavidin "Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs" şeiri də çox səciyyəvidir. Bu romantik şeirdə qəhrəman hüznlü duyğuları və həyəcanları ilə öz taleyindən danışır – qəmli bir monoloq söyləyir. Məramının ürəkdə qalmasından, gözünün nurunun itməsindən qovrula-qovrula söhbət açılır. Nəhayət, öz həmdəmini tapmış kimi üzünü Aya tutur:

*Qəmər, mənim kimi məğbər, o şəbnəvərd səma,*
*Mənim kimi o da bixabü müztərib əhval...*
*Mənim kimi o da bitab, həm qərin zəval...*
*Bir fərqimiz var: o, vərəsteyi-məzalimdir,*
*Mənim nəsibi-həyatımsa zülmi-zalimdir.*
*O, bəxtiyardır, artıq əsarət anlamıyor,*
*Gözəl-gözəl gəzinir, hürr yaşar o solğun nur.*
*Fəqət üzər məni hər ləhzə bir vərəmli xəyal,*
*Əcəlmi yaxlaşıyor?*
*Ya nədir bu küskün hal?* (Cavid, 1968-1971, I cild: 109).

Son fəryadlarına "bürünüb" qaranlıq mühitdə və cəmiyyətdə çırpınan qəhrəmanın "tərəf müqabili" doğru müəyyənləşdirilmişdir: "zindan guşəsinin" əzabkeş qəhrəmanı ilə Günəş deyil,

məhz gecənin səyyah "qəhrəmanı" olan Ay üz-üzə dayanmışdır.

Ümumiyyətlə, romantik qəhrəmanların Günəş, Ulduz və Aya olan maraqları daha çox həmin obyektlərdəki işıqla bağlıdır. Bu işıq isə onların həyatda gördüklərinin müqabilində daha cəlbedici və ümidvericidir.

"Bir qayda olaraq bir-birindən faciəvi ayrılmış "Göy" və "Yer" – yuxarı və aşağı Lermontovun yaradıcılığında onlar arasında yerləşən və orta məkan tutan yalnız duman vasitəsilə deyil, eyni zamanda ay işığı (Kursiv bizimdir – K.Ə.) ilə birləşir" (Лотман, 1985: 20). Bu bağlılığı XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında aydın şəkildə görmək çətin deyildir. M.Hadi şeirlərinin birində yazır:

*Ay çıxmış, o hüsn ilə mükövkəbdi səmavat,*
*Göy dilbəri, yəni o qəmər cazübül-ənzar.*
*Titrər kimi idi o səmalarda ziyalar,*
*Gövhərdir o ulduzlar, əvət, göy dəxi əbhar,*
*Göz doymayır idi şu işıq üzlü qəmərdən,*
*Yerlərdə də vardır nigəhara olan əqmar* (Hadi, 1978: 320).

Elə buradaca qeyd edək ki, "yer" və "göy", real və ideal bir-birindən təcrid edilmiş halda deyildir, onlar sıx təmasdadırlar.

Başqa bir şeirində M.Hadi Türkiyə inqilabına işarə ilə yazırdı:

*Səndən nə işıqdır, qəmərim, şəmsi-məhəbbət,*
*Minlər yaşa, ey ədl, müsavat, üxüvvət! (*Hadi, 1978: *176).*

Göründüyü kimi, Qəmərin – Ayın işıqla əlaqəsi, yaxud onların bir-birindən ayrılmazlığı sənətkarın diqqət mərkəzindədir. Ancaq bu işıq faktının şeirdə müəyyən qədər iikinci plana keçirilməsi inqilab işığına bağlı olan güzəştdir.

Yaxud, M.Hadi yüksək ümumiləşmə və daha sərrast forma ilə demişdir: *"Doğmazsa Günəş, Ay, doğuyor, nurlu kövkəb"* (Hadi, 1978: 189) – işıq, nur ümidi ilə yaşamaq idealını yalnız beləcə ifadə etmək olardı. Bu işıq isə sadəcə olaraq adi şüalar

toplusu kimi deyil, həyat nuru, həyat mənbəyi kimi başa düşülməlidir.

İşıq və işıqlı dünya axtarışı M.Hadinin "Ya leyl!" və "Bədbəxt – kor çocuq" şeirlərində maraqlı və mənalı formada, həmçinin zəngin romantik boyalarla əks olunmuşdur. Heç təsadüfi deyildir ki, şair öz ideyasını gecə və "kor çocuq" timsalında ümumiləşdirir. Belə ki, işıqla və işığın rəmzləri ilə qaranlıq və qaranlığın rəmzləri qarşılaşdırılır.

Hadi üçün gecənin özündən çox, gecənin özündə meydana çıxan işıq – Ay və işıq sorağı – Ulduz mənalıdır: kor çocuğun korluğu yox, onun işıq həsrəti, işıq istəyi əhəmiyyətlidir. Hadi üçün gecənin gündüzü əvəzetməsi, gecənin gündüzlə "rəqabətə" girməsi yox, gecənin dərinliklərində gündüz timsallı nur və şəfəqin işıltısı əzizdir, kor çocuğun bədbəxtliyinin səbəbi deyil, insanların gözlü ikən kor olması dəhşəti mənalıdır.

Romantik şairin nəzərində gecə öz qaranlığı, zülməti ilə heç kəsə lazım deyildir. Gecədə az-çox maraqlı və diqqətli bir cəhət varsa, o da işıq seli ilə bəzənməyindədir:

*Ziynət verir əndamına min nəcmü qəmərlər,*
*Tənvir edir afaqını tabəndə səhərlər.*
*Rüxsarını gövkəblər edirlər necə tənvir,*
*Məsudların taleyini qılmada təsvir* (Hadi, 1978: 189).

Kor çocuq isə yerdən və göydən, Günəşdən və Aydan xəbərsizdir. O, dünyanın yalnız səsini eşidir, rənglərini və boyalarını görə bilmir:

*Bir cift işıqdan belə məhrum o bədbəxt,*
*Dünya ona başdan-başa bir lövheyi-zülmət*
(Hadi, 1978: 314).

Bu, həmin çocuğun doğulduğu gündən belədir: Yəni onun üçün "lövheyi-zülmət" təbiiliyi vardır. Lakin insanlar görə bildikləri halda, nəyisə bilərəkdən görmək istəmir və "kor" olurlarsa, bu artıq cismani deyil, "sosial" korluqdur. Məhz ona görə

də, Hadi: "Kor olmayalım, istər isək ömrü-dirəxşan" fikrinə gəlir və işıqlı həyat, işıqlı ömür fəlsəfəsini yenidən canlandırır.

H.Cavid də "Gecəydi" şeirində qaranlıqla işığın münasibətini verir:

*Gecəydi... hər yeri sarmışdı bir sükuti-həzin,*
*Donuq ziyalı fanarlar baxırdı həp qəmgin*

(Cavid, 1968-1971, I cild: 33).

Maraqlıdır ki, şair həmin gecənin dəhşətli qaranlığı müqabilində yalnız "donuq ziyalı fanar" işığına sığınır. Əslində bu zəif işıq kədərli və qəmgin görünən obrazın əhvali-ruhiyyəsinin ifadəsi və həmçinin Cavidin işıqlı tale uğrunda mübarizəsinin işartısı və qığılcımı idi.

A.Səhhətin "Yadındadırmı?" şeiri də (Səhhət, 1975: 54) bu cəhətdən səciyyəvidir. Şeirdə qəhrəman sevgilisinin xəyalı ilə danışır və öz düşüncələrini ona müraciət şəklində bildirir. Qəhrəman "ol gecə"dən söhbət açır ki, həmin gecədə sevgili yarı ilə birlikdə çəmənlikdə oturub "qəm-qüssədən azad" ömürlərini yaşayırlar. Bu vaxtlar isə onların ən böyük ümidi bədrlənmiş Ay və ondan sızıb gələn işıq idi.

Bütün bunlardan göründüyü kimi, bizim romantiklər üçün də "kosmos" astronomik göy deyil, bu, fəlsəfi məzmun daşıyan, lirik obrazların xarakterini açan xüsusi obyektdir" (Аринина, 1982: 5).

Romantik qəhrəmanların Göy, Dəniz, Dağ, Günəş, Ulduz və Ayla bağlı fərdi münasibətləri, bu qəhrəmanlar üçün müxtəlif səciyyəli olsalar da, bir cəhətdən – ictimai baxımdan daha çox ümumidir. Bu isə həmin obyektlərin romantik qəhrəmanlarından və onların mühitindən uzaq olması ilə xarakterizə olunur.

Bəs romantik qəhrəmanların bu cür uzaq obyektlərə can atmalarının, onlar barədə düşünmələrinin səbəbi nədir? Romantik qəhrəmanların təbiətlərindəki, xarakterlərindəki bu xüsusiyyət öz başlanğıcını haradan götürür?

Məlum həqiqətdir ki, romantik ədəbiyyatın inikas istiqaməti daha çox insanların həyatına, psixologiyasına, daxili aləminə doğru yönəlirdi. Romantiklər insanların düçar olduğu zülm və əzabı, faciəli günləri və bu günlərin ağrısını poetik fikrin mərkəzinə gətirirdilər. Sənətin humanizm konsepsiyasına dərindən yiyələnən, bu konsepsiyanı bütün yaradıcılıqları boyu müdafiə və davam etdirən həmin sənətkarlar üçün zamanın, dövrün sitəmi, işgəncəsi altında inləyənlər diqqətdən kənarda qala bilməzdi. Bu nöqtədə romantiklərin əsas və başlıca məqsədi cəmiyyətin fövqündə durmağa layiq olan təmiz, saf insanı öz yerində görmək arzusu idi:

*Mən bir diriyəm, etdi məni dəfn təsadüf – Zində görünən bir sürü mövtalər içində!* (Hadi, 1978: 129) – söyləyən M.Hadi ağıllı adamların belə, hansı şəraitdə yaşamağa məcbur olduqlarını göstərir. Elə əsl mətləb, əsl məsələ də ondadır ki, yaşamaq istəyən kəslər, vətəndaş olmağa səy edən adamlar özləri "bir sürü ərbabi-vəhşətin əlində qalmışlar".

M.Hadi Sabirə həsr etdiyi şeirində də yazırdı:

*Sən yaşarkən də xütteyi-Şirvan –*
*Dirilərlə dolu məzarın idi* (Hadi, 1978*:* 217).

A.Səhhət də acı-acı gileylənirdi:

*Nə yazım mən bu qəmli zülmətdən?*
*Nurdan heç əsər, nişan yoxdur,*
*Vətənim adlanan bu qürbətdə,*
*Nə də əfqanımı duyan yoxdur* (Hadi, 1978: 103).

Bütün bu parçalarda əsl mənada dərk etməyənlər, başa düşməyənlər mühitindən söhbət gedirdi. Burada romantik bədii fikrin yönümü "Şirvan ölkəsinin dirilərlə dolu məzar" olmasına, "bir sürü mövtaların yaşayan kimi görünməsinə" qarşı çevrilmişdir.

Eyni zamanda, M.Hadi Seyid Əzim Şirvaniyə həsr etdiyi məşhur məqaləsində yazır: "Zülm, övham və xurafat ilə kirlənmiş

bu mühit qucağında parlayan bir zəka şöləsi əsici küləyə qarşı titrək bir şam həyatı yaşamışdır” (Hadi, Seyid Əzim və asarı. “İqbal” qəzeti, 14 avqust, 1914).

Romantiklər sənətkar taleyinin səciyyəsində “xurafat ilə kirlənmiş mühitə” xüsusi şərh verirdilər. Məhz xurafatın dairə genişliyini, dini məhdudiyyətlər, bilərəkdən sapdırmalar sənətkar idealının dərkini pərdələyirdi. H.Cavid yazırdı “... yalnız Rza Tofiq, Əbdülhəqq Hamid, Tofiq Fikrət kibi məşahir, bir də milli ənənələri, milli duyğuları dinləyən bəzi gənc ruhlar, gənc qələmlər köhnəlikdən, müqəllidlikdən ayrılmağa başladılar. Namiq Kamal kibi özünü hər kəsə sevdirə bilən böyük bir hünərvəri böylə pək kiçik, pək darruhlu buldular” (Cavid, Müharibə və ədəbiyyat. “Açıq söz” qəzeti, 25 oktyabr 1915). Əslində “kiçik“ və “darruhlu” Namiq Kamal deyil, məhz “kirlənmiş mühitdir”.

Ən dəhşətlisi o idi ki, bu cəmiyyət şeirə, sənətə, sənətkara qiymət verməyən, həqiqi mənada ədəbiyyatı buxovlayan, mən- ganə arasında saxlayan mühitin timsalı idi. A.Şaiq “Gülzar” dərsliyinin Füzuliyə həsr olunmuş hissəsində yazır: “Füzuli şeir və şüəranın ən qiymətsiz bir zamanında, Ruhi Bağdadinin “Bir dövrdə gəldik bu fəna aləmə biz kim, Asare-kərəm var nə bəşərdə, nə ələkdə” beytinin təsvir etdiyi bir dəmdə yaşadı” (Şaiq, 1912: 96).

Buradakı Füzuli dövrünə qayıtma, yalnız XVI əsrə xas olub qalmır. A.Şaiq müasir oxucunu geniş dünya baxışı mövqeyinə gətirməklə bərabər dolayısı ilə öz zəmanəsinə münasibətini bildirir.

Yaxud A.Səhhət “Bəradərim Firudin bəy Köçərli cənablarına” adlı məşhur şeirində yazır:

*Bu qaranlıq mühitim içrə mənim,*
*Qulağım həbs, gözlərim dustaq.*
*Yumruqla möhürlənib dəhənim,*
*Olmuş ağzımda sözlərim dustaq* (Səhhət, 1975: 168).

Artıq burada söhbət sənətkarın ac-yalavac yaşamasından və onun xalq tərəfindən aydın dərk edilib-edilməməsindən getmir. Burada Güc, Zor və susdurmaq ehtirasının qıcanmış dişləri var. Bu ehtirasın daşıyıcısı isə bir sözlə ifadə etmək lazım gəlsə, istibdad ola bilər. Həqiqi mənada istibdadın, "yuxarıların" sənətkara qarşı sıxılmış və uzadılmış yumruqları daha qəzəbli görünür.

A.Səhhət isə "Ölü şəhər" şeirində cəmiyyət həyatının mövcud vəziyyətini ciddi ümumiləşdirilmiş planda əks etdirmişdir. Burada təsvirin obyekti insan, yaxud insanlar deyil, bütövlükdə alınmış şəhər "tip"idir:

*Bəs ki, viran, uçuq, pərişandır,*
*Tibği bir vadiyi-xəmuşandır.*
*Şən yapılmış nişanədir qəmdən,*
*Ya ki, bir qitə cismi-aləmdən* (Səhhət, 1975: 52).

Şamaxıdakı zəlzələ ilə əlaqədar olaraq şairin ayrıca yazılmış "Şamaxı zəlzələsi" şeiri də (1906) vardır. Bu əsərdəki "zəlzələ" ifadəsini "ölkədəki inqilabi çaxnaşmaya simvolik işarə" (Həbibov, 1984: 21) kimi də mənalandırmışlar. Lakin belə bir ciddi ümumiləşmə daha çox "Ölü şəhər" şeirinə aiddir. Çünki həmin şeirin adı da, nümunə gətirdiyimiz beytlər də şairin gördüyü real dağıntının təsiri ilə yaransa belə, əsasən, müəllif idealının ifadəsinə istiqamətlənmişdir. Burada A.Səhhət poetik fikri şəhər çərçivəsindən çıxararaq cəmiyyət probleminə, sosial məsələlərə doğru yönəltmişdir.

Romantik şeirin bu tipli bədii priyomları onun üçün səciyyəvi keyfiyyətə çevrilmişdir. Təsadüfi deyil ki, H.Cavid də "Gecəydi" və "Bir rəsm qarşısında" şeirlərində gecədən və tablodan vasitə kimi istifadə edərək "Vücudi xəstə, mükəddər, həyatı durğun" gəncin və "solğun çöhrəli", "küskün bir nəzərli" qızın taleyini qələmə alır. Hətta M.Hadi də "Layəmut şeirləri"ndə Füzulinin hər hansı bir realist şairin müraciət edəcəyi daha çox ehtimal olunan elə bir dərdli şeirini seçir ki, burada Hadi

romantizminin onun romantik düşüncəsinin mənzərəsi aydınlaşmış olur (Hadi, 1978: 276).

M.Hadinin romantik qəhrəmanı "ərzi-vəhşətin vücuhi-dəhşətini" görmək istəmir və "fəlakətin əlindən xilas olmağa" çalışır (Hadi, 1978: 55).

H.Cavidin "Şeir məftunu" kimi təqdim etdiyi bir qız "cahandakı kədəri" görməmək üçün "Göydən əsla ayırmayır gözünü" (Cavid, 1968-1971, I cild: 114). A.Səhhətin "Dərya kənarı"na yollanmış qəhrəmanının qəlbi "qəmi-dövrandan usanmışdı" (Səhhət, 1975, I cild: 11). A.Şaiqin də qəhrəmanı "Ölkədə bayquşların ötməsindən" (Şaiq, 1968: 31) narahatdır.

Deməli, romantiklərin uzaqlıqla bağlı "reyd"ləri bilavasitə eybərcərliyə, çirkinliyə, ədalətsizliyə qarşı etirazla əlaqədardır. Digər tərəfdən isə, uzaqlığın qəhrəmanlar üçün sərbəstlik, müstəqillik, azadlıq duyğuları ifadə edən çalarları da vardır.

Bütün bunlar XX əsr Azərbaycan romantizminin poetikasında mühüm yer tutan "yaxınlıq" və "uzaqlıq", "yaxın" və "uzaq" probleminin əsas, həlledici amili olmuşdur. Hətta M.Hadi və H.Cavidin yaradıcılığında ayrıca "yaxın" və "uzaq"anlayışları da yaranmış və mühüm bədii-estetik məna daşımışdır. H.Cavid "Mən istərim ki..." şeirində yazır:

*Mən istərim ki, gözəllər, bütün gözəlliklər,*
*Uzaq, uzaq, pək uzaq bir üfüqdə əylənsin.*
*Uzaq və incə təbəssümlər ilə şamü səhər,*
*Həyatə nuri-səfa sərpərək çiçəklənsin*

(Cavid, 1968-1971, I cild: 79).

Romantik şairin ürəyində gözəlliyin məhv ediləcəyi qorxusu vardır. Buna görə də, o, "bütün gözəlliklərin uzaqda olması" fikrinin tərəfində dayanır. Beləliklə, şeirdəki "uzaqlıq" anlayışı "can atılan gözəllik dünyasını ifadə edir" (Гуревич, 1980: 21).

H.Cavid "Hərb və fəlakət" məsələlərindən yazanda da göz işlədikcə görünməyən uzaqlıqdan danışır. Belə ki, şeirdə ro-

mantik qəhrəman hərb fəlakətlərini görməmək üçün öz baxışlarını bir az kənara, uzağa çevirir. Lakin oradan da müharibə dəhşətlərini xatırladan "zavallı bir bayquş" iniltisi eşidildikdə qəhrəmanın xəyalı "Uzaq, uzaq, pək uzaq bir mühit içində" dolaşmağa üz tutur (Cavid, 1968-1971, I cild: 61).

Yenə H.Cavidin "Bakıda" şeirində Məsud və Şəfiqə köhnə neft buruqlarına yaxınlaşarkən, "çamurlu, hisli", "ətrafə kirli rayihələr saçan sisli abidələrlə" qarşılaşırlar. Bu mənzərə Şəfiqəyə tamam başqa bir təsir bağışlayır:

*Uzaq, uzaq, pək uzaq yerdə iştə bir orman!*
*Nasıl da xoş, nə qədər şairanə sərvistan! (*Cavid, 1968-1971, I cild: *30).*

Beləliklə, H.Cavidin müxtəlif şeirlərində qəhrəmanlar eyni mövqedə dayanmış və "Uzaq, uzaq, pək uzaq bir üfüq"dən, "Uzaq, uzaq, pək uzaq bir mühit"dən, "Uzaq, uzaq, pək uzaq bir yer"dən daha çox məmnun olduqlarını bildirmişlər. M.Hadi də şeirlərinin birində yazır:

*Cahan əhli uzaqlaşmış ümumi bir üxüvvətdən, Siyasiyyun əlqabında fəssadı görən gündən* (Cavid, 1968-1971, I cild: 332).

Burada mübarizəni pərdələyən qardaşlıqdan uzaqlaşmaq təqdir olunur ki, bu uzaqlaşma da müəyyən mənada yeni həyat arzularının əks-sədası deməkdir.

"Uzaqlıq" barədə söhbət gedəndə, istər-istəməz "yaxın" anlayışı diqqət mərkəzinə gəlir. Yalnız ona görə yox ki, uzaq yaxının əksidir və onlar yalnız qoşa səsləndikdə ciddi estetik məna daşıya bilər. Həm də ona görə ki, yaxınla uzaq qarşıdurma təşkil edir. H.Cavid yazır:

*Əvət, uzaqda səadət var, eşqə hörmət var,*
*Yaxın zəhərlidir, amma uzaqda cənnət var.*
*Uzaqda var əbədiyyət ki, başqa nemətdir*
(Cavid, 1968-1971, I cild: 79).

Şübhəsiz, burada "Yaxın" sözü "cəmiyyət" mənasında işlənmiş, daha konkret desək, romantik qəhrəmanın "ətrafını"

ifadə etmişdir. Başqa bir şeirdə də romantik qəhrəman "narahat, əsəbi, üsyankar bir ruhla" (Cəfər, 1963: 85) deyir:

*Sən ey yüksək fəzalardan aşan səyyahi-zərrinpər!*
*Uzaq, ey nəcmi-geysudar! Uzaq gəz, ərzə yaxlaşma!*
*Uzaqda pək gözəlsən, mənzərən pək dadlı, dilbər,*
*Məhəbbət yox təqərrübdə, şu məhrəkdən saqın, şaşma!*
(Cavid, 1968-1971, I cild: 112).

Şeirdə "ərz" sözü "Yer kürəsi" mənasında işlənmiş və kainatın genişliyi, nəcmi-geysudarın (kometanın) hərəkət etdiyi orbit müqabilində yaxındır. M.Hadi də "Ulduzlara" şeirində uzaqla – asimanla yaxını – "ərz"i qarşı-qarşıya qoyur:

*Zənnim budur ki, sizdə də xunkar yox deyil,*
*Can almağa şəririi cəfakar yox deyil.*
*Bu iş uzaqmı? Qabili-iskan denir sizə,*
*Bədbəxt ərzimiz kimi imkan denir sizə* (Hadi, 1978: 55).

Maraqlı məsələdir ki, 1910-cu ildə sürətlə aşağı enən kometanın Yer kürəsinə düşmək ehtimalı kimi şayiə yayılmışdı. Bu hadisə dövrün sənətkarları arasında da əks-səda doğurmuş və bir çox yeni əsərlərin yaranmasına səbəb olmuşdur. H.Cavidin "Nəcmi-geysudar", A.Surun "Püsgüllü ulduz" (Sur, Püsgülü ulduz. "Həqiqət" qəzeti. 1910, № 103), realist Ü.Hacıbəyovun "Quyruqlu ulduz" (Hacıbəyov, 1985: 505-508) əsərləri məhz elə bu illərin nümunəsidir.

Ü.Hacıbəyov kometadan vasitə kimi istifadə edərək, tacir Hacı Qəmiş, Cahil oğlu Qatil və Şərməsar bəyi tənqid atəşinə tutmuşdur. Onlardan birincisinin arşında, yəni ölçüdə müştəriləri aldatmasını, digərinin adam öldürməklə ad çıxarmasını, üçüncüsünün isə öz puluna güvənib istədiyi oyunlardan çıxmasını realizmin gücü ilə ifşa edir.

Yuxarıda gördüyümüz kimi, H.Cavid isə yerdəki əzab-əziyyətlərin müqabilində kometaya müraciətlə deyir ki,

"Uzaq gəz, ərzə yaxlaşma!"

*A.Surun "Püsgüllü ulduz" mənsur şeirində məsələ tamamilə başqa formada öz həllini tapmışdır. Burada kometa həm Yerdən rədd edilir, həm Yerə dəvət olunur: "Ey göylərin ucsuz-bucaqsız ənginlərindən qopub gələn zərrin şərarə, ey dərin və durğun fəzaları yarıb keçən afət pəri! Çıx get, ənginlərdə gəz... Sən yurdumuza sataşma! Zöhrələrə yaxınlaş! Onlar ilə öpüş, yalaş, ol qardaş!"*

*Yaxud: "Yox, yox! Uzaq qaçıb da getmə. Sən üfüqümüzü salamla, ey kainatın gözəl qızı!"*

Heç şübhəsiz, bu ikili xarakter müəllifin ictimai həyatı müşahidəsindən və bu mühitin təsirlərindən irəli gəlirdi. Çünki şairin qəlbində 1905-1907-ci illər inqilabının dalğalarından axıb gələn ruh yüksəkliyi və insanları yenidən bürüyən, irticanın hökmlərinə qarşı çevrilən qəzəb hissi yanaşı yaşayırdı. Ona görə də, A.Sur "Püsgüllü ulduz"a həm azadlığın simvolu kimi, həm də insanları məhv edə bilən, Yer kürəsini dağıtmağa hazır olan qüvvə kimi baxırdı.

H.Cavidin "İblis" faciəsində Arif və İblisin qarşılaşma məqamı Yaxın və Uzaq obrazlarının qarşılaşmasının başqa bir fəlsəfi mahiyyətini meydana çıxarır. Arif İblisin qəlbindəki xəbisliyi və xislətindəki şəri hiss edəndə deyir:

*Burda durulmaz, çəkilib qaçmalı,*
*Qaçmalı, vəhşətdən uzaqlaşmalı*

(Cavid, 1968-1971, II cild: 65).

Lakin İblis öz niyyətləri müqabilində bu uzaqlaşmanı başqa cinayətlərə yaxınlaşma kimi qəbul edir. Çünki İblisin nəzərində Arif "əflakə uçub qaçsa" belə, yenə onunla birləşməlidir. Bu hökm isə iblisə yaxınlaşmanın nə dərəcədə zərərli və ziyanlı olması haqqındakı həqiqəti aydınlaşdırır.

M.Hadinin də aşağıdakı məşhur misraları çox səciyyəvidir:

*İnsanları pək çox sevirəm, lakin uzaqdan,*
*Olduqda yaxın qalmayır əvvəlki məhəbbət.*
*Gizlin ki deyil seyr edənə işbu həqiqət, iştə sinema xoş görünür baxsan iraqdan.*

Bu şeir qəzetdə dərc edildikdən sonra "M.M." imzası ilə M.Hadiyə "Açıq məktub" yazılmışdır ("İqbal" qəzeti, 21 iyul, 1914). Məqalə müəllifi insanları uzaqdan sevməyin mənasını anlamadığını bildirir və cavabını şairin özündən istəyir. M.Hadi isə "M.M. imzalı məktub sahibinə" adlı cavab məqaləsi ilə çıxış edir (Hadi, "M.M" imzalı məktub sahibinə. "İqbal" qəzeti, 3 avqust, 1914). Müəllif həmin məqalədə öz fikrini bir daha müdafiəyə qalxaraq yazır: "insanlara yaxınlaşdıqca təbəqe-yi-sinema kibi surətlərində bir qarışıqlıq, bir adəmi-vüzuhiyyat nümayan olur. Əvvəlki zövqi-tamaşa qalmayır".

Şübhəsiz, həmin şeirdə romantik şairin əsas məqsədi "insanları çox sevməsini" nümayiş etdirməkdən, yaxud qazanılmış məhəbbətin həyat qarşısındakı dözümünü və ya dözümsüzlüyünü göstərməkdən ibarət deyildir. Əslində M.Hadi həmin misralarla "Yaxın və Uzaq" qarşıdurmasının məna münasibətlərini əks etdirmək istəmişdir.

M.Hadi başqa bir şeirində də yazır:
*Kor rəhbəran əlində zimami-həyata bax,*
*Yüz min quyu yol üzrə, əməl şəhri uzaq* (Hadi, 1978: 289).

Heç bir mübahisəyə ehtiyac yoxdur ki, sənətkar çox uzaqda olan "əməl şəhrinə" çatmaq üçün Yaxının – "yüz min quyunun" üzərindən adlamağı tələb edir.

Bütün bunlar sübut edir ki, XX əsr Azərbaycan romantikləri "Ta uzaqlarda bir təsəlli var" (H.Cavid) mənasında Uzağa can atmaqla Yaxına öz etirazlarını bildirirlər. Bu etiraz üsyankar və davakar olduğu qədər də mənalı, məzmunlu və vətəndaşlıq xarakterinə malikdir.

Bir maraqlı cəhət də vardır ki, istər "Qərb və Şərq", istərsə

də "Yaxın və Uzaq" qarşıdurmalarını daha ciddi və romantizm üçün daha səciyyəvi mətləbin təhlilinə doğru atılan addımlar – pillələr də hesab etmək olar. Bu mətləb Həyat və Ölüm problemidir ki, romantiklər onunla bir çox poetik obrazların yaradılmasına nail olmuşlar.

## 3. HƏYAT VƏ ÖLÜM

Bu məsələ nəinki ayrı-ayrı yazıçıların, yaxud bütün dünya ədəbiyyatının, hətta belə demək mümkünsə, ümumiyyətlə, sənətin problemidir. İnsan həyat və ölüm arasında yaşadığı kimi, sənətkarlar da (o, hər şeydən əvvəl, insandır!) məhz bu həqiqəti əks etdirməyi başlıca vəzifəyə çevirirlər. Belə bir cəhəti XX əsr Azərbaycan romantiklərinin bədii irsində müşahidə etmək və görmək o qədər də çətin deyildir. Lakin ən mühümü və ən səciyyəvisi budur ki, onların yaradıcılığında "əsas əkslik" olan Həyat və Ölüm obrazlarının qarşılaşdırılması "romantik qarşıdurmanın miqyasını, onun fəlsəfi təbiətini daha geniş açır" (Канунова, Янушкевич, 1985: 17).

Şübhəsiz, Azərbaycan romantizmindəki "Həyat və Ölüm" qarşılaşmasına yalnız çıxılmaz vəziyyətin, müəyyən tərəddüdlərin nəticəsi kimi baxmaq olmaz.Yəni azadlıq əldə edə bilməyən və mübarizə üçün hələ tam imkan tapmayan insan (eyni zamanda, romantik sənətkar və romantik qəhrəman!) Həyat və Ölümün aralıq zonasında yaşamalıydı. Romantiklər isə məhz bu mərhələnin xarakterini vermək məqamında həmin poetik qarşıdurmaya gəlib çıxırdılar.

Bir cəhəti unutmaq olmaz ki, bədii əsərdə poetik qarşıdurmanın hər iki tərəfini dəqiq axtarmaq o qədər də düz olmazdı. Çünki bunlardan birini o birindən ayrı, təcrid olunmuş şəkildə təsəvvür etməyin özü müşküldür. Ona görə, qarşıdurmanın tə-

rəflərindən biri əsərdə yoxdursa, o, iştirak edənlə bir sırada durur və əsərin kontekstində özünü aydın şəkildə göstərir (Манн, 1977: 19).

Təsadüfi deyildir ki, "məzar" sözü M.Hadi şeirini başdan-başa bürümüş, sanki öz ağuşuna almışdır. Eynilə H.Cavid, A.Səhhət, A.Şaiq, A.Sur, A.Divanbəyoğlu əsərlərində də "məzar" sözünə az və ya çox dərəcədə rast gəlinir. Romantik sənətdə tez-tez işlənilən "məzar", "məmat", "qəbir", "məqbərə", "mədfən", "kəfən" və sair bu tipli ifadələr romantizmin yalnız terminologiyası ilə bağlı məsələ deyildir, həmçinin bunlar romantiklərin ölüm haqqında düşüncələrinin, fəlsəfi mülahizələrinin miqyas genişliyini və romantizmin özünün bir çox spesifik xüsusiyyətlərini nişan verir.

Bütün bunlar romantiklər üçün adi detallar deyildir. Çünki çox hallarda sənətkarın həmin ifadələrdən istifadə məqsədi birbaşa spesifik cəhət kimi meydana çıxır. Belə ki, bədii yaradıcılıqda qış fəslinin qanunauyğun halı kimi torpağı örtən qarın, əksərən, təmizlik, saflıq mənasında işlənməsi məlum həqiqətdir. Lakin romantiklər qarda tamamilə başqa çalar görürlər. M.Hadi yazır:

*Qar yağıb torpağı kəfənləyəcək,*
*Qalacaqdır açıqda yoxsul olan* (Hadi, 1978: 195).

"Bir işsizin qış düşüncələri" haqqında düşünən şair qarı kəfənə bənzədərək, insanın ağrı və əzabını uğurlu şəkildə əks etdirə bilmişdir. Daha açıq desək, heç bir yerdə iş tapa bilməyən, evdə geyinməyə və yeməyə heç nəyi olmayan, uşaqlarının və qadınının yaşlı gözlərinə necə baxacağını kəsdirə bilməyən, öz talelərini "yuvasız quşlar"a bənzədən və əgər ölsə kəfənsiz belə qalacağı qorxusu ilə yaşayan işsizin təsviri zamanı qarın kəfən kimi görünməsi tamamilə təbiidir.

H.Cavidin "Məzlumlar üçün" şeirində də belə bənzətmə diqqəti cəlb edir:

*Tuhaf deyilmi!? Hənuz irmədən bahari-ümüd,*
*Kəfənli çölləri al lalələr qılır təmcid*

(Cavid, 1968-1971, I cild: 81).

Bu şeirdə də insan fəryadı, çırpınan, əzilən, qəhr olan talelər və əlləri qoynunda qalan ana haqqında danışıldığı üçün qarın kəfən kimi görünməsinə sənətkarın ölüm təhlükəsi barədə düşünməsinin nəticəsi kimi baxmaq lazımdır. Maraqlı cəhətdir ki, bu şeirdə iki ölüm faktı vardır. Onlardan biri məzlumların taleyini əhatə edir. ikincisi isə qışın ölüm kimi alınmasıdır: lakin bu ölüm həyatla – "al lalələrlə" (bahar nəzərdə tutulur) üz- üzə dayanmışdır və bahar qalib gəlməkdədir. Nəticə etibarilə şair məzlumların nikbin gələcəyinin işığını görür və göstərir.

Romantik şeirdə bəzən "kəfən" sözü başqa məqamlarda da işlənir. M. Hadi yazır:

*Baxtım kimi olsun kəfənim, yəni siyəhnak,*
*Heykəl diləməm, heykəli-qəbrimdir o əflak*

(Hadi, 1978: 254).

Şair öləndə kəfənin qara rəngdə olması istəyində bəxtinin, həyatının qaranlığını bildirmək istəyir. Bununla da dolayısı ilə ağ rəngin onun ömrünün rəmzinə çevrilməsinə etiraz edir.

A.Şaiq isə yazır:

*Fikrim sarayını dolaşırsan zaman-zaman,*
*Qanlı kəfəndə, dərd ilə qəm vətən, vətən* (Şaiq, 1968: 7).

Burada kəfən ağ və qara rənglərdən fərqli olaraq, qırmızı rəngdə təqdim edilir. Bu ifadə ölümə bürünmüş, yaxud ölüm çərçivəsində hələ nəfəsi qaralmayan çarpışma və vuruşmanı, inqilab dalğasını və vüsətini bildirir.

Romantiklərin yaradıcılığında vətəni qabaqcıl adamlar üçün məzara çevirmək istəyənlərə qarşı kəskin etirazlar da var idi. Belə ki, XX əsrin əvvəllərində bir qrup din xadimi, xalqın gələcəyini görməyən əqidəsiz insanlar mütərəqqi fikir sahiblərinin düşmənlərinə çevrildilər. Bu isə qazanılmış "hörmət və nüfuzu"

itirmək canfəşanlığından doğurdu. M.Hadinin "Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar" şeiri tamamilə bu problemə həsr edilmişdir. Romantik şair həyatın ümumi inkişafını görməyənlərə, dərk etməyənlərə qarşı mübarizədə sanki çıxılmaz vəziyyətdə qalmışdır. Şair üçün son dərəcə dözülməz idi ki, bu adamlar tərəqqini, irəliləyişi etiraz və nifrətlə qarşılayırlar. Bütün bunları diqqətlə və hər gün müşahidə edən müəllif qələminin tam gücünü işə salaraq, ağrılı- ağrılı yazırdı:

*Mən bir diriyəm, etdi məni dəfn təsadüf, Zində görünən bir sürü mövtalar içində* (Hadi, 1978: 129).

Yaxud M.Hadi Şirvana həsr etdiyi "Ah, kimsəsiz vətən!" şeirini yazır (Hadi, 1978: 94-95) və bu şeirdə öz ahını belə ucaldır:

*Ey zindələr məzarı olan aşiyan, ah!*
*Afaqın üzrə durmada bir pərdeyi-siyah.*

Eyni narazılıq və narahatlıqla A.Şaiq də üzünü Vətənə tutaraq deyirdi:

*Vətən, vətən! Mənə oldun məzarı-yəs, nədən?*
(Şaiq, 1968: 25).

A.Şaiqin işlətdiyi nida və sual işarələri romantik şair qəlbinin həyəcan və ağrısını yaxşı ifadə edirdi. Romantiklər ona görə qəzəbli və yanğılı idilər ki, vətən üçün çalışdıqları halda, vətənin "vətəndaşları" onlara məzar qazırdılar. Belə "vətənpərvərlər" özləri məzara gedəcəkləri halda, məhz özgələrini məzara göndərmək istəyirdilər və bəzən də göndərirdilər. Bu isə romantiklərin ürəyində yaşayan ciddi ictimai narazılığın əsası olurdu. *"Çünki xeyirxah niyyətlərinə, gözəl yaradıcılıq ideallarına görə, hakim və tüfeyli siniflər tərəfindən təzyiq və təqib gördükdə, onlara elə gəlirdi ki, ümumiyyətlə millət hələ öz dostunu-düşmənini, öz xeyir-şərini başa düşmək iqtidarına malik deyildir. Buna görə də, vətən-millət sevgisi və vətəndən – millətdən narazılıq, daha dəqiq deyilsə, küskünlük əkiz hisslər*

*kimi onları tərk etmirdi*" (Cəfər, 1974: 88).

*Bu mənada A.Sur "Lövheyi-şeir" adlı əsərində (*Sur, Lövheyi-şeir. ''Yeni İrşad" qəzeti, 9 sentyabr 1911*) həyatındakı ağrı və acıların təsiri ilə ölüm lövhəsi yaratmağa da məcbur olmuşdur: "Müdhiş bir sükut!.. Arxasınca imdadə yetər ağuşi-məhşər, həzin bir məqbər ki, altında inlər ölgün bir xəndə... Üstündə sızlar daim bir giryə.*

*İştə bir şeiri-həyat! İştə lövheyi-məmat!"*

Ümumiyyətlə, bu mənsur şeirdə müəllif ölüm qarşısında "diz çöküb boyun əyən" insanın taleyini, onun hisslərini qələmə almışdır. "Çırpınan bir ürəyi, yaş tökən gözləri", "mələkməftun bir yalvarışı", "Allahpəsənd bir sızlayışı", dərin kədər və ağrı ilə təsvir etmişdir.

M.Hadi şeirində "Mən ölmədən əvvəl vətənim oldu məzarım" (Hadi, 1978: 256) deyilsə də, onun təsəllisi də verilirdi:

*Mən ölmədən əvvəl vətənimdir mənə məqbər,*
*Çünki vətənimdir, buna olmam ki, mükəddər*

(Hadi, 1978: 254).

Heç də qəribə gəlməməlidir ki, romantiklərin yaradıcılığında ölümə qarşı etiraz olunduğu halda, bəzən romantik şeirdə ölüm istəyi də bir xətt kimi uzanıb gedir. Məhəmməd Hadi şeirlərinin birində qüvvətli səda ilə deyir:

*Ziruh olalım, əhli- məzar olmayalım gəl,*
*Diz-diz sürünən şil kimi zar olmayalım gəl!*

(Hadi, 1978: 230).

Digər şeirdə isə tamamilə başqa bir fikir, hətta bu misralara əks tezis irəli sürülür:

*Kor xəlqi, kor həyatı yaşatmaq! Mən anlamam?!*
*Gözsüzlərə yer altıdır ən yaxşı bir məqam!*

(Hadi, 1978: 230).

Birincidə məzara qarşı üsyan, ikincidə məzar istəyi! Birincidə həyata bağlı bir ömür, ikincidə ölümə sürüklənən

həyat!.. Bu təzada və əksliyə baxmayaraq, hər iki beytdə, hər iki şeirdə ("Həqiqət acımı, dadlımı? və "Asi şeirlər") həyata, yaşamağa böyük bağlılıq vardır. Bu yaşayış, bu həyat dərkedilməzliyə və korazehinliyə qarşıdır.

A.Şaiq də şeirlərinin birində yazır:

*Bu qırmızı şəfəqlər içində nihan-nihan,*
*Doğmazmı nur, mehr, məhəbbət, cəhan, cəhan?!*

(Şaiq, 1968: 16).

Bu, şairin əsl həyat istəyidir. Digər şeirdə isə tamamilə başqa bir fikir irəli sürülür:

*Gömüldü, soldu içimdə şükufeyi-əməlim,*
*Mənə təsəlli üçün indi sən yetiş, əcəlim!* (Şaiq, 1968: 25).

Burada artıq ölümə getmək – ölüm istəyi əsas motivdir. Lakin bunlara baxmayaraq, hər iki beytdə, hər iki şeirdə ("iyirminci əsrə xitab" və "Vərəmli həyat") əsl ömür keçirmək arzusu vardır.

Yeri gəlmişkən qeyd edək ki, son beytdəki "əcəl" sözü istər-istəməz M.Ə.Sabirin məşhur beytini xatırladır:

*İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl,*
*Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm*

(Sabir, 1960: 67)

Ümumi ruhun və pafosun yaxın olmasına baxmayaraq, mətləb tamamilə aydındır. Sabirdə bioqrafik element əsas olduğuna görə münasibət müstəqimdir. Hətta o dərəcədə müstəqimdir ki, bu Sabir bütün yaradıcılığı ilə bizə tanış olan və poetik üslub və ahəngində tamamilə fərqlənən Sabirə bənzəmir.

Romantik Şaiqdə isə ölüm arzusunun müəllifin bioqrafiyası ilə qətiyyən əlaqəsi yoxdur və deməli, bu istək bilavisitə lirik qəhrəmanın mənəvi aləmi ilə bağlıdır. Yəni cismani həqiqətdən uzaq olan daxili hiss və duyğunun ifadəsidir.

Romantik şeirdəki eyni istiqamət - sənətkar fikir və idealının tam mənzərəsini canlandıran və bu canlılığa təminat

verən bu ikili xarakter bədii düşüncənin fəlsəfi mahiyyətindən irəli gəlirdi. Görkəmli tədqiqatçı N.S.Leytes yazır: “Alman ədəbiyyatında “həyat-ölüm” antitezisinə həmişə müraciət vardır. Bunun səbəbi isə yalnız Almaniya tarixinin ziddiyyətli olmasında deyildir. Həmçinin alman bədii fikrinin fəlsəfi problemlərə xüsusi maraq göstərməsində idi” (Лейтес, 1980: 52). Bu mənada romantiklərin yaradıcılığındakı Həyat və Ölüm obrazlarının qarşılaşdırılması yalnız XX əsrin əvvəllərinə xas olan ictimai ziddiyyətlərdən doğmurdu. Həmçinin romantik bədii fikrin, sənətkarın düşüncəsinin fəlsəfi problemlərə ciddi və əsaslı meyli ilə bağlı idi.

Romantiklər ölümü təbii qəbul edir və ona həyatın qanunu kimi baxırdılar. Onlar heç vaxt “ölüm olmamalıdır” fikrinin fantastik örtüyünə sığınmırdılar. Romantiklər həyatın ölümlə bağlı ümumi inkişafını, təbii axarını görür və onu qəbul edirdilər. Lakin onlar məhz şərəfli ölümün tərəfdarı idilər. M.Hadi yazır:

*Ayıl, ey xabə dalmış, ölmə istibdad altında!*
*Ölürsən öl yenə bir şanlı, ali ad altında!* (Hadi, 1978: 89).

Hətta M.Hadi başqa bir şeirində şanlı ölümü açıqca şöhrət hesab edir:

*İzzəti-nəfs ilə ölmək bir məziyyətdir bizə!*
*Ömür sürmək min səfalətlə əziyyətdir bizə!*
*Şanlı ölmək, şanlı ölmək-şanü şöhrətdir bizə!*
*Bərhəyat olmaq əsarətlə xəsarətdir bizə!* (Hadi, 1978: 60).

Eynilə A.Şaiq də “Şanlı zəfər və ya şərəfli ölüm!” (Şaiq, 1968: 69) şüarını irəli sürürdü.

Romantiklərin bu çağırışı vətənpərvərlik və vətəndaşlıq çağırışı idi. Onlar oxucuları istibdadı yıxıb ölümə getməyə səslə məklə vətənin gələcəyini və gələcək nəsilləri düşünürdülər. M.Hadi başqa bir şeirində:

*Pay dər qeydi-əsarət yaşamaqdansa əgər,*
*Hürr ölmək belə əmin vüsləti-dildarə dəyər* (Hadi, 1978:

135) – deməklə azad ölümün tərfdarı kimi çıxış edirdi. Beləliklə, M.Hadi ölmədən əvvəl azadlıq əldə etməyi, sərbəst yaşamağı insan üçün vacib sayırdı. Digər tərəfdən, o, ölümə gedən hər hansı bir insanın heç olmasa çarpışıb-vuruşub ölməyini daha müvəffəqiyyətli hesab edirdi. Ölümlə də nə isə bir vətəndaşlıq işi görməyi M.Hadi yüksək qiymətləndirir, bunu fədakarlıq və mərdanəlik adlandırırdı. Romantizmdə "gözəl ölüm haqqında arzular, gözəl həyat haqqında arzularla tamamilə səsləşir" (Розанов, 1914: 253).

Azərbaycan romantiklərinin əsərlərində insanların ölümə getməsi heç vaxt təsadüfi səciyyə daşımır. Yəni bu ölümlər təbii fəlakət, yaxud onsuz da avtomobilə həsrət çəkilən vaxt olduğu üçün avtomobil qəzaları tanımır. Hətta A.Səhhət "Şamaxı zəlzələsi" şeirində zəlzələ nəticəsində ölənlərin taleyinə acıyırdı. K.Talıbzadə "Ölü şəhər" şeirini düzgün şərh edərək yazır: "Şair öz şikayətləriylə" "ölü şəhərləri", "zəmanənin şikəst etdiyi", "surətdə diri olub, həqiqətdə ölü olan" insanları təsvir etməklə cəmiyyətə faydalı bir təsir göstərmək istəyirdi" (Talıbzadə, 1955: 60).

Bu deyilənlərdən belə anlaşılmamalıdır ki, Azərbaycan romantikləri bədbinliyin, ölümün çıxılmaz dairəsindədirlər. Yox, elə deyildir. Bəs onda məsələnin mahiyyəti nədədir? Bu suala cavab verməkdən ötrü romantizmin özünün material verdiyi insan həyatının başlanğıcı məsələsinə və həyatın inkişaf xətti ilə bağlı faktlara qayıtmaq kifayətdir.

*Cahana gəlmədə məqsəd nədir insanə, bilməm ki?*

Göründüyü kimi, Hadi yaradıcılığının ilk pilləsində insanın doğuluşunun mahiyyətini, deyək ki, dərk edə bilmirdi. Sonra isə Hadi kimi bütün romantiklər üçün də insanın həyatda yaşayışı əsas problemə çevrildi. Bu mənada daha uğurlu, daha amansız bir nümunə: Hadi poemalarından birinə "Beşikdən məzara qədər bəşərin əhvalı" adı vermişdir.

Poemanın təhlilinə keçməmişdən qabaq xüsusi şəkildə qeyd etmək lazımdır ki, romantiklər insanın doğuluşundan, həyatından və ölümündən ayrı-ayrılıqda danışmırlar. Romantiklər üçün bunlar bütöv bir təbii bir prosesdir və əslində elə bütövlükdə də götürülür. Burada daha spesifik, özgün cəhət həyatdan ölümə qədərki mərhələnin – bu "aralıq zonası"nın mühüm əlamətinin nədən ibarət olmasıdır.

Poetikanın görkəmli tədqiqatçılarından olan Y.M.Meletinski həyatdan ölümə qədər ki, yolun "aralıq üzvlərindən" biri kimi xəstəliyi" qeyd edir (Мелетинский, 1976: 86). Bu vəziyyət XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında da müşahidə olunur.

A.Divanbəyoğlunun "Can yanğısı" povestində Ruqiyyənin taleyi məhz belədir. Ruqiyyə öz ata-anası ilə birgə yaşadığı vaxtlarda xoşbəxtdir. Lakin elə ki, Əhmədə ərə gedir və onlar şəhərə köçürlər, bununla da Ruqiyyə ölümə yaxınlaşır. Əhmədin yeni sevgisi – Ruqiyyəyə günü gətirmək arzusu bu məsum qıza xəstəlik bəxş edir. İndiyə kimi rahat yaşayan "Ruqiyyə əlini yuxarı qaldırıb şarpdan yanına saldı, dizinə vuracaqdı, bacarmadı. Əli qalxdığı kimi yanına düşdü. Biçarə başını yastıqda o yana, bu yana buladı, gözlərini yumdu. Mən elə bildim ki, canını tapşırdı, amma döşü zəif-zəif qalxıb düşürdü" (Divanbəyoğlu, 1981: 189). Nəhayət, bu zəiflik də yox olur və Ruqiyyə ölümün qucağında sustalır.

A.Şaiq "Qış gecəsi" şeirində yazır:

*Dərd ilə ümid içində madər,*
*Şam tək beşik başında titrər* (Şaiq, 1968: 32).

Çünki beşikdə ölümün astanasında dayanan xəstə uşaq uzanmışdır. Bu xəstəlik uşağı həyatdan ölümə doğru aparan, ölümə sürükləyən, nəhayət, ölümə çatdıran yeganə amildir.

H.Cavidin "Öksüz Ənvər" şeirində də ananın ölümünə səbəb xəstəlikdir. Şair gənc Ənvəri nəzərdə tutaraq yazır:

*O imdi pək mütəfəkkir... cahanda iştə onun*
*Həyatı, nəşəsi, ümidi tək bir annəsi var.*
*Fəqət o, bəlkə üç ay var ki, xəstə, giryənuman,*
*Nəzərlərilə üzər binavayı leylü nahar*

(Cavid, 1968-1971, I cild: 46).

Elə bu qadın da xəstəlik nəticəsində ölümün pəncəsinə yuvarlanır. Bu cəhəti qeyd etmək lazımdır ki, əgər bir şeirdə təsvir edilən ölüm xəstəliklə bağlıdırsa, onun da mahiyyətində məhz ictimai mətləb vardır:

*Otuz yaşında sararmaq, açılmamış solmaq,*
*Bu, iştə bir mələyin virdi-şairanəsidir.*
*Otuz yaşlarında gömülmək məzarə, məhv olmaq,*
*Bu, bir şikəstəaməl dilbərin təranəsidir*

(Cavid, 1968-1971, I cild: 36).

H.Cavidin bu otuz yaşlı qəhrəmanı xəstəlikdən məhv olur, lakin xəstəlik birbaşa cəmiyyətin eybəcərliklərinin nəticəsi kimi meydana çıxmışdır. Çünki o qız arzu və istəklərinin həqiqətini görə bilmir. İmkansızlıq həmin qəhrəmanı mənəvi cəhətdən əzmiş və öldürmüşdür.

A.Şaiq də "Bəxtsiz rəfiqəmə" şeirində yazır:

*Sən öldün, ah, vərəm qəlbimi mənim dağlar,*
*Unutmam, ölsəm əgər, torpağım da qan ağlar*

(Şaiq, 1968: 50).

Müəllif xəstəlikdən məhv olan rəfiqəsinin taleyində ictimai həyatın təsirlərini axtarır və tapır. O da təsadüfi deyil ki, romantizmdə vərəm xəstəliyindən xüsusi danışılır. H.Cavid "Vərəmli qız" (1,80), A.Şaiq "Vərəmli həyat" (Şaiq, 1968: 25) şeirləri yazır, hətta H.Cavid "vərəmli həyat" (1,109) ifadəsini də işlədir. Romantiklərin şeir qəhrəmanlarının bir neçəsi məhz vərəmdən ölürlər. XX əsr Azərbaycan romantizmində VƏRƏM – dövrün aclıq və səfalətinin rəmzidir.

Lakin Azərbaycan romantizminin poetikasında həyatdan

ölümə qədər gedən yolun aralıq hissələrini daha çox ictimai problemlər və bu problemlərlə bağlı KƏDƏR və ondan doğan nəticələr təyin edir. Bu baxımdan, M.Hadinin "Beşikdən məzara qədər bəşərin əhvalı" poeması çox xarakterikdir.

Şair klassik poeziyada, xüsusən Füzulidə olduğu kimi, yeni doğulan uşağın ağlamasını mənalandırır. Bu təbii hadisəyə ictimai məna verir:

*Qanmış kimi bu aləmi, mənfayı-həyatı,*
*Biçarə çocuq doğdumu, başlar nəvahatı.*
*Guya ki, demək istəyir ol kudəki-nalan,*
*Oldum bu doğulmağıma şimdi peşiman* (Hadi, 1978: 334).

Doğulmağı ilə bir vaxtda peşmançılıq əzabı – bu, sənətkarın öz təcrübəsindən uşağa verdiyi xarakterik xüsusiyyətdir, sənətkarın öz təcrübəsindən doğan nəticədir. Çünki həyatdakı ağrı və acılar uşağın da qisməti olacaqdır.

Sonra müəllif çocuğun günbəgün, ilbəil aldığı kəskin zərbələri əks etdirir. Məlum olur ki, uşaq ağlayarkən ananın onu ovutmaq istəyinin özü belə yeni dərddir:

*Püstanın ucilə çocuğun ağzı qapandı,*
*Məcbur olaraq ağlamadı, tifl, dayandı,*
*Sərbəstcə qoymaz ki, az ağlasın övlad,*
*Bir mehri-əsarət vuruyur ağzına bidad.*

Şair təbii və zəruri bir prosesi – ananın uşağa süd verməsini ictimai həyatın ziddiyyətləri fonunda mənalandırır. "Əsarət möhürü" ifadəsi uşağın süd əmməsi faktını ikinci plana keçirir və ciddi narazılığın təkanı olur. Bəs niyə M.Hadi məsələni məhz belə izah etmək məcburiyyəti qarşısında qalıb? Çünki həyatın özünün əzabları çoxdur.

Müəllif bununla da kifayətlənmir və yenə ağrı və acıların qatı təsvirini verir. Şairin aşağıdakı misraları qeyri-adi poetik təfəkkürün də təsdiqidir:

*Zənciri-təbiisi kəsildi, bəliyorlar,*
*Bir iplə dəxi qundağı qat-qat sarıyorlar.*
*Zəncirə çəkirlər çocuğu doğduğu saət,*
*Ayə nə günah etdi bu növbareyi-ismət?!* (Hadi, 1978: 336).

Şairin sual və həyəcanı arxasında məhbusluq və dustaqlığa, zəncir və əsarətə qarşı kəskin etiraz vardır. İş elə gətirir ki, uşaq bir az böyüyəndən, məktəbə gedəndən sonra da qəm yükü daşımağa məcbur olur. Onun arzu və istəkləri hər an daşa dəyib parçalanır:

*Bəzi gecə ac yatmaq ilə ev bucağında,*
*Biçarə uyur sübhə qədər qəm qucağında* (Hadi, 1978: 342).

Müəllif bütün bunlarla kifayətlənməyib, poemanın sonunda kədər və dərdin insanlıq üçün bəla olduğunu özünəməxsus şəkildə ümumiləşdirir:

*Çox şəxslərin yəs qırıb eşq qanadın,*
*Könüldə qoyub istədiyi cümlə muradın* (Hadi, 1978: 346).

Əsərdən belə bir ciddi qənaət hasil olur ki, romantik sənətdə həyatla ölüm arasındakı ən mühüm "aralıq üzv" məhz KƏDƏRdir!

*Ta qəbrə gedincə bu qüyudati-əməmza,*
*Pabəndi qəm eylər səni, əndişeyi-fərda* (Hadi, 1978: 201).

A.Səhhətin də aşağıdakı misraları təxminən eyni məzmun daşıyır və hər iki sənətkarın fikirləri bir-biri ilə səsləşir:

*Kədərin toplanıb qübar oldu,*
*Nazənin cisminə məzar oldu* (Səhhət, 1975: 78).

Kədərin həyatla ölümün yolu üzərində dayanması isə bilavasitə romantizmin spesifikasında – romantizmə xas dünya kədərindən doğmuşdur. Hətta romantiklərin yaradıcılığında kədər motivi bədbinliyə gətirib çıxarırsa, onda bu bədbinlik özü də mövcud quruluşa qarşı istiqamətlənmişdir.

XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında ölüm çox vaxt ümumi mahiyyət daşısa da, bir çox məqamlarda fərqli

şəkildə ünvanlaşdırılır. Çünki təbiidir ki, ölüm hamı üçün eyni olmur. A.Şaiq "Bu da bir şeiri-faniyi-digər" şeirində (Şaiq, 1968: 28-29) heyvanlara və təbiət aləminə nəzər yetirərək müxtəlif ölümlərdən bəhs açır. Eyni zamanda, bu ölümlərə qarşı kainatın əbədilik həyatını qoyur. Doğrudur, kainat da Günəşsiz olanda sanki həyatsız olur, onu da "sis və duman" bürüyür. Lakin kainatın sonsuzluğu həyatın sonsuzluğudur. A.Şaiqin də şeirində həyatın əbədiliyi ilə həmin ölümlər məhz qarşı-qarşıya dayanır.

Romantiklərin əsərlərində insan ölümünü törədən müxtəlif məqamlar da göstərilir. Birinci dünya müharibəsi dövründə yaşıyıb-yaradan həmin sənətkarlar insan qırğınına qarşı üsyankar səslərini ucaldırlar. H.Cavid acı bir təəssüf hissi ilə yazır:

*Bir nazlı çöhrə, ya düşünür bir həzin nigah,*
*Bir giryə, bir təbəssümi-nazik dərin bir ah,*
*Bir şairanə mənzərə, bir qanlı hərbgah,*
*Xoş bir şükufəzar və ya tazə bir məzar*

(Cavid, 1968-1971, I cild: 105).

Yaxud H.Cavidin başqa bir şeirində məsum və yazıq bir qızın ölüm qarşısındakı həyəcanları verilir:

*Fəqət üzər məni hər ləhzə bir vərəmli xəyal,*
*Əcəlmi yaxlaşıyor? Ya nədir bu küskün hal?*

(Cavid, 1968-1971, I cild: 109).

Lakin bütün bunlara baxmayaraq, hamı yaşamaq istəyir, həyat istəyir, çünki M. Hadinin dediyi kimi:

*Nə şirinsən? Nə dadlısan ey həyat!*
*Kimsə əl çəkmək istər səndən.*
*Qorxuyor zihəyat mədfəndən.*
*Nə acı, təlxsən, a cami-məmat* (Hadi, 1978: 173).

Romantiklərin əsərlərində ayılmağa – dirilməyə çağırış xüsusi yer tutur. Şübhəsiz, bu çağırışın bir qütbü məcazi məna daşıyırdı. Belə ki, romantiklər gerilik və ətalətin müqabilində insanları bir növ ölülükdən ayılmağa səsləyirdilər.

M.Hadi "Şərareyi-ruh" şeirində yazır:

*Ey islam oğlu islam! Sən də adəmsən, ayıl bir an,*
*Yetişdi nöqteyi-ümmidə səndən başqa həmrahan,*
*Məzaristani-qəflətdən atıl meydanə, göstər can,*
*Hücum etməkdədir düşmən, dəfai-nəfsə hazırlan*

(Hadi, 1978: 89).

Yaxud M.Hadi "Qanuni-təkamül" şeirində bütün Şərqə və şərqlilərə müricətlə yazır:

*Ayılıb çıx məzari-qəflətdən,*
*Məhşəri-kainatı seyr eylə,*
*Nəmati-həyati seyr eylə,*
*Hissədar ol behişti-fitrətdən* (Hadi, 1978: 188).

Şair gerilik içərisində məhv olan insanları "məzaristani-qəflətdə" hesab edir. Sanki artıq onlar ölmüşlər, çünki onların heç bir fəaliyyətləri yoxdur. Lakin bu cür ölü vəziyyətində qalmaq nə onların özləri üçün, nə də vətən üçün faydalıdır.

Eynilə, A.Səhhət də şeirlərinin birində yazır:

*Ey könül, yatmagilən, dur gözün aç, bidar ol!*
*Xabi-qəflətdən oyan bir, bu zaman huşyar ol!*

(Səhhət, 1975: 9).

Beləliklə, A,Səhhət də "xabi-qəflətdə" qalan adamları ölü hesab edir və onların ayılmasını-dirilməsini istəyir. Əlbəttə, bütün çağırışlar real ölümlə bağlı olmasa belə, romantiklərin yaradıcılığında həqiqətən ölmüş adamları dirilməyə səsləmək mərhələsinin hazırlıq dövrüdür. Belə ki, Azərbaycan romantikləri öz əsərlərində ölmüş insanların "dirilməsini" çox istəyirlər. Bu isə onların öz məqsəd və qayələrini oxucuya çatdırmaqda əsaslı vasitə olur.

A.Şaiq "Həsrət gözünü aç bir an, ey şanlı mücahid!" (Şaiq, 1968: 10) çağırışı ilə H.Zərdabinin sanki dirilməsini və ona bəslənən ehtiramı öz gözləri ilə görməsini istəyir. A.Səhhət isə

"Şeyx Sədi" şeirində neçə əsr əvvəl vəfat etmiş Sədi Şiraziyə müraciət edir. Müəllifin bu müraciəti sadəcə olaraq, neçə yüzilliklərin arxasına yönəlib orada qalmır. A.Səhhət həm də şairin dirilməsini istəyir. Əlbəttə, bu dirilmənin özünü də məcazi mənada başa düşmək lazımdır:

*Sədi, əya şairi-şirinkəlam!*
*Xabgəhin rəvzeyi-darüssəlam!*
*Dur, oyan, ey dahiyeyi-rüzgar,*
*Gör vətənin oldu nasıl tar-mar* (Səhhət, 1975: 7).

A.Səhhətin bu şeirində İranın o dövrdəki həyatı verilmiş, şairin çağırışı isə bilavasitə gələcəyə doğru səmtlənmişdir. Romantik şair gündən-günə tənəzzül edən, xarici kapitala satılan iranın, iranda yaşayan Azərbaycan türklərinin, farsların və digər xalqların taleyini göstərir və bu acınacaqlı taleyə, qismətə təəssüf hissləri və yanğı ilə baxır, narahatlıq duyğularını ifadə edir. H.Cavidin "Şeyx Sənan" şeirində isə Sədidən də "yaşlı" olan Şeyx Sənana müraciət vardır:

*Oyan, ey piri-xoşdil! Qalx, ayıl bir xabi-rahətdən!*
*Qiyamətdir, qiyamət!.. Qalx, oyan, zövq al bu fürsətdən.*
*Mələklər göydən enmiş, feyz alırlar xaki-pakindən,*
*Seçilməz imdi əsla məqbərən gülzari-cənnətdən*
(Cavid, 1968-1971, I cild: 67).

Şair Tiflisdə yaşayarkən oradakı Şeyx Sənan türbəsi önünə getmiş və həmin şeiri də o ziyarətdən ilhamlanaraq yazmışdır. H.Cavid talecə qəribə olan Şeyx Sənanın "dirilməsini" ona görə istəyir ki, o fədakar insan sevgiyə və məhəbbətə indi necə qiymət verildiyini öz gözləri ilə görsün.

M.Hadi şeirlərində isə dirilməsi istənilən adamlar lap qədimlərdə yaşayanlardır, daha doğrusu, dünyanın ilk adamlarıdır. Beləliklə, M.Hadi qələmi öz romantik vüsəti ilə bütün insan

nəsilləri üzərində çox sürətlə addımlayır və Nuhu (Hadi, 1978: 123), Adəmi (Hadi, 1978: 167) oyanmağa, ayılmağa çağırır. Romantiklərin öz dövrləri üçün səciyyəvi olan gerilik və eybəcərlikləri göstərməkdən yana çağırdığı adamlar – şahidlər ölüdürlər, lakin onların adı ilə bağlı olan şeirlərdə həmin illərin ictimai-sosial həyatı canlı şəkildə inikas etdirilmişdir.

Romantik şeirin vüsəti ölülərdən yenə "əl çəkmir", ölülərə eşitmək, dinləmək, danışmaq, hətta dirilmək səlahiyyəti verir. M.Hadi məşhur "istiqbalımız parlaqdır" şeirində yazır:

*Ey ol vəqti görən məsud, unutma bizləri, yad et,*
*Bu yolda həsrət ilə gəl, dur, can verən əhbabi tedad et;*
*Məzarım üzrə gəl, dur, qəmli-qəmli ağla, fəryad et,*
*Oxu bu şeiri qəbrimdə, ələttəkrar övrəd et:*
*Dur, ey zindani-nisyanda yatan, azad olub aləm,*
*Sürarabadi-hürriyyət gəlib, dilşad olub aləm!*

(Hadi, 1978: 202).

Romantik sənətkar inanır ki, onun arzuları həyata keçsə, azadlıq əldə edilsə, o, ölü olsa belə, yenə eşidə bilər. Çünki müəllifin ən böyük həyat idealı həqiqətə çevrilirsə, onun eşitməyi o qədər çətin deyildir.

A.Səhhət və A.Şaiqin eyni adlı "Yad et" şeirlərində də məhz bu xətt izlənilir.A.Səhhət:

*Vəqta ki yetər zəmani-hazir,*
*Gül tək açılar tutuq ürəklər,*
*Torpaqda yatar bu qəmli şair,*
*Qəbrində çıxar soluq çiçəklər,*
*Batində olar o halə nazir,*
*Həsrətlə bu dağidari-firqət,*
*Bax millətə, eylə sən təfəxxür,*
*Amma ki, bəxatiri-üxüvvət,*
*Yad et məni, aşiqanə yad et!* (Səhhət, 1976: 28).

Yaxud A.Şaiq:

*Atəşli, münir əməllərimlə,*
*Bir gün düşərəm soyuq məzaə,*
*Əşari- təranəpərvərimlə*
*Bir gün susaram dönüb qubarə.*
*Vəqta ki, bu şairi-vətəndən,*
*Dünyada nə iz qalar, nə bir nam,*
*Üzdikcə səadət içrə şən-şən,*
*Sürdükcə dəmadəm ömrü-xoşkam,*
*Yad et məni, qaibanə yad et!* (Şaiq, 1968: 18).

Hər iki şair tamamilə əmindir ki, əgər "tutqun ürəklər gül tək açılsa", adamlar "səadət içrə şən-şən üzsə" onlar bu həqiqəti eşidər və heç olmazsa, məzarlarında rahat yatarlar. Bu, əsl romantik inam idi.

Romantiklərə görə ölülər qəbirdə nəinki eşidə bilər, hətta danışa bilərlər. Belə ki, M.Hadi "Şirvan xatiratı" şeirində Şirvanda bir xarəbəzarın mənzərəsini təsvir edir. Bu xarəbəzar rəmzi səciyyə daşıyır. Şair ondan vasitə kimi istifadə edərək, Şirvanın geriliyini, "bir sürü ərbabi-qəflətin" törətdiyi cinayətləri görür və bu torpaqda yaşayan sənətkarları – Əfzələddin Xaqanini (1120-1199), Seyid Əzim Şirvaninin (1841-1888), Mollağa Bixudu (1830-1892), Bahar Şirvanini (1835-1883) xatırlayır. Sonra isə yazır:

*Bülbül yerində indi oturmuş idi zəğan,*
*Bülbüllərin məzarda söyləyir: "vətən-vətən"!..*
(Hadi, 1978: 49).

Bu beytin birinci misrasındakı "Bülbül" sözü quşun adı kimi işlənmişdir, ikinci misradakı "bülbüllər" sözündə Xaqani, Seyid, Bixud, Bahar kimi sənətkarlar ifadə olunmuşdur. Beləliklə, müəllifə görə, onlar da məzardan baxaraq, Şirvandakı bu xarabazarı görür və şeirlərində olduğu kimi "vətən-vətən"- deyə ah çəkirlər.

A.Səhhət də məzarda yatan Sabirə müraciətlə yazır:

*Şafi olsun sənə rəsuli-ənam,*
*Sən dua eylə yatmasın islam* (Səhhət, 1975: 41).

Buradan belə məlum olur ki, Məhəmməd Hadi şeirində məzardakıların "eşitməsi", "danışması" ilə bərabər, hətta ölənlərin "dirilməsi" də müşahidə edilir. M.Hadi şeirində qəhrəmanlar yaşayır, ölür və dirilirlər. Eyni zamanda, onların inikas üsulları da bir-birindən fərqlənir və seçilir.

M.Hadinin "Nəvhati-həyat" şeirindəki (Hadi, 1978: 85) təsvirdən aydınlaşır ki, nazəndə Hürriyyət "Hicləgahi-ismətə çəkilmiş", zülm və istibdad hər yeri bürümüş, hər yanda "zəlalət cilvələnmiş", ədalət və bərabərlik yoxa çıxmışdır, vətən meydanı tifil uşaqların sahəsi olmuşdur. Bütün bunlar insanlarla bağlı olduğu üçün müəllif də insanlara üz tutaraq yazır:

*Təfərrüc eylə sərvistanı, gör şol sərvi-azadi, Məzarından çıxıb azadəgan azad halında.*

Yəni sərv torpağın altından – məzardan çıxmış, sanki dirilmiş və azadlıq əldə etmişdir. "Şərareyi-ruh" şeirində isə şair bir az da irəli gedir:

*Mənə küsdünmü, bilməm, ey vətən, ey dilbəri-balım?*
*Məzarımdan açan gül şərh edər əxlafə əhvalım:*
*Birər girdik məzarə pənceyi-bidad altında.*
*Tükəndi ömrümüz ahü-fəğanü dad altında* (Hadi, 1978: 88).

Burada sərv kimi həm gülün, həm də qəhrəmanın özünün dirilməsi göstərilir.

Yeri gəlmişkən qeyd edək ki, romantiklərin yaradıclığında geniş surətdə işlənən GÜL obrazı məqamından asılı olaraq həm həyatı, həm də ölümü ifadə edir. H.Cavidin "Çiçək sevgisi" şeirində (Cavid, 1968-1971, I cild: 50) qəhrəman öz çiçəyini axtarır:

*Gözəl çiçəklər açar həpsi; anladınmı?*
*–Xayır,*

*Xayır mən onları sevməm; mənimki pək ayrı,*
*Şu yanda, bax şu çiçək yerdə ayrı olmalıdır.*

Qızın bu axtarışı təbiidir, çünki öz ölümünü hiss edən qəhrəman məhz ölümü xatırladan çiçəyi arayır və nəhayət, şeirdə sərt həqiqət inikas etdirilir:

*Fəqət o nazlı mələk nerdə?*
*- İmdi yapyalnız,*
*Dərin bir uyquya dalmış məzar içində o qız.*

H.Cavidin başqa bir şeirində də sarı gül ölüm rəmzi kimi verilir:

*Sarı gül! Ey şikəstə, solğun nur!*
*Neçün aludeyi-xəyal oldun?!*
*Çeşmi-nazində başqa bir rəmz oxunur,*
*Söylə, bir söylə, sən neçün soldun?!*

(Cavid, 1968-1971, I cild: 80).

A.Səhhətin də "solğun çiçəklər" ifadəsi ölümü bildirir (Səhhət, 1975-1976, I cild: 26). Məhəmməd Hadinin şeirlərində isə çiçək daha çox həyat mənasında işlənilir. Müəllifin aşağıdakı misraları da bir daha bu fikri təsdiq edə bilər:

*Qəbrimdə açan gülləri seyr et, a şükufəm!*
*Könlüm dağıdır laleyi-həmralar içində* (Hadi, 1978: 130).

Bu şeirdə də qəhrəman çiçəklə birgə "dirilmişdir". Çünki qəbrində bitən gülləri sevgilisinə, yaxud oxucusuna məhz o özü nişan verir.

"Həyat-Ölüm" qarşıdurması çox hallarda bir beyt daxilində ifadə olunur. Belə ifadəlilik isə bu qarşıdurmanın xarakteri barədə daha aydın təsəvvür yaradır. M.Hadi yazır:

*Donmaq da ölüm, hər hərəkət bir dirilikdir.*
*Ərbabi-məmatın donar, əlbət, mələkatı* (Hadi, 1978: 232).

Burada donmaq (ölüm!) hərəkət və dirilik (həyat!) qarşı-qarşıya dayanıbdır. Başqa sözlə, donmaq ölümü, hərəkət isə həyatı ifadə edir: yəni həyat və ölüm əbədi mübarizədədir. Əgər

həyatı qazanmaq lazımdırsa, hərəkət və fəaliyyət, əməl və işgüzarlıq göstərmək mühüm şərtdir.

*M.Hadi başqa şeirində torpaqla ulduzları qarşılaşdırır:*

*Yoxluqdakılar göz yumulu xakın içində,*
*Rüsxari-kəvakib açıb əflakın içində* (Hadi, 1978: 296).

Şübhəsiz, burada "torpaq" ölüm, "ulduz" isə həyat deməkdir. Həm də şairin belə bir müqayisəsi təsadüfi deyildir. M.Hadi torpaq və ulduzun əbədiliyyəndən çıxış edərək, həyat və ölüm qarşıdurmasının da əbədiliyini göstərmək istəmişdir. Yaxud şair Aya müraciətlə yazdığı:

*İşığın yerlərə saçar ənvar,*
*Bir daha parlamaz şu əhli-məzar* (Hadi, 1978: 329)

– beytində eyni fikri izləməklə həyatın ölümdən üstünlüyünü açıq şəkildə bildirmiş və öz sənətkar – insan mövqeyini şərh etmişdir.

H.Caviddə isə Həyatla Ölümün tam mübarizəsi verilir:

*Yığın-yığın bəşəriyyət ölümlə pəncələşər,*
*Fədai-nəfs edərək haqq üçün qoşar, güləşər*
(Cavid, 1968-1971, I cild: 61).

Aydın məsələdir ki, ədəbi qəhrəmanın müəyyən bir məqamda ayrıca olaraq ya həyat, ya da ölüm haqqında düşünməsi təbiidir. Yəni qəhrəman həyat haqqında düşünürsə, onun qarşılığı olan ölüm barədə fikirləşməyə bilər, yaxud əksinə də mümkündür. Lakin H.Cavidin elə faciə qəhrəmanları vardır ki, bu obrazlar eyni bir məkanda və eyni bir zamanda həm həyat, həm də ölüm haqqında düşünürlər. Yaxud onların həyata dair mühakimələri içərisində ölüm, ölümə dair mühakimələri daxilində həyat vardır. Heç şübhəsiz, bu məqam qəhrəmanın mənəvi sarsıntılarının ən yüksək zirvəsidir. Səciyyəvi cəhətdir ki, romantik dramaturgiyada "ölüm heç də dəhşət deyil, hətta umulandır" (Корман, 1972: 42).

H.Cavidin "Uçurum" pyesinin sonunda Cəlal öz doğma övladının bir növ qatilinə çevrilir. "Çəkdiyi əzablar ölümdən

betər” (Cavid, 1968-1971, I cild: 341) deyən və həyatla ölümü daxilində yaşadan qəhrəman həyatla ölümün “aralıq zonasına” düşür.

Gövərçin Cəlalın bütün günahlarını ona bağışlasa belə, Cəlal artıq dərk edir ki, ölüm üçbucağına düşmüşdür, hətta bağışlanmağın özü belə yenə onun ölümüdür. Nəhayət, Cəlal “Uçurum” (Ölüm!) monoloqunu deyir. Onun üçün duyduğu həqiqət və xəyalda, ulduzlu amalda, dənizdə, dağda, üfüqdə, fəzada, hər yerdə, hər yanda və deməli, həyatda uçurum – ölüm vardır.

Səciyyəvi cəhətdir ki, Cəlal düşdüyü vəziyyətdə ölümü həyatının ən yüksək zirvəsi hesab edir:

*Xayır, heç bir şey istəməm, indi mən,*
*Yalnız məsum Gövərçinin qəlbindən,*
*Silinməz ləkəyi silmək istərim,*
*Çox alçaldım da yüksəlmək istərim*

(Cavid, 1968-1971, I cild: 349).

Yüksəklikdə dayanmaq prinsipi ölüm vasitəsiylə həyata keçirilsə belə, romantizmin estetik tələblərinə cavab olur.

Afət də (“Afət”) həyat və ölümü eyni anda yaşayır. Lakin qəhrəman bu məqamda yalnız özü haqqında düşünmür. Afətin qəlbinə “Həyat və Ölüm” üç variantda daxil olmuşdur. O, eyni vaxtda həm Alagözün, həm doktorun, həm də özünün həyatı və ölümü hıqqında fikirləşir. Bu ona görə mümkün olmuşdur ki, indi artıq Alagözün də, doktorun da, özünün də taleyi məhz onun əlindədir.

Alagöz özünü ləkəli bir almas, çamurlu bir çiçək, qəhr olmuş bir mələk hesab edir, çünki o, ləkəli bir ananın – Afətin övladıdır. Buna görə də, Alagöz ölmək istəyir. Lakin Afət “mən sənin anan deyiləm” (Cavid, 1968-1971, II cild: 146) həqiqəti ilə (bu fakt oxucuya da bəlli deyildir!) Alagözü ölümdən xilas edir.

Doktorun isə qisməti yalnız ölümdür. Bu ölümü o, Afətə xə-

yanəti ilə qazanır və Afətin gülləsi onun həyatını sona yetirir: "Göründüyü kimi, qüvvətli, məşum bir məhəbbət ikiüzlü, xəyanətkar bir münasibətlə qarşılaşır, aldadılır, təhqir edilir və cəzalanır" (Qarayev, 1965: 140).

Sonra Afət öz ölümünü həll edir. Beləliklə, o da ölür, lakin gözəlliyin intiqamını alan qəhrəman kimi ölür. Bu estetik ideal onun Doktoru öldürmək "cinayətinin" və özünün "intihar" acizliyinin bəraətidir. Afət də romantizmin tələb etdiyi yüksəlmək kredosunu Cəlalın seçdiyi yolda tapır.

Bəs Knyazın ("Knyaz") daxilində həyat və ölüm dilemması necədir?

Əsərin sonunda məlum olur ki, qəhrəman bütün keşmişini itirmiş və indiyədək heç vaxt həyat və ölümün astanasına bu qədər yaxın olmamışdır. Knyazın ağlı və hissi onu aldatmır: çıxış nöqtəsinin yoxluğunu dərk Knyazı riskə doğru aparır. "Onlara təslim olmam mən" (Cavid, 1968-1971, III cild: 197) əqidəsi Knyazın öz-özünü vurmasını hazırlayır və həyata keçirir. Bu cür ölüm Knyazı bir obraz kimi yüksəltmiş olur.

Elə bu məqamda Ə.Haqverdiyevin "Bəxtsiz cavan" faciəsinin qəhrəmanı Fərhad yada düşür. Axı, o da öz-özünü öldürür. Lakin fərq vardır: Fərhadın ölümünü Knyaz kimi qüruru yox, məhz acizliyi hazırlayır: "Fərhadın qurtuluşu intiharda tapması, onun bir xarakter kimi *bərkiməddiyini* (Kursiz bizimdir – K.Ə.) göstərir" (Məmmədov, 1970: 33).

Yenə əlavə edək ki, Azərbaycan realist ədəbiyyatında ölüm tipi kimi Fəxrəddinin də (N.B.Vəzirov. "Müsibəti-Fəxrəddin") ölümü vardır. Fəxrəddin başqası tərəfindən atılan güllə ilə öldürülür. H.Cavidin də romantik qəhrəmanlarının hamısı ölür, amma heç biri kənar atəşin qurbanı olmurlar.

Daha aydın və fərqli cəhət budur ki, Fərhad və Fəxrəddinin daxilində öz ölümləri ilə yüksəlmək ideyası yoxdur. YÜKSƏKLİK əldə etmək üçün ölüm istəyi! Bu, romantizmin səciyyəvi

xüsusiyyətidir.

Xəyyam da ("Xəyyam") yaşadığı və gördüyü həyatı ölümündən ağır hesab edir:

*Uydunuz bunca xurafata, yetər!*
*Bu həyat işdə ölümdən də betər.*
*Əl verir paslı, sönük adətlər!*
*Şən təbiət sizi azadə dilər* (Cavid, 1968-1971, III cild: 341).

Göründüyü kimi, həyat və ölüm qarşısında dayanan qəhrəman ölümə daha yaxındır və o, bunu qəbul etməyə hazırdır. Çünki filosof Xəyyam ölüm labüdlüyünü bilir və buradakı ölüm aktı məhz fəlsəfi səciyyə daşıyır. Yəni Cəlalın, Afətin, Knyazın ölümü həyati detal kimi çıxış edirsə, onlar ölümün labüdlüyünü ağıllarına belə gətirmirdilərsə, Xəyyamın da bu ölümündə yük-səkliyi fəth vardır. Saib deyir:

*Getdi,eyvah!.. O fəzilət, o zəka!*
*Əbədi susdu o qüdrət, o daha...*
*Söndü bir anda o sönməz ataş,*
*Fərqi yox, batsa da parlaq o günəş!*
(Cavid, 1968-1971, III cild: 343).

Bu faciə obrazları müxtəlif məqamlarda ölümə getsələr, müxtəlif əhvali-ruhiyyələri yaşatsalar belə ölümü seçmək və ölümlə yüksəlmək yeni həyat qazanmaqla birləşir.

Bütün bu qarşıdurmalarda həyata, yaşayışa, mübarizəyə üstünlük verilir. Hətta ölümdən sonra qazanılmış həyat da mənalı görünür. Bu baxımdan, M.Hadi insan ömrünün qiymətini torpaqla müqayisədə daha sərrast ifadə edir. Şair "Bir zöhreyi-hə- yatın üfulu" şeirində yazır:

*Gör kim sənə dəfn olmuş, əya xaki-siyahrəng,*
*Bir nurdur ol ki, oluyorsan ona məva* (Hadi, 1978: 193).

Müəllifin təqdimində "nur" həyata olan rəğbətin üstünlü-yüdür. M.Hadi mütərəqqi türk şairi Mahmud Əkrəm Rəcaiza-dənin ölümündən təəssüflənərək yazdığı şeirində məhz mərhuma

müraciətlə bildirir:

*Qəbrin necəysə, cismin ona oldu bir sabah*

(Hadi, 1978: 221).

M.Hadinin "mücahidi-millət" olan H.Zərdabiyə yazdığı şeirdə də eyni cəhət diqqəti cəlb edir:

*Qıldı üful dəhrdən ol nuri intihab,*
*Xaki-siyah içində doğub imdi bir sabah (*Hadi, 1978: *76).*

Buradakı "sabah" – işıqlıq da yalnız "ustad Əkrəm" və Həsən bəylə məhdudlaşmayaraq, həyatın üstünlüklərini göstərmək məqsədindən irəli gəlmişdir. Bu mənada romantiklər bütün varlıqları ilə ölümə qarşı çıxış edirdilər. H.Cavidin "Hərb allahı qarşısında" şeiri bütün romantiklərin mövqeyini yaxşı ifadə edir:

*Tərk et şu qanlı torpağı, artıq çəkil, yetər;*
*Hər kəs didişmədən yorulub imdi ruh açan*
*Azadə bir havada çiçəklənmək istiyor,*
*Pək dadlı bir ümidlə əylənmək istiyor*

(Cavid, 1968-1971, I cild: 91).

Bunlarla yanaşı, XX əsr Azərbaycan romantiklərinin yaradıcılığında həyatın özünə də sonsuz məhəbbət açıq şəkildə ifadə olunur. M.Hadi həyatı çox yüksək mənalandırır:

*Həyat insan üçün bari-girandır,*
*Bunu anlar o dil kim, nüktədandır* (Hadi, 1978: 139).

Eyni zamanda, o, həyata daha möhkəm tellərlə bağlanmağı oxuculara məsləhət görürdü:

*Nə gözəldir həyati-fəalə,*
*Düşkün olmaq yaxışmaz insanə,*
*Açma əl, düşmə pay -dunanə,*
*Çalışan namizəddir iqbalə* (Hadi, 1978: 203).

"Lakin şair (M.Hadi – K.Ə) həyatı ölümdən üstün tutarkən, yaşayışın şirinliyindən danışarkən, heç də gözü qabağındakı həyat və yaşayışı nümunə göstərmir. Onun fikrincə, hərçənd ölüm dəhşətlidir, amma bu həyat ki, biz sürürük, bu özü də ölümdən

yaxşı deyil" (Mirəhmədov, 1958: 98). Bu mənada H.Cavidin də aşağdakı misraları qüvvətli səslənir:

*Bizi, ey yer! Yarıl da kaminə çək!*
*Eyidir bu həyatdan ölmək!* (Cavid, 1968-1971, I cild: 53).

A.Şaiq yaradıcılığında isə həyata bağlılıq birbaşa inqilab dalğası ilə əlaqələnmişdi:

*Durma daha, ey ədl, səadət buludu, yan!*
*Ey ildırım, əzminlə gurulda yenə hər an!*
*Ey güclü külək, sən də qopar fırtına, tufan!*
*Bu köhnə cahanı təməlindən uçur ancaq!*
(Şaiq, 1966-1978, II cild: 11).

Yaxud:

*Buludlara bürünən ey günəşli hürriyyət!*
*Bitir bu zülmləri, ver cahana şanlı həyat!* (Şaiq, 1968: 24).

Və yaxud:

*İrəlidə, inan ki, bir cənnət kimi cahan var,*
*Sabah Günəş orda doğar, səadət orda parlar!*
(Şaiq, 1968: 60).

Burada daha ciddi cəhət ondan ibarətdir ki, XX əsr Azərbaycan romantizmində "Həyat və Ölüm" qarşıdurması müəyyən məqamlarda lap elə öz adı, öz "imzası" ilə görünür. M.Hadi açıqca yazır: "Nədir həyatü məmat?" (Hadi, 1978: 84) – yəni nədir həyat və ölüm? Deməli, romantik bədii fikrin özündə olan qarşıdurma romantizmin həyata necə və hansı yollarla bağlandığını aydın göstərir və işıqlı gələcəyə doğru atılan addımların məna və məzmununu aydın dərk etməyə geniş imkanlar açır.

XX əsr Azərbaycan romantizmindəki poetik qarşıdurma M.Hadinin "insanların tarixi faciələri, yaxud əlvahi-intihab" poeması ilə daha konkret şəkildə öz ifadəsini tapır. M.Hadi yazır:

*Həyatın səsləri guşumda həp fəryad şəklində,*
*Bu insanlar ki qardaşdır və lakin yad şəklində.*

*Bu torpaq qanlı ovlaqdır, bəşər səyyad şəklində,*
*Ədavət daima vardır, məhəbbət ad şəklində,*
*Bu dünya əskidəndir səhneyi-bidad şəklində,*
*Cahan başdan-başa meydani-matəmzad şəklində,*
*Müsibətlər, bəlalər, qüssələr abad şəklində,*
*Ürəklər qəm odilə hər zaman bərbad şəklində,*
*Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,*
*Bu matəmgahi kim görmüş sürurabad şəklində?*

(Hadi, 1978: 362).

Poemanın ilk bəndindəki "lakin" sözünü təsadüfən qabartmırıq. Bu ifadə əsərin bədii quruluşunda müşahidə olunan spesifik cəhətin başlanğıcı və işarə aktıdır. Yəni romantik sənətkar elə bu işarədən sonrakı misralarda poetik qarşıdurmalar yaradır ki, müəllif ideyasının açılmasında mühüm vasitə olur.

Qardaşlıq və düşmənçilik, ədavət və məhəbbət, fərəh və hüzn sanki qabaq-qabağa dayanmışdır. Onların böyük hərflərlə yazılması da elə bir mübahisə doğurmaz. Çünki həmin mənəvi-əxlaqi xüsusiyyətlər ifadə edən bu mücərrəd məfhumların özləri bədii obraza çevrilmişdir. Deməli, prinsipial fərq yalnız məzmunda, mənada deyil, strukturda, poetikada da meydana çıxmışdır.

*Səadət bir əməl, amma şəqavətlər həqiqətdir,*
*Məsərrət ani bir şeydir, məlalətlər həqiqətdir,*
*Məhəbbətlər müvəqqətdir, ədavətlər həqiqətdir,*
*Ədalət nerdə, lakin zülmü vəhşətlər həqiqətdir,*
*Hanı hürriyyət aləmdə, əsarətlər həqiqətdir,*
*Qaçan bir gölgədir rahət, məşəqqətlər həqiqətdir..*

(Hadi, 1978: 362).

İkinci bənddə də eyni vəziyyət vardır. Səadət və Şəqavət, Məsərrət və Məlalət, Ədalət və Zülm, Hürriyyət və Əsarət kimi obrazlar yalnız formal şəkildə qarşıdurma təşkil etmirlər. Hətta üçüncü bənddəki "fəqət" sözünü də nəzərə alsaq, başqa bir struktur tamlığını da aydın görmək olar. Yəni M.Hadi hər bənddə

"lakin", "amma", "fəqət" sözlərini qarşıdurmanın tərəflərini qrammatik cəhətdən birləşdirən, məna cəhətdən isə ayıran vahidə çevirir.

"XIX əsr romantikləri – Kolric, Volter Skott, Bayron, Şelli, Viktor Hüqo, Alfred de Müsse və başqaları – ənənəvi janrların sərhədlərini dağıdıb, dialoq və monoloqların əhəmiyyətli yer tutduğu poemalar yaratdılar... Poema qəhrəmanları hadisələr və öz duyğuları haqqında özləri danışırlar" (Беланок, 1980: 66-67). M.Hadinin "Əlvahi-intibah" poeması da monoloq və dialoqlardan ibarətdir.

Elə burada da lirik qəhrəman (o həm də poemanın qəhrəmanıdır!) öz duyğu və düşüncələri haqqında özü danışır.

Poemanın qəhrəmanı bildirir ki, insan dünyaya gələndən bəri işləməklə və vuruşmaqla məşğuldur. O qurub-yaradır və yaratdıqca da onları qorumaq, müdafiə etmək, saxlamaq qayğısına qalır. Məhz buna görə də:

*Mübarizdir mərəzlə, mikrob ilə, cümlə illətlə,*
*Mübarizdir yer ilə, vəhşi dəryalarla, zülmətlə,*
*Bütün dünyanı parlatmaq dilər ənvari-hikmətlə,*
*Bütün torpağı abad etmək istər dəsti-sənətlə...*

(Hadi, 1978: 363).

Belə bir həqiqət danılmazdır ki, M.Hadi və romantiklər azadlığı milli və mənəvi azadlıq kimi başa düşürdülər. Bu idrakın özündə də gerçəklik və mövcud cəmiyyət, onun eybəcərlikləri və bütün bunlara qarşı etiraz, üsyan başlıca amil idi. Çünki Bəşərin taleyi, onun zəhmət bahasına əldə etdiklərinin müqabilində çox ağır və dözülməzdir: "Bütün əllər, ayaqlar, həp çalışmaqdan qabarmaqda, Fəqət məcruhdur ömrü, yazıq hər gün saralmaqda". Burada da M.Hadinin başlıca məqsədi elə "bəşəriyyət əzablarını" (Араслы, 1966: 10) göstərməkdən ibarətdir:

*Bəşər! Bədbəxtsən, giryan, pərişan bir həyatın var,*
*Müsibət torpağından yoğrulan bədbəxt zatın var,*

*Əziyyətdən yapılmış bir həyati-bisəbatın var,*
*Təvarixin içində qanlı-qanlı faciatın var...*
(Hadi, 1978: 366).

Bu mənada Adəm obrazının poemada xüsusi yer tutması, Adəmlə Bəşərin növbəli şəkildə iştirakı təsadüfi deyildir. Romantik sənətkar Adəmin "cinayətini"– əfsanəvi olsa belə – mənəvi-əxlaqi, "hüquqi" qanunların pozulmasında görür. Lakin bu cinayətin cəzasını onun özü yox, "oğlu" Bəşər çəkməyə məcburdur.

M.Hadiyə görə Adəmin cinayəti insanın yaradılışının cinayətidir.

Belə olduğu tərzdə (əgər yaradılış cinayətidirsə!) bəşərin taleyi xoşbəxtlik və səadətə necə qovuşa bilər:

*Anadan doğduğu gündən işin fəryadü əfğandır;*
*O gündən etibarən gözlərin hər gündə giryandır,*
*Çocuqkən əmdiyin süddür və yainki bəyaz qandır,*
*Demək, xunxar vəhşisən, adın hərçənd insandır...*
(Hadi, 1978: 367).

Beləliklə, romantik sənətkar poemada yüksək fəlsəfi ümumiləşmələrə doğru gedir. Hər hansı fərddən, hər hansı peşə sahibindən, hər hansı dinə inanan itaətkardan söhbər açmır. Peşələr, sənətlər, din və etiqadlar əhəmiyyətini itirir. BƏŞƏR və TALE – poemada başlıca mövzu budur:

*Həqiqət iştə meydanda, bəşər məhzun, bəşər giryan,*
*Ziyabəxş olmadı insanlara Tövrat ilə Quran,*
*Ziyadar etmədi millətləri İncil ilə İyqan,*
*Ümumi bir məhəbbət olmayır ki, qabili-imkan,*
*Ədavət odlarında yanmada qardaş olan insan,*
*Cahan ərzi-ədavətdir əzəl gündən bəri hər an,*
*Yer üstü daima qanlı, bəşər qanlı, ürəklər qan*
(Hadi, 1978: 318).

Lakin poemada bütün ağrı və acıların təqdimi bir istiqamətli deyildir. Yəni heç də belə nəticə çıxarmaq olmaz ki, romantik sənətkar dərd və ələmi göstərməklə işini bitmiş hesab etmişdir. Əslində bu kədər – Dünya kədəri səviyyəsinə qalxır və əslində M.Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intihab" poeması Birinci dünya müharibəsi mövzusunun (yəni mövzunun da!) sərhədlərini vurub dağıdır. Şair daha mühüm, daha ciddi, daha əbədi və daha əzəli problemə doğru yönəlir:

*İşıqlı göylər altında qaranlıq canlı insanlar* (Hadi, 1978: 365).

Deməli poemada, İşıq və Qaranlıq, onların mübarizəsi əsas məqsəddir. İ.Q.Neupokoeva inqilabi romantik poemaya həsr etdiyi fundamental monoqrafiyasında yazır: "İşıqlı qüvvələrin Şərə qarşı mübarizəsi inqilabçı romantiklərin fəlsəfi-simvolik poemalarının əsas dramatik kolliziyasını təşkil edir" (Неупокоева, 1971: 145). Hadi poemasının bədii strukturunu, ideya və qayəsini məhz Xeyir və Şər qarşıdurması, onların mübarizəsi səciyyələndirir.

Yuxarıda M.Hadinin "Əlvahi-intibah" poemasındakı mücərrəd məfhumların böyük hərflərlə yazılması istəyimizə müvafiq olaraq, A.Şaiqin "İdeal və İnsanlıq" əsərində də məhz belədir. Bu dramatik poemada aşağıdakı obrazlar iştirak edir: İnsanlıq, ideal, Vicdan, Ədalət, Mərhəmət, Səadət, Fəlakət, Zülm, Şeytan. Sənətkar bu əsərində öz romantik şeirlərində qaldırdığı, daha geniş mənada XX əsr Azərbaycan romantizmində xüsusi yer tutan problemləri davam və inkişaf etdirir. Ən başlıcası isə odur ki, burada Xeyir və Şər mübarizəsi qələmə alınmışdır. Hətta təsadüfi deyildir ki, A.Şaiq iştirakçıları təqdim edərək Vicdan, Ədalət, Mərhəmət, Səadət obrazları qarşısında "ağ qanadlı, təmiz geyinmiş nurani gənclər", Fəlakət, Zülm, Şeytan obrazları qarşısında isə "qara qanadlı, çirkin və qorxunc simalı adamlar" sözlərini yazmışdır. (Hadi, 1978: 314). Ağ və Qara – bunlar sadəcə olaraq, qanadların rəngi deyil, eyni zamanda, həmin ob-

razların yiyələndiyi mənəvi-əxlaqi keyfiyyətlərin səciyyəsidir:

**Vicdan:** (idealı diqqətlə süzdükdən sonra)

*Dəhşətlidir bu xəstənin əhvalı, insanlığın ölgün, solğun idealı!*

*Milyon illik tarix alnında zahir,*
*Gələcək də dumanlıdır kim bilir?!*
*Halın isə acınacaq bir haldır.*

***Şeytan:*** *Bu haldan qurtarmaq ona mahaldır.*

***Ədalət:*** *Tez qurtular, təmiz vicdan olarsa.*

***Zülum:*** *Məncə bütün dünya, aləm yığılsa*
*qurtulmaz!*

***İdeal:*** *Bir saçma sözdür bunlar,*
*Ədalət, Mərhəmət, Vicdan qurtarar”* (Hadi, 1978: 321).

Göründüyü kimi, Xeyir və Şər qüvvələr öz xarakterlərini öz sözləri ilə açır. Həm də onlar məslək və əqidələrində (yaxşı və pisliyindən asılı olmayaraq) dönməzdirlər.

Digər tərəfdən, çox maraqlıdır ki, ideala “on iki yaşında nurani bir uşaq” kimi baxmaq olmaz. Vicdanın dediyinə əsaslanaraq demək olar ki, ideal on iki illik yox, “milyon illik tarixdir”. Məhz elə bu cəhət də A.Şaiqin “ideal və insanlıq” əsərini M.Hadinin “bəşəriyyətin taleyi və tarixinə” (Mirəhmədov, 1985: 215) həsr olunmuş “Əlvahi-intihab” poeması ilə birləşdirir.

Üçüncü bir cəhət də vardır. Belə ki, A.Şaiq 1909-cu ildə “Bir ulduza” şeirində yazmışdır:

*Dinlə məni, ol rəhbərim, ey sevgili ulduz,*
*Olmazmı mənə göstərəsən rahi-nicatı?* (Şaiq, 1968: 30).

Şair 1917-ci ildə çap olunmuş “İdeal və insanlıq” əsərində isə insanlıq idealı nəzərdə tutaraq deyir:

*Sən mənim yol göstərən ülkərimsən,*
*Bütün səadətim asılmış səndən* (Şaiq, 1968: 315).

Bir cəhət də aydınlaşır ki, A.Şaiqin vaxtilə ulduzu rəhbər kimi qəbul etməsi, əslində onun ideal həqiqət axtarmaq cəhdi idi.

Deməli, romantizmdə başlıca məqsəd Xeyir və Şərin yanaşı yaşaması deyil, onların mübarizəsi və bu mübarizədəki ideal həqiqət axtarışlarıdır.

XX əsr Azərbaycan romantizminin poetikasında xüsusi yer tutan və H.Cavid yaradıcılığında öz qüvvətli həllini tapan "İblis və Mələk" qarşıdurmasına da həmin problemin bir variantı kimi baxmaq lazımdır.

İblis və Mələk obrazları sənətkarın həyat hadisələrinə qlobal baxışının nəticəsi olmaqla bərabər, bir-birindən fərqli ideyaların daşıyıcılarıdır. Çünki "İblis" faciəsində ilk pərdənin ilk obrazları kimi görünən İblis və Mələyin dedikləri dialoq xarakteri daşıyır. Mətnə müraciət edək:

İblis:
*Dəryalara hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yaxar, evlər yıxar insan...*
Mələk:
*Ya rəbb, bu nə dəhşət, nə fəlakət?*
*Ya rəbb, bu nə vəhşət, nə zəlalət?*
*Yox kimsədə insafü mürüvvət, İblisəmi uymuş bəşəriyyət!?*
(Cavid, 1968-1971, I cild: 8).

Səciyyəvidir ki, onlar müharibə səhnəsini məhz ayrı-ayrı pəncərələrdən müşahidə edirlər. iblis "Sellər kimi axan qızıl qanı", "yağmur kimi göydən yağan atəşi" məmnun və çılğın qəh-qəhələrlə qarşılayır. Mələk isə bu dəhşət və fəlakətə qəzəblə baxır, "bəşəriyyətin iblisə uyması, iblislə həmrəngi-siyasət" olması təəssüfünə bürünür.

H.Cavidin bütün yaradıcılığı boyu Mələk iblisin izinə düşmüşdür. O qan tökmək istəyən, ürəkləri bulandırmağa çalışan şər qüvvəni "əldən" buraxmamağa çalışır. Hətta "Peyğəmbər" əsərində baş qəhrəman ümidini itirəndə, o, ümidlə yaşamağı

məsləhət görür və "ümidsiz bir insanın, ümidsiz millətin səfil və bədbəxt olacağını" söyləyir. Tamamilə doğrudur ki, "Mələk və Skelet müstəqil obrazlar olmasalar da, Məhəmmədin mənəviyyatında mübarizə aparan "Xeyir və Şərin" simvollarıdır" (İsrafilov, 1979: 32).

Bəzən isə iblis və Mələk obraz kimi yox, məhz obrazlaşmış söz kimi işlədilir. Lakin bu məqamlarda da iblis və Mələk obrazlarının ifadə etdiyi məna itmir. Çünki H.Cavid "sevimli mələk", "mələk ədalı qaçqın", "mələyim", hətta "mərhəmətsiz mələk" ifadəsi işlədəndə məhz səmimi və saf hisslərini bildirir. "Mələk" sözü müraciət olunmuş insana rəğbət və məhəbbəti ifadə edir. Əksinə, "iblis" ikrah və nifrət kimi mənalandırılır. "Knyaz" pyesində Şakro Knyaza "iblis! Sezdi həp fikrmi bir anda xəbis" - deməklə bütün qəzəbi ilə görsənir. Bu sözlər Knyazın daxili aləmini, onun insanlara qarşı amansızlığını, kobudluq və müstəbidliyini yaxşı səciyyələndirir. "Çılğın bəşər iblis ilə həmrah" söyləyən Xəyyam isə ("Xəyyam") öz müdrikliyi səviyyəsindən ədalətsizlik və haqsızlıq timsalı olan insanlara münasibətini bildirir.

Bəzən də "mələk" və "iblis" sözləri yanaşı işlənərək, obrazın xarakter dəyişmələri haqqında qənaəti təsdiq edir. Knyaz Jasmenə deyir.

*Ah, sus! Bu nə yoldur gediyorsun,*
*Sən heç, məni bədnam ediyorsun..*
*Sapdırdı, əminim, səni Tiflis,*
*Ah, dünki mələk, imdi bir iblis*

(Cavid, 1968-1971, III cild: 119).

Şübhəsiz, Jasmen dəyişmişdir. Indi artıq o, Knyazın yanında dustaq olduğunu dərk etmiş və Knyaza sonsuz bir nifrət bəsləyir. Jasmenin bu daxili, mənəvi dəyişməsi Knyaza əks təsir göstərmiş, Knyaz isə ona "iblis" deməklə "öz arşını ilə" ölçü aparmağa başlamışdır.

H.Cavid yaradıcılığında iblis və Mələyin, iblislik və mələkliyin bir obrazda ifadə olunmasına da təsadüf edilir. Xəyanətkar Anjel ("Uçurum"), Qaratay ("Afət") surətləri bunu təsdiq edə bilər.

Bütünlüklə romatik qarşıdurmalar romantizmin özünün "fəaliyyət" və mübarizə aktıdır. Ona görə ki, "Yer və Göy aləmi, maddi və mənəvi aləm yalnız müqayisə edilmir, eyni zamanda, qarşı-qaşıya qoyulur" (Лихачев, 1971: 201). XX əsr Azərbaycan romantizminin poetikasında xüsusi yer tutan "Qərb və Şərq", "Yaxın və Uzaq", "Həyat və Ölüm" qarşıdurmaları "Ölən və doğulan dünya əksliklərinin vəhdəti" (Бахтин, 1965: 236) olmaqla, yeni cəmiyyət haqqında olan arzuların, ideal həqiqət axtarışlarının səbəbi və zəminidir ki, romantiklər bu minvalla cəmiyyətə doğru yönələn öz istəklərini ifadə edirdilər. Hətta son dərəcə maraqlıdır ki, Məhəmməd Hadi "Aləmi-müsavatdan" poemasında romantiklərin hamısının arzu etdikləri ideal cəmiyyətin özünü də təsvir edirdi.

Məktublar şəklində qurulmuş bu poema "Mədəniyyəti-həqiqiyyə" şəhərinin mənzərəsini, vəziyyətini əks etdirir. Bura şairin uydurduğu, daha doğrusu, illərdən bəri arzuladığı məkandır:

*Aləm nasıl aləm, nasıl aləm, nasıl aləm!*
*Tərifini qabilmi ki, təsvir edə xaməm?* (Hadi, 1978: 348).

Əlbəttə, həmin şəhər yalnız bu cür romantik, eyni zamanda, ümumi şəkildə təriflənsəydi, konkret nəticələrə gəlmək də çətin olardı. Səciyyəvi cəhətdir ki, "Mədəniyyət" şəhərində başdan-başa azadlığın hökm sürməsi, orada istibdad və zülmün olmaması ayrı-ayrı detallarla oxuculara çatdırılır.

Birinci məktubda həmin şəhərin evləri, küçələri, bütöv mənzərəsi xoş əhvali-ruhiyyə yaradır. Romantiklərin əsərlərində tez-tez inikas olunmuş eybəcərlik və çirkinlikləri də görmürük. Bu şəhərə qəm və kədər deyil, şadlıq və sevinc hakimdir:

*Hər xanəsi bir laneyi-şəfəq kimi məmur.*
*Gömüşləri cəzzab nəzərlər kimi məxmur!*
*Kaşanələri eşqü məhəbbət qədər ali,*
*Əsvaqı dili-dahiyə əmsalı ziyalı!*
*Hər caddədə min şöleyi-bərqiyyə dirəxşan,*
*Oynardı zəminə çasılar nuri-pərişan!*
*Gülşənlər olurdu nigəharayi-təravət,*
*Məmnun könüllər kimi hər yerdə məsərət!* (Hadi, 1978: 349).

Buradakı ev, kaşanə, küçə və gülşənlər də yeni həyatdan xəbər verir. Həmçinin bu ev H.Cavidin "Ana" və "Afət" əsərlərindəki, M Hadinin "Şair, hücreyi-iştiğalı və düşüncələri" şeirindəki, A.Şaiqin "Qış gecəsi", A.Səhhətin "Ölü şəhər" şeirlərindəki evlərə qətiyyən bənzəmir. Romantizmin "bədbəxt", faciəli evləri indi artıq "şəfqətli" ev ilə əvəz olunmuşdur. Eşq və məhəbbət rəmzi, işıq simvolu olan bu kaşanə "hər qülbədə, kaşanadə, viranədə iblis!" (H.Cavid) motivindən nə qədər də fərqlənir.

Bu küçə, bu yol bərq vuran şölələri ilə, nur saçan mənzərəsi ilə "Şeyx Sənan"dakı yoldan, "Uçurum"dakı fəlakətə aparan cığırdan tamamilə ayrılır. Bu gülşən romantik şeirin lalələr "bitirən" mənzərələrindən son dərəcə seçilir.

Hətta maraqlıdır ki, ikinci məktubda "Beyti-məsərrət" – şadlıq evinin özü təsvir edilir:

*Səhhət yığıyor, feyz axıyor mənzərəsindən,*
*Bu buyi-məhəbbət duyulur məzhərəsindən.*
*Təbim kimi səhnində çiçəklər gülüşürlər,*
*Fikrim kimi quşlar uçuşurlar, ötüşürlər..*
*Hər lanədə gülməklər uçar, gör necə şənlik!*
*Bu cənnətin arayişi-əndamı gözəllik.*
*Bir qəhqəhə, bir zümzümə, əlhani-xüraşan,*
*Əmvaci-məssərrət oluyor ruhda cuşan* (Hadi, 1978: 351).

Beləliklə, M.Hadi bütün yaradıcılığı boyu romantik müasirləri ilə birgə vicdan azadlığından, şəxsiyyət azadlığından

ümumi formada danışdığı halda, nəhayət, onun məhz yeni cəmiyyətdə mövcud olacağı qənaətinə gəlirdi. Bu, ciddi fəlsəfi və bədii nəticə idi.

Mövcud cəmiyyətə etirazın yüksək bədii forması kimi meydana çıxan Qərb və Şərq, Yaxın və Uzaq, Həyat və Ölüm qarşıdurmaları XX əsr Azərbaycan romantizminin özünəməxsus obrazları olmaqla yanaşı, romantik bədii düşüncənin də spesifikliyini aşkarlayır. Eyni zamanda, bu omant qarşıdurmalar Azərbaycan romantizmini realizmdən aydın şəkildə fərqləndirən xüsusiyyət və əlamətlərin də təsdiqi deməkdir.

# NƏTİCƏ

XX əsr Azərbaycan romantizmi tarixi sərhədləri aydın və dəqiq olan vahid bir ədəbi cərəyan, ədəbi-mədəni sərvətdir. Bu romantizmin məzmun və mahiyyəti, forma və bədiilik axtarışları öz yeni keyfiyyətləri ilə seçilir və fərqlənir. Həm də tam qətiyyətlə demək olar ki, "romantizm... bizim ədəbiyyatın xeyrinə oldu" (V.Q.Belinski). Ona görə də, mövcud tədqiqatda bir neçə ədəbi yaradıcılığı deyil, bütöv bir ədəbi cərəyanı və daha çox isə onun poetika məsələlərini öyrənmək nəzərdə tutulmuşdur.

XX əsr Azərbaycan romantizminin poetikasını, bu poetikanın bütün xüsusiyyətlərini araşdırmaq və bir tədqiqatda ona son nöqtə qoymaq qeyri-elmi və qeyri-dəqiq mühakimə olardı. Ona görə də, poetika işığında Azərbaycan romantizminin obrazlar sistemini öyrənmək ön plana keçmişdir.

Tədqiqatdan aydın olur ki, romantizm üçün hadisələri qabarıq şəkildə verməkdən daha çox, romantik qəhrəmanların özü səciyyəvidir. Başqa sözlə, romantik əsərdə müəyyən əhvalatların nəql olunması da qəhrəmanın təqdiminə və təsdiqinə xidmət göstərir. Çünki romantik sənətkar üçün qarşıya qoyulan ideyanın qəhrəmanlar vasitəsi ilə ifadə olunması başlıca məqsəddir.

Romantik nəsrin qəhrəmanları Azərbaycan romantizminin ilk qəhrəmanlarıdır. Bu nəsr əsərlərinin özü də elə ilk romantik nümunələr idilər. Məhz belə bir başlanğıc zəmin yaratmışdır ki, romantizmin ilkin nümunələrinin və ilkin qəhrəmanlarının səciyyəvi cəhətləri və xüsusiyyətləri araşdırılsın. Beləliklə, aydın olur ki, nəsrin qəhrəmanları mənəvi-psixoloji aləmləri ilə ədəbiyyatımızda yeni obrazlardır. Daxili hiss və duyğulara üstünlük vermək, ictimai porblemlərə öz "mən"lərindən çıxış edərək münasibət bəsləmək onlar üçün doğmadır.

Digər maraqlı cəhət odur ki, nəsrin özündə belə romantik

qəhrəman tipinin tam formalaşması müəyyən mərhələlərlə mümkün olmuşdur. Sentimentallıqla romantiklik, realistliklə romantiklik əvvəlcə qovuşuq halında olmuş, roman isə cilalanaraq sabitləşmişdir. Romantik nəsrin bədii elementlərində də bu cəhət aydınca hiss edilir.

Romantik lirikanın qəhrəmanları isə tam formalaşmış qəhrəmanlardır. Onlar romantik metodun bütün xüsusiyyətlərini ehtiva edə bilirlər.

Lirik qəhrəman öz mövqeyini qətiyyən güzəştə getmir və özünü cəmiyyətin fövqünə qaldırır. Lirik şeirdə "mən və cəmiyyət", "mən və dünya" problemləri qəhrəmanın mənəvi aləmindən süzülərək həll edilir. Bu qəhrəmanların müraciət və xitabları da romantizm üçün xasdır. Belə ki, onların müraciət obyektlərinə vətən, millət, hürriyyət daxil olduğu kimi, burada MƏLƏK, TANRI, HƏQİQƏT, ÜMİD, XƏYAL da xüsusi yer tutur. Eyni zamanda, bunlar lirik qəhrəmanın mənəvi aləminin, xarakterinin aydınlaşmasına xeyli kömək etmiş olur. Lirik qəhrəmanın tənhalığı da səciyyəvi keyfiyyət kimi üzə çıxır və bu, qətiyyən tərkidünyalıq deyildir. Bu tənhalıq həyatı idrakın bədii forması və zəminidir. Belə bir cəhət isə romantik sənətkarların subyektə olan fəal münasibətlərindən irəli gəlirdi. Ona görə də, tamamilə təbiidir ki, həyatda və estetik fikirdə subyektə, fərdə üstünlük verilməsi tendensiyası və məqsədi romantizmin poetikasında lirik qəhrəmanın tənhalıqla bağlılığını şərtləndirir və təmin edir.

Lirik şeirdə qəhrəmanın bədii sükut aktı onun tənhalığını təyin edən faktlardan biridir. Obrazların sükuta dalması, onların sükut içərisində olmalarının müəllif tərəfindən geniş təqdimi, əslinə qalsa, qəhrəmanın daxili monoloqunun davamı kimi meydana çıxır və tənhalığı göstərməyin əyani formasına çevrilir.

Romantik əsərlərdə təkliyin özünün birbaşa ifadəsi də səciyyəvi hal kimi görünür. Burada isə iki cəhət meydana çıxır: bir tərəfdən sənətkar öz lirik qəhrəmanının tənhalığından danışır,

digər tərəfdən də, qəhrəmanlar özləri tənhalıq və təkliklərini etiraf edirlər.

Başqa bir ciddi qənaət ondan ibarətdir ki, romantik lirikanın qəhrəmanı ilə romantik sənətkarın özü arasında oxşarlıq, yaxınlıq və eyniləşmə vardır. Müəllif və qəhrəman probleminin təhlili romantiklərin tərcümeyi-halı, onların həyat axtarışları ilə romantik lirikanın qəhrəmanlarının ifadə etdikləri bədii-estetik qayənin üst-üstə düşməsi və hər iki cəhətin romantiklərin irəli sürdüyü nəzəri müddəalarla son dərəcə yaxın olması və səsləşməsi, geniş mənada romantik sənətkarın şəxsiyyətində, onun bədii irsində və ədəbi-nəzəri görüşlərində vahid yaradıcılıq metodunun – romantizm yaradıcılıq metodunun bərqərar olmasını təsdiq edir.

Dramaturgiyada romantik qəhrəmanın hərəkətinin öyrənilməsi də bütün bu yuxarıda deyilən məsələlərlə əlaqədardır. H.Cavid dramaturgiyasından, onun faciə qəhrəmanlarından söhbət gedərkən, başlıcası belə bir qənaət həm də bu məsələnin təhlilinin girişi olur ki, romantik dramaturgiyada əsərin adından finalınadək, süjetindən obrazlarınadək bədii komponentlərin hamısı baş qəhrəmanın – romantik qəhrəmanın xarakterinin açılışına doğru yönəlmişdir. Başqa sözlə, romantizmin estetikasında subyektə olan fəal münasibət H.Cavid dramaturgiyasında daha aydın və bariz şəkildə özünü göstərir.

Romantik qəhrəmanların qarşılaşdığı maneələr onlar üçün keçilməz sədlər deyildir. Yəni bu qəhrəmanlar öz gücləri müqabilində, daha çox isə idealları naminə onları sürətlə aradan qaldıra bilirlər.

H.Cavidin Şeyx Sənan obrazı yeni elmi təhlilini tapır. Belə bir nəticə hasil olur ki, Şeyx Sənanın həyat devizi və izlədiyi məslək YÜKSƏLMƏK tendensiyası ilə bağlıdır. Həm əqli, fikri və mənəvi baxımdan, həm də fiziki cəhətdən yüksəlmək eşqi bu qəhrəmanın başlıca idealıdır. Belə bir yüksəliş konsepsiyası

bütövlükdə romantik dramaturgiyanın spesifik cəhətidir. Eyni zamanda, romantik qəhrəmanların məğrurluqları və ölümləri də bilavasitə bu məsələ ilə bağlıdır.

Romantik dramaturgiyanın qəhrəmanları üçün fövqəlbəşər olmaq inamı ən yüksək və əvəzedilməz inamdır. XX əsrin əvvəllərində inqilablar və iğtişaşlar, müharibə və vuruşlar dövrü üçün belə bir ədəbi qəhrəman – aparıcı şəxsiyyət xeyli zəruri görünürdü, hətta zamanın ona böyük ehtiyacı vardı.

Azərbaycan romantizminin poetikasında səciyyəvi amil kimi meydana çıxan xüsusiyyətlərdən biri də zaman və məkan problemidir ki, bu cəhət H.Cavid dramaturgiyası qəhrəmanlarının münasibətləri mövqeyindən təhlil edilmişdir. Şəhər, kənd, oda, saray, zindan, həbsxana, qəfəs, yol, cığır, ağaclar arası romantik dramaturgiyada spesifik məzmun qazanır. Zaman amilini nəzərə alsaq, bütün bunlar romantik qəhrəmanların mənəvi keyfiyyətlərinin, hiss və duyğularının aydınlaşmasında mühüm rol oynayır.

Belə bir cəhət xüsusilə aydınlaşır ki, romantik qəhrəmanların yaradılması bilavasitə romantizmin ŞƏXSİYYƏT konsepsiyası ilə əlaqədardır. Şəxsiyyətin roluna böyük əhəmiyyət vermək, ictimai həyatın gedişində fərdin üstünlüyünə bəraət qazandırmaq, dərin sosial dəyişikliklərin insanların əxlaq və şüur fəaliyyəti ilə baş verəcəyinə inam romantik bədii yaradıcılıqda birbaşa romantik qəhrəmanların simasında reallaşır.

XX əsr Azərbaycan romantizminin bədii xüsusiyyətlərinin meydana çıxarılmasında simvolik-poetik obrazların təhlili də ciddi rol oynamışdır.

Aydındır ki romantizmi simvollarsız təsəvvür etmək mümkün deyildir. Simvolik obrazlara gəlincə isə onları iki qrupa ayırmaq olar: təbiət obrazları və mifoloji obrazlar.

Ayrı-ayrı təbiət vahidləri, o cümlədən gül, çiçək və bir sıra peyzaj əlamətləri romantiklərin əsərlərində öz simvolik örtükləri ilə səciyyəvidirlər. Elə simvolik çalarlar və obrazlar da vardır ki,

onlar romantiklərin yaradıcılığında müəyyən vasitələrlə öz açılışını tapır. Bunun məhz romantizm üçün xas olması mühüm amillərdəndir.

Azərbaycan romantizminin romantik və mifologiya ilə əlaqələri də xeyli genişdir. Folklora aid obrazlar, süjetlər romantiklərin əsərlərində davamlı xətt kimi görünür. "Şeyx Sənan" faciəsinin "Əsli-Kərəm" dastanı ilə müqayisəsindən bəlli olur ki, H.Cavid sözün həqiqi mənasında əfsanəyə əsaslansa belə, el ədəbiyyatı nümunəsindən də xeyli dərəcədə bəhrələnmişdir. Eyni zamanda, onun xalq dramlarından istifadəsi sadəcə olaraq romantik söykənmək yox, daha artıq dərəcədə şifahi ədəbiyyat nümunəsinin bədii əsərin poetikasında yüksək keyfiyyətə çevrilməsi demək idi.

XX əsr Azərbaycan romantiklərinin əsərlərində ayrı-ayrı mifoloji və dini obrazlar da simvolik səciyyəyə malikdir. Pəri, Mələk, İblis obrazlarının ayrıca təhlili bunların romantizm üçün nə qədər doğma obrazlar olması həqiqətini meydana çıxarır. Tamamilə təbii şəkildə əsaslandırılmış qanunauyğun haldır ki, romantizm sənətində mövcud cəmiyyətə etiraz, onunla barışmazlıq xüsusi yer tutur. XX əsr Azərbaycan romantizminin poetikasındakı qarşıdurma məsələləri mövcud cəmiyyətlə sənətkar arasındakı təzadı və ziddiyyəti daha bariz şəkildə əks etdirir.

Ümumiyyətlə, poetik qarşıdurmanın tipləri çoxdur. Azərbaycan romantizmində isə onların, əsasən, üç formasına rast gəlinir: Qərb və Şərq, Yaxın və Uzaq, Həyat və Ölüm.

Qərb və Şərq obrazlarının qarşılaşması müxtəlif təzahür formaları ilə təşəkkül və inkişaf edərək sabitləşmişdir. "Qərb" məfhumunu bəzən "əcanib", "xarici" məfhumları əvəz etmiş, "islam" sözünün rastlaşdığımız məqamlarında isə məhz "Şərq" anlayışı daha ciddi şəkildə meydana çıxmışdır. Bəzən də Qərb və Şərq obrazları əvəzində Paris və İstanbul, onlarda baş verən hadisələr üz-üzə gəlmişdir.

Qərb və Şərq obrazlarının qarşılaşması üç mərhələdən keçmişdir: əvvəlcə Qərbə üstünlük verilmiş, roman Qərb və Şərq bərabər tutulmuş, daha roman isə Şərq ön plana keçmişdir. Bu məsələlər H.Cavidin "Uçurum" pyesində hərtərəfli və dəqiq həllini tapmışdır.

Yaxın və Uzaq obrazlarının qarşıdurma təşkil etməsi isə sanki birinci poetik qarşıdurmanın davamı kimi meydana çıxmışdır. Yəni Qərbdə öz istədiklərini tapa bilməyən romantiklər daha uzaqlara üz tutmaq məcburiyyəti qarşısında qalmışlar.

Romantik poetikada Yaxın və Uzaq obrazlarını təmsil edən bədii vahidlərin dəqiq ünvanı və işlənmə miqyası, onların sənətkar fikrinin açılışındakı rolu və əhəmiyyəti bütün aydınlığı ilə göstərilir. Yer, Göy, Dağ, Dəniz, Ay, Günəş, Ulduz kimi obrazların romantiklərin əsərlərindəki işlənmə məhsuldarlığı, onların həm eybəcərliyə, çirkinliyə, ədalətsizliyə qarşı etiraz, həm də azadlıq, xoş gələcək duyğularını ifadə etmək funksiyaları səciyyələndirilir.

"Həyat və Ölüm" qarşıdurması da maraqlı olmaqla bərabər, romantizmin fəlsəfi mahiyyətini də aşkara çıxarır.

Romantiklərin yaradıcılığında müşahidə olunan "məzar, "mədfən", "kəfən" və sair ifadələr birbaşa ölümün atributları olsalar belə, onların özündə də romantik şeirin həyatla bağlı motivləri əksini tapmışdır.

Romantik obrazların bəzən ölümə qarşı çıxış etmələri, bəzən də ölüm istəmələri romantik bədii əsərlərin poetikasının spesifik cəhətlərindəndir. Həmçinin belə bir ikili xarakter ziddiyyət və təzaddan çox, sənətkarların fəlsəfi axtarışları ilə əlaqədar idi. Məhz bunun nəticəsidir ki, M.Hadi şeirlərində obrazların bir çoxu yaşayır, ölür və hətta dirilirlər.

Həyat və Ölüm arasındakı bəzi amillər də ciddi əhəmiyyət kəsb edir. Bunlardan ikisi daha xarakterikdir: Xəstəlik və Kədər. Birinci səbəb o qədər də spesifik səciyyə daşımaya bilərdi, lakin

romantiklərin vərəm xəstəliyindən xüsusilə danışmaları poetikada özünəməxsusluğa gətirib çıxarır. Kədər isə romantizmin dünya kədəri konsepsiyası ilə eyniyyət təşkil edərək, Həyat və Ölüm qarşıdurmasında aralıq zonasının ən mühüm faktına çevrilir.

XX əsr Azərbaycan romantizmi işıqlı gələcəyə doğru üz tutan romantizmdir. Onun görkəmli nümayəndələri istər qəhrəman axtarışlarında, istərsə də simvolik-poetik obrazların yaradılışı ilə mövcud cəmiyyətə daha ciddi etirazlarında xoş günlər və azad yaşayışa can atır, mütləq, yaxud ideal həqiqət uğrunda mübarizə aparırdılar. Belə bir estetik qayə isə romantizmin poetikasında kifayət qədər dəqiq və mükəmməl formada öz ifadəsini tapmışdır.

***1985***

# ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abdullayev C. (1980). Səməd Vurğunun poetikası. Bakı, Yazıçı.
2. Ağayev İ.( 1985). "Molla Nəsrədin"in poetikası. Bakı, Elm.
3. Alışanov Ş. (1981). XX əsr Azərbaycan romantizminin tədqiqi məsələləri. Nam.diss. Bakı.
4. Axundov M.F. (1961). Əsərlər. II c., Bakı, Azərb SSR EA nəş.
5. Axundov M.F. (1982). Komediyalar. Bakı, Yazıçı.
6. Axundov S.S. (1975). Hekayələr və pyeslər. Bakı, Gənclik.
7. Azərbaycan ədəbiyyatı tarixi. (1960.). II c., Bakı Azərb. SSR. EA nəşriyyatı.
8. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Xalq ədəbiyyatı. (1982). Bakı, Elm.
9. Azərbaycan məhəbbət dastanları. (1979). Bakı, Elm.
10. Babayev N. (1985). Füzuli və XX əsr Azərbaycan romantizmi. Nam.diss. Bakı.
11. Bəktaşi İ. (1984) Abdullabəy Divanbəyoğlu. Bakı, Yazıçı.
12. Cavid H. (1926). Peyğəmbər, Bakı.
13. Cavid H. Seçilmiş əsərləri. (1958). Bakı, Azərnəşr.
14. Cavid H. Seçilmiş əsərlər (üç cilddə). (1968-1971). Bakı, Azərnəşr.
15. Cavid H. Əsərləri (dörd cilddə). I cild, (1982). Bakı, Yazıçı.
16. Cavid H. Əsərləri (dörd cilddə). II cild, (1982). Bakı, Yazıçı.
17. Cavid H. Əsərləri (dörd cilddə). III cild, (1984). Bakı, Yazıçı.
18. Cavid H. Əsərləri (dörd cilddə). IV cild, (1985). Bakı, Yazıçı.
19. Cavid H., Şaiq A. (1919). Ədəbiyyat dərsləri. Bakı.
20. Cavid H. (1912). Mirzə Abdulla Məhəmmədzadə, yaxud A.Sur və ya Abdulla Tofiq. "İqbal" qəzeti, 16 may, № 61.

21. Cavid H. (1915). Müharibə və ədəbiyyat. "Açıq söz" qəzeti, 25 oktyabr.
22. Cavid H. (1916). "Ölülər" haqqında təəssürat. "Açıq söz" qəzeti, 1 may, №173.
23. C.C. (1922). Sənət və ədəbiyyat. "Zəhmət" qəzeti, 5 iyun.
24. Cəfər. C.( 1968). Əsərləri. I c., Bakı, Azərnəşr.
25. Cəfər M. (1958). H.Cavid və XX əsr Azərbaycan romantizmi. Dok.diss. Bakı.
26. Cəfər M. (1960). Hüseyn Cavid. Bakı, Azərnəşr.
27. Cəfər M. (1963). Azərbaycan ədəbiyyatında romantizm. Bakı, Azərb. SSR EA nəşriyyat.
28. Cəfər M. (1974). Seçilmiş əsərləri. II c, Bakı, Azərnəşr.
29. Cəfər M. (1942). Səni kim unudar? – "Ədəbiyyat qəzeti", 28 oktyabr.
30. Cəfər M. (1969). Klassik romantizm ənənələrinə münasibətimiz. "Azərbacan" jurnalı, №11.
31. Cəfər M. (1982). Zəngin yaradıcılıq yolu. "Azərbaycan" jurnalı, №11, s15-24.
32. Divanbəyoğlu A. (1981). Can yanğısı. Bakı, Yazıçı.
33. Əfəndiyev T. (1985). Hüseyn Cavidin ideyalar aləmi. Bakı, Yazıçı.
34. Əhmədov Ə. (1981). M.Ə.Sabirin poetikası. Nam.diss. Bakı.
35. Z. (1977). Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı, Elm.
36. Əlioğlu M. (1975). Hüseyn Cavidin romantizmi. Bakı, Azərnəşr.
37. Əliyev K. (1985). XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm.
38. Füzuli M. (1958). Əsərləri. II c., Bakı, Azərb. SSR EA nəşriyyatı.
39. Hadi M. (1908). Şükufeyi-hikmət. Bakı, Yazıçı.
40. Hadi M. (1978). Seçilmiş əsərləri. I c., Bakı, Elm.
41. Hadi M. (1905). Bəyani-həqiqət. "Həyat" qəzeti, 24 iyul.

42. Hadi M. (1906). Bəyani-təsəvvür fi xüsusil-lisan. “Həyat” qəzeti, 20 yanvar.
43. Hadi M. (1906). Zaman daima təcəddüd edir. “Həyat“ qəzeti, 26 yanvar.
44. Hadi M. (1906). Vətənimizin Temisbokl və Aristidlərinə nəsihət. “Həyat” qəzeti, 1 iyun.
45. Hadi M. (1906). Evladi vətən baisi imrani-vətəndir. ”Həyat”, qəzeti, 12 iyul, № 152.
46. Hadi M. (1906). Elmi-əbdanə bir nəzər. “Həyat” qəzeti, 3 sentyabr.
47. Hadi M. (1906). Məmməd Səid Ordubadi cənablarına açıq məktub. “Tazə həyat“ qəzeti, 23 sentyabr.
48. Hadi M. (1907). Teatr nədir? – Ayineyi-həyatdır. “Tərəqqi qəzeti, 24 iyul.
49. Hadi M. (1908). İctimai çaqqallara qarşı aslan ürəkli durmalıyız. “Tərəqqi” qəzeti, 29 iyul.
50. Hadi M. (1908). Osmanlı mətbuatında parlaqlıq. “Tazə həyat” qəzeti, 11 sentyabr.
51. Hadi M. (1909). Xurafat içində həqiqət. “Səda” qəzeti, 9 yanvar.
52. Hadi M. (1910). Qəzetlərimiz, mühərrirlərimiz. “Səda” qəzeti. 18 yanvar.
53. Hadi M. (1911). Ədəbiyyat müştaqlarına bir bəşarət. “Səda” qəzeti, 13 iyul, №90.
54. Hadi M. (1914). Türklərin illik səltənəti. “İqbal” qəzeti, 28 fevral.
55. Hadi M. (1914). Həzrəti-Xəyyamın şeirlərini tərcüməyə cürət ediyorum. “İqbal” qəzeti, 24 mart.
56. Hadi M. (1914). “M.M” imzalı məktub sahibinə. “İqbal” qəzeti, 3 avqust.
57. Hadi M. (1914). Seyid Əzim və asarı. “İqbal” qəzeti, 14 avqust.

58. Hadi M. (1919). Xurafat içində həqiqət. “Səda” qəzeti, 7 yanvar.
59. Hadi M. (1909). Pərdə dalında nələr varmış. “Tərrəqqi” qəzeti. 7 iyun.
60. Hacıbəyov Ü. (1985). Seçilmiş əsərləri. Bakı, Yazıçı.
61. Haqverdiyev Ə. (1974). Əsərləri. II c., Bakı, Azərnəşr.
62. Həbibov İ. (1984). Romantik lirikanın imkanları. Bakı, Yazıçı.
63. Hüseyn S. (1919). Açıq tənqid. “Azərbaycan” qəzeti, 17 avqust.
64. “Hüseyn Cavidin anadan olmasının 100 illiyi Haqqında” qərar. “Kommunist” qəzeti, 21 iyul 1981.
65. Xəlil İbrahim. (1921). Ədəbiyyat şərarələri. “Kommunist” qəzeti, 1-2 dekabr.
66. Xəndan R.Z. (1966). XX əsr Azərbaycan romantizminin estetik prinsipləri. Nam. Diss. Bakı.
67. Xəndan R.Z. (1981). Cavid sənəti. Bakı.
68. İbadoğlu Ə. (1969). Hüseyn Cavidin “İblis” faciəsi. Bakı, Azərnəşr.
69. İbadoğlu Ə. (1976). Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının qaynaqları haqqında. “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalı, №4, s.65-70.
70. İsmayılov Ə. (1883). Dünya romantizm ənənələri və H.Cavid. Bakı, Yazıçı.
71. İsmayılov Ə. (1974). Hüseyn Cavidin dramları. Nam.diss. Bakı.
72. İsrafilov H. (1979). Tarixi dramlarda müasirlik problemi. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, Elm.
73. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. (1979). Bakı, Elm.
74. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. (1985). Bakı, Elm.
75. Kazımov A. (1984). “Şeyx Sənan”. “Bakı” qəzeti, 12 yanvar.

76. Qarayev Y. (1965). Faciə və qəhrəman. Bakı, Azərb. SSR EA nəşriyyatı.
77. Qarayev Y. Cavid: sənətkar və tarix "Azərbaycan" jurnalı, №8, s. 180-188.
78. Qarayev Y. (1984). Əsrin romantiki. "Bakı" qəzeti, 7 iyul.
79. Qarayev Y. (1985). Hüseyn Cavidin poeziyası. - XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, Elm, s. 101-119.
80. Quliyev M. (1926). Hazırki türk ədəbiyyatı haqqında. "Kommunist" qəzeti, 7 dekabr.
81. Quluyev M. (1926). H.Cavidin "Topal Teymur"u haqqında. "Maarif və mədəniyyət" jurnalı, №10-11.
82. Məmmədquluzadə C. (1984). Əsərləri.II c., Bakı, Azərnəşr.
83. Məmmədli Q. (1982). Cavid ömrü boyu. Bakı, Yazıçı.
84. Məmmədli Q. (1983). İblisin prototipi kimdir? "Bakı" qəzeti,11 yanvar.
85. Məmmədov Ə. (1983). Abdulla Şaiq. Bakı, Gənclik.
86. Məmmədov K. (1970). Ə.Haqverdiyev. Bakı, Gənclik.
87. Məmmədov K. (1963). Nəcəfbəy Vəzirov. Bakı, Azərb. SSR. EA nəşriyyatı.
88. Məmmədov M. (1983). Acı fəryadlar, şirin arzular. Bakı, Gənclik.
89. Mirəhmədov Ə. (1947). M.Hadinin həyat və yaradıcılığı (18791920), Nam.diss. Bakı.
90. Mirəhmədov Ə. (1983). Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, Maarif.
91. Mirəhmədov Ə. (1962). Məhəmməd Hadi. Bakı, Uşaqgəncnəşr.
92. Mirəhmədov Ə. (1985). Məhəmməd Hadi. Bakı, Yazıçı.
93. Mirəhmədov Ə. (1946). Məhəmməd Hadinin "Şərq ilə Qərbi müqayisə" əsəri. SSRi EA Azərbaycan filialının xəbərləri, №5.

94. Mirəhmədov Ə. (1978). Azərbaycan romantizminin görkəmli nümayəndəsi. M.Hadi. Seçilmiş əsərləri, I c., Bakı, Elm, s.V-XIII.
95. Nəbiyev B. (1983). "İblis". "Ədəbiyyat və incəsənət" qəzeti. 8 aprel.
96. Nəbiyev V. (1984). XX əsr Azərbaycan nəsrinin əsas üslub istiqamətləri. Nam.diss. Bakı.
97. Osmanlı V. (1985). Azərbaycan romantikləri. Bakı, Yazıçı.
98. Paşayev Mir Cəlal. (1946). Azərbaycan ədəbi məktəbləri (1905-1917). Dok. diss. Bakı.
99. Sabir M.Ə. (1960). Hophopnamə. Bakı, Azərnəşr.
100. Saləddin Əli. (1982). Azərbaycan şeiri və folklor ( XIX-XX əsrlər). Bakı, Elm.
101. Seyidov M. (1983). Mifik təfəkkürün qaynaqları. Bakı, Yazıçı.
102. Səhhət A. (1975). Əsərləri (iki cilddə). I cild, Bakı, Azərnəşr.
103. Səhhət A. (1976). Əsərləri (iki cilddə). II cild, Bakı, Azərnəşr,.
104. Səhhət A. (1912). Sınıq saz. Bakı.
105. Sovet ədəbiyyatşünaslığının aktual problemləri. (1974). Bakı, Elm.
106. Sultanlı Ə. (1964). Azərbaycan dramaturgiyasının inkişaf tarixindən Bakı, Azərnəşr.
107. Sultanlı Ə. (1982). Hüseyn Cavidin faciələri. "Cavidi xatırlarkən". Bakı , Gənclik.
108. Sur A. (1906). Kiş deyirsən getməyir, vurursan ölür. "İrşad" qəzeti, №31.
109. Sur.A. (1906). Xoruzun quyruğu görünməyə başladı. "İrşad" qəzeti, №53..
110. Sur A. (1906). Yol məktubları. "İrşad" qəzeti, 13 mart, № 66
111. Sur A. (1906). Yol məktubları (Bakıda 7 gün). "İrşad" qəzeti, 8 iyul, №134.

112.Sur A. (1906). Vladiqafqazda beş saat. “İrşad” qəzeti. 11 sentyabr, №152.
113.Sur A. (1907). Füzuliyə bir nəzər. “Füyuzat” jurnalı, , №30
114.Sur A. (1909). Nəfiyə bir nəzər. “Həqiqət” qəzeti, №2.
115.Sur A. (1909). Boğaz içində Günəş doğarkən. “Tərəqqi” qəzeti, №85
116.Sur A. (1909). Günəş doğduqdan sonra. “Tərəqqi” qəzeti, № 97.
117.Sur A. (1909). Böyük adada Günəş batar, Ay doğarkən. “Tərəqqi” qəzeti, №106.
118.Sur A. (1910). Püsgüllü ulduz. “Həqiqət” qəzeti, № 103.
119.Sur A. (1910). Əcəb, bu söz şeirmi? “Həqiqət”, qəzeti, № 105.
120.Sur A. (1910). Neçin, nədən? “Həqiqət qəzeti”, № 123.
121.Sur A. (1911). Sərnigün ümidlər. “Yeni irşad” qəzeti, № 14.
122.Sur A. (1911). Fövheyi-şeir. “Yeni irşad“ qəzeti, 9 senyabr.
123.Şaiq A. (1912). Gülzar. Bakı.
124.Şaiq A. (1966). Əsərləri (beş cilddə). I cild, Bakı, Azərnəşr.
125.Şaiq A. (1968). Əsərləri (beş cilddə). II cild, Bakı, Azərnəşr.
126.Şaiq A. (1972). Əsərləri (beş cilddə). III cild, Bakı, Azərnəşr.
127.Şaiq A. (1977). Əsərləri (beş cilddə). IV cild, Bakı, Azərnəşr.
128.Şaiq A. (1978). Əsərləri (beş cilddə). V cild, Bakı, Azərnəşr.
129.Şərif Ə. (1977). Keçmiş günlərdən. Bakı, Azərnəşr.
130.Şərq xalqlarının lətifələri. (1982). Bakı, Yazıçı.
131.Talıbzadə Abdulla Şaiq. (1923). Bakı.
132.Talıbzadə K. (1949). Abbas Səhhət (həyat və yaradıcılığı). Nam.diss. Bakı.
133.Talıbzadə K. (1955). Abbas Səhhət. Bakı, Azərb. SSR EA nəşriyyatı.
134.Talıbzadə K. (1985). Abbas Səhhət. Bakı, Yazıçı.
135.Talıbzadə K. (1984). Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, Maarif.

136.Təhmasib M.H. (1972). Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm.
137.Vahabzadə B. (1976). Sənətkar və zaman. Bakı, Gənclik.
138.Vəzirov N.B. (1977). Əsərləri. Bakı, Elm.
139.Vəlixanov N. (1983). Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı, Elm.
140.Zamanov A. (1973). Sabir və müasirləri. Bakı, Azərnəşr.
141.Zamanov A. (1982). Tənqidi realistlərlə bir cəbhədə. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 oktyabr.
142.Zeynallı H. (1983). Seçilmiş əsərləri. Bakı, Yazıçı.
143.Zəka R. (1967). Məhəmməd Hadinin fəlsəfi və bədii idrak prinsipləri. S.M Kirov adına ADU-nun Elmi Əsərləri (tarix və fəlsəfə seriyası), №1.

## Rus dilində

144.Алькаева Л.О. (1959). Очерки по истории турецкой литературы (1908-1939) М., Изд-во АН СССР.
145.Аникин Г.В., (1985). Михальская Н.П. История английской литературы. М., Высшая школа.
146.Араслы Г. (1966). Тофик Фикрет и Азербайджанская литература. М.
147.Акперов З. (1982). Выдающийся поэт-философ. "Вышка" гэзети, 23 октября.
148.Алексеев М.П. (1978). Чарльз Роберт Метьюрин и русская литература. От романтизма к реализму. Л. Наука.
149.Антопянский Н.А. (1966). Л.В. Луначарский об истоках романтизма. Ученые записки Томского Государственного Университета им. В.В. Куйбышева, № 62, с.32-46.
150.Архипов А.В. (1978). Историческая трагедия эпохи романтизма. Русский романтизма. Л., Наука.

151. Аскин Я.Ф. (1979). Категория будущего и принципы ее воплощения в искусстве. Ритм, пространство и время. М., Наука.
152. Агаев И. (1983). Сатирический журнал "Молла Насреддин" и проблемы идейно-художественного развития Азербайджанской литературы начала XX века. Баку.
153. Аринина Л.М. (1982). Концепция личности в поэзии Ф.Н.Тютчева. М.
154. Бахтин М. (1979). Проблемы поэтики Достоевского. М., Советская Россия.
155. Бахтин М. (1965). Творчество Франсуа Рабле и народная культура средневековья и ренессанса. М., Художественная литература.
156. Бамбат Наджм уд-Дин. (1983). Концепция пространство в исламском мире. Культуры, №1, с. 40-58.
157. Белинский В.Г. Поли. сбр. соч., в тринадцати томах. Изд-во АН СССР, т. VI.
158. Берковский Н.Я. (1979). Романтизм в Германии. Л.
159. Беланюк А.Г. (1980). Жанр драматической поэмы в творчестве романтиков. Проблемы романтического метода и стиля. Калинин, КГУ, с.66-74.
160. Бестужев А.А (1978). О романизме. Литературно-критические работы декабристов. М., Художественная литература, с. 79-82.
161. Ванслов В.В. (1966). Эстетика романтизма. М., Искусство.
162. Взаимосвязь искусств в художественном развитии России второй половины XIX века. (1982). М., Наука.
163. Веселовский А.Н. (1940). Историческая поэтика. Л., Художественная литература.
164. Веденяпина Э.А. (1972). Романтический герой в поэмах И.И. Козлова. О традициях и новаторстве в литературе и

устном народном творчестве. Вып. II. Уфа.
165.Виноградов В. (1941). Стиль прозы Лермонтова. Литературное наследство. т.43-44-М.
166.Виноградов В.В. (1963). Стилистика. Теория поэтической речи. Поэтика. М., Изд.во АН ССС.
167.Волков И.Ф. (1978). Творческие методы и художественные системы. М., Искусство.
168.Гаджиев А.А. (1972). Романтизм и реализм. Баку, Элм.
169.Гадижев А.А. (1980). Азербайджанский романтизм (некоторые сравнительно - типологические наблюдения) Проблемы романтического метода и стиля. Калинин, КГУ.
170.Гаджиев А.А. (1963). Концепция “идеальной поэзии” в эстетике В.Г. Белинского. Вопросы романтизма в русской литература. Изд-во Казанской Университета.
171.Гаранов К. (1970). Художественный образ и его историческая жизнь. М., Наука, III с.
172.Гинзбург Л. (1979). О литературном герое. М., Советский писатель.
173.Гуревич А.М. (1980). Романтизм в русской литературе. М., Просвещение.
174.Гюго В. (1956). Собрание сочинений. в. 15-ти томах, Т. XIV. М.
175.Гей Н.К. (1959). К вопросу об определении реализма. Проблема реализма в мировой литературе. М.
176.Гей Н.К. (1982). Художественной образ как категория поэтики. Контекст, М. Наука.
177.Гинзбург Л.Я. (1962). Пушкин и лирический герой русского романтизма. Пушкин. Исследования и материал. т. 4. М., Л.
178.Губер А. (1914). Структура поэтического символа. Художественная форма. М.

179. Гуляев Н.А. (1974). Социально-эстетическая и гнесеологическая сущность романтизма. Русский романтизм, М.
180. Гуляев Н.А (1969). Типологические черты художественного мышления романтиков. Вопросы романтизма. Вып. IX. Изд-во Казанского Университета.
181. Гусейнова С. (1982). Поэт-патриот, поэт – интернационалист. “Баку” гэзети, 23 октябрь.
182. Джафаров. М. (1972). Романтизм о его соотношения с другими творческими методами в азербайджанской литературе XX века. Проблемы реализма в литературах Советского Востока (тезиси докладов). Баку, Элм.
183. Долин А.А. (1978). Японский романтизм и становление новой поэзии. М., Наука.
184. Дьяконова Н.Я. (1978). Английский романтизм. М., Наука.
185. Европейский романтизм. (1973). М., Наука.
186. Егоров Б.Ф. (1979). Категория времени в русской поезии XIX века. Ритм, пространство и время. Наука.
187. Ермолова И.Ш. (1955). Проблема героя в декабристской литературе. Ученые записки. МЕЛИ, , т.237.
188. Исрафилов Е.А. (1985). Проьлемы развития Азербайджанской драматургии. Баку.
189. Жирмунский В.М. (1978). Байрон и Пушкин. Л.
190. Жордания С. (1982). Творческое развитие символа. Тбилиси, Мерани.
191. Зингерман Б. (1982). Пространство в пьесах Чехова. Взаимосвяз искуств в художественном развитии России второй половины XIX века, М., Наука.
192. История романтизма в русской литературе. (1979). М.
193. Караев Я. (1982). Гусейн Джавид. Баку.
194. Кравцов Н.И. (1972). Проблемы славянского фольклора. М., Наука.

195.Каган М.С. (1974). Пространство и время в искусстве как проблема эстетический науки. Ритм, пространство и время а литературе и искусство. Л.,Наука.
196.Капунова Ф., Янушкевич А. (1965). Своеобразие романтической эстетики и критики В.А.Жуковского. В.А.Жуковский.Эстетика и критика. М., Искусства.
197.Кателина Л.С. (1980). Семантико-стилистические функции эпитетов в романтических поемах Пушкина и Лермонтова. Поэтика литературы и фолкьлора. Воронеж.
198.Кедровский А.Е. (1964). Богоборческие мотивы в философской лирике Лермонтова. Ученые записки МЕПИ, № 213.
199.Корман Б.О. (1978). Лирика Некрасова. Ижевск, Изд-во Удмуртия.
200.Корман Б.О. (1972). Заметки о проблеме автора. Проблема автора в художественной литературе. Воронеж, с. 41-60.
201.Корниенко Н.Г. (1976). Проблема поэта и поэзии в творчестве В.А.Жуковского. Анализ художественного произведения, Воронеж, т. 161.
202.Козубовская Г.П. (1980). Лирика Баратынского и проблемы творчества. Л.
203.Корниенко Н.Г. (1978). К вопросу эволюции романтизма В.А.Жуковского. Львов.
204.Коровин В.И. (1982). Лирические лиро-эпические жанры в художественной системе русского романтизми. М.
205.Лихачев Д.С. (1971). Поэтика древнерусской литературы. Л., Художественная литература.
206.Лихачев Д.С. (1979). Поэтика древнерусской литературы. Л., Наука.
207.Лосев А.Ф. (1976). Проблемы символа и реалистическое искусство. М., Наука.

208.Лотман М.Ю. (1985). Проблема Востока и запада. Лермонтовский сборник. Л., Наука.
209.Лотман Ю.М. (1961). Просветительство и реализм. Проблемы русского просвещения в литератур XVIII века. М-Л., Изд-во АН СССР.
210.Лейтес Н.С. (1980). О художественной функции, противопоставления "Жизнь-смерть" (живое-мертвое) в литературе нового времени (на материале немецкой литературы). Поэтика литературы и фольклора. Воронеж, Изд-во Воронежского Университета.
211.Маймин Е.А. (1975). О русском романтизме. М.
212.Манн Ю.В. (1978). Поэтика Гоголья. М., Художественная литература.
213.Манн Ю.В. (1977). Поэтика русского романтизма. М., Наука.
214.Мелетинский Е.М. (1976). Поэтика мифа. М., Наука.
215.Неупокоева И.Г. (1971). Революционно-романтическая поэма (первой половины XIX века), М., Наука.
216.Неупокоева И.Г. (1959). Революционный романтизм Шелли. М., Художественная литература.
217.Нольман М.Л. (1973). От “Демона” Пушкина к “Демону” Некрасова. К истории русского романтизма. М., Наука.
218.От романтизма к реализму. (1978). Л., Наука.
219.Плеханов Г.В. (1958). Избранные философские произведения. М., Изд-во Социально экономические литературы,. т. 5.
220.Польский романтизма и восточнославянские литературы. (1973). М.
221.Поэтика литературы и фольклора. (1979). Воронеж, Изд. - во Воронежского Университета.
222.Поэтика литературы и фольклора. (1980). Воронеж, Изд-во Воронежского Университета.

223.Проблема автора в художественной литературе. (1967). Т 125. Воронеж, Воронежский ГПИ.
224.Проблема автора в художественной литературе. (1972). т. 125. Воронеж, Воронежский ГПИ.
225.Проблемы романтического метода и стиля. (1980). Калинин, КГУ.
226.Прокофьев Н.И. (1966). Символико-аллегорическая образность в литературе начало XVII века. Ученые записки МГПИ, т.248.
227.Рылеев К.Ф. (1978). Несколько мыслей о поэзии. Литературнокритические работы декабристов. М., Художественная литература.
228.Ритм, пространство и время в литературе и искусстве. (1974). Л., Наука.
229.Розанов И.Н. (1914). Русская лирика. М.
230.Русский романтизм. (1978). Л., Наука.
231.Русский романтизм. (1974). М., Высшая школа.
232.Сакулин П.Н. (1914). Земля и небо в поэзии Лермонтова. Венок М.Ю. Лермонтову. М., - Пг.
233.Соколов А.Н. (1967). К спорам о романтизме. Проблемы романтизма. М., Искусство.
234.Славгородская Л.В. (1982). Гофман и романтическая концепция приподы. Художественные мир Т.А.Гофмана. М., Наука.
235.Сопрыкина Е. (1973). Некоторые особенности романтической теории драмы. Европейский романтизм. М., Наука.
236.Текст: Семантика и структура. (1983). М., Наука.
237.Типологические исследования по фольклору. (1975). М, Наука.
238.Турбецкой Б.А. (1956). Проблема положительного героя в русской литературе 20-50-х г. XIX века. Ученые

записки Кишиневский Государственный Университет, т.XXX1.

239. Турчин В.С. (1981). Эпоха романтизма в России. М., Искусство.
240. Усок И. (1964). Герой лирики Лермонтова. Творчество М.Ю.Лермонтова 150 лет со дня рождения. М., Наука.
241. Фридлендер Г.М. (1971). Поэтика русского романтизма. Л, Наука.
242. Фридман Н.В. (1971). Поэзия Батюшкова. М., Наука.
243. Фишер В.М. (1914). Поэтика Лермонтова. Венок М.Ю. Лермонтову. М., Пг.
244. Хорват К. (1973). Романтические воззрения на природу. Европейский романтизм. М., Наука.
245. Шаталов С.Е. (1979). Романтизм Жуковского. История романтизм в русской литературе. М., Наука.
246. Юсуфов Р.Ф. (1970). Русский романтизм начало XIX века и национальные культуры. М., Наука.

# ADLAR GÖSTƏRİCİSİ

## Azərbaycan dilində

**1.** Abdullayev C. 12.
**2.** Ağayev İ. 12.
**3.** Alışanov Ş. 11.
**4.** Axundov M.F. 194, 195, 217, 219, 220, 225, 226.
**5.** Axundov S.S. 98.
**6.** Babayev N. 287.
**7.** Bəktaşi İ. 12.
**8.** Cavid H. 5, 11-13, 56, 91, 104, 105, 107, 122, 152, 161, 203, 213, 216, 218, 220, 222, 227.
**9.** Cəfərov. C. 10, 11, 56, 103, 207, 242, 249.
**10.** Cəfər M. 3, 10-13, 86, 103, 160, 182, 189, 194, 213.
**11.** Divanbəyoğlu A. 5, 6, 11, 18-32, 35, 36, 38, 39, 230, 232, 246, 253
**12.** Əfəndiyev T. 12, 110.
**13.** Əhmədov Ə. 12.
**14.** Əkbərov Z. 12, 113, 182.
**15.** Əlioğlu M. 12, 109, 191.
**16.** Əliyev K. 3, 4, 11.
**17.** Füzuli M. 211, 239, 255.
**18.** Hadi M. 5, 10, 15, 56, 89, 153, 213, 255, 249, 260, 262, 263, 267, 277.
**19.** Hacıbəyov Ü. 98, 242.
**20.** Haqverdiyev Ə. 220, 231, 266.
**21.** Həbibov İ. 11, 239.
**22.** Hüseyn S. 8.
**23.** Xəlil İbrahim. 8.
**24.** Xəndan R.Z. 11, 191.
**25.** İbadoğlu Ə. 12, 173, 191.
**26.** İsmayılov Ə. 11, 12.

**27.** İsrafilov H. 276.
**28.** Kazımov A. 115.
**29.** Qarayev Y. 12, 14, 91, 102, 115, 122, 185, 266.
**30.** Quliyev M. 8.
**31.** Nəbiyev B. 192.
**32.** Nəbiyev V. 12.
**33.** Məmmədquluzadə C. 220, 222.
**34.** Məmmədli Q. 191, 192.
**35.** Məmmədov Ə. 11, 12, 15, 115, 181, 206.
**36.** Məmmədov K. 100, 266.
**37.** Məmmədov M. 14.
**38.** Mirəhmədov Ə. 11, 12, 15, 16, 46, 89, 129, 171, 195, 207, 210, 221, 268, 274.
**39.** Osmanlı V. 11, 114, 115.
**40.** Paşayev Mir Cəlal. 11.
**41.** Sabir M.Ə. 61, 79, 98, 199-201, 220, 261, 262.
**42.** Saləddin Əli. 178, 33
**43.** Seyidov M. 188.
**44.** Səhhət A. 5, 11, 13, 39, 40, 47, 55, 56, 86, 87, 89, 154, 156, 168, 175, 196, 198, 200-202, 205, 206, 223, 225, 230, 237, 239, 252, 258-261, 278, 293.
**45.** Sultanlı Ə. 12, 115, 178.
**46.** Sur A. 5, 6, 18, 19, 64, 161, 162, 222, 223, 242, 243, 246, 249.
**47.** Şaiq A. 5, 22, 32, 57
**48.** Şərif Ə. 157, 158.
**49.** Talıbzadə K. 11, 13, 87, 89, 159, 163, 168, 252.
**50.** Təhmasib M.H. 183.
**51.** Vahabzadə B. 196.
**52.** Vəzirov N.B. 226, 266.
**53.** Vəlixanov N. 294.
**54.** Zamanov A. 3.

**55.** Zeynallı H. 9, 10, 108, 114.
**56.** Zəka R. 11, 66, 191.

**Rus dilində**

**57.** Алькаева Л.О. 159.
**58.** Аникин Г.В. 294.
**59.** Араслы Г. 271.
**60.** Акперов З. 115.
**61.** Алексеев М.П. 192.
**62.** Антопянский Н.А. 155.
**63.** Архипов А.В. 147.
**64.** Аскин Я.Ф. 294.
**65.** Агаев И. 295.
**66.** Аринина Л.М. 236.
**67.** Бахтин М. 12, 145, 277.
**68.** Бамбат Наджм уд-Дин. 295.
**69.** Белинский В.Г. 295.
**70.** Берковский Н.Я. 295.
**71.** Беланюк А.Г. 295.
**72.** Бестужев А.А. 295.
**73.** Ванслов В.В. 295.
**74.** Веселовский А.Н. 163.
**75.** Веденяпина Э.А. 295.
**76.** Виноградов В. 295, 296.
**77.** Волков И.Ф. 296.
**78.** Гаджиев А.А. 12, 62, 116, 190.
**79.** Гаранов К. 7.
**80.** Гинзбург Л. 89, 92, 120.
**81.** Гуревич А.М. 230, 240.
**82.** Гюго В. 296.

**83.** Гей Н.К. 7.
**84.** Губер А. 171.
**85.** Гуляев Н.А. 155.
**86.** Гусейнова С. 109.
**87.** Джафаров М. 297.
**88.** Долин А.А. 153.
**89.** Дьяконова Н.Я. 297.
**90.** Егоров Б.Ф. 297.
**91.** Ермолова И.Ш. 297.
**92.** Исрафилов Е.А. 147.
**93.** Жирмунский В.М. 297.
**94.** Жордания С. 297.
**95.** Зингерман Б. 216.
**96.** Караев Я. 12.
**97.** Кравцов Н.И. 174.
**98.** Каган М. С. 297.
**99.** Канунова Ф., 245.
**100.**Янушкевич А. 245.
**101.**Кателина Л.С. 298.
**102.**Кедровский А.Е. 298.
**103.**Корман Б.О. 264.
**104.**Корниенко Н.Г. 298.
**105.**Козубовская Г.П. 298.
**106.**Коровин В.И. 298.
**107.**Лихачев Д.С. 12, 120, 153, 160, 277.
**108.**Лосев А.Ф. 298.
**109.**Лотман М.Ю. 213, 234.
**110.**Лейтес Н.С. 251.
**111.**Маймин Е.А. 299.
**112.**Манн Ю.В. 6, 12, 140, 159, 246.
**113.**Мелетинский Е.М. 12, 253.
**114.**Неупокоева И.Г. 41, 273.

**115.**Нольман М.Л. 192.
**116.**Плеханов Г.В. 155.
**117.**Прокофьев Н.И. 165.
**118.**Рылеев К.Ф. 300.
**119.**Розанов И.Н. 252.
**120.**Сакулин П.Н. 116, 193.
**121.**Соколов А.Н. 300.
**122.**Славгородская Л.В. 166.
**123.**Сопрыкина Е. 300.
**124.**Турбецкой Б.А. 300.
**125.**Турчин В.С. 301.
**126.**Усок И. 301.
**127.**Фридлендер Г.М. 12.
**128.**Фридман Н.В. 89, 157.
**129.**Фишер В.М. 228.
**130.**Хорват К. 164.
**131.**Шаталов С.Е. 306.
**132.**Юсуфов Р.Ф. 301.



**Kamran Əliyev "Ədəbi tənqid tarixi" şöbəsində (1981)**



**Kamran Əliyev "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin əməkdaşları ilə (1982)**



**Kamran Əliyev "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin əməkdaşları ilə (1982)**



**Kamran Əliyev "İşıqlı yol" qəzetinin redaksiyasında (1983)**



**Kamran Əliyev "Xalq qəzeti" redaksiyasında prof. Əziz Şəriflə görüş zamanı (24 oktyabr 1983)**



**Kamran Əliyev prof. Əziz Şəriflə (24 oktyabr 1983)**



**Kamran Əliyev (1988)**



ДИПЛОМ
ДОКТОРА НАУК
ДТ № 004674
Москва

Решением
Высшей аттестационной комиссии
при Совете Министров СССР
от 11 ноября 1990 г. (протокол №
Алиеву Камрану Имран оглы
присуждена ученая степень
ДОКТОРА
филологических наук

Председатель
Высшей аттестационной комиссии
Главный ученый секретарь
Высшей аттестационной комиссии

**Filologiya elmləri doktoru (1990)**

## MÜNDƏRİCAT

**Nəzəriyyə yüklü folklorşünas ........................................ 3**
**Giriş ..................................................................................... 5**
**I HİSSƏ. ROMANTİK QƏHRƏMAN**
I FƏSİL. NƏSRDƏ VƏ POEZİYADA ROMANTİK QƏHRƏMAN ............................................................... 18
Romantik nəsrin qəhrəmanları ...................................... 18
Lirik qəhrəman .............................................................. 39
II FƏSİL. DRAMATURGİYADA ROMANTİK QƏHRƏMAN ……………………………………… 91
1. Romantik qəhrəmanın hərəkəti ……………………… 92
2. Zaman və məkan…………………………………………….. 120

**II HİSSƏ. SİMVOLİK - POETİK OBRAZLAR**
I FƏSİL. SİMVOLİK OBRAZLAR …………………… 157
1. Təbiət obrazları.................................................... …157
2. Mifoloji obrazlar.......................................................173
II FƏSİL. POETİK QARŞIDURMALAR ...................194
1. Qərb və Şərq ............................................................194
2. Yaxın və Uzaq ..........................................................219
3. Həyat və Ölüm..........................................................245

**NƏTİCƏ** ........................................................................ 280
**ƏDƏBİYYAT**.................................................................. 287
**ADLAR GÖSTƏRİCİSİ** ............................................. 302
**ŞƏKİLLƏR** .................................................................. 307

# KAMRAN İMRAN OĞLU
# ƏLİYEV

# ROMANTİZMİN POETİKASI

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
*professor* **Nadir MƏMMƏDLİ**

Kompüterdə yığdı:
**Aysel Cəfərova**

Korrektoru:
**Gülnar İsmayılova**

**Dizayn: Zahid Məmmədov**

Çapa imzalanmış **17.07.2018.**
Şərti çap vərəqi 19,5. Sifariş **№ 163.**
Kağız formatı **60x84 1/16.** Tiraj **100.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*